Xalqın qəzeti!

# Xalq qəzeti

№ 92 (31061) 26 may 2026-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Azərbaycan dövləti kəndin yüksəlişini və yerli istehsalın artımını davamlı himayə edir

## Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə



**Mayın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib. Dövlətimizin başçısı müşavirədə nitq söyləyib.**

### Prezident İlham Əliyevin nitqi

– Bugünkü müşavirədə biz kənd təsərrüfatının inkişafını müzakirə edəcəyik. Bildiyiniz kimi, bu sahəyə daim çox böyük diqqət göstərilir. Hələ ilk dəfə prezident vəzifəsinə seçiləndən sonra 2004-cü ildə ilk təşəbbüslərimdən biri regional inkişaf proqramı idi və onun da tərkib hissəsi kənd təsərrüfatının inkişafı idi.

2004-cü ilin əvvəlində qəbul edilmiş birinci beşillik proqram bir çox məsələlərin həll edilməsinə kömək göstərdi və biz gördük ki, bu proqramın davamı olmalıdır. Ondan sonra bir neçə beşillik regional inkişaf proqramı qəbul edildi. Bunun nəticəsində bütün regionlar canlandı, regionlarda məşğulluq artdı və böyük infrastruktur layihələri icra edildi. Bu gün bu layihələr olmadan Azərbaycanın ümumi inkişafını təsəvvür etmək mümkün deyil. O cümlədən kənd təsərrüfatının inkişafı üçün bu proqramda nəzərdə tutulmuş infrastruktur layihələri həlledici rol oynamışdı. Çünki o vaxt bölgələrdə demək olar ki, qaz təchizatı yox idi. Elektrik təchizatı ilə nəinki regionlarda, Bakıda böyük problemlər yaşanırdı, hətta böyük fasilələr olurdu. Avtomobil yolları yararsız vəziyyətdə idi. Su ilə təchizat demək olar ki, tamamilə tükənmişdi. Yeni kəndlərin dirçəldilməsi və kəndlərdə yaşayan insanların yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün bu proqramın həlledici rolu olmuşdu. O ildən bu yana bölgələrdə genişmiqyaslı infrastruktur layihələri icra edildi.

Əgər biz azad edilmiş torpaqları istisna etsək, bu gün ölkə üzrə qazlaşmanın səviyyəsi 96 faizdir. Elektrik təchizatı ilə heç bir yerdə heç bir problem yoxdur, nəinki özümüzü təmin edirik, hətta bizim böyük ixrac potensialımız yaradılmışdır. Bir çox magistral, şəhərlərarası və kənd yolları inşa edilmişdir. Böyük su anbarları inşa edilmişdir, ilk növbədə, Taxtakörpü, Şəmkirçay, Göytəpə və digərləri. Kanallar yenidən qurulmuşdur və bu proses davam etdirilir. Bir sözlə, bölgələrin və kənd təsərrüfatının inkişafı çox sürətlə getmişdir. Bunun nəticəsində bir çox istiqamətlər üzrə kənd təsərrüfatı məhsullarının istehsalında böyük artım olmuşdur. Onu da bildirməliyəm ki, bu illər ərzində bir neçə dövlət proqramı qəbul edilmişdir, üzümçülük, pambıqçılıq, fındıqçılıq, sitrusçuluq, digər istiqamətlər üzrə və bu sahələrə böyük təkan verilmişdir.

*(ardı 2-ci səhifədə)*

## İordaniyanın Kralı Əlahəzrət II Abdullah ibn Al Hüseynə

**Əlahəzrət!**

İordaniya Haşimilər Krallığının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir və ən xoş arzularımı çatdırıram.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost İordaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 22 may 2026-cı il**

## Azərbaycanın orta güc statusu: regional liderlik ampluası

*İlham Əliyev siyasəti və dövlətçilik üçün əbədiyyət formulu*



Prezident İlham Əliyev dünən kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədəki çıxışında Azərbaycanın artıq dünyada orta güc kimi tanındığını bildirib və əlavə edib ki, bu məqam bir çox ölkələrin şirkətlərinin müxtəlif sahələrdə respublikamızla əməkdaşlığına stimul yaradır: "Biz, əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradırıq. Ancaq, eyni zamanda, biz xarici şirkətləri bizə lazım olan sahələrə cəlb etməliyik. Ona görə burada səsləndirəcəyim rəqəmlər həm yerli, həm xarici investorlara bir mesajdır".

*(ardı 12-ci səhifədə)*

## Dünya qlobal məskunlaşma axtarışında İlham Əliyevin uzaqgörənliyinin şahidi oldu



Səhifə ⇨ 13

## Azərbaycan diplomatiyasının Afrikaya uzanan qolları



Səhifə ⇨ 13

## Marko Rubionun Ermənistana səfəri: ABŞ üçün prioritetlər



Səhifə ⇨ 14

## Zəngəzur dəhlizi yeni dünya düzənində




Səhifə ⇨ 16

## WUF13 Bakını beynəlxalq şəhərsalma diplomatiyasının mərkəzinə çevirdi




Səhifə ⇨ 15

## Haqq nazilər, amma üzülməz...



Səhifə ⇨ 14

## "7 iyun" üçün "27 oktyabr" təhlükəsi



Səhifə ⇨ 14

## Avrasiyada yeni geosiyasi mərkəz yaranır



Səhifə ⇨ 16

## Ukrayna 6 saat raket zərbəsi altında



Səhifə ⇨ 21

# Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə

*(əvvəli 1-ci səhifədə)*



Kənd təsərrüfatının inkişafı üçün subsidiyaların böyük əhəmiyyəti var. Onu da bildirməliyəm ki, Azərbaycan dünyada nadir ölkələrdəndir ki, genişmiqyaslı və çoxçeşidli subsidiya mexanizmlərini tətbiq edir. Düzdür, burada da təkmilləşmə üçün imkanlar var və bu edilməlidir. Bu barədə də danışılacaq. Müxtəlif güzəştlər verilir, o cümlədən gübrə, yanacaq güzəştləri. Deyə bilərəm ki, bu da dünyada nadir sayda olan ölkələrdə tətbiq edilir. Fermerlərə metodik tövsiyələr verilir və hər cür dəstək göstərilir, o cümlədən güzəştli kreditlərin verilməsi. Bu gün də dövlət xətti ilə həyata keçirilən bir çox layihələr təbii ki, kənd təsərrüfatının inkişafına böyük təkan vermişdir. Məsələn, əgər pambıqçılığı götürsək, vaxtilə 70-80-ci illərdə pambıq istehsalı Azərbaycanda ildən-ilə artırdı, amma sonra müəyyən səbəblərə görə faktiki olaraq bu sahə əldən gedirdi. Həm məhsuldarlıq çox aşağı səviyyədə idi, təqribən hektardan maksimum bir ton, köhnə dillə desək 10 sentner. Azərbaycanda pambıq istehsalı 20 min tona düşmüşdü. Görülmüş tədbirlər, ildən-ilə aparılan islahatlar nəticəsində bu gün həm məhsuldarlıq, həm də istehsal artıb. Bu gün son nəticələrə görə 360 min tondan çox pambıq istehsal edilmişdi və pambıqçılıqda ixtisaslaşmış rayonlarda bunun kənddə yaşayan insanlar üçün çox böyük xeyri olmuşdur.

Baramaçılıq faktiki olaraq əldən getmişdi. Görülmüş tədbirlər və dövlət dəstəyi nəticəsində biz baramaçılığı da bərpa etdik. Bununla bağlı olan ipəkçilik də inkişaf etməyə başlamışdı. Belə misallar çoxdur, yəni çox vaxt itirmək istəmirəm. Sadəcə olaraq, bildirməliyəm ki, bizim bir çox istiqamətlər üzrə nəzərdə tutduğumuz vəzifələr icra edildi.

Ancaq buna baxmayaraq, son vaxtlar kənd təsərrüfatı istehsalında dinamika məni qane etmir. Bir müddət bundan əvvəl Prezident Administrasiyasına, Hökumətə göstəriş verildi ki, kənd təsərrüfatının inkişafına dair yeni Dövlət Proqramı hazırlansın, qəbul edilsin, hərtərəfli, əhatəli olsun. Həm dövlət investisiyaları, həm özəl sektor tərəfindən cəlb ediləcək investisiyaları özündə ehtiva etməlidir. Proqram çox konkret və qısamüddətli olmalıdır. Bu gün müzakirə edəcəyimiz məsələlər bu proqramın qəbul edilməsi və icrası ilə bağlı olacaq. Mən əminəm ki, bu proqram icra ediləndən sonra bizim əsas hədəflərimiz tam yerinə yetiriləcəkdir.

Bu gün dünyada gedən meyillər kənd təsərrüfatının istehsalına da mənfi təsir göstərir. Müharibələr, münaqişələr, nəqliyyat zəncirlərinin qırılması, enerji sektorundakı böhran, yanacaqla bağlı olan müəyyən çətinliklər bir çox ənənəvi istehsalçıları çətin vəziyyətə qoymuşdur. Bunu nəzərə alaraq, əlbəttə ki, hər bir ölkə öz ərzaq təhlükəsizliyi haqqında düşünməlidir və konkret addımlar atmalıdır.

İkinci vacib amil, - bu yaxınlarda Bakıda keçirilmiş Ümumdünya Şəhərsalma Forumunun müzakirələrində də bu öz əksini tapmışdır, - genişmiqyaslı urbanizasiya, yəni kəndlərdən şəhərlərə olan axın. Bu, təkcə ölkəmiz üçün deyil, bütün ölkələr üçün xas olan mənfi meyildir. Ancaq bəzi ölkələr, sadəcə olaraq, bu məsələnin həlli üçün imkan tapa bilmir, yaxud da ki, düzgün strategiya işləyə bilmirlər. Biz isə elə etməliyik ki, kəndlərdən şəhərlərə yox, şəhərlərdən kəndlərə qayıdış prosesi başlasın. Bunun üçün də əlbəttə ki, kəndlə şəhər arasındakı istənilən istiqamətlər üzrə fərqlər azaldılmalıdır. Qeyd etdiyim Regional İnkişaf Proqramının və proqramlarının, - dediyim kimi, bir neçə proqram qəbul edilmişdir, - məqsədi də bu idi ki, bölgələrdə elə şərait yaradılmalıdır ki, insanlar orada yaşasınlar, qalsınlar, öz dədə-baba torpaqlarında çalışsınlar, ənənəvi fəaliyyətlə məşğul olsunlar, əkin, biçin, turizm imkanları. Yəni orada xidmət sektoru da yüksək səviyyədə olmalıdır. Onu da bildirməliyəm ki, biz Regional İnkişaf proqramlarını icra etdikcə sosial infrastruktur layihələrini də uğurla icra etmişik. Bizim bütün rayon mərkəzlərində, şəhərlərdə müasir xəstəxanalar var, məktəb tikintisi geniş vüsət almışdır. Düzdür, hələ yararsız vəziyyətdə məktəblər var, amma onların sayı ildən-ilə azalır. Bizim 4 mindən çox məktəbimiz var, bəlkə də bir az az, bir az çox. Onların təqribən deyə bilərəm ki, 80-85, bəlkə də 90 faizi təmir edilib, nə qədər məktəb tikilib. Ona görə bölgələrdə məşğulluğu artırmaq və insanları torpağa daha bağlı etmək üçün biz kənd təsərrüfatının inkişafına yeni təkan verməliyik.

Yenə də deyirəm, qəbul edilmiş proqramlar və qərarlar böyük dönüşə səbəb olub. Ancaq son bir neçə il ərzində kənd təsərrüfatının inkişafında müşahidə edilən durğunluq, əlbəttə ki, bizi düşündürür və bu məqsədlə Dövlət Proqramı hazırlanıb və qəbul ediləcək. Bununla əlaqədar bəzi rəqəmləri səsləndirmək istərdim. Bu, xüsusilə özəl sektora göndərilən siqnal və mesaj olacaq. Çünki dövlət qurumları bu rəqəmləri bilirlər. Özəl sektor nümayəndələrinin də Dövlət Proqramının icrasında xüsusi rolu olmalıdır. Burada biznes nümayəndələrinin, əlbəttə ki, məsuliyyəti ön planda olmalıdır. Öz ölkələrinə olan bağlılıq və sərmayə qoyuluşu üçün daha münbit şərait olmalıdır. Əlbəttə ki, biz müxtəlif mexanizmlərdən də istifadə edəcəyik. Həm güzəştli kreditlər, həm digər alətlərdən istifadə etməliyik ki, Azərbaycan sahibkarlarının kənd təsərrüfatının inkişafına sərmayə qoymasına daha böyük həcmdə nail olaq. Eyni zamanda, biz xarici investorları da həm məlumatlandırmalıyıq, həm də təşviq etməliyik. Çünki bu gün bizim beynəlxalq əlaqələrimiz çox genişdir. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayı ildən-ilə artır. Bizim dünya miqyasında çox yüksək reputasiyamız var, çox müsbət imicimiz var. Azərbaycan artıq dünyada orta gücə malik olan dövlət kimi tanınır və bir çox ölkələrin şirkətləri müxtəlif sahələrdə bizimlə əməkdaşlıq etmək istəyirlər. Biz, əlbəttə ki, bütün şirkətlərə, o cümlədən xarici investorlara qanun çərçivəsində lazımi şərait yaradırıq. Ancaq, eyni zamanda, biz xarici şirkətləri bizə lazım olan sahələrə cəlb etməliyik. Ona görə burada səsləndirəcəyim rəqəmlər həm yerli, həm xarici investorlara bir mesajdır.

Beləliklə, bizim istehsalımızla bağlı özümüzü təminetmə əmsalı və bəzi rəqəmlər səsləndiriləcək. Buğda istehsalı. Biz cəmi 55 faiz səviyyəsində özümüzü buğda ilə təmin edirik və əfsuslar olsun ki, bu əmsal artmır. Biz elə yerində sayırıq. Neçə ildir ki, bizdə elə bu səviyyədə buğda istehsal olunur, baxmayaraq çox böyük təkan verilmişdir, bir çox aqroparklar yaradılmışdır. Onu da bildirməliyəm ki, aqroparkların yaradılması kənd təsərrüfatının inkişafında çox böyük rol oynamışdır. Buna baxmayaraq, buğda istehsalı və onun özünü təminetmə əmsalı bizdə artmır. Daxili istehsal 1 milyon 573 min ton, idxal 1 milyon 267 min ton. Bax, bu idxalı biz azaltmalıyıq. Təbii ki, bizim coğrafiyamızı nəzərə alaraq, əkin sahələrini nəzərə alaraq, digər kənd təsərrüfatı məhsullarının yetişdirilməsinin zəruriliyini nəzərə alaraq, biz hədəf qoymamalıyıq ki, 100 faiz özümüzü ərzaq buğdası ilə təmin edək. Ancaq hər halda 55 faiz qəbuledilməz rəqəmdir və bu, mütləq artmalıdır.

Digər dənlilər üzrə vəziyyət prinsip etibarilə müsbətdir, özümüzü 95 faiz təmin edirik və idxal da çox cüzidir. Dənli paxlalar. Daxili istehsal 23 min ton, idxal 15 min ton. Yəni özümüzü təminetmə indeksi 63 faizdir. Kartof. Özümüzü 91 faiz təmin edirik, 160 min ton idxal edirik. Ancaq onu da bildirməliyəm ki, 71 min ton da ixrac edirik. Ona görə burada, yəni kəsir o qədər də böyük deyil. Kartof istehsalının artırılması üçün də imkanlar var və biz idxalı tamamilə aradan götürməliyik və həm özümüzü təmin etməliyik, eyni zamanda, daha böyük həcmdə ixrac etməliyik.

Tərəvəz, bostan məhsulları, meyvə, giləmeyvə. Burada vəziyyət müsbətdir. Özümüzü tərəvəz üzrə 107 faiz təmin edirik və 214 min ton ixrac edirik. Daxili istehsal isə 1 milyon 770 min tondur. Bostan məhsulları istehsalı 460 min ton, idxal demək olar ki, yoxdur. İxrac 18 min ton, 104 faiz. Meyvə, giləmeyvə. 140 faiz təminat, istehsal 1 milyon 400 min ton. Təbii ki, idxal da var. Çünki müxtəlif meyvələr var ki, onlar idxal olunur, bizdə yetişmir. Amma ixrac da kifayət qədər böyükdür, təqribən 600 min tona yaxın. Mən qeyd etdim ki, biz fındıqçılıq üzrə Dövlət Proqramı qəbul etdik. Ondan sonra fındıq bağları geniş vüsət almışdır. Bu gün biz qoz-fındıq istiqaməti üzrə 84 min ton məhsul yetişdiririk, 30 min ton da ixrac edirik. Yəni bu istiqamət üzrə biz dünyada 3-4-cü yerdə qərarlaşmışıq. Üzüm istehsalı. Özümüzü təminetmə əmsalı 92 faiz, istehsal 211 min ton, idxal 28 min ton, ixrac da var. İxrac da 10 min ton.

Mal əti. Özümüzü 84 faiz təmin edirik, 30 min ton idxal edilir, 150 min ton daxili istehsaldır. Quş əti. 82 faiz, 147 min ton istehsal, 32 min ton idxaldır. Qoyun-keçi əti. 94 faiz, istehsal 88, idxal 5 min ton. Yumurta. 2 milyard 340 min ədəd istehsal olunur, idxal yoxdur, ehtiyac yoxdur. İxrac isə 90 milyon ədəddir. Balıq və balıq məhsulları. 81 faiz təminatdır, 23 min ton idxaldır, ixrac 7 min ton. Bitki yağları. Özümüzü 52 faiz təmin edirik. Kərə yağı. 62 faiz, istehsal 26 min ton, idxal 20 min ton, ixrac 4 min ton. Çay. 86 faiz, istehsal 11 min ton, idxal 2,5 min ton, ixrac min tona yaxın. Duz. Özümüzü təmin edirik, ixrac edirik 20 min ton, daxili istehsal 80 min ton. Un. 95 faiz, daxili istehsal 1 milyon 364 min ton, idxal 95 min ton, ixrac 28 min ton. Makaron məmulatları. Daxili istehsal 34 min ton, idxal 18 min ton, ixrac 14 min ton, ümumi təminat 89 faiz. Şəkər. Özümüzü 102 faiz təmin edirik və 96 min ton ixracımız var. Bu rəqəmləri mən qeyd etdiyim kimi, investorlar üçün səsləndirirəm və onları dəvət edirəm ki, bizdə bu gün idxal olunan məhsulların istehsalına onlar töhfə versinlər.

Bəzi vəzifələrlə əlaqədar aşağıdakıları deyə bilərəm, ərzaq təhlükəsizliyi ilə əlaqədar artıq bildirildi. Burada təkcə müharibələr və nəqliyyat zəncirlərinin qırılması deyil, iqlim dəyişikliyi də rol oynayır. Bütün bunları biz də müşahidə edirik. May ayında Bakıda hər halda belə yağışın yağmasını mən xatırlamıram. Məndən yaşlı olan insanlar da yəqin ki, xatırlamır. Artıq bu, əfsuslar olsun ki, bəzən fəsadlar törədir. Amma digər tərəfdən, bizim su ehtiyatlarımızı da böyük dərəcədə artırır və bu gün anbarlarda yığılan su bizə imkan verəcək ki, kənd təsərrüfatı üçün bu il su problemi olmasın.

Torpaqlardan səmərəli istifadə məsələsi. Burada məqsəd məhsuldarlığı maksimum artırmaq və torpaqların dəqiq analizini aparmaqdır ki, hansı ərazidə hansı torpaq sahəsində hansı məhsulun yetişdirilməsi daha məqsədəuyğun ola bilər. Burada, əlbəttə ki, rayonlaşma məsələləri çox önəmlidir. Amma bilirəm ki, bəzi hallarda bir rayonda fərqli torpaq sahələrində torpağın keyfiyyəti də fərqlidir. Ona görə demək ki, filan rayonda ancaq bu məhsul yetişdirilsin, başqa məhsul yetişdirilməsin, düzgün olmaz. Təbii ki, hər bir sahə üzrə dəqiq analiz aparılarkən onun elektron versiyası, müxtəlif dəqiqləşdirmə üsulları, yeni texnologiyalardan istifadə edilməlidir, o cümlədən süni intellekt, peyk imkanları, yerlərdə aparılan tədqiqat. Ölkə ərazisi o qədər də böyük deyil. Ona görə bunu etmək çətin olmayacaq. Müəyyən işlər görülüb. Ancaq hər bir əkin üçün yararlı torpaq sahəsinin, necə deyərlər, öz pasportu olmalıdır. Orada hansı məhsul yetişdirilərsə fermer daha çox qazanc götürəcək, bu, birincisi. İkincisi, bizim ümumi kənd təsərrüfatının inkişafı və ixracı strategiyamızın əsasında bu olmalıdır. İxrac təbii ki, bazarlara bağlıdır. Bazarlar var ənənəvi, var yeni. Ona görə ənənəvi bazarlarda bizim məhsul nə vaxta qədər lazım olacaq? Bu təhlil də aparılmalıdır. Prinsipcə müvafiq göstərişlər verildi ki, tərəfdaş ölkələrlə bu məsələlər də müzakirə edilsin ki, biz tutaq ki, meyvə, tərəvəz, bostan məhsullarını böyük həcmdə ixrac edirik. Nə vaxta qədər buna tələbat olacaq bizim üçün ənənəvi sayılan bazarlarda? Çünki indi bir çox ölkələr ərzaq təhlükəsizliyi ilə məşğuldurlar. Düzdür, bəzi ölkələrdə iqlim imkan vermir ki, müxtəlif meyvələr yetişdirilsin. Ancaq hər halda bizim ixracımız bazarlara bağlı olmalıdır. Ona görə subsidiyalar veriləndə, əlbəttə, bu amillər nəzərə alınmalıdır - daxili tələbatın bağlanması və ixrac imkanlarının genişləndirilməsi. Yəni ona görə subsidiyalar da çox çevik olmalıdır. Bəlkə də hər il yenidən baxılmalıdır - həm rayonlar üzrə, həm yetişdirilən məhsul üzrə. Yəni bir dəfə bu məhsula bu qədər subsidiya veririk və 10 il bu davam edir, belə olmaz. Yəni bu, çox çevik mexanizm olmalıdır. Bu da təbii ki, bütün aidiyyəti qurumlar tərəfindən nəzərə alınmalıdır.

Kənd təsərrüfatı texnikası ilə təminat. Bu istiqamətdə də çox böyük işlər görülmüşdür. Son 20 il ərzində biz faktiki olaraq öz texnika parkımızı tamamilə yenidən formalaşdırdıq. Köhnədən qalan texnikalar demək olar ki, artıq yoxdur və burada da dövlət fermerlər üçün kifayət qədər qəbul edilən şərtlər ortaya qoyub. O cümlədən indi biz özümüz də kənd təsərrüfatı texnikasını istehsal edirik və gələcəkdə bu istiqamətdə əlavə addımlar atılacaq.

Gübrə istehsalının artırılması. Biz indi Karbamid zavodunun fəaliyyəti nəticəsində nəinki özümüzü, hətta bir çox ölkələri azot gübrələri ilə təmin edirik. Ancaq bu, cəmi bir növ gübrədir. Bizə bir çox növ gübrələr lazımdır. Ona görə bəzi xarici şirkətlərlə indi bu məsələlər müzakirə edilir, Azərbaycanda qarışıq gübrə istehsalının yaradılması və gübrələrin fasiləsiz ölkəmizə idxal edilməsi. Çünki bu məsələlərdə də dünyada indi vəziyyət qeyri-müəyyəndir. Bəzi gübrə zavodları bağlanıb, çünki qazın qiyməti kəskin artanda gübrə istehsalı iqtisadi cəhətdən səmərəli olmur, müəyyən qıtlıq yaradılır. Ona görə, əlbəttə, praqmatizm nöqteyi-nəzərindən biz başa düşməliyik ki, biz bütün növ gübrələri istehsal edə bilməyəcəyik, ancaq hər halda onların çeşidlərini genişləndirməliyik.

Kənd təsərrüfatı ilə məşğul olanlar üçün metodik tövsiyələr, treninqlər, bu, artıq uzun illərdir davam edir. Maarifləndirmə prosesi və sığorta məsələləri. Yəni bütün bunları biz daha da təkmil şəkildə həyata keçirməliyik.

Biz kənd təsərrüfatının inkişafı ilə əlaqədar birinci proqramı qəbul edəndə soyuducu anbarların yaradılması məsələsi çox kəskin dayanmışdı. Çünki bu olmadan məhsulu saxlamaq mümkün deyil. Deyə bilərəm ki, son illər ərzində Azərbaycanda 400 min ton tutumlu soyuducu anbarlar yaradılıb. İndi təsəvvür edin ki, bu olmasaydı. Burada da onların mütləq əksəriyyəti güzəştli, azfaizli kreditlər hesabına yaradılıb. Ancaq soyuducu anbarların tutumu bizdə 500 min ton olmalıdır. Ona görə 100 min ton tutumlu soyuducu anbar infrastrukturu yaradılmalıdır.

Su təchizatı. Bunsuz kənd təsərrüfatının inkişafı mümkün deyil. Burada da qeyd etdiyim kimi, bir çox önəmli layihələr icra edildi. Su anbarları - Taxtakörpü, Şəmkirçay ən böyük su anbarlarıdır, Göytəpə su anbarı, digər su anbarları. İndi 10 su anbarının yenidən qurulması layihəsi icra edilir. Qarabağ və Şərqi Zəngəzur işğalçılardan azad ediləndən sonra dərhal orada su anbarlarının bərpasına başlamışıq və artıq Köndələnçay su anbarlarının sayı üç oldu. Xaçınçay, ondan sonra Suqovuşan, Sərsəng, Zabuxçay su anbarları yenidən quruldu. Sovet vaxtında yox idi, indi Bərgüşad və Həkəri su anbarlarının tikintisi işləri gedir. Qarabağda və Şərqi Zəngəzurda bizim 25 faiz su ehtiyatlarımız formalaşır. Onlardan səmərəli istifadə etmək, həm o bölgəni, həm digər bölgələri su ilə təmin etmək mümkün olacaq. Çünki vaxtilə Sərsəng və Suqovuşan su anbarları ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılanda məqsəd Qarabağın hüdudlarından kənarda olan 7-8 rayonu su ilə təmin etmək idi. O vaxt, işğaldan sonra ermənilər suyumuzu kəsmişdilər. İndi bir kanal fəaliyyətdədir. Digər kanalın tikintisi davam edir və beləliklə, 8 rayona, təqribən 100 min hektar torpağa su veriləcək.

Şirvan kanalı. Bunun tikintisinə biz beton kanal olaraq başlamışıq və yəqin ki, gələn il artıq istifadəyə veriləcək. Bu da böyük həcmdə torpaq sahələrini su ilə təmin edəcək. Bu barədə bu gün məruzə ediləcək.

Biz Qarabağ kanalının bərpasına, yenidən qurulmasına başlamışıq. Vaxtilə bunlar Yuxarı Şirvan, Yuxarı Qarabağ kanalları adlandırılırdı. Amma Aşağı Şirvan, Aşağı Qarabağ kanalları olmadığı üçün biz qərara gəldik ki, bunları elə Şirvan və Qarabağ kanalları adlandıraq. Yəni bu kanallar işə düşəndən sonra bəlkə də 200-300 min hektar torpağa su veriləcək. Ancaq bu torpaqlarda müasir şəbəkə qurulmalıdır və bu da Dövlət Proqramında nəzərdə tutulur. Müasir suvarma sistemləri hazırda, - bu da dövlətin dəstəyi ilə mümkün olub, - 130 min hektarda tətbiq olunur. Məqsəd bunu 300 min hektara çatdırmaqdır. Əgər bizim 300 min hektarda müasir suvarma sistemləri qurularsa, baxın, nə qədər məhsuldarlıq arta bilər.

Məhsuldarlığa gəldikdə, son illər ərzində burada artım var və biz bunu yüksək qiymətləndiririk. Misal üçün taxılçılıqda, bizdə bu gün hər hektardan 3,2 ton məhsul yığılır. Əvvəlki illərdə bu, təqribən 2 ton, bəlkə də bir qədər çox idi. Məqsəd bunu 5 tona çatdırmaqdır.

Pambıqçılıq. Qeyd etdiyim kimi, bizdə hektardan məhsuldarlıq cəmi 1 ton idi, görülmüş işlər nəticəsində 3,6 tona çatıb. Bu da bütün dövrləri, hətta sovet dövrünü götürsək, ən yüksək nəticədir. Amma məqsəd hər hektardan ən azı 5 ton götürməkdir. Belə olan halda bizdə 100 min hektarda ki, pambıq əkilir, 500 min ton pambıq istehsal olunacaq. Əlbəttə ki, bunun ondan sonrakı emalı məsələlərinə də biz baxırıq. İplik, ondan sonra hazır məhsul - qarşıya məqsəd qoyulmalıdır ki, biz mahlıc ixrac etməyək, hazır məhsul istehsal edək, ixrac edək. Bu istiqamətdə artıq işlər görülür. Yeni fabriklər qurulmalıdır və mən investorları buna dəvət edirəm.

İntensiv bağçılıq. Biz bunun da müsbət nəticəsini görürük, o cümlədən azad edilmiş torpaqlarda. Ağalı kəndinin yaxınlığında salınmış meyvə bağı. Mən bu yaxınlarda Zəngilanda olarkən məlumat verildi ki, artıq oradan ixrac da olunur. Yəni intensiv bağçılıq, xüsusilə meyvə yetişdirilən bölgələrdə əsas prioritet olmalıdır və burada qarşıya məqsəd qoyulur ki, 20 min yeni hektarda intensiv bağçılıq səviyyəsində bağlar qurulsun.

İstixana kompleksləri. Bu gün bizim 1500 hektarı əhatə edən istixanalarımız var, 500 hektar əlavə olunmalıdır. Əlbəttə ki, biz burada da ilk növbədə, özəl sektorun fəaliyyətinə arxalanırıq.

Ət, süd, quş əti ilə 100 faiz özümüzü təmin etməliyik. Mən rəqəmləri qeyd etdim, təqribən 80-90 faiz səviyyəsindədir. Bunu 100 faizə çatdırmaq üçün mən hesab edirəm ki, imkanlar var və bu proqram qeyd etdiyim kimi, qısamüddətli olmalıdır, 2026-2030-cu illəri əhatə edəcək. Nəzərə alsaq ki, 2026-cı ilin demək olar ki, yarısı artıq arxada qalır, bu proqramın icrası üçün cəmi dörd il yarım qalır. Buna görə dövlət xətti ilə proqramın maliyyələşdirilməsi üçün vəsait bu il ayrılmalıdır.

Hökumətə tapşırıram ki, vəsait tapılsın və özəl sektorla da müxtəlif qurumlar, təbii ki, Kənd Təsərrüfatı Nazirliyi, Hökumət, ondan sonra Prezident Administrasiyası, İqtisadiyyat Nazirliyi, digər qurumlar fəal işləməlidirlər. Təxmini hesablamalar aparılıb. Əlbəttə ki, indidən bunu demək çox çətindir. Amma təxmini hesablamalar göstərir ki, dövlət xətti ilə nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi üçün 2 milyard manatdan çox vəsait lazım olacaq, özəl sektorun payı isə təqribən 3 milyard manatdan çox olacaq. Çox böyük rəqəmdir. Xüsusilə nəzərə alsaq ki, cəmi dörd il yarım ərzində bunu biz həyata keçirməliyik, ona görə proqram qəbul ediləndən dərhal sonra biz işlərə başlamalıyıq.

*




Azərbaycanın kənd təsərrüfatı naziri **Məcnun Məmmədov** çıxış edərək dedi:

– Cənab Prezident, ilk növbədə aqrar sahənin inkişafı üçün mütəmadi olaraq verdiyiniz dəstəyə və qayğıya görə Sizə öz dərin minnətdarlığımı bildirmək istəyirəm. Qeyd edim ki, ölkəmizdə aqrar sahədə həyata keçirilən islahatların əsası ulu öndər Heydər Əliyevin dönəmindən başlanmış və Sizin rəhbərliyiniz dönəmində yeni bir mərhələyə qədəm qoymuşdur. Çıxışınızda qeyd etdiyiniz kimi, bir çox məsələlər - məhsuldarlığın artırılması, özünütəminat səviyyəsinin yüksəldilməsi, kənd təsərrüfatının rəqabət qabiliyyətinin artırılması, fermerlərin rifah səviyyəsinin yüksəldilməsi istiqamətlərində işlər görülmüşdür.

İcazənizlə, bu gün “Aqrar sahənin inkişafı: mövcud vəziyyət və 2030 perspektivləri” mövzusunda təqdimat etmək istəyirəm. Təqdimat üç hissədən ibarətdir. Giriş hissəsində kənd təsərrüfatının strateji əhəmiyyəti haqqında məlumat təqdim edəcəyəm. Daha sonra mövcud vəziyyət, çağırışlar, aqrar sahədə - bitkiçilikdə, heyvandarlıqda olan trendlər, aqrar ticarət dinamikası haqqında məlumat veriləcək, sonra isə bu çağırışlar əsasında Sizin tapşırığınızla hazırlanmış Dövlət Proqramının əsas müddəaları təqdim olunacaq.

İlk növbədə kənd təsərrüfatının ölkə üçün strateji əhəmiyyətini qeyd etmək istəyirəm. Qeyd edim ki, 2025-ci ildə kənd təsərrüfatı istehsalı ümumdaxili məhsulun 5,9 faizini təşkil etmişdir. Qeyri-neft ümumdaxili məhsulunda isə 8,3 faiz paya malik olmuşdur. Kənd təsərrüfatı sadəcə iqtisadi fəaliyyət deyil, eyni zamanda, ərzaq təhlükəsizliyi, məşğulluq, regionların inkişafı və ixrac potensialının artırılması istiqamətlərində öz töhfəsini verən çoxfunksional bir sahədir. Qeyd edim ki, əsasən də regionlarda məşğulluğun, demək olar, 50 faizi məhz kənd təsərrüfatı sahəsində təmin olunur. Siz çıxışınızda da qeyd etdiyiniz kimi, kənd təsərrüfatı, eyni zamanda, iqlimə çox məruz qalan və təbii resurslardan asılı olan bir sahədir. Azərbaycanda torpaq fondunun 55 faizi, istehlak olunan suyun isə 70 faizindən çoxu kənd təsərrüfatında istifadə edilir. Bu da bizə əsas verir ki, kənd təsərrüfatının sadəcə məhsul istehsalını düşünməli deyilik. Eyni zamanda, resurslardan səmərəli istifadəni və iqlimə uyğunlaşmanı da proqram çərçivəsində nəzərə almalıyıq.

*(ardı 3-cü səhifədə)*

# Prezident İlham Əliyevin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə

*(əvvəli 2-ci səhifədə)*

Cənab Prezident, bu səhifədə Azərbaycanda aqrar sahənin sektoral bölgüsü təqdim edilmişdir. Qeyd edim ki, 2025-ci ildə aqrar sahədə toplam məhsul istehsalı 14 milyard manat olmuşdur. Bu istehsal iki sahə - heyvandarlıq və bitkiçilik arasında demək olar ki, əlli-əlliyə paylanmışdır. Bu da bizə əsas verir ki, hər iki istiqamətin ölkənin aqrar sahəsinin inkişafında önəmli rolu olduğunu nəzərə alaq və prioritetlərimizi ona görə müəyyənləşdirək. Ümumilikdə aqrar sahədə meyvə-tərəvəz, əkinçilikdə dənli paxlalılar və kartof, heyvandarlıqda süd, mal əti, quş əti, qoyun əti və yumurta önəmli istehsal payına malikdir. Meyvə-tərəvəz istehsalı ölkə üçün həm məşğulluğun artırılmasında, həm aqrar istehsalda əlavə dəyərin yaradılmasında, həm də ixrac potensialının yüksəldilməsində faydalı olur. Dənli paxlalı bitkilərin istehsalı isə ümumilikdə digər bitkiçilik məhsulları ilə müqayisədə iqtisadi səmərəliliyi aşağı olsa belə, ərzaq təhlükəsizliyi nöqteyi-nəzərindən Sizin vurğuladığınız kimi çox əhəmiyyətlidir və ona görə də bu bizim üçün prioritet istiqamətlərdən biri olaraq qalacaq. Süd və ət istehsalının aqrar sahədə payı olduqca yüksəkdir. Bu da bizə əsas verir ki, yeni Dövlət Proqramında heyvandarlığın inkişaf etdirilməsi istiqamətində prioritet sahələrə önəm verək.

Bu qrafikdə də bir neçə məqama diqqətinizi cəlb etmək istəyirəm. Meyvə və tərəvəz toplam istehsalın 27 faizini təşkil etdiyi halda, onların toplam əkin sahəsindəki payı cəmi 14 faizdir. Dənli və paxlalı bitkilər, yem bitkiləri isə əkin sahəsinin toplam 74 faizini tutduğu halda, ümumi istehsalın toplam 11 faizini təşkil edir. Eyni zamanda, özünütəminetmə səviyyəsi ilə bağlı biz hazırda Siz də çıxışınızda qeyd etdiyiniz kimi, meyvə-tərəvəz, həmçinin yumurta istehsalında 100 faizin üstündə olduğumuz halda, digər istiqamətlərdə - ət, süd, buğda və kartof istehsalında hələ də qarşımızda çağırışlar durur. Sizin tapşırığınıza əsasən bunların 100 faiz təminatına nail olmaq üçün əlimizdən gələni edəcəyik.

İndi isə cənab Prezident, icazənizlə bitkiçilik sektorunda olan trendləri təqdim etmək istəyirəm. Vurğulamaq istədiyim məqam son illərdə ekstensiv əkinçiliyin inkişafını və resurs bazasının tükəndiyini göstərməkdir. Bizim son illərdə əsas inkişafımız və artımımız məhz intensiv əkinçilik hesabına olmuşdur. Ümumilikdə, bitkiçilikdə intensiv əkinçiliyə keçidin sürətləndirilməsi Sizin vurğuladığınız kimi müasir suvarmanın tətbiqindən çox asılıdır. Müasir suvarma genişləndikcə biz real nümunələr əsasında görürük ki, məhsuldarlığın artırılması mümkündür. Sadəcə taxılı, ərzaqlıq buğdanı Siz qeyd etdiniz. Ərzaqlıq buğdada ölkə ortalaması 3,2 ton olduğu halda, 2025-ci ildə ərzaqlıq buğda proqramına qoşulmuş bütün təsərrüfatlarda, müasir suvarma qurulmuş təsərrüfatlarda ortalama məhsuldarlıq 5,8 ton olmuşdur və bu da bizə onu göstərir ki, müasir suvarmanın genişləndirilməsi, əlbəttə, əsas istiqamətlərdən biri olmalıdır. Eyni mənzərəni biz təkcə buğda istehsalında deyil, digər bütün bitkiçilik məhsullarının istehsalında da görürük. Həmçinin diqqətinizi ona da cəlb etmək istəyirəm ki, açıq sahədə tərəvəz əkinində ortalama məhsuldarlıq 20 ton olduğu halda, müasir suvarma ilə bu, 60 tona çatır. Lakin istixanalarda bu, ölkə üzrə ortalama 300 tona - 3000 sentnerə çatır. Bəzi uğurlu təsərrüfatlarda isə bu rəqəm hətta 4 min 500 sentnerə yüksəlir. Bu da istixanaların çox kiçik bir sahədə böyük istehsal həcmi yarada biləcəyini, eyni zamanda, bir hektarda daha çox insan üçün məşğulluq imkanı yaratdığını göstərir.

İndi isə heyvandarlıq sektorunda olan əsas trendləri təqdim etmək istəyirəm. Son beş il ərzində heyvanların sayında azalma müşahidə olunur. Bununla belə, ət istehsalında və adambaşına ət istehlakında artım müşahidə edilir. Artan ət istehsalı, təəssüf ki, artan ət istehlakını qarşılaya bilmir və buna görə də ət idxalı son illərdə artmışdır. Qeyd edim ki, bu sahənin qarşısında duran əsas çağırışlardan biri məhz məhsuldarlıqdır. Heyvandarlıqda məhsuldarlıq bu gün istəniləndən daha aşağıdır. Eyni zamanda, sürüdə cins heyvanların sayı cəmi 2,5 faiz təşkil edir. Bu da, təəssüf ki, bizə məhsuldarlığı ciddi şəkildə artırmağa şərait yaratmır. Bu nöqteyi-nəzərdən məhz heyvandarlıq sahəsində intensivləşmənin nəyə görə vacib olduğunu təqdim etmək istəyirəm. Bitkiçilik sektorunda olduğu kimi, heyvandarlıq sektorunda da biz həm süd, həm də ət istehsalında ekstensiv təsərrüfatların artıq öz inkişaf imkanlarını tükətdiyini görürük. Son beş ildə də əsas artımın məhz intensiv təsərrüfatların hesabına olduğunu görürük. Halbuki, onların sayı bu gün Azərbaycanda azdır və biz onların artırılmasına nail olmalıyıq. Eyni zamanda, intensivləşmə ilə bağlı qeyd edim ki, əgər ailə təsərrüfatında yerli bir cins inək ildə 1800 litr süd verirsə, intensiv təsərrüfatlarda bir inək başına məhsuldarlıq 7500 litrdir, hətta az sayda olsa belə, bəzi təsərrüfatlarda 10 min-12 min litrə çatır. Eyni mənzərəni biz intensiv təsərrüfatlarda mal ətində də görə bilirik.

Cənab Prezident, aqrar ticarətin dinamikasına toxunmaq istəyirəm. Burada bir neçə vacib məqama diqqətinizi cəlb etmək istəyirəm. İlk növbədə, son beş il ərzində aqrar ticarət artım dinamikası ilə inkişaf etmişdir. Burada önəmli və diqqət etməli olduğumuz məqam məhz aqrar emalla kənd təsərrüfatı xammal istehsalı arasındakı idxal və ixracdakı nisbətlərdir. Belə ki, ixracda bu iki sahə arasındakı nisbətdə kənd təsərrüfatı xammalı istehsalının 3–4 dəfə daha yüksək olduğunu, idxalda isə aqrar emal məhsullarının demək olar ki, iki dəfə üstünlük təşkil etdiyini görürük. Bu bizə onu göstərir ki, ölkədə aqrar emalın artırılması qarşımızda duran əsas çağırışlardan biridir. Eyni zamanda, bu beş il ərzində kənd təsərrüfatı məhsullarının ixracında həm məhsul portfelinin, həm də ixrac coğrafiyasının artdığını və genişləndiyini görürük. Cənab Prezident, bu müddətdə biz qeyri-neft məhsullarının ixracı istiqamətində Sizin tapşırıqlarınızın öz bəhrəsini verdiyinin də şahidiyik. Belə ki, bir az öncə Siz də qeyd etdiyiniz kimi, fındıqçılıqda Azərbaycan dünyada artıq dördüncü sıradadır. Əlavə edim ki, xurma ixracında Azərbaycan dünyada ikinci sıradadır. 2025-ci ildə isə ilk dəfə olaraq Azərbaycan şaftalı və nektarın ixracında dünyada doqquzuncu yerə yüksəlmişdir. Bundan əlavə, çiyələk, albalı, pomidor, pambıq lifi kimi məhsullarda da Azərbaycan dünya ixrac siyahılarında ilk iyirmilikdə yer almışdır. Bu dönəmdə əsas üç kateqoriya ixrac məhsullarımızı meyvə, pambıq və tərəvəz təşkil edir. Hər üçü əgər 2021-ci ildə toplam ixracın 87 faizini təşkil edirdisə, 2025-ci ildə 75 faizini təşkil edir və bu da onu göstərir ki, bizim məhsul portfelimiz genişlənir və digər məhsulların da ixracda payı artır. Eyni zamanda, məhsullarımızın ixrac coğrafiyası da genişlənib.

İndi isə diqqəti idxal strukturuna cəlb etmək istəyirəm. İdxal strukturu üzrə 2025-ci ildə aparılmış təhlil göstərmişdir ki, idxal etdiyimiz məhsulların 25 faizini Azərbaycanda tam əvəzləmək potensialı var. Biz bunların ölkədə 100 faiz istehsalına və idxalın əvəzlənməsinə nail ola bilərik. Məhsulların təxminən əlli faizində isə qismən əvəzetmə imkanlarımız var. Burada yerli istehsal mövcud olacaq, amma müəyyən qədər idxaldan asılılıq da qalacaq. Biz 25 faiz məhsulu isə daim idxal edəcəyik. Bunlar soya, palma yağı, banan, kakao və qəhvə kimi məhsullardır.

Cənab Prezident, son olaraq aqrar sahəyə dövlət dəstəyi haqqında məlumatı diqqətinizə təqdim etmək istəyirəm. Son beş il ərzində nominal ifadədə aqrar sektora dövlət dəstəyi artmışdır. Lakin Siz də çıxışınızda qeyd etdiyiniz kimi, dünyada baş verən hadisələr və logistik zəncirlərdəki qırılmalar istehsal vasitələrinin qiymətinin artmasına gətirib çıxarıb ki, bu da nominal olaraq artan dövlət dəstəyinin real ifadədə azalmasına səbəb olub. Dövlət dəstəyi mexanizmlərində son illərə qədər vəsaitin əsas hissəsi bitkiçiliyə yönəldilib — bunun 74 faizi bitkiçiliyin, 20 faizi texnika dəstəyinin, cəmi 6 faizi isə heyvandarlığın payına düşüb. Eyni zamanda, qeyd etmək istəyirəm ki, bu günə qədər dövlət dəstəyi əsasən sosialyönümlü xarakter daşıyıb. Bu dəstək regionların inkişafına, məşğulluğun artırılmasına və ərzaq təhlükəsizliyinin təmininə istiqamətlənib. Bununla yanaşı, dövlət dəstəyi məhsuldarlığın, fermer gəlirlərinin, aqrar emalın və ixracın artırılmasına da xidmət edir və bundan sonra bu istiqamət daha da gücləndirilməlidir.

Möhtərəm cənab Prezident, buraya qədər sadaladığım məsələlər mövcud vəziyyəti və qarşımızda duran çağırışları əks etdirir. Bütün bunları nəzərə alaraq, Sizin tapşırığınıza uyğun hazırlanan Dövlət Proqramı ümumilikdə kənd təsərrüfatında transformasiyanı dörd istiqamətdə ehtiva edir, yəni bu transformasiya dörd sütun üzərində qurulur. İlk növbədə, bu, resurs səmərəliliyinə əsaslanan kənd təsərrüfatının formalaşdırılmasıdır. Yüksək əlavə dəyər yaradan kənd təsərrüfatının inkişaf etdirilməsidir. Dəyər zəncirini və bazar inteqrasiyasını həyata keçirən, ona əsaslanan kənd təsərrüfatının formalaşdırılmasıdır. Bunların hamısına dəstək olan texnologiya və innovasiyaya əsaslanan kənd təsərrüfatı olmalıdır. Hazırlanan Dövlət Proqramında tədbirlər iki istiqamətdə nəzərdə tutulub: fundamental tədbirlər və dəstəkləyici tədbirlər. Fundamental tədbirləri daha ətraflı təqdim edəcəyəm. Bu, eyni zamanda, həm bitkiçilik, həm heyvandarlıq, həm də emal və logistika istiqamətli atılacaq tədbirlərdir. Amma, eyni zamanda, bu Dövlət Proqramının özünəməxsusluğu ondan ibarətdir ki, sadəcə fundamental və sahəvi tədbirləri özündə ehtiva etmir. Eyni zamanda, qanunvericilik təşəbbüslərini, institusional islahatları və rəqəmsallaşmanı da özündə birləşdirir.

İndi isə, möhtərəm cənab Prezident, tapşırığınıza uyğun olaraq hazırlanmış Dövlət Proqramının bitkiçilik istiqaməti üzrə hədəfləri təqdim etmək istəyirəm. İlk növbədə, buğda istehsalı və pambıq istehsalı istiqamətində əsas hədəf məhsuldarlığın hər iki məhsul üzrə ölkədə ixtisaslaşmış rayonlarda hektardan 5 ton məhsuldarlığa nail olmaqdır. Növbəti 5 il ərzində - 2030-cu ilə qədər əsas məqsəd hər iki sahədə məhsuldarlığı artırmaqla ümumi istehsalın yüksəldilməsi, pambıqçılıqda isə eyni zamanda emal dərinliyinin artırılmasına nail olmaqdır. Buna biz müxtəlif tədbirlərin həyata keçirilməsi ilə nail olacağıq. Burada həm müasir suvarmanın genişləndirilməsi, əlbəttə ki, əsas şərtlərdən biri olacaq. Amma, eyni zamanda, müəyyən texniki dəstəklərin verilməsi, torpaq işlərinin həyata keçirilməsi, toxumçuluğun, daha məhsuldar toxumların tətbiqi kimi fəaliyyətlər nəzərdə tutulub.

Bitkiçilik məhsulları sahəsinin inkişafı ilə bağlı hədəflərdən danışarkən müasir suvarmaya və konsolidasiyaya toxunmaq istəyirəm. Möhtərəm cənab Prezident, çıxışınızda da vurğuladığınız kimi, 2025-ci ildə Azərbaycanda müasir suvarma tətbiq olunan sahələr 130 min hektar təşkil edib. Əsas hədəfimiz isə tapşırığınıza uyğun olaraq bu göstəricini 2030-cu ilə qədər 300 min hektara çatdırmaqdır. Bu, əlbəttə ki, ölkədə məhsuldarlığın artımına, regionlarda fermerlərin rifah səviyyəsinin yüksəldilməsinə xidmət edəcək və bəzi məhsullarda da ixrac potensialını formalaşdıracaq. Eyni zamanda, Azərbaycanda ilk dəfə olaraq pilot konsolidasiya və təsərrüfatdaxili suvarma şəbəkəsinin, qapalı müasir suvarma şəbəkəsinin qurulması iki rayonda pilot layihə olaraq nəzərdə tutulmuşdur. Biz inanırıq ki, bu layihənin icrası əsasında həm torpaqdan və sudan daha səmərəli istifadəyə nail olunacaq, eyni zamanda, həmin bölgədə yaşayan və çalışan fermerlərin rifah səviyyəsinin yüksəldilməsinə gətirib çıxaracaq.

Möhtərəm cənab Prezident, çıxışınızda vurğuladığınız kimi, intensiv bağçılıq və istixana da bizim üçün əsas prioritet istiqamətlərdən biri olaraq qalacaq və növbəti beş il ərzində intensiv bağların sahəsinin 20 min hektar, istixanaların sahəsinin isə 500 hektar artırılması hədəf olaraq qarşımıza qoyulmuşdur. Burada diqqətinizi bir məqama çəkmək istəyirəm ki, istixanaların artıq istixana aqroparkı modelində inkişaf etdirilməsi nəzərdə tutulur və bitkiçilik sahəsində, əlbəttə ki, logistika emal istiqaməti də önəmli əhəmiyyət daşıyır. Taxıl silolarının növbəti beş ildə həcminin 150 min kubmetr artırılması və çıxışınızda qeyd etdiyiniz kimi, soyuducu anbar həcminin isə 500 min tona çatdırılması hədəf olaraq qoyulmuşdur. Eyni zamanda, möhtərəm cənab Prezident, kiçik şərabçılığa və ailə təsərrüfatlarının şərabçılığın inkişafı istiqamətində verdiyiniz tapşırıqlara uyğun olaraq, bu proqram çərçivəsində də Azərbaycanda kiçik ailə təsərrüfat şərabçılığının inkişaf etdirilməsi nəzərdə tutulmuşdur və 2030-cu ildə belə təsərrüfatların sayının 20-yə çatdırılması hədəflənir.

İndi isə heyvandarlıq sahəsi ilə bağlı qarşımıza qoyulan hədəfləri qeyd etmək istəyirəm. Ümumi süd istehsalı həcminin 2030-cu ilədək 10 faiz, ət istehsalının 20 faiz artırılması nəzərdə tutulmuşdur. Ət istehsalında özünütəminetmə səviyyəsinin 100 faizə çatdırılması qarşımıza əsas məqsəd kimi qoyulmuşdur. Eyni mənzərə qoyunçuluq üçün də nəzərdə tutulmuşdur. Qoyunçuluq istiqamətində yarımintensiv təsərrüfatların yaradılması nəzərdə tutulur və bunun sayəsində məhz ümumi məhsul istehsalının 9 faiz artırılması və özünütəminatın 101 faizə çatdırılması hədəflənmişdir. Qeyd edim ki, quşçuluq məhsulları ilə bağlı bugünkü özünütəminetmə səviyyəsi 82 faizdir, 100 faizə çatdırılması əsas hədəf olaraq müəyyənləşdirilmişdir. İstehsalın isə 30 faiz artırılması nəzərdə tutulur. Burada əsas görüləcək tədbirlər yeni quşçuluq damlarının, yeni kəsimxanaların yaradılmasıdır və müvafiq olaraq damazlıq işinin təşviq edilməsidir.

Balıqçılıqla bağlı akvakulturanın inkişaf etdirilməsi əsas hədəflərdən biridir. Akvakulturada istehsal olunan balıq həcminin 2030-cu ilə qədər iki dəfədən çox artırılması əsas hədəf olaraq qarşımıza qoyulmuşdur. Eyni zamanda, buna biz ilk dəfə olaraq ölkədə balıqçılıq sahəsində subsidiyaların və dövlət güzəştlərinin verilməsi ilə nail olmağa çalışacağıq. Həmçinin balıqartırma zavodlarının inşası da nəzərdə tutulmuşdur. Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, təxmini hesablamalar göstərir ki, bu beş il ərzində kənd təsərrüfatı sektoruna bu Dövlət Proqramı çərçivəsində 5,9 milyard manat vəsaitin investisiya kimi qoyulması gözlənilir. Bunun 2,2 milyard manatının dövlət dəstəyi olunması nəzərdə tutulur. Qalan 3,7 milyard manatın isə özəl sektor tərəfindən yatırılması gözlənilir. Bu investisiyalar və bu Dövlət Proqramının tətbiq olunması əsasında gözlənilən iqtisadi təsirlərə dair qeyd etmək istəyirəm ki, 2030-cu ilə qədər kənd təsərrüfatı üzrə istehsaldakı artım dinamikasının 2 faizdən yuxarı olacağı hesablanıb. İxrac artımının 6 faizdən yüksək olması gözlənilir. Çox mühüm bir məqama diqqətinizi cəlb etmək istəyirəm ki, bu proqram çərçivəsində infrastruktur və bünövrə işləri kənd təsərrüfatında olduqca geniş vüsət alacaq. Bunlar təşkil olunacaq və görüləcək bir çox işlər - intensiv bağçılıq, istixanaların inkişaf etdirilməsi, müasir suvarma sistemlərinin qurulması, suvarma şəbəkələrinin genişləndirilməsi – bütün bunlar öz təsirini 2030-cu ildən sonra daha uzun müddətə göstərməsi üçün hesablanıbdır.

Yekun olaraq qeyd edim ki, kənd təsərrüfatının transformasiyası dayanıqlı məhsul istehsalını, məhsuldarlığın artırılmasını və resurslardan səmərəli istifadənin genişləndirilməsini ehtiva edir. Özəl sektorun bu Dövlət Proqramı çərçivəsində özünəməxsus bir payı olacaq və onun üzərinə çox böyük bir məsuliyyətli vəzifə düşür. Bu nöqteyi-nəzərdən dövlət qurumları tərəfindən özəl sektor üçün həm çevik mexanizmlərin işlənməsi, həm də operativ xidmətlərin göstərilməsi təşviqedici rol oynayacaq, eyni zamanda, onları bu sektora investisiya yatırmağa daha çox cəlb edəcək.

Möhtərəm cənab Prezident, aqrar sahəyə cavabdeh qurumun adından Sizi əmin etmək istəyirəm ki, tapşırığınızla hazırlanmış bu Dövlət Proqramının icrası istiqamətində tələb olunan bütün addımları atmaq, verdiyiniz bütün tapşırıqları yerinə yetirmək üçün tam səfərbər olacağıq və əlimizdən gələn hər şeyi etməyə çalışacağıq. Əlbəttə ki, digər dövlət qurumlarının da resurslarının, imkanlarının səfərbər edilməsi Dövlət Proqramının uğurlu icrası üçün əhəmiyyətli dərəcədə dəstək olacaqdır. Diqqətiniz üçün təşəkkür edirəm, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sağ olun.

*

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri **Zaur Mikayılov** çıxış edərək dedi:



– Möhtərəm cənab Prezident.

Zati-alinizin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar nəticəsində aqrar sektor respublikamızın ərzaq təhlükəsizliyinin təmin olunması və qeyri-neft iqtisadiyyatının inkişafı baxımından keyfiyyətcə yeni mərhələyə qədəm qoymuş, regionların sosial-iqtisadi dirçəlişi istiqamətində qəbul etdiyiniz qərarlar bu sahənin inkişafına güclü təkan vermişdir. Məlum olduğu kimi, müasir dövrdə kənd təsərrüfatı sektoru ölkəmizin ümumi su ehtiyatlarının ən böyük istehlakçılarından biri olaraq qalmaqdadır. Bu baxımdan, su ehtiyatlarının düzgün idarə olunması həm aqrar sektorun inkişafında önəmli rol oynayır, həm də ümumi iqtisadi dayanıqlığın əsas şərtlərindən biridir.

Möhtərəm cənab Prezident, 2025-ci ildə respublika üzrə bütün su mənbələrindən 11,5 milyard kubmetr həcmində su götürülmüş, suayırıcılarından verilmiş 7,5 milyard kubmetr su hesabına, ümumilikdə, 1 milyon 485 min hektar sahədə kənd təsərrüfatı bitkiləri suvarma suyu ilə təmin edilmişdir. Həmin il çərçivəsində istismar planına əsasən suvarma şəbəkələrində 31 milyon kubmetr, kollektor-drenaj şəbəkələrində isə 10 milyon kubmetr həcmində lildən təmizləmə işləri aparılmışdır. 842 ədəd nasos stansiyası, 6378 ədəd subartezian quyusu, 2779 ədəd hidrotexniki qurğu təmir edilmişdir. Əkin və suvarma sahəsində qurumlar arasında koordinasiyalı və səmərəli fəaliyyətin təşkili məqsədilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi arasında birgə Fəaliyyət Planı təsdiq edilmiş və suvarma suyunun təminatında meydana çıxan bütün çətinliklərin operativ qaydada həll edilməsi üçün İşçi qrupu yaradılmışdır. Birgə Fəaliyyət Planı çərçivəsində suvarılan torpaqlarda rayonlar, təqvim ayları və ongünlüklər üzrə suvarma qrafikləri tərtib edilmiş, respublika ərazisində mütəşəkkil suvarma əsasən təmin edilmişdir.

Bununla yanaşı, Sizin birbaşa tapşırıq və sərəncamlarınızla təsdiq edilmiş dövlət proqramları çərçivəsində kənd təsərrüfatı torpaqlarının su təminatının yaxşılaşdırılması məqsədilə ölkə üzrə genişmiqyaslı layihələr həyata keçirilir. Əsaslı vəsait qoyuluşu hesabına Suqovuşan, Xaçınçay, Köndələnçay su anbarlarının kaskadının və 7 magistral suvarma kanalının yenidən qurulması, həmçinin Zabuxçay su anbarının tikintisi işləri başa çatdırılmışdır. Sərsəng su anbarı, Aşağı Muğan, eləcə də ölkənin ən böyük magistral kanalı olan Şirvan suvarma kanalının yenidən qurulması, Yengicə və Əlicançay su anbarlarının tikintisi işləri davam etdirilmiş, Bərgüşadçay və Həkəriçay su anbarlarının isə tikintisinə başlanılması nəzərdə tutulmuşdur. Bununla yanaşı, beynəlxalq maliyyə institutları cəlb edilməklə Qarabağ suvarma kanalının yenidən qurulması və Qız qalası magistral suvarma kanalının tikintisi üzrə müvafiq hazırlıq işləri görülmüşdür. Bu işlərlə bərabər, Sizin də qeyd etdiyiniz kimi, 100 min hektardan çox yeni ərazi suvarılacaq və 500 min hektara yaxın ərazidə suvarma sistemləri yaxşılaşdırılacaqdır.

Xüsusi diqqətiniz sayəsində Qarabağ və Şərqi Zəngəzur ümumi su balansımıza tam inteqrasiya olunur, işğaldan azad edilmiş ərazilərdə müasir su təsərrüfatı infrastrukturunun qurulması istiqamətində kompleks tədbirlər davam etdirilir. Sözügedən ərazilərin kənd təsərrüfatı potensialının reallaşdırılması üçün etibarlı su təminatının yaradılması əsas prioritetimizdir.

Bütün bu layihələr dövlət tərəfindən su və kənd təsərrüfatına göstərilən böyük diqqətin göstəricisidir. Lakin məlum olduğu kimi, dövlətimizin infrastruktur layihələrinə qoyduğu böyük sərmayələrin geri qayıtması yalnız texniki həllər və yeni su mənbələrinin yaradılması ilə deyil, eyni zamanda, mövcud su ehtiyatlarından səmərəli istifadənin artırılması ilə təmin edilməlidir. Bu istiqamətdə əkin sahələri üzrə ənənəvi suvarma üsullarından imtina edilməsi və müasir suvarma sistemlərinin – damcı və pivot texnologiyalarının tətbiqinin genişləndirilməsi müasir dövrün çağırışlarından biridir. Müasir suvarma sistemlərinin tətbiqi həm torpaqların şoranlaşmasının qarşısını alır, həm məhsuldarlığı əhəmiyyətli dərəcədə artırır, həm də su resurslarımıza qənaət edilərək investisiyanın iqtisadi səmərəliliyini maksimuma çatdırır.

Bu gün qarşımızda duran ən böyük çağırışlardan biri də mövcud su ehtiyatlarına uyğun əkin strukturunun yaradılmasıdır. İqlim dəyişikliyi fonunda su ehtiyatlarının və yağıntıların həcminin illər üzrə dinamik surətdə dəyişdiyini nəzərə alaraq, hər bir regionun illik su balansı dəqiqliklə hesablanmaqla hansı bitki növlərinin əkiləcəyi, hansı sahələrin inkişafının təşviq ediləcəyi məhz bu su ehtiyatlarına uyğun olaraq müəyyən edilməlidir. Bu istiqamətdə Kənd Təsərrüfatı Nazirliyi tərəfindən 2026–2030-cu illər üçün tədbirlər planı üzrə, misal üçün, buğda və pambığın orta məhsuldarlığının 50 sentnerə yüksəldilməsi hədəfləri mövcud ekstensiv suvarma sistemlərindən deyil, müasir, intensiv suvarma metodlarına keçidi şərtləndirir. Həmçinin Tədbirlər Planında intensiv bağların sahəsinin 50 min hektardan 70 min hektara, istixanaların sahəsinin isə 1500 hektardan 2000 hektara çatdırılması, eləcə də pambıq əkin sahələrinin 100 min hektardan 85 min hektara endirilməsi fonunda məhsuldarlığın 17 faiz artırılaraq ümumi istehsalın 425 min tona yüksəldilməsi ilə bağlı bütün hədəflər bizim tərəfdən təqdirəlayiq hesab edilir. Eyni zamanda, Tədbirlər Planında qeyd olunduğu kimi, Qəbələ və Salyan rayonlarında 20 min hektar sahənin konsolidasiyası və həmin sahələrdə təsərrüfatdaxili suvarma şəbəkələrinin quraşdırılması, həmçinin respublika ərazisində müasir suvarma texnikasının əhatə dairəsinin 130 min hektardan 300 min hektara qədər artırılması su ehtiyatlarından dayanıqlı istifadəsinin təmin edilməsi baxımından mütərəqqi addım kimi qiymətləndirilə bilər.

Möhtərəm cənab Prezident, qarşıya qoyulmuş hədəflərə nail olmaq üçün dövlət qurumlarının, xüsusilə Kənd Təsərrüfatı Nazirliyi ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sıx əməkdaşlıq şəraitində fəaliyyəti təmin edilməkdədir. Aqrar sahənin inkişafı baxımından qeyd edilmiş tədbirlərin həyata keçirilməsi ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalının dayanıqlı və səmərəli təşkilinə töhfə verməklə yanaşı, su ehtiyatlarından səmərəli istifadə ilə nəticələnəcək, suvarılan sahələrin şoranlaşmasının və deqradasiyanın qarşısını əhəmiyyətli dərəcədə alacaqdır. Qeyd olunanları nəzərə alaraq, təqdim edilmiş dövlət proqramının tədbirlər planının həyata keçirilməsini önəmli hesab edirik.

Diqqətinizə görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

*

Sonra müşavirə müzakirələrlə davam etdirildi.

***AZƏRTAC***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli cənab Prezident!**

Sizə və Sizin şəxsinizdə dost Azərbaycan xalqına ölkənizin Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən xoş arzularımı ifadə etməkdən şərəf duyuram.

Çin və Azərbaycan hərtərəfli strateji tərəfdaşlardır. Bizim birgə planlaşdırmamız və rəhbərliyimiz ilə Çin-Azərbaycan münasibətləri yeni səviyyəyə yüksəlib, müxtəlif sahələrdə əməkdaşlıq böyük nəticələr verib. Çin-Azərbaycan münasibətlərinin inkişafına böyük əhəmiyyət verirəm, iki ölkənin xalqlarının rifahı naminə yüksək səviyyədə ikitərəfli əlaqələrin dinamikasının gücləndirilməsi üçün Sizinlə birgə səylər göstərməyə hazıram.

Dost Azərbaycana tərəqqi və qüdrət, onun xalqına isə xoşbəxtlik və əmin-amanlıq arzulayıram.

*Si CİNPİN,*
*Çin Xalq Respublikasının Sədri*

*

**Hörmətli İlham Heydər oğlu!**

Milli bayram – Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Azərbaycan iqtisadi və sosial sahələrdə böyük uğurlar əldə edib, dünya arenasında layiqli hörmət qazanıb.

Biz Bakı ilə dostluq və müttəfiqlik münasibətlərimizə böyük əhəmiyyət veririk. Əminəm ki, müxtəlif sahələrdə ikitərəfli səmərəli əməkdaşlığın, həmçinin regional və beynəlxalq məsələlərdə tərəfdaşlıq qarşılıqlı fəaliyyətinin birgə səylərlə daha da inkişafını təmin edə bilərik. Şübhəsiz ki, bu, Rusiya və Azərbaycan xalqlarının əsas maraqlarına cavab verir, Cənubi Qafqazda və Xəzər dənizində təhlükəsizliyin, sabitliyin möhkəmləndirilməsi məcrasında davam edir.

Hörmətli İlham Heydər oğlu, Sizə cansağlığı və uğurlar, bütün həmvətənlərinizə isə əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Vladimir PUTİN,*
*Rusiya Federasiyasının Prezidenti*

*

**Hörmətli Prezident, Əziz Qardaşım!**

Zati-alinizi və Can Azərbaycan xalqını Azərbaycanın Müstəqillik Günü münasibətilə xalqım adından və öz adımdan səmimi-qəlbdən təbrik edirəm.

Zati-alinizin bacarıqlı liderliyi və uzaqgörən siyasəti sayəsində Can Azərbaycanın davamlı şəkildə güclənməsindən, regionda və beynəlxalq miqyasda nüfuzunun artmasından böyük qürur və iftixar hissi keçiririk.

Türkiyə ilə Azərbaycan arasında öz gücünü tarixdən alan dərin köklü qardaşlıq və həmrəylik əlaqələri Ümummilli Lider Heydər Əliyevin bizə mirası olan "Bir millət, iki dövlət" prinsipi əsasında hər gün daha da güclənir. Türkiyə olaraq, güclü əlaqələrimiz əsasında qardaş Azərbaycanla bütün sahələrdə özünəməxsus sıx əməkdaşlığımızın və həmrəyliyimizin inkişafına davam edəcəyik.

İnanıram ki, güclü həmrəyliyimiz, əməkdaşlığımız və birgə layihələrimiz qarşıdakı dövrdə də xalqlarımızın rifahına, həmçinin regionumuzda sülhə, sabitliyə və inkişafa əhəmiyyətli töhfələr verməyə davam edəcək. Türkiyə ilə Azərbaycan arasındakı qardaşlıq və həmrəylik ruhunun bütün Türk dünyasında, xüsusən də Türk Dövlətləri Təşkilatının çətiri altında əməkdaşlığımızın və həmrəyliyimizin inkişafına müsbət təsirini və töhfəsini görmək də xoşdur.

Fürsətdən istifadə edərək, Zati-alinizə cansağlığı və xoşbəxtlik diləyir, qardaş Azərbaycan xalqının davamlı rifahı və tərəqqisi ilə bağlı ən xoş arzularımı bildirir, Can Azərbaycanın Müstəqillik Gününü bir daha ürəkdən təbrik edirəm.

*Rəcəb Tayyib ƏRDOĞAN,*
*Türkiyə Respublikasının Prezidenti*

*

**Zati-aliləri, əziz həmkarım!**

Sizi və dost Azərbaycan xalqını ölkənizin Müstəqilliyi Günü münasibətilə gürcü xalqı adından və şəxsən öz adımdan səmimi-qəlbdən təbrik etməkdən və ən xoş arzularımı çatdırmaqdan şərəf duyuram.

Ölkələrimiz arasında hazırkı strateji tərəfdaşlıq bizim tarixi əlaqələrimizin məntiqi davamıdır. Sizin Gürcüstana olduqca səmərəli dövlət səfəriniz iki ölkə arasında münasibətlərin inkişafına təkan verərək əlaqələri yeni səviyyəyə yüksəltdi. İnanıram ki, Gürcüstan ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətləri və möhkəm strateji tərəfdaşlığa əsaslanan əməkdaşlıq, birgə icra etdiyimiz strateji layihələr xalqlarımızın rifahını yüksəltməklə yanaşı, həm ölkələrimizdə, həm də regionda sülhü, əmin-amanlığı və sabitliyi daha da möhkəmləndirəcək.

Bu əlamətdar gündə fürsətdən istifadə edərək Sizə xoşbəxtlik, fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına isə davamlı sülh və firavanlıq arzulayıram.

**Hörmətlə,**

*Mixeil KAVELAŞVİLİ,*
*Gürcüstanın Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün həmvətənlərinizi Müstəqillik Günü münasibətilə Qazaxıstan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan suveren inkişafı illərində dövlətçiliyinin möhkəmləndirilməsində, sosial-iqtisadi inkişafda və dünya arenasında nüfuzunun artırılmasında böyük uğurlar qazanıb.

Şübhəsiz ki, Sizin güclü və müdrik rəhbərliyinizlə qardaş Azərbaycan xalqı davamlı iqtisadi artımın təmin edilməsində və regional güc kimi potensialının möhkəmləndirilməsində yüksək məqsədlərə uğurla nail olacaq.

Qazax xalqı əbədi dostluq və qarşılıqlı hörmət strategiyasına daim sadiq qalır və onu dəstəkləyir, Azərbaycanın nailiyyətlərinə səmimi-qəlbdən sevinir. Biz strateji tərəfdaşlığımızın və müttəfiqliyimizin gələcəkdə də inkişafına müstəsna əhəmiyyət veririk.

Əminəm ki, yüksək səviyyədə fəal və etimada əsaslanan siyasi dialoq Qazaxıstan-Azərbaycan çoxtərəfli əməkdaşlığının xalqlarımızın əsas maraqları naminə yeni zirvələrə yüksəlməsinə bundan sonra da kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Kasım-Jomart TOKAYEV,*
*Qazaxıstan Respublikasının Prezidenti*

*

**Cənab Prezident!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi, xalqınıza firavanlıq və sülh arzularımı çatdırıram.

Dövlətlərimiz arasındakı sıx və möhkəm münasibətlər strateji maraqlara əsaslanır. Azərbaycan Rumıniya üçün Cənubi Qafqaz regionunda yaxşı dost və etibarlı tərəfdaşdır.

Zati-alinizin Cənubi Qafqazda regionun böyük potensialından istifadə etməyə imkan yaradan davamlı sülhün bərqərar olması istiqamətində yorulmaz səylərini alqışlayıram.

Rumıniya Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında dialoqun davamlı şəkildə inkişafını dəstəkləmək üçün bundan sonra da fəaliyyət göstərəcək.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında ortaq maraq doğuran sahələrdə strateji tərəfdaşlığı daha da dərinləşdirmək məqsədilə Sizi Rumıniyaya səfərə dəvət edirəm.

Cənab Prezident, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Nikuşor DAN,*
*Rumıniyanın Prezidenti*

*

**Hörmətli cənab Prezident!**

Ölkənizin milli bayramı münasibətilə Sizə və Azərbaycan xalqına səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

Bugünkü mürəkkəb qlobal şəraitdə çoxtərəfli çərçivələr vasitəsilə, xüsusilə də Birləşmiş Millətlər Təşkilatı çərçivəsində sıx əməkdaşlıq hər zamankından daha böyük əhəmiyyət daşıyır. Birgə fəaliyyət göstərməklə biz BMT Nizamnaməsinin prinsiplərini daha yaxşı qoruya və daha təhlükəsiz, daha ədalətli və daha dayanıqlı dünyanın qurulmasına töhfə verə bilərik.

Bu baxımdan ikitərəfli münasibətlərimizdə müşahidə olunan davamlı irəliləyişi məmnunluqla qarşılayır və qarşıdakı illərdə ölkələrimiz arasında tərəfdaşlığın daha da möhkəmlənəcəyinə ümid edirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Səmimi hörmətlə,**

*Alar KARİS,*
*Estoniya Respublikasının Prezidenti*

*

**Hörmətli cənab Prezident!**

Sizi və Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

İqtisadiyyatda öz uğurları və artan beynəlxalq nüfuzu ilə qürur duyan suveren, inkişaf etmiş və gələcəyə inamlı dövlətin qurulması üzrə Sizin həyata keçirdiyiniz kursun nəticələrini Belarusda yüksək qiymətləndirirlər.

Strateji Belarus-Azərbaycan tərəfdaşlığının inkişafında Minskin güclü marağını təsdiq edirəm. Əminəm ki, bizim müntəzəm görüşlərimiz, etimada əsaslanan fəal dialoq, həmçinin müxtəlif səviyyələrdə həyata keçirilən sistemli fəaliyyət cari layihələrin uğurla icrasına və yeni ikitərəfli təşəbbüslərin formalaşmasına daim kömək edəcək.

Hörmətli İlham Heydər oğlu, Sizə və ailənizə cansağlığı və xoşbəxtlik, Azərbaycan vətəndaşlarına isə sülh və əmin-amanlıq arzulayıram.

**Hörmətlə,**

*Aleksandr LUKAŞENKO,*
*Belarus Respublikasının Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və bütün Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan hazırda sürətlə inkişaf edir, iqtisadiyyat, infrastruktur və mədəniyyət sahələrində ciddi nailiyyətlər nümayiş etdirir, həmçinin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynayır.

Böyük məmnunluqla qeyd edirəm ki, mehriban qonşuluq, dostluq və qarşılıqlı anlaşma prinsiplərinə əsaslanan Türkmənistan-Azərbaycan münasibətləri getdikcə dinamik və ardıcıl xarakter alır. Xalqlarımızın rifahı naminə sıx əməkdaşlığımızı davam etdirməyə hazır olduğumuzu bildiririk.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

**Dərin hörmətlə,**

*Sərdar BERDİMƏHƏMMƏDOV,*
*Türkmənistanın Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizə və dost Azərbaycan xalqına ölkənizin milli bayramı münasibətilə tacik xalqı adından və şəxsən öz adımdan səmimi təbriklərimi göndərirəm.

Etibarlı tərəfdaşımızın sosial-iqtisadi inkişafda və beynəlxalq arenada nüfuzunun möhkəmləndirilməsində qazandığı uğurlara ürəkdən sevinirik.

Ölkələrimiz arasında möhkəm tarixi dostluq və qarşılıqlı anlaşma ənənələrinə əsaslanan strateji tərəfdaşlığın davamlı inkişaf tendensiyasına malik olmasını qeyd etmək sevindiricidir.

Əmin olduğumu bildirirəm ki, birgə səylərimizlə konstruktiv əməkdaşlığımızı bundan sonra da gücləndirəcəyik və ölkələrimizin xalqlarının əsas maraqlarına cavab verən çoxplanlı qarşılıqlı fəaliyyətimizin daha da dinamik inkişafını təmin edəcəyik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı və yeni-yeni uğurlar, dost Azərbaycanın qardaş xalqına isə hər zaman aydın səma, firavanlıq, əmin-amanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

*Emoməli RƏHMON,*
*Tacikistan Respublikasının Prezidenti*

*

**Hörmətli cənab Prezident!**

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizi və Azərbaycan xalqını Moldova xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu bayram münasibətilə Sizə, ailənizə və Azərbaycan xalqına sülh və rifah arzulayıram. Moldova Cənubi Qafqazda davamlı sülhə ümid edir və biz inanırıq ki, dialoq və əməkdaşlıq sabitliyə və tərəqqiyə aparan ən etibarlı yoldur.

Azərbaycan həmişə Moldovanın etibarlı dostu olub və dialoqumuzu davam etdirməyi səbirsizliklə gözləyirəm.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Maya SANDU,*
*Moldova Respublikasının Prezidenti*

*

**Zati-aliləri!**

Keniya Respublikasının Hökuməti və xalqı adından, eləcə də öz adımdan Sizə və Azərbaycan xalqına ölkənizin müstəqilliyinin 108-ci ildönümü münasibətilə ən səmimi təbriklərimi çatdırıram. Bu tarixi gün Azərbaycan xalqının azadlıq, müstəqillik və milli birlik əzmini təcəssüm etdirir.

Bu əlamətdar bayramı qeyd edərkən, xalqlarımızın qarşılıqlı faydası naminə tərəfdaşlığımızı daha yüksək strateji səviyyələrə qaldırmaq üçün Zati-alinizlə sıx əməkdaşlığı davam etdirməyə hazır olduğumu bir daha təsdiqləyirəm.

Həmçinin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının uğurla keçirilməsinə görə Sizi təbrik edirəm. Əminəm ki, Forumun nəticələrinin həyata keçirilməsi Dayanıqlı İnkişaf Məqsədlərində nəzərdə tutulan şəhər və yaşayış məntəqələrinin açıqlığının, təhlükəsizliyinin, davamlılığının və ekoloji dayanıqlılığının təmin edilməsinə əhəmiyyətli dərəcədə töhfə verəcəkdir.

Azərbaycana səfərim zamanı keçirdiyimiz görüşlər ölkələrimiz arasında münasibətlərin dərinləşməsinə yeni təkan verəcəkdir.

Zati-alinizi bir daha bu tarixi gün münasibətilə təbrik edir, Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına sülh və firavanlıq arzulayıram.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Uillyam Samoei RUTO,*
*Keniya Respublikasının Prezidenti*

*

**Cənab Prezident!**

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan məmnunluq duyuram.

Sizə və dost Azərbaycan xalqına davamlı rifah və tərəqqi arzulayıram.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi üçün Sizinlə birlikdə işləməyə hazır olduğumu bir daha vurğulayıram.

**Dərin hörmətlə,**

*Bassiru Diomaye FAYE,*
*Seneqal Respublikasının Prezidenti*

*

**Zati-aliləri cənab Prezident!**

Ölkənizin milli bayramı münasibətilə Sizə və dost Azərbaycan xalqına ən səmimi təbriklərimi çatdırıram.

İki ölkə arasında münasibətlərin daha da möhkəmləndirilməsi naminə fəaliyyətimizi davam etdirmək əzmimizi bir daha təsdiqləyirəm.

Sizə ən yüksək hörmət və ehtiramımı bildirirəm.

*Migel Dias-Kanel BERMUDES,*
*Kuba Respublikasının Prezidenti*

*

**Hörmətli İlham Heydər oğlu!**

Sizi və qardaş Azərbaycan xalqını Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Müxtəlif istiqamətlər üzrə uğurla inkişaf edən Türkmənistan-Azərbaycan qarşılıqlı faydalı əməkdaşlığının yüksək səviyyəsini böyük məmnunluqla qeyd edirəm. Qəti əminəm ki, münasibətlərimiz iki qardaş xalqın rifahı naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcək.

Hörmətli İlham Heydər oğlu, bu xoş fürsətdən istifadə edərək, Sizə möhkəm cansağlığı, səadət, ali dövləti vəzifənizdə uğurlar, qardaş Azərbaycan xalqına isə sülh, tərəqqi və davamlı rifah arzulayıram.

**Dərin hörmətlə,**

*Qurbanqulu BERDİMƏHƏMMƏDOV,*
*Türkmən xalqının Milli Lideri,*
*Türkmənistan Xalq Məsləhətinin sədri*

*

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə biz, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri Sizə ən səmimi təbriklərimizi və ən xoş arzularımızı çatdırırıq.

Sizin rəhbərliyinizlə Azərbaycan beynəlxalq dialoqa, çoxtərəfli əməkdaşlığa və qlobal əlaqələrə mühüm töhfə verərək öz rolunu gücləndirməkdə davam edir. Ölkənin sürətli inkişafı və artan beynəlxalq mövqeyi xalqınız üçün qürur mənbəyidir və eyni zamanda dünyanın hər yerində Azərbaycanın dostlarını sevindirir.

Həmçinin Sizi BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının Bakıda uğurlu təşkili münasibətilə təbrik edirik. Bu Forum bir daha Azərbaycanın dövrümüzün ən aktual problemlərinin həllinə həsr olunmuş qlobal toplantılara ev sahibliyi etmək qabiliyyətini nümayiş etdirdi.

Bu ilin mart ayında keçirilən XIII Qlobal Bakı Forumunda Siz Nizami Gəncəvi Beynəlxalq Mərkəzini qlobal problemlərin həllində fəal iştirak etməyə çağırmışdınız. Buna uyğun olaraq Mərkəz Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası zamanı müzakirələrdə 15-dən çox üzvünün fəal iştirakı ilə Foruma töhfə verməkdən şərəf duyur.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinə davamlı dəstəyinizə və artan qlobal qeyri-müəyyənlik dövründə dialoqun və beynəlxalq əməkdaşlığın təşviqinə göstərdiyiniz diqqətə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Zati-aliləri, ən yüksək ehtiramımızı və Azərbaycan Respublikasına, onun xalqına davamlı sülh, firavanlıq və uğurlar arzularımızı qəbul etməyinizi xahiş edirik.

*Vayra Vike-FREYBERQA,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,*
*1999-2007-ci illərdə Latviya Respublikasının Prezidenti*

*İsmail SERAGELDİN,*
*Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri,*
*1992-2000-ci illərdə Dünya Bankının vitse-prezidenti*

*Mariya Fernanda ESPİNOZA,*
*BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri,*
*2017-2018-ci illərdə Ekvadorun xarici işlər naziri*

*Romano PRODİ,*
*1996-1998, 2006-2008-ci illərdə İtaliya Respublikasının Baş naziri, 1999-2004-cü illərdə Avropa Komissiyasının sədri*

*Boris TADİÇ,*
*2004-2012-ci illərdə Serbiya Respublikasının Prezidenti*

*Şarl MİŞEL,*
*Avropa Şurasının fəxri prezidenti,*
*2014-2019-cu illərdə Belçika Krallığının Baş naziri*

*İv LETERME,*
*2008, 2009-2011-ci illərdə Belçika Krallığının Baş naziri*

*Əmr MUSA,*
*2001-2011-ci illərdə Ərəb Dövlətləri Liqasının Baş katibi*

*Benita Ferrero-VALDNER,*
*2000-2004-cü illərdə Avstriya Respublikasının xarici işlər naziri*

*Zlatko LAQUMCİYA,*
*2001-2002-ci illərdə Bosniya və Herseqovinanın Baş naziri*

*Petar STOYANOV,*
*1997-2002-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti*

*Volkan BOZKIR,*
*BMT Baş Assambleyasının 75-ci sessiyasının sədri*

*Jan BADERŞNEYDER,*
*"Fortescue Ltd" şirkətinin Direktorlar Şurasının üzvü,*
*"ExxonMobil" şirkətinin sabiq vitse-prezidenti*

*Filip VUYANOVİÇ,*
*2003-2018-ci illərdə Monteneqronun Prezidenti*

*İvo YOSİPOVİÇ,*
*2010-2015-ci illərdə Xorvatiya Respublikasının Prezidenti*

*Eka TKEŞELAŞVİLİ,*
*2010-2012-ci illərdə Gürcüstanın Baş nazirinin müavini*

*Borut PAHOR,*
*2012-2022-ci illərdə Sloveniya Respublikasının Prezidenti*

*Kolinda Qrabar-KİTAROVİÇ,*
*2015-2020-ci illərdə Xorvatiya Respublikasının Prezidenti*

*Valdis ZATLERS,*
*2007-2011-ci illərdə Latviya Respublikasının Prezidenti*

*Mladen İVANİÇ,*
*2014-2015, 2016-2017-ci illərdə Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri*

*Ekmələddin İHSANOĞLU,*
*2004-2014-cü illərdə İslam Əməkdaşlıq Təşkilatının Baş katibi*

*Çaba KOROŞİ,*
*BMT Baş Assambleyasının 77-ci sessiyasının sədri*

*Milisa Pjanoviç-DURİSİÇ,*
*2012-2016-cı illərdə Monteneqronun müdafiə naziri*

*Dimitris AVRAMOPULOS,*
*2014-2019-cu illərdə miqrasiya, daxili işlər və vətəndaşlıq üzrə Avropa komissarı*

*Laimdota STRAUYUMA,*
*2014-2016-cı illərdə Latviya Respublikasının Baş naziri*

*Kyel Maqne BONDEVİK,*
*1997-2000-ci, 2001-2005-ci illərdə Norveç Krallığının Baş naziri*

*

**Hörmətli İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü və müqəddəs Qurban bayramı münasibətilə səmimi təbriklərimi qəbul edin.

Qurban bayramının dövlət bayramı ilə üst-üstə düşməsi rəmzi məna daşıyır. Qoy, bütün müsəlmanların xeyirxahlıqla dolu olan bu böyük bayramı bəşəriyyəti yüksək mənəvi dəyərlərə çatdırsın, ona Uca Yaradanın mərhəmətini və şəfqətini nəsib etsin.

Qardaş Azərbaycan xalqına davamlı sürətli inkişaf və firavanlıq diləyir, həmçinin Sizin rəhbərliyinizlə qarşıda duran bütün məqsədlərə nail olunması ilə bağlı ən xoş arzularımı ifadə edirəm.

Ümidvaram ki, Sizinlə qurduğumuz qarşılıqlı hörmət uzun illər davam edəcək.

Hörmətli İlham Heydər oğlu, bu əlamətdar bayramlar münasibətilə Sizə möhkəm cansağlığı, böyük uğurlar, Azərbaycan xalqına isə həmişə sülh və tərəqqi arzulayıram.

**Ən xoş arzularla,**

*Nursultan NAZARBAYEV,*
*Qazaxıstan Respublikasının Birinci Prezidenti*

*

**Möhtərəm İlham Heydər oğlu!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə səmimi təbriklərimi çatdırır və ən dərin ehtiramımı ifadə edirəm.

Azərbaycanın suverenliyinin, milli birliyinin və ardıcıl inkişafının təcəssümü olan bu bayram dövlətçilik ənənələrinə hörməti və sabitliyin möhkəmləndirilməsi, firavanlığın təmin edilməsinə yönəlmiş səyləri əks etdirir.

Azərbaycan Respublikası bütün qarşılıqlı fəaliyyət istiqamətləri üzrə Rusiya Federasiyasının strateji tərəfdaşı olub və olaraq qalır.

Həştərxan vilayəti ilə Azərbaycan arasında formalaşmış dostluq əlaqələrini yüksək qiymətləndirir və regionumuzla çoxşaxəli qarşılıqlı faydalı əlaqələrin möhkəmləndirilməsinə göstərdiyiniz dəstəyə görə Sizə təşəkkür edirəm.

Bu əlamətdar gündə Sizə və Azərbaycanın bütün vətəndaşlarına möhkəm cansağlığı, xoşbəxtlik, firavanlıq və doğma ölkənin daha da inkişafı naminə həyata keçirilən işlərdə yeni nailiyyətlər arzulayıram.

**Dərin hörmətlə,**

*İqor BABUŞKİN,*
*Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru*

*

**Möhtərəm cənab Prezident!**

Sizi 28 May – Müstəqillik Günü münasibətilə ürəkdən təbrik edir və ən xoş arzularımı bildirirəm.

1991-ci ildə müstəqilliyini bərpa edən Azərbaycan dövləti ötən 35 il ərzində çətin və şərəfli yol keçmişdir. 1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə ölkəmizin həyatında böyük dəyişikliklər baş verdi, sabitlik yarandı, iqtisadiyyat inkişaf etməyə başladı, müasir ordu quruldu, dünyanın aparıcı şirkətləri ilə enerji sahəsində çox mühüm layihələr həyata keçirildi və Azərbaycan bölgədə lider dövlətə çevrildi.

Siz Ulu Öndər Heydər Əliyevin ideyalarına yeni nəfəs gətirdiniz, 30 ilə yaxın işğal altında qalan torpaqlarımız uzaqgörən siyasətiniz sayəsində azad edildi. Bu gün Azərbaycan xalqı Müstəqillik Gününü qalib xalq kimi qeyd edir. Sizin ardıcıl siyasətiniz nəticəsində minlərlə soydaşımız doğma yurdlarına qayıdır.

Möhtərəm cənab Prezident, Sizə möhkəm cansağlığı, ailə səadəti, ali dövləti fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**Dərin hörmət və ehtiramla,**

*Asəf HACIYEV,*
*Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi*

*(ardı 5-ci səhifədə)*

## Çin Xalq Respublikasının Sədri Zati-aliləri cənab Si Cinpinə

**Hörmətli cənab Sədr!**

Şansi əyalətində yerləşən kömür mədənində baş vermiş partlayış nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, dost Çin xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

## Pakistan İslam Respublikasının Baş naziri Zati-aliləri cənab Məhəmməd Şahbaz Şərifə

**Hörmətli cənab Baş nazir!**
**Əziz Qardaşım!**

Ölkənizin cənub-qərbində sərnişin qatarını hədəf alan xain terror aktı nəticəsində çox sayda insanın həlak olması və xəsarət alması barədə xəbər bizi olduqca kədərləndirdi.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, terrorizmin bütün təzahürlərini qətiyyətlə pisləyir, terrorizmə qarşı ən kəskin şəkildə mübarizə aparılmasını labüd hesab edirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Pakistan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların tezliklə sağalmasını arzulayıram.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

## "Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin fəaliyyətinin təkmilləşdirilməsi, habelə "Mərkəzi icra hakimiyyəti orqanlarının Nümunəvi Əsasnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 17 noyabr tarixli 528 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

"Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi haqqında Əsasnamənin, Agentliyin strukturunun, hərbi qulluqçularının və mülki işçilərinin say həddinin, ali zabit heyəti vəzifələrinin siyahısının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 dekabr tarixli 1510 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1375 (Cild I); 2026, № 2, maddə 122) dəyişikliklər təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2026-cı il fevralın 15-də Belqrad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında qida təhlükəsizliyi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Serbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

## "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz turbin elektrik stansiyasının işlənməsi, layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2026-cı il fevralın 15-də Belqrad şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Serbiya Respublikası Hökuməti arasında Serbiya Respublikasında qaz turbin elektrik stansiyasının işlənməsi, layihələndirilməsi, tikintisi və idarə olunması haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Serbiya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

## "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** 2026-cı il aprelin 22-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Latviya Respublikasının Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3.** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Latviya Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

## Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru İqor Babuşkindən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya 28 May – Müstəqillik Günü münasibətilə təbrik

**Hörmətli Mehriban Arif qızı!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə səmimi təbriklərimi və ən dərin ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Azərbaycan Respublikasının milli birliyinin, suverenliyinin və davamlı inkişafının rəmzi olan bu bayram, eyni zamanda dövlətçilik ənənələrinə hörməti, sabitliyin möhkəmləndirilməsi və rifahın təmin olunması istiqamətində səyləri əks etdirir.

Bu əlamətdar gün münasibətilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, rifah və doğma ölkənin firavanlığı naminə görülən işlərdə yeni müvəffəqiyyətlər arzu edirəm.

Dərin hörmətlə,

***İqor BABUŞKİN,***
***Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru***

## Prezident İlham Əliyev: WUF13 Azərbaycanın daha yaxşı gələcək naminə multikulturalizmə və kollektiv fəaliyyətə verdiyi daha bir mühüm töhfədir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında BMT-nin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının (WUF13) başa çatması ilə bağlı paylaşım edilib. Paylaşımda deyilir:**

"Azərbaycan COP29-dan sonra ölkədə keçirilən ikinci ən böyük beynəlxalq tədbir olan WUF13 kimi daha bir mühüm qlobal tədbirə ev sahibliyi etmək şərəfinə nail oldu.

Biz bütün iştirakçıları, tərəfdaşları və BMT ailəsini, xüsusilə də UN-Habitat-ı uğurlu və nəticəyönümlü WUF13 münasibətilə təbrik edirik.

Təxminən 60 min iştirakçının rekord sayı ilə WUF13 tarixə ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi düşdü. Azərbaycanın təşəbbüsü ilə ilk dəfə təşkil olunan Liderlər Seqmenti qlobal şəhərsalma gündəliyinə daha böyük siyasi impuls vermiş oldu.

WUF13 çərçivəsində aparılan zəngin və hərtərəfli müzakirələr iki mühüm yekun sənədin — Sədrin Xülasəsi və "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul olunması ilə nəticələndi. Urbisid, kultursid və ekosidin qurbanı olmuş ölkə kimi Azərbaycan hazırda Qarabağ və Şərqi Zəngəzurda 9 şəhəri və yüzlərlə kəndi sıfırdan yenidən qurur. Buna görə də beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın münaqişədənsonrakı bərpa səylərinin yüksək qiymətləndirilməsindən qürur duyuruq; bu səylər dünyanın digər postmünaqişə bölgələri üçün dəyərli nümunə kimi vurğulanır.




Forumdan irəli gələn və yekun sənədlərdə öz əksini tapan ideyalar – təmiz hava və dayanıqlı şəhər inkişafından tutmuş mədəni irsin qorunması və inkişaf etməkdə olan kiçik ada dövlətlərin ehtiyaclarınadək – qlobal şəhərsalma gündəliyini daha da zənginləşdirəcək və istiqamətləndirəcək.

Qlobal qeyri-müəyyənliyin artdığı bir dövrdə WUF13 Azərbaycanın daha yaxşı gələcək naminə multikulturalizmə və kollektiv fəaliyyətə verdiyi daha bir mühüm töhfədir".

***AZƏRTAC***

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

*(əvvəli 4-cü səhifədə)*

**Möhtərəm cənab Prezident!**

Sizi Türk Dünyası Mediatorlar Birliyi adından 28 May - Müstəqillik Günü və müqəddəs Qurban bayramı münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu bayramlar Azərbaycan xalqının müstəqillik iradəsini, həmrəyliyini və milli-mənəvi dəyərlərə sadiqliyini bir daha aydın şəkildə nümayiş etdirir.

Siz hər zaman dünyada sülhün, əməkdaşlığın və inkişafın tərəfdarı olmusunuz, bəşəriyyətin rifahına töhfələr vermisiniz. Sizin rəhbərliyinizlə Azərbaycan yalnız Türk dünyasının deyil, həm də beynəlxalq ictimaiyyətin inkişafına yönələn nümunəvi təşəbbüslərin mərkəzinə çevrilmişdir.

Türk dünyasının bir ailə kimi birləşməsində Sizin rolunuz danılmazdır. Azərbaycan bu gün Sizin rəhbərliyinizlə Türk dünyasının "şah damarı" və körpüsü kimi qəbul olunur.

Türk dövlətlərinə səfərlərimiz zamanı Sizə göstərilən sevgi və hörmət bizə böyük qürur verir. Hər kəs Sizi Türk dünyasının zəfər lideri və qüruru kimi qəbul edir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla, eyni zamanda digər türk dövlətlərinin başçıları ilə səmimi dostluğunuz və əməkdaşlığınız təkcə Türk dünyasında deyil, beynəlxalq miqyasda da nümunəvi qardaşlıq və dostluq modeli kimi dəyərləndirilir.

Azərbaycan Respublikasının Mediasiya Şurasının da qurucu üzvlərindən olduğu Türk Dünyası Mediatorlar Birliyi ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsinə xüsusi önəm verir. Sizin Türk dövlətləri ilə bağlı siyasətiniz bizim üçün strateji xəttin əsasını təşkil edir və biz gördüyümüz işlərdə bu siyasətə layiq olmağa çalışırıq.

Eyni zamanda qürur hissi ilə qeyd edirəm ki, türkdilli dövlətlərin də qoşulduğu BMT-nin "Mediasiya nəticəsində əldə olunan beynəlxalq barışıq sazişləri haqqında" Konvensiyasının Sizin 2026-cı il 23 fevral tarixli Sərəncamınızla Azərbaycan Respublikası adından imzalanması dünya mediasiya institutunun inkişafına göstərdiyiniz diqqətin bariz nümunəsidir. Türk dünyasının mediatorlar ailəsi bir-biri ilə daha səmərəli əməkdaşlıq edərək bizə göstərdiyiniz etimadı doğruldacaqlar.

Azərbaycan artıq qlobal miqyasda əsas söz sahiblərindən birinə çevrilmişdir. Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyası Sizin rəhbərliyinizlə Azərbaycanın beynəlxalq arenada nüfuzunun daha da artmasına, sülh və əməkdaşlıq ideyalarının təşviqinə böyük töhfə vermişdir. Bu tədbir həm də Türk dünyası brendini dünyada tanıtmaq üçün möhtəşəm bir vəsilə olmuşdur.

Sizin Ali Baş Komandanlığınızla işğaldan azad olunmuş Qarabağda aparılan abadlıq və quruculuq işləri bütün dünyaya Azərbaycanın inkişaf modelini nümayiş etdirir. Bu modelin mərkəzində Azərbaycan vətəndaşının rifahı və hüquqlarının qorunması dayanır.

Cənab Prezident, Sizinlə qürur duyuruq. Səmimi təbriklərimizi qəbul etməyinizi xahiş edirəm. Sizə möhkəm cansağlığı, Zati-alinizin rəhbərliyi ilə Azərbaycan xalqına davamlı firavanlıq və tərəqqi arzulayıram.

**Hörmətlə,**

***Yakup ERİKEL,***
***Türk Dünyası Mediatorlar Birliyinin İdarə Heyətinin sədri***

*

**Hörmətli cənab Prezident!**

Sizi Mərkəzi Asiya Mediatorlar Konsorsiumu adından 28 May - Müstəqillik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirik. Bu əlamətdar bayram xalqınızın müstəqillik əzmini, milli birliyini və mənəvi dəyərlərə bağlılığını aydın şəkildə təcəssüm etdirir.

Türk dövlətlərinin liderləri ilə səmimi dostluğunuz bizim fəaliyyətimizə birbaşa müsbət təsir göstərir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Qırğızıstan Prezidenti Sadır Japarov ilə dostluq və qardaşlıq əlaqələriniz ölkələrimizin peşəkar birlikləri arasında əməkdaşlığın möhkəmləndirilməsində və inkişaf etdirilməsində mühüm rol oynayır.

Sizin rəhbərliyinizlə Azərbaycan regionda sülhün, sabitliyin və əməkdaşlığın təbliğatçısına çevrilib. Türk dünyasının birliyinin və beynəlxalq səviyyədə etimadın gücləndirilməsi üzrə səyləriniz bütün dövlətlər üçün nümunədir.

Sizin tərəfinizdən imzalanmış "Mediasiya haqqında" Qanun əsasında yaradılan Azərbaycan Respublikasının Mediasiya Şurası ilə həm Türk Dünyası Mediatorlar Birliyi, həm də Mərkəzi Asiya Mediatorlar Konsorsiumu çərçivəsində səmərəli əməkdaşlıq edirik. Ölkələrimiz arasında qarşılıqlı səfərlər və təcrübə mübadiləsi əldə edilən nailiyyətlərin miqyasını bir daha təsdiqləyir.

Azərbaycana bütün səfərlərimiz zamanı Türk dünyasının görkəmli xadimi, Ümummilli Lider Heydər Əliyevin Fəxri xiyabandakı məzarını xüsusi ehtiramla ziyarət edir və onun böyük işlərini həmişə minnətdarlıqla xatırlayırıq. Sizə və Azərbaycana olan hörmətimiz sonsuzdur. 2026-cı ilin aprelində Azərbaycanın BMT-nin "Mediasiya nəticəsində əldə olunan beynəlxalq barışıq sazişləri haqqında" Konvensiyasına qoşulmasını məmnunluq hissi ilə qeyd edirik. Bu, Sizin qlobal mediasiya institutunun inkişafına göstərdiyiniz diqqətin bariz nümunəsidir. İnanırıq ki, Türk dünyasının mediatorlar ailələri onlara göstərilən etimadı doğruldaraq daha səmərəli əməkdaşlıq edəcəklər.

Qürur hissi ilə bildiririk ki, Ümumdünya Şəhərsalma Forumunun Bakıda keçirilən 13-cü Sessiyası Sizin rəhbərliyinizlə Azərbaycanın ən əhəmiyyətli qlobal təşəbbüslərindən biri kimi tarixə düşdü. Bu sessiya həm Azərbaycanın beynəlxalq mövqeyinin bundan sonra da möhkəmləndirilməsi, həm də Türk dünyası brendinin qlobal miqyasda təşviqi baxımından mühüm hadisəyə çevrildi.

Bu gün azad edilmiş Qarabağda aparılan bərpa və yenidənqurma işləri Azərbaycanın inkişaf modelini bütün dünyaya nümayiş etdirir. Bu modelin mərkəzində vətəndaşların rifahı, onların hüquqlarının qorunması və davamlı inkişaf dayanır.

Cənab Prezident, Zati-alinizi bir daha təbrik edir, Sizə və ailənizə möhkəm cansağlığı, Azərbaycan xalqına isə davamlı firavanlıq və tərəqqi arzulayırıq.

**Hörmətlə,**
**Mərkəzi Asiya Mediatorları Konsorsiumunun həmsədrləri**

***Jandilda JAKUPOV,***
***Qazaxıstan Respublikası Mediatorlar Assosiasiyasının İdarə Heyətinin sədri***

***Gülsina KOJOYAROVA,***
***Qırğız Respublikası Mediatorlar Palatasının İdarə Heyətinin sədri***

*

**Möhtərəm cənab Prezident.**

"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının üzvləri olan soydaşlarımız adından və şəxsən öz adımdan Zati-alinizə və bütün xalqımıza 28 May - Müstəqillik Günü münasibətilə ən səmimi təbriklərimizi və xoş arzularımızı çatdırmaqdan böyük şərəf və məmnunluq duyuruq.

Müstəqillik Günü Azərbaycan xalqının milli yaddaşının ən şanlı səhifələrindən biridir və onun azadlıq, istiqlaliyyət arzularının həyata keçdiyi tarixi dönüş nöqtəsidir. Bu il Müstəqillik Günü müqəddəs Qurban bayramı ilə eyni vaxta təsadüf edir və bu, milli azadlıq ideallarının şəfqət, xeyirxahlıq, həmrəylik kimi ali mənəvi dəyərlərlə vəhdətini əyani şəkildə təcəssüm etdirir, eyni zamanda xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə və zəngin milli-mənəvi dəyərlərinə möhkəm bağlılığını göstərir.

Sizin müdrik rəhbərliyinizlə Azərbaycan beynəlxalq miqyasda böyük nüfuz qazanmış və söz sahibinə çevrilmişdir. Bu gün ölkəmiz dünyada etibarlı və ciddi tərəfdaş kimi tanınır, müstəqil siyasət həyata keçirir, sülhə, sabitliyə, əməkdaşlığa mühüm töhfələr verir.

Hörmətli cənab Prezident, Sizin rəhbərliyinizlə qazanılan möhtəşəm zəfərlər xalqımızla yanaşı, xaricdə yaşayan bütün azərbaycanlılar tərəfindən də böyük qürurla, sevinclə və minnətdarlıqla qarşılanır.

Bu xoş fürsətdən istifadə edərək, Zati-alinizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə müvəffəqiyyətlər, Azərbaycan xalqına davamlı sülh, rifah və tərəqqi arzulayırıq.

**Yüksək hörmət və ehtiramla,**

***Arif QULİYEV,***
***"Ukrayna Azərbaycanlıları Alimlər Şurası" İctimai Təşkilatının sədri, hüquq elmləri doktoru, diplomat, Ukraynanın Əməkdar təhsil işçisi, Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, Ukrayna Ali Təhsil Milli Elmlər Akademiyasının akademiki***

# “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi və bundan irəli gələrək bəzi məsələlərin tənzimlənməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin rəqabətqabiliyyətliliyinin artırılması və yüksək əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin sürətləndirilməsi tədbirləri hesabına Azərbaycan Respublikasının ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsi məqsədilə və “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

**1** “Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) təsdiq edilsin *(əlavə olunur).*

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. aşağıdakılar barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin:

2.1.1. üç ay müddətində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin təklifləri əsasında kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsində normativ hüquqi bazanın təkmilləşdirilməsi barədə;

2.1.2. altı ay müddətində Dövlət Proqramının icrası çərçivəsində buğda, pambıq və heyvandarlıq məhsullarının istehsalı təsərrüfatlarının yaradılması nəzərdə tutulan ərazi vahidlərində torpaqların kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi barədə;

2.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini və icrasına nəzarəti həyata keçirsin;

2.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3** Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi:

3.1. buğda, pambıq və heyvandarlıq məhsullarının istehsalı təsərrüfatlarının yaradılması nəzərdə tutulan ərazi vahidlərinin siyahısını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Sərəncamın 2.1.2-ci yarımbəndində nəzərdə tutulan təsərrüfatların kredit təşkilatlarından manatla aldıqları kreditlər üzrə “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyəti vasitəsilə faiz subsidiyalarının verilməsi və investisiya layihələrinin dəyərinin subsidiyalaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. müasir texnologiyaların tətbiq edildiyi, yem bazasına malik olan və cins heyvanların və ya balıqların saxlanıldığı təsərrüfatların və tədarükçülərin rezident banklar və bank olmayan kredit təşkilatlarından 2027-ci ildən başlayaraq 5 (beş) il müddətində manatla aldıqları kreditlərə hesablanmış faizlərin, həmçinin icra edilmiş investisiya layihələrinin dəyərinin “Azərbaycan Biznesinin İnkişafı Fondu” Açıq Səhmdar Cəmiyyətinin vəsaiti hesabına subsidiyalaşdırılması üçün tədbirlər görsün.

**5** Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi ölkə üzrə bütün heyvandarlıq təsərrüfatlarında mövcud olan iribuynuzlu və xırdabuynuzlu heyvanların birdəfəlik identifikasiyasının dövlət büdcəsinin vəsaiti hesabına aparılmasını, müvafiq məlumatların “Avtomatlaşdırılmış Qida Təhlükəsizliyi” informasiya sisteminə daxil edilməsini və “Elektron kənd təsərrüfatı” informasiya sisteminə ötürülməsini təmin etsin.

**6** Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi bu Sərəncamın 2.1.2-ci yarımbəndində nəzərdə tutulan təsərrüfatların su təminatının təkmilləşdirilməsi məqsədilə zəruri tədbirlər görsün.

**7** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**8** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə birlikdə Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin, dövlət investisiya proqramlarının tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 25 may 2026-cı il**

---

*Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 25 may tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

### 1. Qısa xülasə

“Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı” (bundan sonra – Dövlət Proqramı) Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrası ilə əlaqədar hazırlanmışdır.

Dövlət Proqramı 2026–2030-cu illərdə aqrar sahədə dayanıqlı inkişafın təmin edilməsini, intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidin sürətləndirilməsini, aqrar sahədə dəyər zəncirlərinin inkişaf etdirilməsini, fermerlərin müasir aqrar xidmətlərə çıxış imkanlarının genişləndirilməsini, eləcə də balıqçılıq və akvakultura sahələrinin inkişafını nəzərdə tutur.

Bu çərçivədə Dövlət Proqramında aqrar sahənin resurs təminatının gücləndirilməsi, su və torpaq ehtiyatlarından səmərəli istifadənin təşviqi, aqrar təhsil, elm və innovasiya sahələrinin inkişaf etdirilməsi, aqrar-emal və logistika infrastrukturunun genişləndirilməsi, subsidiya və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, rəqəmsallaşma təşəbbüslərinin dəstəklənməsi, habelə balıqçılıq və akvakultura sahəsində institusional və istehsal potensialının artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi müəyyən edilmişdir.

Dövlət Proqramının icrası nəticəsində aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixrac potensialının yüksəldilməsi, müasir və intensiv istehsal texnologiyalarının tətbiqinin genişləndirilməsi, kənd yerlərində dayanıqlı məşğulluq və gəlir imkanlarının artırılması, ərzaq təhlükəsizliyinin və ekoloji dayanıqlılığın möhkəmləndirilməsi, eləcə də kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin innovativ, yüksək məhsuldarlığa əsaslanan və rəqabətqabiliyyətli inkişaf modelinə keçidinin təmin edilməsi nəzərdə tutulur.

### 2. Qlobal trendlər

Dünyada əhalinin sayının artması, iqlim dəyişiklikləri, urbanizasiya proseslərinin sürətlənməsi, təbii resurslara təzyiqin və qlobal ticarətdə qeyri-müəyyənliklərin artması aqrar və ərzaq sistemləri üzrə mövcud çağırışların daha da dərinləşməsinə səbəb olmuşdur.

Qabaqcıl beynəlxalq təcrübə göstərir ki, aqrar sahədə dayanıqlı inkişafın təmin olunması, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi və rəqabətqabiliyyətliliyin artırılması məqsədilə məhsuldarlığın yüksəldilməsi, rəqəmsal transformasiya, dəyər zənciri yanaşmasının inkişaf etdirilməsi, iqlimə uyğun və resursqoruyucu texnologiyaların tətbiqi əsas inkişaf istiqamətlərinə çevrilmişdir.

Aşağıdakı beynəlxalq meyillər aqrar və ərzaq sistemlərinin transformasiyası üzrə müasir yanaşmaların əhəmiyyətini göstərir:

▪ dəyər zənciri yanaşmasının genişlənməsi – Niderland, Danimarka və Almaniya kimi ölkələrdə kənd təsərrüfatı məhsullarının istehsalı, emalı, logistikası və satışının vahid dəyər zənciri əsasında təşkili əlavə dəyərin və ixrac potensialının artırılmasının əsas amillərindən biri hesab olunur;

▪ intensiv və yüksək məhsuldarlığa əsaslanan istehsal modelinə keçid – İsrail və ABŞ kimi ölkələrdə innovativ texnologiyaların və resursqoruyucu yanaşmaların tətbiqi məhsuldarlığın yüksəldilməsini təmin edir;

▪ rəqəmsal və “ağıllı kənd təsərrüfatı” həllərinin tətbiqi – ABŞ, Yaponiya və Cənubi Koreyada sensor sistemləri, aqrodronlar, peyk müşahidə texnologiyaları və süni intellekt əsaslı idarəetmə həlləri aqrar sektorda geniş tətbiq olunur;

▪ su və torpaq resurslarının dayanıqlı idarə olunması və aşağıkarbonlu istehsal modelinə keçid – İsrail, Avstraliya və Avropa İttifaqı ölkələrində suvarma səmərəliliyinin artırılması, torpaq münbitliyinin qorunması, karbon emissiyalarının azaldılması və ekoloji təmiz istehsal metodlarının təşviqi prioritet istiqamətlərdən birinə çevrilmişdir;

▪ balıqçılıq və akvakultura sektorunun inkişafı – Norveç, Çin və Vyetnamda intensiv akvakultura texnologiyalarının tətbiqi və emal-logistika infrastrukturunun inkişafı hesabına balıq məhsulları istehsalı artırılır.

BMT-nin proqnozlarına görə dünyada əhalinin sayının 2030-cu ildə 8,5 milyard nəfərə, 2050-ci ildə isə 9,7 milyard nəfərə çatacağı gözlənilir. Bu səbəbdən qlobal ərzaq tələbatının qarşılanması məqsədilə 2050-ci ilədək ərzaq istehsalının hazırkı səviyyə ilə müqayisədə təxminən 50 faiz artırılması tələb olunur.

Bu baxımdan, FAO-nun yanaşmaları və qlobal dayanıqlı inkişaf prinsipləri məhsuldarlığın artırılmasını, təbii resursların qorunmasını, ərzaq təhlükəsizliyinin gücləndirilməsini, iqlim dəyişikliklərinə uyğunlaşma və kənd yerlərində dayanıqlı gəlir və məşğulluq imkanlarının genişləndirilməsini aqrar siyasətin əsas prioritetləri kimi müəyyən edir.

### 3. Mövcud vəziyyətin təhlili

2015–2025-ci illərdə kənd təsərrüfatı, balıqçılıq və aqrar-emal sahələrində davamlı inkişaf müşahidə olunmuşdur. Bu dövrdə kənd təsərrüfatı məhsulları istehsalı real olaraq 37,8 faiz artmış, o cümlədən bitkiçilik məhsulları istehsalı 48,2 faiz, heyvandarlıq məhsulları istehsalı isə 29,6 faiz yüksəlmişdir. Balıqçılıq məhsullarının istehsalı 2,7 dəfə artmışdır. Qeyd olunan dövr ərzində aqrar-emal sənayesində yüksək artım qeydə alınmışdır. Xüsusilə qida, içki, tütün və toxuculuq sənayesində istehsal həcmləri əhəmiyyətli dərəcədə artmışdır.

Aqrar sahədə həyata keçirilmiş dövlət dəstəyi tədbirləri nəticəsində pambıqçılıq, tütünçülük, üzümçülük və şərabçılıq kimi ənənəvi sahələrdə istehsal və ixrac potensialı artmışdır. 2015–2025-ci illərdə ərzaq məhsullarının və içkilərin ixracı təxminən 62,8 faiz yüksəlmişdir. Eyni zamanda, bir sıra əsas məhsullar üzrə özünütəminetmə səviyyəsi yaxşılaşmış, meyvə-tərəvəz və yumurta üzrə tam özünütəminetmə səviyyəsinə nail olunmuşdur. Ət, süd, balıq və kartof məhsulları üzrə də özünütəminetmə səviyyəsində müsbət dinamika müşahidə olunmuşdur.

Son illərdə aqroparkların yaradılması, iri təsərrüfatçılıq modelinin inkişafı və kənd təsərrüfatında kooperasiya mexanizmlərinin təşviqi nəticəsində müasir texnologiyaların tətbiqi, məhsuldarlığın artırılması və ixracyönümlü istehsal imkanları genişlənmişdir. Aqrar sahədə istehsal, emal və logistika zəncirləri arasında inteqrasiyanın gücləndirilməsi əlavə dəyər yaradan fəaliyyətin inkişafına şərait yaratmışdır.

Ərzaq təhlükəsizliyinin və aqrar infrastrukturun gücləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Regionlarda ümumi tutumu 400 min ton olan soyuducu anbarlar, 1,9 milyon ton tutuma malik taxıl elevatorları və logistika infrastrukturu yaradılmış, meliorasiya tədbirləri nəticəsində 483 min hektar sahədə su təminatı yaxşılaşdırılmış, 204 min hektar suvarılan torpaq sahəsi istifadəyə verilmişdir. Bununla yanaşı, müasir suvarma sistemlərinin tətbiqi genişləndirilmişdir.

Fermerlərin istehsal vasitələrinə çıxış imkanlarının artırılması məqsədilə kənd təsərrüfatı texnikalarının lizinq mexanizmləri genişləndirilmiş və 2005–2025-ci illərdə ümumilikdə 96 mindən çox kənd təsərrüfatı texnikası lizinqə verilmişdir. Gübrə və pestisidlərlə təminat səviyyəsinin yüksəldilməsi, eləcə də yerli gübrə istehsalının inkişaf etdirilməsi aqrar istehsalın dayanıqlığının gücləndirilməsinə töhfə vermişdir.

Son illərdə aqrar sahədə institusional və texnoloji transformasiya prosesləri sürətlənmişdir. “Elektron kənd təsərrüfatı” informasiya sisteminin (EKTİS) tətbiq sahəsi genişləndirilmiş, subsidiyaların verilməsi tam rəqəmsallaşdırılmışdır. Aqrar sığorta sahəsində dövlət–özəl tərəfdaşlığı modelinə əsaslanan yeni idarəetmə mexanizmi formalaşdırılmış, aqrar ixtisaslar üzrə ali təhsil alanların sayı artmışdır. Eyni zamanda, ağıllı istixanalar, sensor sistemləri və aqrodronlar kimi innovativ texnologiyaların tətbiqi genişlənməyə başlamışdır.

Bununla belə, aqrar və ərzaq sistemlərinin uzunmüddətli dayanıqlı inkişafı baxımından bir sıra çağırışlar aktuallığını qoruyur. İqlim dəyişikliklərinin təsirinin güclənməsi və su resursları üzrə təzyiqlərin artması resurslardan daha səmərəli istifadəni, iqlimə davamlı aqrar istehsal modelinə keçidi və məhsuldarlığın yüksəldilməsini zəruri edir. Eyni zamanda, torpaq sahələrinin parçalanmış strukturu və kiçik təsərrüfatların üstünlük təşkil etməsi müasir texnologiyaların tətbiqini, istehsalın səmərəliliyinin yüksəldilməsini və dəyər zənciri üzrə inteqrasiyanı məhdudlaşdıran əsas amillərdən biri olaraq qalır.

Qlobal ərzaq bazarlarında qeyri-sabitlik və təchizat zəncirlərində risklərin artması daxili ərzaq təhlükəsizliyinin daha da gücləndirilməsini strateji zərurətə çevirmişdir. Bununla yanaşı, aqrar istehsalda yüksək əlavə dəyər yaradan emal və ixracyönümlü fəaliyyətin stimullaşdırılması, fermerlərin maliyyə resurslarına və müasir texnologiyalara çıxışı imkanlarının artırılması, aqrar-elmi tədqiqat və innovasiya potensialının gücləndirilməsi, eləcə də kənd yerlərində dayanıqlı məşğulluq imkanlarının genişləndirilməsi qarşıdakı dövrün əsas prioritetləri sırasında yer alır.

Bu baxımdan, yüksək məhsuldarlığa malik, əlavə dəyər və ixracyönümlü inkişaf modelinə keçidin təmin edilməsi zəruridir. Aqrar sahədə inkişafın əsas mənbəyi məhsuldarlıq, texnologiya və innovasiya əsaslı intensiv inkişaf olacaqdır. Bu məqsədlə kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrində resurslardan səmərəli istifadəyə əsaslanan müasir və iqlimə davamlı istehsal modelinin formalaşdırılması, aqrar-emal və logistika infrastrukturunun inkişaf etdirilməsi, eləcə də ərzaq təhlükəsizliyinin və ixrac potensialının gücləndirilməsi istiqamətində kompleks və əlaqələndirilmiş dövlət siyasətinin davam etdirilməsi zəruridir.

### 4. Hədəf göstəriciləri

| Əsas hədəf indikatorları | Ölçü vahidi | Baza (2025-ci il) | Hədəf (2026–2030-cu illər üzrə ortaillik artım) |
|---|---|---|---|
| Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsində yaradılan ümumi daxili məhsulun artımı | % | 0,9 | azı 2,0 |
| Kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracının həcmi | mlrd. ABŞ dolları | 1,5 | 6 |

| Alt-hədəf indikatorları | Ölçü vahidi | Baza (2025-ci il) | Hədəf (2030-cu il) |
|---|---|---|---|
| **Bitkiçilik** | | | |
| Müasir suvarma sistemləri tətbiq olunan sahələr | min ha | 130 | ~300 |
| İntensiv meyvə bağlarının sahəsi | min ha | 50 | ~70 |
| İstixana komplekslərinin sahəsi | ha | 1 500 | ~2 000 |
| İxtisaslaşmış rayonlar üzrə buğdanın məhsuldarlığı | sent/ha | 40,3 | ~50 |
| İxtisaslaşmış rayonlar üzrə pambığın məhsuldarlığı | sent/ha | 36,1 | ~50 |
| Konsolidasiya tətbiq edilən sahə (pilot olaraq) | min ha | - | ~20 |
| Kənd təsərrüfatı təyinatlı soyuducu anbarların həcmi | min ton | 400 | ~500 |
| Taxıl silolarının həcmi | min ton | 1 900 | ~2 050 |
| Kiçik şərabçılıq təsərrüfatlarının sayı | ədəd | 5 | ~20 |
| **Heyvandarlıq** | | | |
| Cins heyvanların (iribuynuzlu) ümumi sürüdə payı | % | 2,5 | ~10 |
| İxtisaslaşmış aqropark və yarım intensiv təsərrüfatlarda xırdabuynuzlu heyvanların sayının artırılması | min baş | - | ~670 |
| Kəsilmiş çəkidə mal əti istehsalında artım | % | - | azı 20 |
| Süd istehsalında artım | % | - | azı 10 |
| Kəsilmiş çəkidə qoyun əti istehsalında artım | % | - | azı 9 |
| Quş əti istehsalında artım | % | - | azı 30 |
| Yumurta istehsalında artım | % | - | ~27 |
| Akvakultura sahəsi üzrə istehsal həcmi | ton | 3 400 | ~7 700 |
| **Digər** | | | |
| Aqrar sahədə ixtisaslar üzrə ikili diplom proqramları ilə məzun olanların ümumi sayı | nəfər | 46 | azı 500 |
| Aqrar sığorta xidmətləri ilə təmin edilən sahələr | min ha | 386 | azı 1 000 |
| Aqrar sığorta xidmətləri ilə təmin edilən heyvanların sayı | min baş | 6,9 | ~100 |
| Rəqəmsal xidmətlər vasitəsilə göstərilən aqrar dövlət dəstəyi xidmətlərinin payı | % | 55 | 100 |

### 1. Dövlət Proqramının məqsədləri

5.1. Dövlət Proqramının məqsədləri aşağıdakılardır:

5.1.1. aqrar sahənin dayanıqlı və rəqabətqabiliyyətli inkişafının təmin edilməsi;

5.1.2. ərzaq təhlükəsizliyinin gücləndirilməsi və daxili istehsal potensialının artırılması;

5.1.3. aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixracyönümlülüyün artırılması;

5.1.4. aqrar sahədə innovasiya, rəqəmsallaşma və insan kapitalının inkişaf etdirilməsi;

5.1.5. balıqçılıq və akvakultura sahələrinin inkişaf etdirilməsi.

### 2. Dövlət Proqramının prioritet istiqamətləri

6.1. Dövlət Proqramında aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

6.1.1. aqrar sahədə resurs səmərəliliyinə, iqlim dayanıqlılığına və ekoloji tarazlığa əsaslanan inkişaf modelinin formalaşdırılması;

6.1.2. aqrar xidmətlərə, maliyyə resurslarına və innovativ texnologiyalara çıxış imkanlarının genişləndirilməsi;

6.1.3. dəyər zənciri inteqrasiyasına əsaslanan ixracyönümlü aqrobiznesin inkişaf etdirilməsi;

6.1.4. aqrar sahədə müasir idarəetmə, standartlaşdırma və insan kapitalının inkişaf etdirilməsi;

6.1.5. balıqçılıq və akvakultura sahəsində dayanıqlı istehsal və bazar potensialının gücləndirilməsi.

*(ardı 7-ci səhifədə)*

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 6-cı səhifədə)*

6.2. Bu prioritet istiqamətlər üzrə məqsədlərə aşağıdakı tədbirlər vasitəsilə nail olunması nəzərdə tutulur:

**6.2.1. torpaq resurslarının qorunması və ondan səmərəli istifadə olunması:**

**6.2.1.1. əsaslandırma:**

Azərbaycan Respublikası məhdud torpaq ehtiyatlarına malik ölkələrdən biri olduğundan kənd təsərrüfatı təyinatlı torpaqların qorunması və ondan səmərəli istifadənin təmin edilməsi aqrar istehsalın dayanıqlı inkişafı baxımından strateji əhəmiyyət daşıyır.

Eyni zamanda, torpaq ehtiyatlarının bir hissəsi müxtəlif dərəcədə deqradasiyaya məruz qalmış, torpaq sahələrinin parçalanmış strukturu və münbitliyin azalması torpaqdan istifadənin səmərəliliyinə mənfi təsir göstərmişdir;

**6.2.1.2. görüləcək tədbirlər:**

6.2.1.2.1. kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunması məqsədilə interaktiv nəzarət mexanizminin tətbiqi;

6.2.1.2.2. kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin pozulması hallarında bərpayönümlü (rekultivasiya) tədbirlərin görülməsi mexanizminin yaradılması və tətbiqi;

6.2.1.2.3. torpaqların konsolidasiyası mexanizminin yaradılması və pilot layihə olaraq tətbiqi;

6.2.1.2.4. əkin sahələrinin aqrokimyəvi göstəricilər əsasında xəritələşdirilməsi;

6.2.1.2.5. torpaq analiz sisteminin müasirləşdirilməsi;

6.2.1.2.6. örüş və otlaq sahələrinin effektiv idarə edilməsi sisteminin yaradılması və münbitliyinin bərpası;

**6.2.1.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.1.3.1. kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunmasına nəzarət mexanizminin tətbiqinə başlanılması;

6.2.1.3.2. bərpayönümlü (rekultivasiya) tədbirlərin görülməsi nəticəsində torpaqların münbitliyinin artırılması;

6.2.1.3.3. seçilmiş pilot rayonlarda torpaqların konsolidasiyası və suvarma şəbəkələrinin qurulması üzrə yeni modelin tətbiqi;

6.2.1.3.4. ölkə üzrə əkin sahələrinin aqrokimyəvi xəritələrinin hazırlanması;

6.2.1.3.5. ümumilikdə 11 dövlət laboratoriyasının texniki müasirləşdirilməsinin başa çatdırılması;

6.2.1.3.6. ümumilikdə 480 min ha örüş və otlaq sahəsinin münbitliyinin yaxşılaşdırılması;

**6.2.1.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Torpaq resurslarının idarə olunması sahəsində aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın təşkili, normativ hüquqi bazanın təkmilləşdirilməsi və inzibati prosedurların formalaşdırılması prosesində gecikmələrlə bağlı risklər mövcuddur.

Bu risklərin azaldılması məqsədilə aidiyyəti qurumların nümayəndələrindən ibarət işçi qrupların yaradılması, məlumat mübadiləsinin təkmilləşdirilməsi və rəqəmsal monitorinq alətlərinin tətbiqi nəzərdə tutulur.

**6.2.2. Suvarma suyundan səmərəli istifadə mexanizmlərinin inkişaf etdirilməsi:**

**6.2.2.1. əsaslandırma:**

Azərbaycan Respublikası məhdud su ehtiyatlarına malik ölkələrdən biri olduğundan suvarma suyundan səmərəli istifadə aqrar istehsalın dayanıqlı inkişafı və məhsuldarlığın artırılması baxımından xüsusi əhəmiyyət daşıyır. Əkin sahələrinin böyük hissəsinin suvarılan olması, su ehtiyatları üzrə təzyiqlərin artması və iqlim dəyişikliklərinin təsirləri su təminatının yaxşılaşdırılmasını və suvarma sistemlərinin təkmilləşdirilməsini zəruri edir.

Eyni zamanda, suvarma sistemlərində yüksək su itkiləri, təsərrüfatdaxili şəbəkələrin köhnəlməsi və müasir suvarma texnologiyalarının tətbiq səviyyəsinin məhdud olması su ehtiyatlarından istifadənin səmərəliliyinə mənfi təsir göstərir;

**6.2.2.2. görüləcək tədbirlər:**

6.2.2.2.1. müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi;

6.2.2.2.2. suvarma suyunun keyfiyyət monitorinqi və idarəetmə sisteminin yaradılması;

6.2.2.2.3. suvarma suyunun və təsərrüfatdaxili suvarma şəbəkəsinin idarə edilməsi üzrə institusional potensialının gücləndirilməsi;

**6.2.2.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.2.3.1. ölkə üzrə əkin sahələrinin 300 min hektarında müasir suvarma sistemlərinin tətbiqi;

6.2.2.3.2. əsas irriqasiya və meliorasiya şəbəkələri üzrə su keyfiyyəti və monitorinqi sisteminin tətbiqi;

6.2.2.3.3. su resurslarını səmərəli idarəetmə sisteminin yaradılması;

**6.2.2.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Meliorasiya və irriqasiya infrastrukturunun yenilənməsi üçün maliyyə resurslarının məhdudluğu, təsərrüfatlara qədər olan su və elektrik infrastrukturunun çəkilməsində gecikmələr və müasir suvarma texnologiyalarının tətbiqi üzrə çətinliklər risk olaraq qalır.

Bu risklərin azaldılması məqsədilə maliyyə resurslarının prioritet istiqamətlər üzrə səmərəli bölgüsü, təsərrüfatdaxili suvarma şəbəkələrinin inkişafı, müasir suvarma texnologiyalarının tətbiqi ilə bağlı maarifləndirmə tədbirlərinin genişləndirilməsi və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

**6.2.3. Ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə dayanıqlı aqrar istehsal modelinin gücləndirilməsi:**

**6.2.3.1. əsaslandırma:**

Kənd təsərrüfatı fəaliyyəti ətraf mühitə və təbii resurslara birbaşa təsir göstərdiyindən aqrar sahədə dayanıqlı inkişaf prinsiplərinin tətbiqi xüsusi əhəmiyyət daşıyır.

Eyni zamanda, iqlim dəyişiklikləri, temperatur artımı, quraqlıq və təbii resurslar üzrə təzyiqlərin artması da öz növbəsində aqrar istehsalın dayanıqlılığına mənfi təsir göstərir;

**6.2.3.2. görüləcək tədbirlər:**

6.2.3.2.1. kənd təsərrüfatında bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi;

6.2.3.2.2. aqrar sektorda istilik effekti yaradan emissiyaların monitorinqi və hesabatlıq sisteminin yaradılması;

6.2.3.2.3. ölkədə ənənəvi ərzaq və kənd təsərrüfatı sistemlərinin dayanıqlılığının təmin edilməsi üzrə pilot layihənin həyata keçirilməsi;

6.2.3.2.4. iqlim dəyişikliklərinə həssas regionlar üzrə erkən xəbərdarlıq sisteminin qurulması;

6.2.3.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.3.3.1. bərpa olunan mənbələrdən istifadə edən təsərrüfatların sayının 15-ə çatdırılması;

6.2.3.3.2. aqrar sektorda istilik effekti yaradan emissiyaların monitorinqi və hesabatlıq sisteminin formalaşması;

6.2.3.3.3. ölkə üzrə azı 3 Milli Əhəmiyyətli Aqrar İrs Sistemi (NİAHS) məntəqəsinin müəyyən edilməsi;

6.2.3.3.4. prioritetləşmiş regionlar üzrə erkən xəbərdarlıq sistemlərinin fəaliyyətinin təmin edilməsi;

**6.2.3.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar sahədə dayanıqlı inkişaf mexanizmlərinin tətbiqi zamanı institusional və maliyyə çətinliklərinin yaranması riski mövcuddur.

Bu risklərin azaldılması məqsədilə aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın gücləndirilməsi, fəaliyyət ardıcıllığının müəyyən edilməsi, beynəlxalq təcrübənin tətbiqi və yaşıl texnologiyaların təşviqi tədbirlərinin genişləndirilməsi nəzərdə tutulur.

**6.2.4. Toxumçuluq və damazlıq potensialının inkişaf etdirilməsi:**

**6.2.4.1. əsaslandırma:**

Toxumçuluq və damazlıq kənd təsərrüfatında məhsuldarlığın, keyfiyyət göstəricilərinin və rəqabətqabiliyyətliliyin artırılması baxımından böyük əhəmiyyət daşıyır. Hazırda toxumçuluq sahəsində normativ hüquqi bazanın və keyfiyyətə nəzarət mexanizmlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasına, damazlıq işi üzrə isə uçot, seleksiya və idarəetmə sistemlərinin təkmilləşdirilməsinə ehtiyac vardır.

Eyni zamanda, seleksiya-damazlıq proqramlarının məhdud tətbiqi, damazlıq heyvanların uçot sisteminin tam formalaşmaması və peşəkar mütəxəssis potensialının aşağı olması sahənin inkişafını məhdudlaşdıran əsas amillərdəndir;

**6.2.4.2. görüləcək tədbirlər:**

6.2.4.2.1. toxumçuluğun (o cümlədən tingçiliyin) inkişafı üzrə hüquqi, institusional və dəstək tədbirlərinin hazırlanması və icra edilməsi;

6.2.4.2.2. toxumçuluq (o cümlədən tingçilik) sahəsində keyfiyyətə nəzarət sisteminin gücləndirilməsi;

6.2.4.2.3. bitkiçilik sahəsində seleksiya nailiyyətlərinin uçotu və onlara nəzarət sisteminin gücləndirilməsi, seleksiya proqramlarının icrası;

6.2.4.2.4. heyvandarlıq və balıqçılıq sahəsində seleksiya və damazlıq proqramlarının icrası;

6.2.4.2.5. yerli heyvan cinsləri və bitki növlərinin genetik ehtiyatları üzrə təkmil genetik materiallar banklarının (kolleksiyaların) yaradılması;

6.2.4.2.6. milli atçılıq irsinin qorunması;

**6.2.4.3. gözlənilən nəticə və nəticə indikatorları:**

6.2.4.3.1. idxal olunan toxumlara dövlət nəzarətinin həyata keçirilməsi;

6.2.4.3.2. toxum istehsalının artırılması, bu sahədə özünütəminatın yaxşılaşdırılması;

6.2.4.3.3. toxumçuluq sahəsində qurulmuş mütərəqqi sistem vasitəsilə keyfiyyətə və dövriyyəyə nəzarətin təmin edilməsi;

6.2.4.3.4. seleksiya nailiyyətlərinin dövlət reyestrinin aparılması, müəlliflik və patent hüquqlarının qorunması ilə bağlı təkmil və funksional sistemin formalaşdırılması, seleksiya proqramlarının müasir metodlar tətbiq edilməklə həyata keçirilməsi;

6.2.4.3.5. heyvandarlıq və balıqçılıq sahəsində müasir metodlara əsaslanan seleksiya və damazlıq proqramlarının həyata keçirilməsi;

6.2.4.3.6. ölkədə mövcud olan, xüsusilə də itmək təhlükəsi olan aborigen heyvan cinsləri və bitki növləri üzrə genetik materialların banklarının (kolleksiyaların) və bununla bağlı məlumat bazalarının yaradılması;

6.2.4.3.7. cins atların genetik analizlərinin aparılması, işğaldan azad edilmiş ərazilərdə atçılıq zavodunun yaradılması;

6.2.4.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

Toxumçuluq və damazlıq sahələrinin inkişaf etdirilməsi üzrə tədbirlərin həyata keçirilməsi zamanı peşəkar mütəxəssis potensialının məhdudluğu və institusional çatışmazlıqlar risk olaraq qalır.

Bu risklərin azaldılması məqsədilə beynəlxalq təşkilatlarla, elmi tədqiqat institutları və aidiyyəti tərəfdaşlarla əməkdaşlığın genişləndirilməsi, mütəxəssis hazırlığı proqramlarının gücləndirilməsi və müasir idarəetmə təcrübələrinin tətbiqi nəzərdə tutulur.

**6.2.5. Baytarlıq və fitosanitar xidmətlər sisteminin gücləndirilməsi:**

**6.2.5.1. əsaslandırma:**

Baytarlıq və fitosanitar xidmətləri kənd təsərrüfatında məhsuldarlığın, ərzaq təhlükəsizliyinin və ixrac potensialının təmin olunmasında mühüm rol oynayır. Son illərdə bu sahələrdə laboratoriya infrastrukturu yenilənmiş, institusional potensialın gücləndirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Bununla yanaşı, heyvan sağlamlığı və bitki mühafizəsi üzrə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, baytarlıq və fitosanitar xidmətlərə çıxış imkanlarının artırılması, zərərli orqanizmlərin erkən aşkarlanması və rəqəmsal monitorinq sistemlərinin tətbiqinin genişləndirilməsi, eləcə də heyvanların dəqiq uçotunun aparılması zəruridir;

**6.2.5.2. görüləcək tədbirlər:**

6.2.5.2.1. heyvandarlıq sahəsində normativ hüquqi aktların yenilənməsi;

6.2.5.2.2. heyvan sağlamlığı üzrə göstərilən dövlət xidmətlərinin, eləcə də baytarlıq preparatları ilə təminat, habelə xəstə heyvanların emal və utilizasiya infrastrukturunun inkişaf etdirilməsi;

6.2.5.2.3. bitkiçilik sahəsində zərərli orqanizmlərin aşkarlanması sisteminin tətbiqi;

6.2.5.2.4. inteqrir bitki mühafizə tədbirlərindən istifadənin genişləndirilməsi;

6.2.5.2.5. bitki mühafizə və fumiqasiya (zərərsizləşdirmə) işlərinin infrastruktur təminatının yaxşılaşdırılması;

6.2.5.2.6. ölkə üzrə bütün iribuynuzlu və xırdabuynuzlu heyvanların dövlət hesabına birdəfəlik identifikasiyasının təşkili və elektron uçotunun aparılması;

6.2.5.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.5.3.1. ölkədə heyvandarlıq və heyvan sağlamlığı üzrə beynəlxalq standartlara uyğun normativ hüquqi bazanın və texniki tənzimləmə sisteminin tətbiqi;

6.2.5.3.2. heyvan xəstəliklərinin monitorinqi və vaksin izlənməsi üzrə rəqəmsal sistemin formalaşdırılması və baytarlıq xidmətlərinə əlçatanlığın artırılması;

6.2.5.3.3. beynəlxalq təcrübə nəzərə alınmaqla, qurulmuş xəbərdarlıq və monitorinq sisteminin məlumatları əsasında zərərvericilər və xəstəliklər barədə vaxtında proqnoz verilməsi;

6.2.5.3.4. ölkə üzrə inteqrir mübarizə üsullarını tətbiq edən fermerlərin sayının artması;

6.2.5.3.5. bitki mühafizə və fumiqasiya (zərərsizləşdirmə) işinin icrasının və monitorinqinin təmin edilməsi üçün proqram təminatının və müvafiq infrastrukturun qurulması;

6.2.5.3.6. iribuynuzlu və xırdabuynuzlu heyvanların identifikasiyasının yekunlaşdırılması;

6.2.5.3.7. müvafiq sahədə beynəlxalq standartlara uyğun laboratoriya şəbəkəsinin formalaşdırılması;

**6.2.5.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Baytarlıq və fitosanitar xidmətlərin beynəlxalq standartlara uyğunlaşdırılması, rəqəmsal nəzarət sistemlərinin tətbiqi və xidmət keyfiyyətinin yüksəldilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi zamanı ixtisaslı kadr çatışmazlığı və institusional koordinasiya problemləri yarana bilər.

Bu risklərin azaldılması məqsədilə prioritet sahələr üzrə kadr hazırlığı proqramlarının genişləndirilməsi, beynəlxalq təşkilatlarla əməkdaşlığın gücləndirilməsi və aidiyyəti qurumlar arasında məlumat mübadiləsi və koordinasiya mexanizmlərinin təkmilləşdirilməsi nəzərdə tutulur.

**6.2.6. Aqrar maliyyə, sığorta və risk idarəetməsi mexanizmlərinin inkişaf etdirilməsi:**

**6.2.6.1. əsaslandırma:**

Son illərdə aqrar sahəyə investisiyaların həcmi artmış, xüsusilə qeyri-dövlət maliyyə mənbələrinin aqrar sektorda rolu genişlənmişdir. Bununla yanaşı, fermerlərin güzəştli kreditlərə, dövriyyə vəsaitlərinə və sığorta mexanizmlərinə çıxış imkanları məhdud olaraq qalır. Mövcud kredit məhsulları bir sıra hallarda kənd təsərrüfatı istehsalının xüsusiyyətlərinə tam uyğunlaşmır və aqrar istehsalçıların maliyyə dayanıqlılığına təsir göstərir.

Aqrar sığorta sahəsində dövlət–özəl tərəfdaşlığı modelinə əsaslanan yeni idarəetmə sistemi formalaşdırılmış, sığorta predmetlərinin və risklərin əhatə dairəsi genişləndirilmişdir. Kənd təsərrüfatında iqlim və bazar risklərinin artması aqrar sığorta mexanizmlərinin genişləndirilməsini və risklərin idarə olunması sisteminin təkmilləşdirilməsini zəruri edir;

**6.2.6.2. görüləcək tədbirlər:**

6.2.6.2.1. maliyyə institutlarının aqrar kreditləşmə ilə bağlı müraciətlərinin qiymətləndirilməsi imkanlarının gücləndirilməsi;

6.2.6.2.2. fermerlərin güzəştli kreditlərə çıxışının yaxşılaşdırılması, kredit, zəmanət və faiz subsidiyası mexanizmlərinin genişləndirilməsi;

6.2.6.2.3. Aqrar Kredit Kooperativlərinin (AKK) və onların ittifaqının yaradılması, fəaliyyətinin dəstəklənməsi;

6.2.6.2.4. aqrar istehsal və emal sektorunda tətbiq edilən güzəştli kreditləşmə mexanizmlərinin genişləndirilməsi;

6.2.6.2.5. aqrar sığorta və subsidiya mexanizmlərinin koordinasiyasının təmin edilməsi;

6.2.6.2.6. aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi;

6.2.6.2.7. "Aqrar sığorta" informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi;

6.2.6.2.8. aqrar sığorta sahəsi üzrə risk və zərərlərin qiymətləndirilməsi metodologiyasının və müstəqil ekspertlər institutunun inkişaf etdirilməsi;

6.2.6.2.9. aqrar sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlərə, predmet və risklərə münasibətdə diferensiallaşdırılması;

6.2.6.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.6.3.1. maliyyə institutlarının məlumat ehtiyaclarının ödənilməsi sisteminin formalaşdırılması;

6.2.6.3.2. maliyyə institutlarında aqrar sektor üzrə ixtisaslaşmış mütəxəssislərin sayının artırılması;

6.2.6.3.3. fermerlərin maliyyə resurslarına əlçatanlığının artırılması;

6.2.6.3.4. kollektiv kreditləşmə modeli əsasında fəaliyyət göstərən dayanıqlı aqrar kredit kooperativləri sisteminin formalaşdırılması;

6.2.6.3.5. aqrar istehsal və emal sektorunda prioritet istiqamətlər üzrə maliyyələşdirilmiş investisiya layihələrinin sayının artırılması;

6.2.6.3.6. subsidiya və aqrar sığorta mexanizmlərinin koordinasiya səviyyəsinin artırılması və sığorta ödənişlərinin operativliyinin təmin edilməsi;

6.2.6.3.7. aqrar sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərinin və risklərin sayının artması;

6.2.6.3.8. aqrar sığorta xidmətlərinin tam elektron formada icra edilməsi, əlçatanlığın artırılması;

6.2.6.3.9. aqrar sığorta sahəsi üzrə risk xəritələrinin hazırlanması, zərərlərin qiymətləndirilməsi metodologiyalarının tətbiqi;

6.2.6.3.10. aqrar sığorta sahəsində azı 100 müstəqil ekspertin fəaliyyət göstərməsi;

6.2.6.3.11. aqrar sahədə diferensiallaşdırılmış sığorta sisteminin tam tətbiq edilməsi;

**6.2.6.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar kreditləşmənin genişləndirilməsi və kredit-zəmanət mexanizmlərinin tətbiqi dövlətin maliyyə öhdəliklərinin artmasına səbəb ola bilər. Eyni zamanda, aqrar sığorta sistemindən istifadə səviyyəsinin aşağı olması və istehsalçıların sığorta mexanizmlərinə marağının az olması riskləri mövcuddur.

Bu risklərin azaldılması məqsədilə kredit və zəmanət mexanizmlərinin mərhələli tətbiqi, aşağı riskli təsərrüfat subyektlərinin prioritetləşdirilməsi, fermerlərin aqrar maliyyə və sığorta savadlılığının artırılması, habelə dövlət dəstəyi mexanizmləri üzrə məlumatlandırma tədbirlərinin genişləndirilməsi nəzərdə tutulur.

6.2.7. İnformasiya-məsləhət xidmətləri və innovasiya yayımı sisteminin inkişaf etdirilməsi:

6.2.7.1. əsaslandırma:

Son illərdə aqrar sahədə informasiya-məsləhət xidmətlərinin inkişafı istiqamətində müəyyən tədbirlər həyata keçirilmiş, elmi tədqiqat institutları, Aqrar Təlim Mərkəzi, ali təhsil müəssisələri və özəl sektor tərəfindən fermerlərə müxtəlif təlim və məsləhət xidmətləri göstərilmişdir. Eyni zamanda, beynəlxalq təcrübənin öyrənilməsi və müasir informasiya-məsləhət sisteminin formalaşdırılması istiqamətində layihələr icra olunmuşdur.

Bununla yanaşı, aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiyanın yetərli səviyyədə olmaması, fermerlərin ehtiyaclarının düzgün müəyyənləşdirilməsində çətinliklər və məlumatların effektiv çatdırılması sahəsində problemlər mövcuddur. Həmçinin, müasir informasiya texnologiyalarının tətbiqi yolu ilə xidmətlərin əlçatanlığının və əhatə dairəsinin genişləndirilməsinə ehtiyac vardır;

**6.2.7.2. görüləcək tədbirlər:**

6.2.7.2.1. aqrar informasiya-məsləhət sisteminin formalaşdırılması;

6.2.7.2.2. aqroekoloji məlumatlar əsasında bölgələrdə müxtəlif məhsullar üzrə ixtisaslaşmanın aparılması və fermerlərin məlumatlandırılması;

6.2.7.2.3. orqanik kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı fermerlərin məlumatlandırılması;

6.2.7.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.7.3.1. ölkə üzrə funksional informasiya-məsləhət xidmətləri şəbəkəsinin yaradılması;

6.2.7.3.2. ölkədə aqrar məhsullar üzrə ixtisaslaşmanın tamamlanması və fermerlərin məlumatlılıq səviyyəsinin artırılması;

6.2.7.3.3. orqanik kənd təsərrüfatı ilə bağlı nümunəvi təsərrüfat modellərinin formalaşdırılması;

6.2.7.3.4. fermerlərin orqanik təsərrüfatçılıqla bağlı məlumatlılıq səviyyəsinin artırılması;

**6.2.7.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Kiçik təsərrüfat subyektlərinin texniki bilik və rəqəmsal bacarıqlarının məhdud olması informasiya-məsləhət və innovasiya xidmətlərindən istifadənin genişlənməsini azalda bilər. Eyni zamanda, müasir informasiya texnologiyalarına əsaslanan xidmət sistemlərinə inteqrasiyanın aşağı səviyyədə qalması riski mövcuddur.

Bu risklərin azaldılması məqsədilə fermerlər arasında maarifləndirmə və təlim tədbirlərinin genişləndirilməsi, rəqəmsal platformalardan istifadəsinin təşviqi və məlumatlandırma fəaliyyətində EKTİS-in imkanlarından geniş istifadə nəzərdə tutulur.

**6.2.8. Aqrar-emal sənayesinin inkişaf etdirilməsi:**

**6.2.8.1. əsaslandırma:**

Son illərdə kənd təsərrüfatı məhsullarının emalı sənayesində istehsal həcmi artsa da, aqrar-emal sahəsində yaradılan əlavə dəyərin aqrar sahədə yaradılan əlavə dəyərə nisbəti hələ də aşağı səviyyədə qalır. Bu isə ölkədə aqrar-emal sənayesinin inkişafı və əlavə dəyər yaradan fəaliyyətin genişləndirilməsi üçün böyük potensialın mövcud olduğunu göstərir.

Eyni zamanda, aqrar sahədə intensiv texnologiyaların tətbiqi nəticəsində məhsuldarlığın artması emal və logistika infrastrukturunun daha sürətli inkişafını zəruri edir. Emal potensialının yetərli səviyyədə inkişaf etməməsi kənd təsərrüfatı məhsulları istehsalının genişləndirilməsi və əlavə dəyər yaradılması imkanları üçün məhdudlaşdırıcı amil kimi çıxış edə bilər;

**6.2.8.2. görüləcək tədbirlər:**

6.2.8.2.1. pambıq emalı sənayesinin inkişaf etdirilməsi;

6.2.8.2.2. bitki yağlarının istehsalı klasterinin formalaşdırılmasının təşviqi;

6.2.8.2.3. şərab istehsalının təşviqi;

6.2.8.2.4. meyvə-tərəvəz məhsullarının emalı sahələrinin inkişafının təşviqi;

6.2.8.2.5. süd emalı sahələrinin inkişafının təşviqi;

6.2.8.2.6. ət məhsulları emalı sahələrinin inkişafının təşviqi;

6.2.8.2.7. gön-dəri və yun xammalının emala yönəldilməsinin dəstəklənməsi;

6.2.8.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.8.3.1. pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artması;

6.2.8.3.2. azı 2 bitki yağı emalı zavodunun yaradılması;

6.2.8.3.3. kiçik butik tipli şərab istehsalçılarının sayının 20-yə çatdırılması;

6.2.8.3.4. emal edilən meyvə-tərəvəz məhsullarının həcminin davamlı artması;

6.2.8.3.5. emal edilən yerli südün həcminin artması;

6.2.8.3.6. ət və ət məhsulları istehsalının həcminin davamlı artması;

6.2.8.3.7. emal və ixrac edilən gön-dəri və yunun həcminin artması;

**6.2.8.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar-emal sənayesinə investisiya marağının məhdud olması, emal məhsulları üzrə ixrac bazarlarına çıxış imkanlarının zəifliyi və qlobal bazarlarda qiymət dəyişkənliyi bu sahənin inkişafına mənfi təsir göstərə bilər. Eyni zamanda, logistika və saxlanma infrastrukturunun kifayət qədər inkişaf etməməsi istehsal və emal zəncirində səmərəliliyin azalmasına səbəb ola bilər.

Bu risklərin azaldılması məqsədilə investisiya təşviqi mexanizmlərinin genişləndirilməsi, ixrac bazarlarının şaxələndirilməsi, habelə aqrar-emal sahəsində dövlət–özəl tərəfdaşlığı mexanizminin tətbiqi nəzərdə tutulur.

**6.2.9. Aqrar istehsal vasitələri sənayesinin inkişaf etdirilməsi:**

**6.2.9.1. əsaslandırma:**

Aqrar sektorun dayanıqlı inkişafının təmin olunması və məhsuldarlığın artırılması baxımından gübrə və yem istehsalı strateji əhəmiyyət daşıyır. Hazırda ölkədə azot tərkibli karbamid gübrəsi istehsal edilsə də, kənd təsərrüfatının artan tələbatının tam şəkildə yerli istehsal hesabına qarşılanması üçün istehsal imkanlarının genişləndirilməsinə ehtiyac vardır.

Eyni zamanda, heyvandarlıq sektorunda yem təminatında idxaldan asılılığın azaldılması məqsədilə yerli yem istehsalının təşviqi mühüm prioritet hesab edilir. Bu istiqamətdə yerli xammal bazasının genişləndirilməsi, yem istehsalı müəssisələrinin maddi-texniki təminatının gücləndirilməsi və istehsal həcminin artırılması heyvandarlıq təsərrüfatlarının dayanıqlı yem təminatına çıxışını yaxşılaşdıracaqdır;

6.2.9.2. görüləcək tədbirlər:

6.2.9.2.1. gübrə istehsalının təşviq olunması;

6.2.9.2.2. yem istehsalının təşviq olunması;

6.2.9.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.9.3.1. gübrə istehsalının artırılması və daxili tələbatın təminat səviyyəsinin yerli istehsal hesabına yüksəldilməsi;

6.2.9.3.2. yerli yem istehsalının və yem təminatında yerli istehsalın payının artırılması;

6.2.9.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

Gübrə və yem istehsalı sahəsində əsas risklərə yüksək investisiya xərcləri, xammal təminatında fasilələr, həmçinin istehsal texnologiyalarına çıxış imkanlarının məhdudluğu aid edilə bilər. Bununla yanaşı, idxal məhsulları ilə rəqabət və bazar dəyişkənliyi yerli istehsalın inkişaf tempinə təsir göstərə bilər.

Qeyd olunan risklərin neytrallaşdırılması məqsədilə investisiya təşviqlərinin tətbiqi, güzəştli maliyyələşmə və subsidiyalaşdırma mexanizmlərinin genişləndirilməsi, eləcə də yerli xammal bazasının gücləndirilməsi və logistika infrastrukturunun təkmilləşdirilməsi nəzərdə tutulur.

6.2.10. Aqrar sahədə logistika infrastrukturunun və təchizat sisteminin inkişaf etdirilməsi:

6.2.10.1. əsaslandırma:

Son illərdə dövlət dəstəyi hesabına regionlarda soyuducu anbarlar, taxıl elevatorları və digər logistika obyektləri yaradılmış, yol-nəqliyyat infrastrukturu inkişaf etdirilmiş və bu da kənd təsərrüfatı istehsalçılarının bazara çıxış imkanlarını yaxşılaşdırmışdır.

Bəzi kənd təsərrüfatı məhsulları üzrə mövsümi qiymət dəyişkənliyi, istehsalçı və pərakəndə satış qiymətləri arasında yüksək fərqlər, eləcə də məhsulların saxlanılmasında və satışında logistika məhdudiyyətləri qalmaqdadır. Mövcud anbar infrastrukturu bir sıra məhsullar üzrə kifayət etsə də, xüsusilə taxıl və tərəvəz məhsullarının saxlanılmasına və logistikasının genişləndirilməsinə ehtiyac vardır. Eyni zamanda, süd tədarükü və məhsul toplama sistemlərinin zəif inkişafı bəzi dövrlərdə istehsalçıların öz məhsullarını əlverişli bazar şərtləri ilə realizə etməsinə mane olur. Ərzaq məhsullarının dövlət sifarişi əsasında satınalma sisteminin funksionallığının gücləndirilməsi aqrar sahədə dayanıqlı və səmərəli təchizat sisteminin formalaşdırılmasına mühüm töhfə verə bilər;

6.2.10.2. görüləcək tədbirlər:

6.2.10.2.1. südtoplama məntəqələrinin logistika infrastrukturunun yaxşılaşdırılması və süd təchizatı zəncirinin dəstəklənməsi;

6.2.10.2.2. kənd təsərrüfatı təyinatlı soyuducu anbar şəbəkəsinin genişləndirilməsi;

6.2.10.2.3. taxıl saxlanması üzrə logistika sistemlərinin inkişaf etdirilməsi;

6.2.10.2.4. ərzaq məhsullarının dövlət sifarişi ilə satınalma sisteminin institusional və funksional baxımdan gücləndirilməsi;

6.2.10.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.10.3.1. regionlar üzrə süd təchizatı zəncirinin optimallaşdırılması və sənaye emalına yönəldilən süd həcminin artırılması;

6.2.10.3.2. regionlar üzrə soyuducu anbarlarının həcminin 100 min ton artırılması;

6.2.10.3.3. taxıl saxlanma həcminin azı 150 min kubmetr artırılması;

6.2.10.3.4. ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaiti hesabına satın alınması prosesində istehsalçı fermer və emalçılardan alış payının artırılması;

*(ardı 8-ci səhifədə)*

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 7-ci səhifədə)*

**6.2.10.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Logistika və bazar infrastrukturu layihələrinin yüksək investisiya tutumlu olması özəl sektorun bu sahəyə marağını məhdudlaşdıra bilər. Eyni zamanda, bəzi regionlarda infrastruktur obyektlərinin yaradılması əlavə maliyyə və texniki çətinliklərlə müşayiət oluna bilər.

Bu risklərin azaldılması məqsədilə dövlət–özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi, güzəştli maliyyələşdirmə və subsidiya alətlərinin genişləndirilməsi, habelə regionlar üzrə ehtiyacların mərhələli və prioritet əsasda qiymətləndirilməsi nəzərdə tutulur.

**6.2.11. İxracyönümlü aqrobiznes və aqropark modelinin inkişaf etdirilməsi:**

**6.2.11.1. əsaslandırma:**

Aqrar sektorda əlavə dəyərin artırılması, ixrac potensialının genişləndirilməsi və rəqabətqabiliyyətli aqrobiznes mühitinin formalaşdırılması baxımından ixracyönümlü istehsal və aqropark modelinin inkişafı strateji əhəmiyyət daşıyır. Hazırda kənd təsərrüfatı məhsullarının ixracında artım müşahidə olunsa da, ixracın əsasən məhdud sayda bazarlar üzrə cəmləşməsi diversifikasiya tədbirlərinin gücləndirilməsini zəruri edir. Eyni zamanda, yüksək əlavə dəyər yaradan məhsulların istehsalı və ixracı istiqamətində mövcud potensialdan tam istifadə olunmadığı müşahidə edilir və bu sahədə əhəmiyyətli inkişaf imkanları qalmaqdadır.

Aqroparkların müasir idarəetmə və istehsal modelləri əsasında inkişaf etdirilməsi, istixana və intensiv bağçılıq sahələrinin genişləndirilməsi, sertifikatlaşdırma və brendləşmə imkanlarının artırılması aqrar məhsulların beynəlxalq bazarlarda mövqeyinin gücləndirilməsinə xidmət edə bilər;

**6.2.11.2. görüləcək tədbirlər:**

6.2.11.2.1. ixracyönümlü aqrobizneslər üçün ixracın təşviqi üzrə ünvanlı dəstək mexanizminin yaradılması və icrası;

6.2.11.2.2. aqrar istehsal və emal müəssisələrinin kommunal infrastruktura çıxış imkanının artırılması;

6.2.11.2.3. istixana sahələrinin inkişafı üçün stimullaşdırma mexanizminin tətbiqi;

6.2.11.2.4. intensiv bağların genişləndirilməsinin dəstəklənməsi;

6.2.11.2.5. kənd təsərrüfatı məhsulları istehsalçılarının qlobal və regional bazarlarda qəbul edilən sertifikatları əldə etməsi məqsədilə subsidiya mexanizmlərinin formalaşdırılması və tətbiqi;

6.2.11.2.6. aqroparkların yeni inkişaf modelinə keçidinin dəstəklənməsi;

6.2.11.2.7. yerli aqrar məhsullarının brendləşdirilməsi;

6.2.11.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.11.3.1. qeyri-ənənəvi xarici bazarlara ixrac həcminin artırılması;

6.2.11.3.2. aqrar istehsal və emal müəssisələrinin enerji, su və qaz təminatı infrastrukturunun genişləndirilməsi və kommunal xidmətlərə çıxış imkanlarının artırılması;

6.2.11.3.3. 250 hektar sahədə yeni istixana qurulması (o cümlədən Şərqi Zəngəzurda 122 hektar), fəaliyyətini dayandırmış 250 hektar istixananın modernləşdirilməsi;

6.2.11.3.4. ölkə üzrə intensiv bağların sahəsinin 70 min hektara çatdırılması;

6.2.11.3.5. hər il azı 2 istehsalçının qlobal bazarlarda tanınan sertifikat almasının dəstəklənməsi;

6.2.11.3.6. aqroparklar üzrə istehsal həcminin artırılması, azı 5 aqroparkın ixracyönümlü fəaliyyətinin təmin edilməsi;

6.2.11.3.7. regional brend statusu əldə etmiş məhsulların sayının artırılması;

6.2.11.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

İxracyönümlü aqrobiznes və aqropark modelinin inkişafı zamanı əsas risklərə xarici bazarlarda rəqabətin güclənməsi, beynəlxalq standart və sertifikat tələblərinə uyğunlaşmada çətinliklər, logistika və kommunal infrastruktur məhdudiyyətləri, eləcə də investisiya və maliyyə resurslarına çıxış imkanlarının məhdudluğu aid edilə bilər. Bununla yanaşı, iqlim dəyişiklikləri istehsalın dayanıqlılığına təsir göstərə bilər.

Bu risklərin neytrallaşdırılması məqsədilə dövlət dəstəyi və subsidiya mexanizminin tətbiqinin genişləndirilməsi, sertifikatlarla bağlı maarifləndirmə tədbirlərinin həyata keçirilməsi, ixrac bazarlarının şaxələndirilməsi, eləcə də innovativ və resursqoruyucu texnologiyaların tətbiqinin təşviqi nəzərdə tutulur;

**6.2.12. Aqrar sahədə institusional və rəqəmsal idarəetmənin, data əsaslı qərarvermə sistemlərinin gücləndirilməsi:**

**6.2.12.1. əsaslandırma:**

Son illərdə aqrar sahədə dövlət xidmətlərinin rəqəmsallaşdırılması, məlumat bazalarının inteqrasiyası və elektron xidmətlərin genişləndirilməsi istiqamətində mühüm institusional islahatlar həyata keçirilmişdir. Subsidiyaların verilməsi prosesinin tam elektronlaşdırılması, EKTİS-in tətbiqi aqrar sahədə idarəetmənin səmərəliliyinin və şəffaflığının artırılmasına imkan yaratmışdır. Ötən dövr ərzində Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən qurumlarda həyata keçirilmiş institusional islahatlar idarəetmə və fəaliyyət səmərəliliyinin artırılmasına mühüm töhfə vermişdir.

Əldə olunmuş uğurlarla yanaşı, aqrar sahədə data əsaslı idarəetmə mexanizmlərinin genişləndirilməsi, EKTİS-in funksional imkanlarının artırılması, müxtəlif dövlət informasiya ehtiyatları və sistemləri arasında inteqrasiyanın gücləndirilməsi, aqrar sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi və institusional potensialın yeni çağırışlara uyğun inkişaf etdirilməsi zəruridir;

**6.2.12.2. görüləcək tədbirlər:**

6.2.12.2.1. kənd təsərrüfatında data əsaslı effektiv idarəedilmənin təşkili üçün süni intellekt həllərinin genişləndirilməsi;

6.2.12.2.2. EKTİS-in mövcud altsistemləri imkanlarının genişləndirilməsi;

6.2.12.2.3. kənd təsərrüfatı texnikasına texniki nəzarətin institusional təşkilinin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsi;

6.2.12.2.4. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən qurumlarda idarəetmənin səmərəliliyinin artırılması;

6.2.12.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.12.3.1. süni intellektdən istifadə etməklə hazırlanan modulların sayının 30-a çatdırılması;

6.2.12.3.2. EKTİS-in kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektləri zəruri xidmətlər və məlumatlarla təmin edən vahid platformaya çevrilməsi;

6.2.12.3.3. EKTİS-in digər sistemlərə inteqrasiyasının gücləndirilməsi;

6.2.12.3.4. kənd təsərrüfatı texnikasına texniki nəzarətin yeni mexanizmlər əsasında icrasının təmin edilməsi;

6.2.12.3.5. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumlarda optimallaşdırmanın aparılması, korporativ idarəetmənin tətbiqi ilə bağlı islahatların həyata keçirilməsi və səmərəliliyin artırılması;

**6.2.12.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Rəqəmsal idarəetmə sistemlərinin genişləndirilməsi və institusional islahatların həyata keçirilməsi zamanı texniki və institusional uyğunlaşma çətinlikləri, məlumat bazalarının inteqrasiyası prosesində gecikmələr, eləcə də ixtisaslı insan resurslarının məhdudluğu müəyyən risklər yarada bilər.

Bu risklərin azaldılması məqsədilə mərhələli tətbiq mexanizmlərinin formalaşdırılması, aidiyyəti dövlət qurumları arasında koordinasiyanın gücləndirilməsi, rəqəmsal bacarıqlar üzrə kadr hazırlığı proqramlarının genişləndirilməsi və mövcud informasiya ehtiyatlarının və sistemlərinin texniki imkanlarının təkmilləşdirilməsi nəzərdə tutulur.

**6.2.13. Aqrar subsidiya və dəstək mexanizmlərinin təkmilləşdirilməsi:**

**6.2.13.1. əsaslandırma:**

Aqrar sahədə dayanıqlı inkişafın təmin olunması, məhsuldarlığın və əlavə dəyərin artırılması baxımından subsidiya və dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin yüksəldilməsi xüsusi əhəmiyyət daşıyır.

Son illərdə aqrar sahədə subsidiya, güzəştli kredit və digər dövlət dəstəyi alətləri tətbiq edilmiş, kənd təsərrüfatı istehsalçılarının istehsal resurslarına çıxışı yaxşılaşdırılmışdır. Bununla belə, mövcud dəstək mexanizmlərinin daha çox məhsuldarlıq, intensiv istehsal, ixracyönümlülük və əlavə dəyər yaradan fəaliyyətin təşviqinə yönəldilməsi, eləcə də dəyər zəncirinin bütün mərhələlərini əhatə edən daha çevik və nəticəyönümlü dəstək sisteminin formalaşdırılması zəruridir;

**6.2.13.2. görüləcək tədbirlər:**

6.2.13.2.1. iribuynuzlu heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması və yeni dəstək mexanizmlərinin tətbiqi;

6.2.13.2.2. qoyunçuluqda cins tərkibinin yaxşılaşdırılmasının, yarım intensiv təsərrüfatların formalaşdırılmasının dəstəklənməsi;

6.2.13.2.3. quşçuluq sahəsinin inkişafının stimullaşdırılması;

6.2.13.2.4. kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışına tətbiq olunan güzəşt mexanizmlərinin effektivliyinin artırılması;

6.2.13.2.5. aqrar istehsal və emal sahələrində vergi siyasətinin dəyər zənciri üzrə optimallaşdırılması;

6.2.13.2.6. buğda istehsalının artırılması ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi;

6.2.13.2.7. pambıq istehsalının artırılması ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi;

6.2.13.2.8. kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadın və gənc fermerlər üçün xüsusi dəstək mexanizmləri və layihələrinin həyata keçirilməsi;

6.2.13.2.9. kənd təsərrüfatında kooperasiyalaşma və assosiasiyaların inkişafının dəstəklənməsi;

6.2.13.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.13.3.1. yüksək məhsuldar cins heyvanların sayının artırılaraq ümumi sürüdə payının minimum 10 faizə çatdırılması;

6.2.13.3.2. mal əti istehsalı həcminin 20 faiz, süd istehsalı həcminin 10 faiz artırılması;

6.2.13.3.3. qoyun əti istehsalı həcminin azı 9 faiz artırılması;

6.2.13.3.4. quş əti istehsalının 30 faiz, yumurta istehsalında isə 27 faiz artırılması;

6.2.13.3.5. prioritetlərə və ehtiyaclara uyğun olaraq aqrar sahənin texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması;

6.2.13.3.6. buğda məhsuldarlığının ixtisaslaşmış rayonlarda 50 sentner/ha-ya çatdırılması, buğda istehsalı həcminin ölkə üzrə 20 faiz artırılması;

6.2.13.3.7. ixtisaslaşmış rayonlar üzrə pambığın məhsuldarlığının 50 sentner/ha-ya çatdırılması, pambığın istehsal həcminin 17 faiz artırılması;

6.2.13.3.8. kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadınların və gənc fermerlərin sayının artırılması;

6.2.13.3.9. ümumilikdə 5 funksional nümunəvi kooperativin, 3 funksional nümunəvi assosiasiyanın (ittifaqın) fəaliyyətə başlaması;

**6.2.13.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Subsidiya və dövlət dəstəyi mexanizmlərinin tətbiqi zamanı aqrar subyektlərin yeni yanaşma və texnologiyalara uyğunlaşma imkanlarının məhdud olması, investisiya mühitində dəyişkənlik və bəzi sahələr üzrə özəl sektor marağının zəifliyi gözlənilən nəticələrin əldə olunmasına təsir göstərə bilər. Eyni zamanda, dəstək mexanizmlərinin tətbiqində resurs bölgüsü və hədəflənmə ilə bağlı çətinliklər, eləcə də aidiyyəti dövlət orqanları (qurumları) arasında koordinasiya problemləri müəyyən risklər yarada bilər.

Bu risklərin azaldılması məqsədilə dəstək mexanizmlərinin pilot layihə əsasında tətbiqi, regionlar üzrə ehtiyacların düzgün qiymətləndirilməsi, rəqəmsal monitorinq və qiymətləndirmə sistemlərinin tətbiqi, şəffaflıq və hesabatlılıq prinsiplərinin gücləndirilməsi, habelə fermerlər və digər maraqlı tərəflərlə davamlı maarifləndirmə və kommunikasiya tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

**6.2.14. Aqrar elm, təhsil sahələrinin və insan kapitalının inkişaf etdirilməsi:**

**6.2.14.1. əsaslandırma:**

Son illərdə aqrar sahə üzrə təhsil və elmi tədqiqat potensialının gücləndirilməsi istiqamətində müəyyən irəliləyişlər əldə edilmişdir. Aqrar ixtisaslar üzrə ali təhsil alanların sayı artmış, aqraryönümlü elmi tədqiqat müəssisələrinin maddi-texniki bazasının yaxşılaşdırılması istiqamətində tədbirlər həyata keçirilmişdir.

Aqrar sahənin innovativ və texnologiya əsaslı inkişafı üçün əmək bazarının tələblərinə uyğun peşəkar kadr hazırlığının gücləndirilməsi, aqrar təhsil sisteminin müasir tələblərə uyğunlaşdırılması və elmi tədqiqat fəaliyyətinin effektivliyinin artırılması zəruridir. Peşə təhsili pilləsində aqrar ixtisaslar üzrə kadr hazırlığının məhdud olması, gənclərin aqrar elmə marağının zəifliyi və beynəlxalq standartlara uyğun tədqiqat potensialının yetərli səviyyədə formalaşmaması bu sahədə əsas çağırışlar olaraq qalır;

**6.2.14.2. görüləcək tədbirlər:**

6.2.14.2.1. aqrar sahədə ikili diplom proqramlarının genişləndirilməsi və xarici universitetlə birgə universitetin yaradılması;

6.2.14.2.2. aqrar sahə üzrə peşə standartlarının hazırlanması və təhsilin məzmununun yenilənməsi;

6.2.14.2.3. aqrar sahədə fəaliyyət göstərən mütəxəssislərin reyestrinin yaradılması və təlim proqramlarına cəlb edilməsi;

6.2.14.2.4. aqrar sahədə qeyri-formal məşğulluğun azaldılması;

6.2.14.2.5. elmi tədqiqat institutlarını idarəetmə sistemlərinin modernləşdirilməsi, institusional islahatların aparılması;

6.2.14.2.6. beynəlxalq elmi tədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi;

6.2.14.2.7. aparılan elmi tədqiqatların müasir tələblərə uyğun olaraq keyfiyyətinin yüksəldilməsi və gənclər arasında elmi tədqiqatların aparılmasına marağın artırılması;

6.2.14.2.8. elmi tədqiqat institutlarının infrastruktur təminatının yaxşılaşdırılması;

6.2.14.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.14.3.1. aqrar ixtisaslar üzrə ikili diplom proqramlarından məzun olanların ümumi sayının 500-ə çatdırılması;

6.2.14.3.2. bir xarici universitet ilə əməkdaşlıq çərçivəsində birgə universitetin yaradılması;

6.2.14.3.3. azı 30 yeni peşə və kvalifikasiya standartının hazırlanması, azı 10 proqramın kurikulumunun yenilənməsi;

6.2.14.3.4. azı 200 tələbənin xaricdə istehsalat təcrübəsinin təşkili, azı 100 təhsilverənin təlimlərə cəlb edilməsi;

6.2.14.3.5. aqrar sahədə fəaliyyət göstərən bütün istiqamətlər üzrə mütəxəssislərin reyestrinin yaradılması;

6.2.14.3.6. beynəlxalq tərəfdaş mərkəzlərlə birlikdə azı bir mükəmməllik və innovasiya mərkəzinin yaradılması;

6.2.14.3.7. aparılan elmi tədqiqatların sayının artırılması, indeksləşdirilmiş jurnallarda çap olunan məqalələrin sayının 2027-ci ildən başlayaraq hər il 10 faiz artırılması;

6.2.14.3.8. aqrar sahədə elmi tədqiqatlarla məşğul olan gənc alimlərin sayının artırılması;

6.2.14.3.9. elmi tədqiqat institutlarının müasir tələblərə uyğun infrastrukturla təminat səviyyəsinin yaxşılaşdırılması;

**6.2.8.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Aqrar sahədə əməkhaqqı səviyyəsinin və elmi fəaliyyətin cəlbediciliyinin aşağı olması, regionlarda aqrar təhsilə çıxış imkanlarının qeyri-bərabərliyi, ixtisaslı pedaqoji və elmi kadr çatışmazlığı, habelə beynəlxalq standartlara uyğun tədqiqat potensialının məhdudluğu bu sahədə əsas risklərdəndir.

Bu risklərin azaldılması məqsədilə aqrar təhsil və elmi tədqiqat sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi, nüfuzlu elmi nəşrlərdə tədqiqat fəaliyyətinin təşviqi, gənc alimlər üçün stimullaşdırıcı mexanizmlərin tətbiqi, regionlarda aqrar təhsil imkanlarının genişləndirilməsi və əmək bazarının tələblərinə uyğun kadr hazırlığı proqramlarının inkişaf etdirilməsi nəzərdə tutulur.

**6.2.15. Balıq ehtiyatlarının qorunması, idarəetmə və nəzarət potensialının gücləndirilməsi:**

**6.2.15.1. əsaslandırma:**

Balıqçılıq və akvakultura sektoru ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması, əhalinin keyfiyyətli zülal mənbələrinə çıxış imkanlarının genişləndirilməsi, regionlarda məşğulluğun artırılması və ixrac potensialının inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Son illərdə həmin sektorda inkişaf imkanları genişlənsə də, balıq ehtiyatlarının qorunması, ekoloji tarazlığın saxlanılması, nəzarət və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi, eləcə də normativ hüquqi bazanın beynəlxalq tələblərə uyğunlaşdırılması istiqamətində əlavə tədbirlərə ehtiyac vardır.

Balıq ovunun dayanıqlı prinsiplər əsasında təşkili, rəqəmsal nəzarət və izləmə sistemlərinin tətbiqi, həmçinin balıqartırma fəaliyyətinin gücləndirilməsi su bioresurslarının bərpasına, məhsuldarlığın artımına və dayanıqlı inkişaf modelinin formalaşmasına xidmət edəcəkdir;

**6.2.15.2. görüləcək tədbirlər:**

6.2.15.2.1. balıqçılıq və akvakultura sahəsində normativ hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması;

6.2.15.2.2. idarəetmə sistemlərinin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması;

6.2.15.2.3. balıq ovunun dayanıqlı əsaslarla təşkili, izlənməsi və bu sahədə nəzarətin gücləndirilməsi;

6.2.15.2.4. balıqartırma fəaliyyətinin gücləndirilməsi;

6.2.15.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.15.3.1. beynəlxalq standarlara uyğun normativ hüquqi bazanın formalaşdırılması;

6.2.15.3.2. balıqçılıq və akvakultura sahəsində sanitariya nəzarəti sisteminin beynəlxalq tələblərə uyğun təşkili, nəzarət və idarəetməni həyata keçirmək üçün informasiya sisteminin yaradılması;

6.2.15.3.3. balıq ehtiyatlarının qorunması və ekoloji balansın saxlanılması üçün balıq ovunun ekosistemə uyğun prinsiplər əsasında həyata keçirilməsi və balıq ovuna nəzarətin təşkili;

6.2.15.3.4. ümumilikdə 2 balıqartırma təsərrüfatının fəaliyyətinin təmin edilməsi;

**6.2.15.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:**

Balıqçılıq və akvakultura sahəsində əsas risklərə qanunsuz və normadan artıq balıq ovu, su hövzələrinin çirklənməsi, iqlim dəyişikliklərinin su bioresurslarına təsiri, xəstəliklərin yayılması, eləcə də nəzarət və monitorinq mexanizmlərinin yetərsizliyi aid edilə bilər. Bununla yanaşı, müasir texnologiyalara, keyfiyyətli yem və damazlıq materiallarına çıxış imkanlarının məhdudluğu, həmçinin ixtisaslı kadr çatışmazlığı sektorun sahənin inkişaf tempinə mənfi təsir göstərə bilər.

Qeyd olunan risklərin neytrallaşdırılması məqsədilə normativ hüquqi bazanın beynəlxalq standartlara uyğun təkmilləşdirilməsi, rəqəmsal monitorinq və izləmə sistemlərinin tətbiqi, nəzarət tədbirlərinin gücləndirilməsi, elmi əsaslı idarəetmə yanaşmalarının tətbiqi və mütəxəssis hazırlığı üzrə proqramların genişləndirilməsi nəzərdə tutulur.

6.2.16. Balıqçılıq məhsulları üzrə istehsal və ixrac imkanlarının genişləndirilməsi:

**6.2.16.1. əsaslandırma:**

Son illərdə balıqçılıq və akvakultura sahələrinin inkişafı istiqamətində institusional və normativ tədbirlər həyata keçirilmiş, balıqçılıq məhsullarının istehsalı artmış və bununla da özünütəminetmə səviyyəsi yüksəlmişdir. Bununla yanaşı, ölkədə balıq məhsullarının adambaşına istehlakı dünya orta göstəricisindən aşağı olaraq qalır və daxili bazarda istehsal, emal və logistika potensialının genişləndirilməsinə ehtiyac vardır;

**6.2.16.2. görüləcək tədbirlər:**

6.2.16.2.1. balıqçılıq sahəsində inkişaf zonalarının müəyyən edilməsi;

6.2.16.2.2. balıqçılıq sahəsində damazlıq işinin gücləndirilməsi;

6.2.16.2.3. balıqçılıq və akvakultura sahələrində dəstək mexanizmlərinin formalaşdırılması;

6.2.16.3. gözlənilən nəticə və nəticə indikatorları:

6.2.16.3.1. akvakultura sahəsində 1 aqroparkın yaradılması, inkişaf zonalarının müəyyən edilməsi;

6.2.16.3.2. damazlıq balıqçılıq təsərrüfatlarının formalaşdırılması;

6.2.16.3.3. akvakultura subyektlərinin məhsul buraxılışının 7700 tona çatdırılması;

6.2.16.4. gözlənilən risklər və onların neytrallaşdırılması tədbirləri:

Balıqçılıq və akvakultura sahələrində tədbirlərin həyata keçirilməsi zamanı institusional və normativ çətinliklər, maliyyə və texniki resursların məhdudluğu, ixtisaslı kadr çatışmazlığı, eləcə də iqlim dəyişiklikləri və su ehtiyatlarının vəziyyəti ilə bağlı risklər yarana bilər.

Bu risklərin azaldılması məqsədilə dövlət–özəl tərəfdaşlığı mexanizmlərinin tətbiqi, beynəlxalq təcrübənin və innovativ texnologiyaların tətbiqinin genişləndirilməsi, elmi tədqiqat və monitorinq sistemlərinin gücləndirilməsi, həmçinin kadr hazırlığı və maarifləndirmə tədbirlərinin həyata keçirilməsi nəzərdə tutulur.

### 3. Maliyyələşmə mexanizmləri

Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası üçün tələb olunan maliyyə resurslarının müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş vəsait, büdcədənkənar vəsait, eləcə də qanunla qadağan olunmayan digər mənbələr hesabına maliyyələşdirilməsi həyata keçiriləcəkdir.

Suvarma suyu ilə təminatın yaxşılaşdırılması istiqamətində görüləcək tədbirlərin effektiv icrasının təmin edilməsi üçün təsərrüfatlara qədər gələn suvarma şəbəkəsinin qurulması üçün tələb olunan maliyyələşmənin Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 10 oktyabr tarixli 320 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya", habelə 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiyanın fəaliyyəti çərçivəsində təmin edilməsi nəzərdə tutulur.

## Dövlət Proqramının həyata keçirilməsinə dair Tədbirlər Planı

| Sıra №-si | Tədbirin adı | Əsas icraçı orqan (qurum) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| | **Prioritet istiqamət 8.1. Aqrar sahədə resurs səmərəliliyinə, iqlim dayanıqlılığına və ekoloji tarazlığa əsaslanan inkişaf modelinin formalaşdırılması** | | | | | | |
| **Fəaliyyət istiqaməti 8.1.1. Torpaq resurslarının qorunması və ondan səmərəli istifadə olunması** | | | | | | | |
| 8.1.1.1. | Kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin qorunması məqsədilə interaktiv nəzarət mexanizminin tətbiq edilməsi | KTN | İN, ETSN, YİHO | 2026–2030 | Süni intellektin tətbiqi məqsədilə proqram təminatının və texniki avadanlıqların alınması və qurulması ilə bağlı işlərə başlanılması | Süni intellektin tətbiqi məqsədilə proqram təminatının və texniki infrastrukturun qurulması, torpaqların münbitliyinin qorunması üzrə interaktiv nəzarət mexanizminin pilot olaraq 2 rayonda tətbiq edilməsi | Ölkə üzrə interaktiv nəzarət mexanizminin tətbiqinə başlanılması |
| 8.1.1.2. | Kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin pozulması hallarında bərpayönümlü (rekultivasiya) tədbirlərin görülməsi mexanizminin yaradılması və tətbiq edilməsi | KTN | İN, ETSN | 2026–2030 | Kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin mühafizəsinə və artırılmasına dair qaydaların hazırlanması, torpaqların münbitliyinin pozulması hallarında dəymiş ziyanın aradan qaldırılması üçün bərpayönümlü yanaşmanın tətbiqinə dair təkliflər hazırlanması | İnteraktiv nəzarət mexanizminin nəticələrinin bərpayönümlü (rekultivasiya) tədbirlərlə əlaqələndirilməsi, torpaqların münbitliyinin pozulması hallarının aradan qaldırılması üçün bərpayönümlü tədbirlərin görülməsi | Bərpayönümlü (rekultivasiya) tədbirlərinin görülməsi nəticəsində torpaqların münbitliyinin artırılması |
| 8.1.1.3. | Torpaqların konsolidasiyası mexanizminin yaradılması və pilot layihə olaraq tətbiq edilməsi | KTN | İN, ADSEA | 2026–2030 | Beynəlxalq təcrübə nəzərə alınmaqla torpaqların konsolidasiyasına dair normativ hüquqi aktın təsdiq edilməsi | Seçilmiş 2 pilot rayonda (Qəbələ və Salyan) 20 min hektar sahədə torpaqların konsolidasiyası və təsərrüfatdaxili suvarma şəbəkəsinin qurulması işlərinin görülməsi, kadastr xəritələrinin yenilənməsi, su resurslarından istifadənin effektiv idarə olunması ilə bağlı yeni pilot modelin tətbiq edilməsi | |

*(ardı 9-cu səhifədə)*

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 8-ci səhifədə)*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.1.1.4. | Əkin sahələrinin aqrokimyəvi göstəricilər əsasında xəritələşdirilməsi | KTN | İN | 2026–2030 | Əkin sahələrinin aqrokimyəvi göstəriciləri üzrə məlumat bazasının yaradılması | 10 rayon üzrə əkin sahələrinin aqrokimyəvi göstəricilərə uyğun xəritələşdirilməsi | Ölkə üzrə əkin sahələrinin aqrokimyəvi xəritələrinin hazırlanması |
| 8.1.1.5. | Torpaq analizi sisteminin müasirləşdirilməsi | KTN | | 2026–2030 | Müvafiq sahədə laboratoriyalar üzrə ehtiyacların qiymətləndirilməsi | Azı 6 dövlət laboratoriyasının texniki müasirləşdirilməsi | Ümumilikdə 11 dövlət laboratoriyasının texniki müasirləşdirilməsinin başa çatdırılması |
| 8.1.1.6. | Örüş və otlaq sahələrinin effektiv idarə edilməsi sisteminin yaradılması və münbitliyinin bərpası | KTN, İN | ETSN | 2027–2030 | Örüş və otlaqların səmərəli idarə olunması məqsədilə rəqəmsal həllərin tətbiq edilməsi | Örüş və otlaqların elektron uçotunun qurulması, örüş və otlaqların münbitliyinin qorunması üçün subsidiya mexanizminin tətbiq edilməsi | Ümumilikdə 480 min ha örüş və otlaq sahələrinin münbitliyinin yaxşılaşdırılması |
| **Fəaliyyət istiqaməti 8.1.2. Suvarma suyundan səmərəli istifadə mexanizminin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.1.2.1. | Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi | KTN | İN, ADSEA, digər aidiyyəti orqanlar (qurumlar) | 2026–2030 | Müasir suvarma sistemlərinin tətbiqi üzrə fəaliyyət planının hazırlanması, güzəştli satış və dəstək mexanizmlərinin tətbiqinə başlanılması | Müasir suvarma sistemlərinin tətbiqinin genişləndirilməsi üzrə fəaliyyət planının icrası, müasir suvarma sistemlərinin tətbiqi üçün sututar və artezian quyuları ilə təminat layihələrinin dəstəklənməsi mexanizminin hazırlanması və tətbiq edilməsi | Ölkə üzrə əkin sahələrinin 300 min hektarında müasir suvarma sistemlərinin tətbiq edilməsi |
| 8.1.2.2. | Suvarma suyunun keyfiyyət monitorinqi və idarəetmə sisteminin yaradılması | ADSEA | KTN, İN | 2028–2030 | İrriqasiya və meliorasiya şəbəkələrində olan suyun analizinin aparılması mexanizminin formalaşdırılması ilə bağlı təkliflər hazırlanması | Azı 3 pilot regionda su keyfiyyəti monitorinqi sisteminin tətbiq edilməsi | Əsas irriqasiya və meliorasiya şəbəkələri üzrə su keyfiyyəti monitorinqi sisteminin tətbiq edilməsi |
| 8.1.2.3. | Suvarma suyunun və təsərrüfatdaxili suvarma şəbəkəsinin idarə edilməsi üzrə institusional potensialın gücləndirilməsi | KTN, ADSEA | | 2026–2030 | Sudan İstifadəedənlər Birlikləri üzrə institusional qiymətləndirmənin aparılması, beynəlxalq təcrübə əsasında təkliflər hazırlanması | Pilot regionlarda yeni idarəetmə modelinin tətbiqi, nəticələr əsasında yeni hüquqi və institusional tənzimləmələrin hazırlanması | Su resurslarının səmərəli idarəetmə sisteminin formalaşdırılması |
| **Fəaliyyət istiqaməti 8.1.3. Ətraf mühitin qorunması və iqlim dəyişikliklərinə dayanıqlı aqrar istehsal modelinin gücləndirilməsi** | | | | | | | |
| 8.1.3.1. | Kənd təsərrüfatında bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi | KTN | EN | 2027–2030 | Aqrar sahənin enerji təminatında bərpa olunan enerji mənbələrdən istifadə edilməsi üzrə qiymətləndirmələrin aparılması, bərpa olunan enerji mənbələrindən istifadənin təşviqi üçün dəstək mexanizminin formalaşdırılması | Azı 5 pilot təsərrüfatda bərpa olunan enerji mənbələrindən istifadənin tətbiq edilməsi | Bərpa olunan enerji mənbələrindən istifadə edən təsərrüfatların sayının 15-ə çatdırılması |
| 8.1.3.2. | Aqrar sektorda istilik effekti yaradan emissiyaların monitorinqi və hesabatlıq sisteminin yaradılması | KTN | ETSN | 2028–2030 | Aqrar sektorda istilik effekti yaradan emissiyaların qiymətləndirilməsi metodologiyasının hazırlanması | Qiymətləndirmənin pilot olaraq aparılması | Aqrar sektorda istilik effekti yaradan emissiyaların monitorinqi və hesabatlıq sisteminin tətbiq edilməsi |
| 8.1.3.3. | Ölkədə ənənəvi ərzaq və kənd təsərrüfatı sistemlərinin dayanıqlılığının təmin edilməsi üzrə pilot layihənin həyata keçirilməsi | KTN | AQTA, İN, YİHO | 2027–2028 | Qlobal Əhəmiyyətli Aqrar İrs Sisteminin (GIAHS) metodologiyası əsasında ölkədə Milli Əhəmiyyətli Aqrar İrs Sistemi (NIAHS) məntəqələrinin müəyyənləşdirilməsi mexanizminin yaradılması | NIAHS məntəqələrinin müəyyənləşdirilməsi üçün uyğun regionların seçilməsi və qiymətləndirmələrin aparılması | Azı 3 NIAHS məntəqəsinin müəyyən edilməsi |
| 8.1.3.4. | İqlim dəyişikliklərinə həssas regionlar üzrə erkən xəbərdarlıq sisteminin qurulması | KTN | ETSN, ADSEA | 2027–2030 | 2 prioritet zona üzrə risk qiymətləndirməsinin aparılması | Erkən xəbərdarlıq sisteminin 3 regionda tətbiq edilməsi | Prioritetləşmiş regionlar üzrə erkən xəbərdarlıq sistemlərinin qurulması |
| **Fəaliyyət istiqaməti 8.1.4. Toxumçuluq və damazlıq potensialının inkişaf etdirilməsi** | | | | | | | |
| 8.1.4.1. | Toxumçuluğun (tingçiliyin) inkişafı üzrə hüquqi, institusional və dəstək tədbirlərinin hazırlanması və icra edilməsi | KTN | | 2026–2030 | "Toxumçuluq haqqında" Azərbaycan Respublikası Qanununun və digər normativ sənədlərin yenilənməsi; Toxum istehsal edən elmi tədqiqat müəssisə və təşkilatlarının və Toxum Fondunun fəaliyyətinin təkmilləşdirilməsi, idxal olunan toxumlara dövlət nəzarətinin və toxumçuluqla bağlı subsidiyalaşma alətlərinin təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Toxum istehsal edən elmi tədqiqat müəssisə və təşkilatlarının, Toxum Fondunun fəaliyyətinin optimallaşdırılması və maddi-texniki bazasının yaxşılaşdırılması, özəl sektorun iştirakı ilə müqavilələ toxum istehsalının təşviqi, toxumçuluq sahəsində nəticəyönümlü subsidiyalaşma alətlərinin tətbiq edilməsi | İdxal olunan toxumlara dövlət nəzarəti sisteminin yaradılması; Toxum istehsalının artırılması, bu sahədə özünütəminatın yaxşılaşdırılması |
| 8.1.4.2. | Toxumçuluq (o cümlədən tingçilik) sahəsində keyfiyyətə nəzarət sisteminin gücləndirilməsi | KTN | AİBNDA, İN, AQTA | 2026–2030 | Toxumçuluq (o cümlədən tingçilik) sahəsində keyfiyyətə və dövriyyəyə nəzarət sisteminin təkmilləşdirilməsi üçün ehtiyacların qiymətləndirilməsi | Keyfiyyətə nəzarət sisteminin rəqəmsallaşdırılması | Toxumçuluq (o cümlədən tingçilik) sahəsində qurulmuş mütərəqqi sistem vasitəsilə keyfiyyətə və dövriyyəyə nəzarətin təmin edilməsi |
| 8.1.4.3. | Bitkiçilik sahəsində seleksiya nailiyyətlərinin uçotu və onlara nəzarət sisteminin gücləndirilməsi, seleksiya proqramlarının icra edilməsi | KTN | | 2026–2030 | Mövcud normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması, seleksiya sahəsində maliyyələşmə mexanizmləri və yeni seleksiya proqramları ilə bağlı təkliflər hazırlanması | Seleksiya nailiyyətləri üzrə normativ hüquqi bazanın və infrastrukturun yenilənməsi, UPOV tələbləri bazasında reyestr sisteminin rəqəmsallaşması, yeni yanaşma üzrə maliyyələşdirilmə mexanizminin yaradılması və özəl sektorun iştirakı ilə seleksiya proqramlarının hazırlanması | Seleksiya nailiyyətlərinin dövlət reyestri və müəlliflik və patent hüquqlarının qorunması ilə bağlı təkmil və funksional sistemin formalaşdırılması; Seleksiya proqramlarının müasir metodlar tətbiq edilməklə həyata keçirilməsi |
| 8.1.4.4. | Heyvandarlıq və balıqçılıq sahəsində seleksiya və damazlıq proqramlarının icra edilməsi | KTN | | 2026–2030 | Seleksiya və damazlıq proqramlarının həyata keçirilməsi üçün ehtiyacların və potensialın müəyyən edilməsi | Seleksiya və damazlıq proqramlarının icrası üçün zəruri maddi-texniki baza təminatının formalaşdırılması, müasir seleksiya üsulları ilə işləmək bacarığı olan mütəxəssislərin hazırlanması, habelə damazlıq işi üzrə rəqəmsal izləmə sisteminin qurulması; Damazlıq Birliklərinin yaradılması | Heyvandarlıq və balıqçılıq sahəsində müasir metodlara əsaslanan seleksiya və damazlıq proqramlarının həyata keçirilməsi |
| 8.1.4.5. | Yerli heyvan cinsləri və bitki növlərinin genetik ehtiyatları üzrə təkmil genetik materiallar banklarının (kolleksiyaların) yaradılması | KTN, ETN | ETSN | 2026–2030 | Koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə işçi qrup yaradılması, mövcud vəziyyətin qiymətləndirilməsi | Genetik ehtiyatların toplanılması, saxlanılması, qorunması və uçotuna dair tədbirlərin həyata keçirilməsi | Ölkədə mövcud olan, xüsusilə də itmək təhlükəsi olan aborigen heyvan cinsləri və bitki növləri üzrə genetik materialların bankları və bununla bağlı məlumat bazalarının yaradılması |
| 8.1.4.6. | Milli atçılıq irsinin qorunması | KTN | MdN, DSX | 2026–2030 | Mövcud olan yerli "Qarabağ", "Dilbaz" at cinsləri, o cümlədən Kiçik Qafqaz, Şirvan və Quba löhrəmi at cinslərinin qorunması məqsədilə at yetişdirilməsinin təşviq edilməsi mexanizminin, atçılıq sahəsində maddi-texniki bazanın yaxşılaşdırılması ilə bağlı təkliflər hazırlanması | Müasir tələblərə uyğun seleksiya-damazlıq işinin təşkili; Mərkəzləşmiş cıdır-sınaqlarının təşkili; Cins atların genetik analizlərinin aparılması, identifikasiyası və elektron uçot sisteminə inteqrasiyası; damazlıq kitabının hazırlanması; Yerli at cinslərinin təmizqanlılığının qorunması ilə bağlı tədbirlər görülməsi; İşğaldan azad edilmiş ərazilərdə atçılıq zavodunun yaradılması; Atçılıq sahəsində yarış infrastrukturunun yaxşılaşdırılması | |
| **Prioritet istiqamət 8.2. Aqrar xidmətlər, maliyyə resursları və innovativ texnologiyalara çıxış imkanlarının genişləndirilməsi** | | | | | | | |
| | **Fəaliyyət istiqaməti 8.2.1. Baytarlıq və fitosanitar xidmətlər sisteminin gücləndirilməsi** | | | | | | |
| 8.2.1.1. | Heyvandarlıq sahəsində normativ hüquqi aktların yenilənməsi | KTN | AQTA, İN | 2026–2030 | "Damazlıq heyvandarlıq haqqında" Azərbaycan Respublikası Qanununun, eləcə də heyvandarlıq sahəsində digər normativ hüquqi aktların təhlil edilməsi və beynəlxalq təcrübə nəzərə alınmaqla təkliflər hazırlanması | Təkliflər nəzərə alınmaqla, yerli şəraitə uyğun təkmilləşdirilmiş hüquqi sənədlərin, həmçinin standart, tələb və reqlamentlərin tətbiq edilməsi | Heyvandarlıq və heyvan sağlamlığı üzrə beynəlxalq standartlara uyğun normativ hüquqi bazanın və texniki tənzimləmə sisteminin tətbiq edilməsi |
| 8.2.1.2. | Heyvan sağlamlığı üzrə göstərilən dövlət xidmətləri, eləcə də baytarlıq preparatları ilə təminat və xəstə heyvanların emal və utilizasiya infrastrukturunun inkişaf etdirilməsi | KTN, AQTA | İN | 2026–2030 | Ölkə üzrə heyvan xəstəliklərinin araşdırılması, onların yayılma arealının və risklərin müəyyən edilməsi; Baytarlıq xidmətlərinə əlçatanlığın və baytarlıq preparatlarının ölkədaxili istehsalının təşkili imkanlarının təhlil edilməsi | Heyvan xəstəlikləri və onların yayılma arealı ilə bağlı məlumat sisteminin yaradılması; Vaksin izlənməsi üzrə rəqəmsal sistemin yaradılması və tətbiqi ilə bağlı təkliflər hazırlanması; Baytarlıq preparatlarının yerli istehsalının təşkili üçün istehsal müəssisəsinin yaradılması; Xəstə heyvanların kəsimi, emalı və utilizasiyası məqsədilə dövlət sanitar kəsim və emal müəssisələrinin yaradılması | Heyvan xəstəliklərinin monitorinqi və vaksin izlənməsi üzrə rəqəmsal sistemin tətbiqi və baytarlıq xidmətlərinə əlçatanlığın artırılması |
| 8.2.1.3. | Bitkiçilik sahəsində zərərli orqanizmlərin aşkarlanması sisteminin tətbiq edilməsi | KTN | AQTA | 2026–2030 | Bitkiçilik sahəsində zərərli orqanizmlərin aşkarlanması üçün beynəlxalq təcrübə nəzərə alınmaqla ilkin müşahidə və xəbərdarlıq sistemlərinin təhlil edilməsi və təkliflər hazırlanması | Müşahidə və xəbərdarlıq sisteminin qurulması | Beynəlxalq təcrübə nəzərə alınmaqla qurulmuş xəbərdarlıq və monitorinq sisteminin məlumatları əsasında zərərvericilər və xəstəliklər barədə vaxtında proqnozların verilməsi |
| 8.2.1.4. | İnteqrir bitki mühafizə tədbirlərindən istifadənin genişləndirilməsi | KTN | | 2026–2030 | İnteqrir bitki mühafizə tədbirlərindən istifadənin genişləndirilməsi ilə bağlı təkliflər (dəstək mexanizmləri də daxil olmaqla) hazırlanması | Təkliflərə uyğun olaraq inteqrir bitki mühafizə tədbirlərinin tətbiqinin genişləndirilməsi istiqamətində işlər görülməsi | İnteqrir mübarizə üsullarını tətbiq edən fermerlərin sayının artırılması |

*(ardı 10-cu səhifədə)*

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 9-cu səhifədə)*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.2.1.5. | Bitki mühafizəsi və fumiqasiya (zərərsizləşdirmə) işlərinin infrastruktur təminatının yaxşılaşdırılması | KTN | AQTA | 2026–2028 | Bitki mühafizəsi və fumiqasiyası işlərinin rəqəmsallaşdırılması istiqamətində təkliflər hazırlanması; Beynəlxalq standartlara uyğun zərərsizləşdirilmənin həyata keçirilməsi üçün xidmətlərin əlçatanlığının idarəetmə və infrastruktur olaraq təhlil edilməsi | Bitki mühafizəsi və fumiqasiya (zərərsizləşdirmə) işinin icrasının və monitorinqinin təmin edilməsi üçün proqram təminatının və müvafiq infrastrukturun qurulması | |
| 8.2.1.6. | Ölkə üzrə bütün iribuynuzlu və xırdabuynuzlu heyvanların dövlət hesabına birdəfəlik identifikasiyasının təşkili və elektron uçotunun aparılması | AQTA | KTN | 2027–2030 | Mərhələli identifikasiya planının hazırlanması, plana uyğun olaraq identifikasiyanın həyata keçirilməsi və elektonlaşdırılması | | İribuynuzlu və xırdabuynuzlu heyvanların identifikasiyasının yekunlaşdırılması |
| **Fəaliyyət istiqaməti 8.2.2. Aqrar maliyyə, sığorta və risk idarəetməsi mexanizmlərinin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.2.2.1. | Maliyyə institutlarının aqrar kreditləşmə ilə bağlı müraciətlərinin qiymətləndirilməsi imkanlarının gücləndirilməsi | KTN | İN, Tövsiyə olunur: AMB | 2026–2027 | Maliyyə institutlarının kənd təsərrüfatı sektoru ilə bağlı məlumatlara olan ehtiyaclarının müəyyən edilməsi | Maliyyə institularının məlumat ehtiyaclarına uyğun həllərin formalaşdırılması, maliyyə institutları mütəxəssisləri üçün aqrar sahə üzrə kredit müraciətlərinin qiymətləndirilməsi ilə bağlı təlimlərin təşkil edilməsi | Maliyyə institutlarının məlumat ehtiyaclarının ödənilməsi sisteminin formalaşdırılması, maliyyə institutlarında aqrar sektor üzrə ixtisaslaşmış mütəxəssislərin sayının artırılması |
| 8.2.2.2. | Fermerlərin güzəştli kreditlərə çıxışının yaxşılaşdırılması, kredit, zəmanət və faiz subsidiyası mexanizmlərinin genişləndirilməsi | KTN | Tövsiyə olunur: AMB, İN | 2026–2030 | Fermerlərin kredit resurslarına çıxışı ilə bağlı cari vəziyyətin qiymətləndirilməsi | Fermerlərin güzəştli kreditlərlə təminatının yaxşılaşdırılması üçün mexanizmlərin işlək vəziyyətə gətirilməsi, eləcə də yeni mexanizmlərin hazırlanması | Fermerlərin maliyyə resurslarına əlçatanlığının artırılması |
| 8.2.2.3. | Aqrar Kredit Kooperativlərinin (AKK) və onların ittifaqının yaradılması, fəaliyyətinin dəstəklənməsi | KTN | Tövsiyə olunur: AMB | 2027–2030 | Beynəlxalq təcrübə nəzərə alınmaqla Aqrar Kredit Kooperativlərinin, eləcə də onların ittifaqının yaradılması ilə bağlı təkliflər hazırlanması, aqrar kredit kooperativinin pilot layihə olaraq yaradılması üçün təkliflər hazırlanması | Pilot layihə olaraq dövlət dəstəyi ilə aqrar kredit kooperativlərinin və onların ittifaqının yaradılması, eləcə də fəaliyyətlərinin dəstəklənməsi | Kollektiv kreditləşmə modeli əsasında fəaliyyət göstərən dayanıqlı aqrar kredit kooperativləri sisteminin formalaşdırılması |
| 8.2.2.4. | Aqrar istehsal və emal sektorunda tətbiq edilən güzəştli kreditləşmə mexanizminin genişləndirilməsi | İN | KTN | 2026–2030 | "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən aqrar istehsal və emal sahələrində müasir texnologiyaların dəstəklənməsi ilə bağlı təkliflər hazırlanması | Müvafiq təkliflərə uyğun "Azərbaycan Biznesinin İnkişafı Fondu" Açıq Səhmdar Cəmiyyəti tərəfindən prioritet istiqamətlərin müəyyən edilməsi və maliyyələşmənin aparılması | Prioritet istiqamətlər üzrə maliyyələşdirilmiş investisiya layihələrinin sayının artırılması |
| 8.2.2.5. | Aqrar sığorta və subsidiya mexanizmlərinin koordinasiyasının gücləndirilməsi | ASF | KTN | 2026–2027 | Aqrar sığorta prosesinin subsidiya mexanizmi ilə əlaqələndirilməsinin genişləndirilməsi, habelə sığorta ödənişlərinin həyata keçirilməsi prosesinin sürətləndirilməsi üçün təkliflərin hazırlanması | Təkliflər əsasında tələblərə uyğun olaraq normativ hüquqi aktların hazırlanması | Subsidiya və aqrar sığorta mexanizmlərinin inteqrasiya səviyyəsinin artırılması və sığorta ödənişlərinin operativliyinin təmin edilməsi |
| 8.2.2.6. | Aqrar sığortanın əhatə dairəsinin genişləndirilməsi | ASF | KTN | 2026–2030 | Aqrar sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərin və risklərin tərkibinin bitkiçilik, heyvandarlıq və balıqçılıq üzrə genişləndirilməsi istiqamətində təkliflər hazırlanması | Müvafiq normativ hüquqi aktların qəbul edilməsi | Aqrar sığorta mexanizmi çərçivəsində təminat verilən sığorta predmetlərinin və risklərin sayının artırılması |
| 8.2.2.7. | "Aqrar sığorta" informasiya sisteminin funksional imkanlarının genişləndirilməsi | ASF | KTN | 2026–2030 | "Aqrar sığorta" informasiya sistemi (ASİS) üzrə mövcud modulların funksional qiymətləndirilməsi və ehtiyacların müəyyən edilməsi | Ehtiyaclara uyğun ASİS-in elektron modullarının və funksional imkanlarının genişləndirilməsi | Aqrar sığorta xidmətlərinin tam elektron formada icra edilməsi, əlçatanlığın artırılması |
| 8.2.2.8. | Aqrar sığorta sahəsi üzrə risk və zərərlərin qiymətləndirilməsi metodologiyasının və müstəqil ekspertlər institutunun inkişaf etdirilməsi | ASF | KTN, DİM | 2026–2030 | Aqrar sığorta sahəsi üzrə zərərlərin qiymətləndirilməsi metodologiyasının və risk xəritəsinin hazırlanması, zəruri məlumatların toplanılması və müstəqil ekspertlərin sayının artımının təmin edilməsi üçün təkliflər hazırlanması | Aqrar sığorta sahəsi üzrə risklər və zərərlərin qiymətləndirilməsi metodologiyalarının müəyyən edilməsi, risk xəritəsi və təlimatların hazırlanması, ekspertlərin hazırlanmasına başlanılması, ildə ən azı 2 dəfə imtahanların təşkil olunması | Aqrar sığorta sahəsi üzrə risk xəritələrinin hazırlanması, zərərlərin qiymətləndirilməsi metodologiyalarının tətbiqi, azı 100 müstəqil ekspertin fəaliyyət göstərməsi |
| 8.2.2.9. | Aqrar sığorta haqlarının dövlət hesabına ödənilən hissəsinin subyektlər, predmet və risklərə münasibətdə diferensial-laş-dırılması | ASF | KTN | 2026–2030 | Subyektlər, predmet və risklərə münasibətdə sığorta haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilən hissəsini artırmaqla dövlət dəstəyinin diferensiallaşdırılması üzrə beynəlxalq təcrübənin öyrənilməsi | Aqrar sahədə diferensiallaşdırılmış sistemə keçidə başlanılması | Aqrar sahədə diferensiallaşdırılmış sistemin tam tətbiq edilməsi |
| **Fəaliyyət istiqaməti 8.2.3. İnformasiya-məsləhət xidmətləri və innovasiya yayımı sisteminin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.2.3.1. | Aqrar informasiya-məsləhət sisteminin formalaşdırılması | KTN | | 2027–2030 | Aqrar informasiya-məsləhət sistemi üzrə institusional modelin hazırlanması | Müvafiq normativ hüquqi bazanın və institusional çərçivənin formalaşdırılması, bu sahədə görüləcək işləri özündə ehtiva edən konsepsiya sənədinin və tədbirlər planının hazırlanması; İnformasiya-məsləhət xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində imkanların müəyyənləşdirilməsi | Ölkə üzrə informasiya-məsləhət xidmətləri şəbəkəsinin yaradılması |
| 8.2.3.2. | Aqroekoloji məlumatlar əsasında bölgələrin müxtəlif məhsullar üzrə ixtisaslaşmasının aparılması və fermerlərin məlumatlandırılması | KTN | ETSN | 2027–2030 | Seçilmiş pilot bölgələri üzrə aqroekoloji xüsusiyyətlərin istehsala təsiri barədə təhlillər aparılması və hesabatlar hazırlanması | Aqroekoloji məlumatlar əsasında qərarvermə alətlərinin (elektron) və regional ixtisaslaşma xəritələrinin hazırlanması | Ölkədə aqrar məhsullar üzrə ixtisaslaşmanın tamamlanması və fermerlərin məlumatlılıq səviyyəsinin artırılması |
| 8.2.3.3. | Orqanik kənd təsərrüfatı məhsulları istehsalı ilə bağlı fermerlərin məlumatlandırılması | KTN | AQTA, İN | 2027–2030 | Orqanik kənd təsərrüfatı məhsullarının istehsal gücünün qiymətləndirilməsi və potensial məhsulların və regionların seçilməsi | Seçilmiş regionlarda fermerlər arasında təbliğat-təşviqat tədbirlərinin həyata keçirilməsi, pilot orqanik təsərrüfatların və təlim proqramlarının təşkil edilməsi | Orqanik kənd təsərrüfatı ilə bağlı nümunəvi təsərrüfat modellərinin formalaşdırılması, fermerlərin orqanik təsərrüfatçılıqla bağlı məlumatlılıq səviyyəsinin artırılması |
| **Prioritet istiqamət 8.3. Dəyər zənciri inteqrasiyasına əsaslanan ixracyönümlü aqrobiznesin inkişafı** | | | | | | | |
| **Fəaliyyət istiqaməti 8.3.1. Aqrar-emal sənayesinin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.3.1.1. | Pambıq emalı sənayesinin inkişaf etdirilməsi | İN | KTN | 2026–2030 | İplik və parça istehsalının təşviq edilməsi üçün güzəştli kreditlərin ayrılması, ipək və xalçaçılıq üzrə emal sahələrinin institusional təkmilləşdirilməsi, pambıq mahlıcı və ipliyi üçün məhsul subsidiyasının tətbiq edilməsi | Azı 2 yeni iplik və ya parça emalı müəssisəsinin dəstəklənməsi | Pambıq mahlıcının iplik istehsalına yönəldilən hissəsinin, eləcə də ipliyin parça istehsalına yönəldilən hissəsinin artırılması |
| 8.3.1.2. | Bitki yağlarının istehsalı klasterinin formalaşdırılmasının təşviqi | KTN | İN | 2026–2030 | Bitki yağları istehsalının artırılması üçün bitkiçilik sahəsinin dəstəklənməsi, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi | Azı 2 bitki yağı emalı zavodunun yaradılması | |
| 8.3.1.3. | Şərab istehsalının təşviqi | KTN | İN | 2026–2030 | Kiçik şərab istehsalı müəssisələrinin yaradılması və modernləşdirilməsinin təşviqinə dair təkliflər hazırlanması | Şərab istehsalının dəstəklənməsi mexanizminin formalaşması və tətbiq edilməsi | Kiçik butik tipli şərab istehsalçılarının sayının 20-yə çatdırılması |
| 8.3.1.4. | Meyvə-tərəvəz məhsullarının emalı sahələrinin inkişafının təşviqi | KTN | İN | 2026–2030 | Emala yönələn meyvə-tərəvəz xammalına məhsul subsidiyasının tətbiqi, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi | Emal edilən meyvə-tərəvəz məhsullarının həcminin davamlı artması | |
| 8.3.1.5. | Süd emalı sahələrinin inkişafının təşviqi | KTN | İN | 2026–2030 | Emala yönəlmiş südə subsidiyanın verilməsi, müddətli vergi güzəştlərinin tətbiq edilməsi; Süd və süd məhsulları satışında ödəniş müddəti, təbii məhsulların fərqləndirilməsi ilə bağlı normativ hüquqi bazanın formalaşdırılması, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi | Emal edilən yerli südün həcminin davamlı artması | |
| 8.3.1.6. | Ət məhsulları emalı sahələrinin inkişafının təşviqi | KTN | İN | 2026–2030 | Kəsimxanalarda kəsilən iribuynuzlu heyvanlara müəyyən edilmiş şərtlər ilə subsidiyanın, müddətli vergi güzəştlərinin, investisiyaların cəlb edilməsi üçün təşviq mexanizminin tətbiq edilməsi | Ət və ət məhsulları istehsalının həcminin davamlı artması | |
| 8.3.1.7. | Gön-dəri və yun xammalının emala yönəldilməsinin dəstəklənməsi | KTN | İN | 2027–2030 | Yun və gön-dəri toplama məntəqələrinin, eləcə də yun emalı müəssisəsinin yaradılmasının dəstəklənməsi mexanizminin formalaşdırılması; Yun və dəri üçün məhsul subsidiyasının tətbiq edilməsi | Emal və ixrac edilən gön-dəri və yunun həcminin davamlı artması | |
| **Fəaliyyət istiqaməti 8.3.2. Aqrar istehsal vasitələri sənayesinin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.3.2.1. | Gübrə istehsalının təşviqi | İN | KTN, AQTA | 2027–2030 | Gübrə istehsalı imkanlarının qiymətləndirilməsi | Yeni gübrə istehsalı layihələrinin dəstəklənməsi və investisiya təşviqlərinin tətbiq edilməsi | Gübrə istehsalının artırılması və daxili tələbatın təminat səviyyəsinin yerli istehsal hesabına yüksəldilməsi |
| 8.3.2.2. | Yem istehsalının təşviqi | KTN | İN | 2027–2030 | Yem istehsalının xammal, texnika ilə və texnologiyalarla təminatının yaxşılaşdırılması üçün ehtiyacların qiymətləndirilməsi, bu sahədə vergi və gömrük güzəştlərinin tətbiqi | Yerli yem istehsalının və yem təminatında yerli istehsalın payının artırılması | |
| **Fəaliyyət istiqaməti 8.3.3. Aqrar sahədə logistika infrastrukturunun və təchizat sisteminin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.3.3.1. | Südtoplama məntəqələrinin logistika infrastrukturunun yaxşılaşdırılması və süd təchizatı zəncirinin dəstəklənməsi | KTN | İN, AQTA | 2026–2030 | Südtoplama məntəqələrinin yaradılması üçün ehtiyacların qiymətləndirilməsi, südün toplanmasında və daşınmasında istifadə olunan maşın və avadanlıqların alınmasının dəstəklənməsi üçün təkliflərin hazırlanması | Ehtiyaclara uyğun süd toplama məntəqələrin yaradılması, o cümlədən südün daşınması zamanı istifadə olunan maşın və avadanlıqların alınması üçün dəstək mexanizminin formalaşdırılması | Regionlar üzrə süd təchizatı zəncirinin optimallaşdırılması və sənaye emalına yönəldilən süd həcminin artırılması |
| 8.3.3.2. | Kənd təsərrüfatı təyinatlı soyuducu anbar şəbəkəsinin genişləndirilməsi | KTN | İN | 2026–2030 | Soyuducu anbar şəbəkəsinin genişləndirilməsi istiqamətində ehtiyacların müəyyən edilməsi | Yeni soyuducu anbar layihələrinin dəstəklənməsi və mərhələli istismara verilməsi | Regionlar üzrə soyuducu anbarların həcminin 100 min ton artırılması |
| 8.3.3.3. | Taxıl saxlanması üzrə logistika sistemlərinin inkişaf etdirilməsi | KTN | İN | 2026–2030 | Taxıl silolarına tələbatın müəyyən edilməsi məqsədilə araşdırmanın aparılması və bu tələbatın ödənilməsi üçün dəstək tədbirləri ilə bağlı təkliflər hazırlanması | Taxıl silolarının tələbə uyğun olaraq qurulması üçün müvafiq dəstək mexanizminin formalaşdırılması və tətbiq edilməsi | Taxıl saxlanma həcminin azı 150 min kubmetr artırılması |

*(ardı 11-ci səhifədə)*

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 10-cu səhifədə)*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.3.3.4. | Ərzaq məhsullarının dövlət sifarişi ilə satınalma sisteminin institusional və funksional baxımdan gücləndirilməsi | KTN | AİBNDA | 2026–2030 | Dövlət büdcəsinin vəsaiti hesabına ərzaq məhsullarının mərkəzləşdirilmiş tədarükündə birbaşa fermerlərdən və emalçılardan tədarükünün təşviqi məqsədilə beynəlxalq təcrübənin öyrənilməsi və normativ hüquqi bazanın təkmilləşdirilməsi ilə bağlı təkliflər hazırlanması | Müvafiq normativ hüquqi aktların təsdiqi və ərzaq məhsullarının dövlət sifarişi ilə satınalma sisteminin təkmilləşdirilməsi | Ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada dövlət büdcəsinin vəsaiti hesabına satın alınması prosesində istehsalçı fermerlərdən və emalçılardan alış payının artırılması |
| **Fəaliyyət istiqaməti 8.3.4. İxracyönümlü aqrobiznes və aqropark modelinin inkişaf etdirilməsi** | | | | | | | |
| 8.3.4.1. | İxracyönümlü aqrobizneslər üçün ixracın təşviqi üzrə ünvanlı dəstək mexanizmlərinin yaradılması və icrası | İN, KTN | | 2026–2030 | Aqrobizneslər üçün ixracın təşviqi üzrə ünvanlı dəstək mexanizminə dair təkliflərin, aidiyyəti qurumlarla razılaşdırılmaqla, təsdiq üçün təqdim edilməsi | Dəstək mexanizminin tətbiq olunması | Qeyri-ənənəvi xarici bazarlara ixrac həcminin artırılması |
| 8.3.4.2. | Aqrar istehsal və emal müəssisələrinin kommunal infrastruktura çıxış imkanın artırılması | KNT, İN | “Azərişıq” ASC, digər aidiyyəti orqanlar (qurumlar) | 2026–2030 | Kommunal xidmətlərə çıxış üzrə ehtiyacların qiymətləndirilməsi, subsidiyalaşdırma və ya dəstək mexanizmlərinin hazırlanması | Aqrar istehsal və emal müəssisələrinin kommunal infrastruktura qoşulma xərclərinin azaldılması üçün dəstək mexanizminin tətbiqi (texniki şərtin alınmasının subsidiyalaşdırılması) | Aqrar istehsal və emal müəssisələrinin enerji, su və qaz təminatı infrastrukturunun genişləndirilməsi və kommunal xidmətlərə çıxış imkanlarının artırılması |
| 8.3.4.3. | İstixana sahələrinin inkişafı üçün stimullaşdırma mexanizmlərinin tətbiqi | KTN | İN | 2026–2030 | Yeni nəsil istixanaların yaradılmasına investisiyaların təşviqi üzrə dəstək mexanizminin hazırlanması və icrası;<br>Elektrik enerjisi, qaz və digər xidmətlərə qoşulma xərclərinin subsidiyalaşdırılması mexanizminin hazırlanması və icrası;<br>İstixanaların qurulmasının dəstəklənməsi məqsədilə avadanlıqların güzəştli şərtlərlə satışının həyata keçirilməsi;<br>Layihə əsaslı dəstəklənmə üçün araşdırmaların aparılması və təkliflər hazırlanması | | 250 hektar sahədə yeni istixana qurulması (o cümlədən Şərqi Zəngəzurda 122 hektar), fəaliyyətini dayandırmış 250 hektar istixananın modernləşdirilməsi |
| 8.3.4.4. | İntensiv bağların genişləndirilməsinin dəstəklənməsi | KTN | | 2026–2030 | İntensiv bağçılığın genişləndirilməsinə yönəlmiş müxtəlif dövlət dəstəyi tədbirlərinə dair yenilənmiş təkliflərin işlənməsi və icrasına başlanması | | Ölkə üzrə intensiv bağların sahəsinin 70 min hektara çatdırılması |
| 8.3.4.5. | Kənd təsərrüfatı məhsulları istehsalçılarının qlobal və regional bazarlarda qəbul edilən sertifikatları əldə etməsi məqsədilə subsidiya mexanizmlərinin formalaşdırılması və tətbiq edilməsi | KTN | İN, AİBNDA, AQTA | 2027–2030 | Yerli sahibkarların müxtəlif ölkələrdə qəbul olunan sertifikatları (ixrac məqsədli) əldə etmələri üçün subsidiya mexanizminin tətbiqi məqsədilə araşdırma aparılması və ehtiyaclara uyğun təkliflər hazırlanması | Sertifikatlaşdırma üzrə subsidiya mexanizminin tətbiqi və sertifikat əldə edən istehsalçıların sayının artırılması | Hər il azı 2 istehsalçının qlobal bazarlarda tanınan sertifikat almasının dəstəklənməsi |
| 8.3.4.6. | Aqroparkların yeni inkişaf modelinə keçidinin dəstəklənməsi | KTN (Yevlax aqroparkına münasibətdə İN) | | 2027–2030 | Beynəlxalq təcrübənin öyrənilməsi, mövcud vəziyyətin təhlili və aqroparkların inkişafı və ixrac potensialının artırılması üçün kompleks təkliflər hazırlanması | Aqroparklar üçün xüsusi dəstək mexanizminin tətbiq edilməsi | Aqroparklar üzrə istehsal həcminin artırılması, azı 5 aqroparkın ixracyönümlü fəaliyyətinin təmin edilməsi |
| 8.3.4.7. | Yerli aqrar məhsullarının brendləşdirilməsi | KTN | İN | 2026–2030 | Regional mənşəli məhsulların identifikasiyası və brendləşmə potensialının qiymətləndirilməsi | Məhsulların brendləşdirilməsi üzrə dəstək mexanizminin tətbiq edilməsi | Regional brend statusu əldə etmiş məhsulların sayının artırılması |
| **Prioritet istiqamət 8.4. Aqrar sahədə müasir idarəetmə, standartlaşdırma və insan kapitalının inkişaf etdirilməsi** | | | | | | | |
| **Fəaliyyət istiqaməti 8.4.1. Aqrar sahədə institusional və rəqəmsal idarəetmənin, data əsaslı qərarvermə sistemlərinin gücləndirilməsi** | | | | | | | |
| 8.4.1.1. | Kənd təsərrüfatında data əsaslı effektiv idarəetmənin təşkili üçün süni intellekt həllərinin genişləndirilməsi | KTN | | 2026–2030 | Aqrar sektorda tətbiq edilən süni intellekt həllərinin genişləndirilməsi, modulların sayının 10-a çatdırılması | | Süni intellektdən istifadə etməklə hazırlanan modulların sayının 30-a çatdırılması |
| 8.4.1.2. | EKTİS-in mövcud altsistemlərinin imkanlarının genişləndirilməsi | KTN | RİNN, digər qurumlar | 2026–2030 | EKTİS-in yeni çağırışlara uyğun təkmilləşdirilməsi məqsədilə dəyişikliklər edilməsi və yeniliklərə dair təkliflər hazırlanması;<br>Aidiyyəti qurumların elektron platformalarında olan məlumatların mübadiləsi imkanlarının qiymətləndirilməsi və təkliflər hazırlanması | EKTİS-də mövcud altsistemlərin təkmilləşdirilməsi və ehtiyaca uyğun olaraq yeni altsistemlərin və infrastrukturun formalaşdırılması;<br>Aidiyyəti qurumlarla birlikdə məlumatların EKTİS ilə inteqrasiyası üzrə tədbirlərin həyata keçirilməsi | EKTİS-in kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən subyektləri zəruri olan xidmət və informasiyaları təmin edən vahid platformaya çevrilməsi |
| 8.4.1.3. | Kənd təsərrüfatı texnikasına texniki nəzarətin institusional təşkilinin təkmilləşdirilməsi və maddi-texniki baza baxımından gücləndirilməsi | KTN | | 2026–2030 | Kənd təsərrüfatı texnikasına texniki nəzarətin təkmilləşdirilməsi üçün ehtiyacların müəyyənləşdirilməsi və müvafiq təkliflər hazırlanması | Kənd təsərrüfatı texnikasına texniki nəzarətin institusional təşkilinin yenilənməsi, müvafiq maddi-texniki bazanın yaxşılaşdırılması, EKTİS bazasında texnikaya nəzarət altsisteminin yaradılması və dövlət orqanlarının (qurumlarının) informasiya ehtiyatlarına və sistemlərinə inteqrasiyasının təmin edilməsi | Kənd təsərrüfatı texnikasına texniki nəzarətin yeni mexanizmlər əsasında təmin edilməsi |
| 8.4.1.4. | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində fəaliyyət göstərən qurumlarda idarəetmənin səmərəliliyinin artırılması | KTN | | 2027–2028 | Beynəlxalq təcrübə araşdırılaraq mövcud qurumların institusional optimallaşdırılması, təsərrüfat hesablı müəssisələrdə korporativ idarəetmə sistemlərinin təkmilləşdirilməsi üzrə təkliflər hazırlanması | Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki qurumlarda optimallaşdırılmanın aparılması, korporativ idarəetmənin tətbiqi ilə bağlı islahatların həyata keçirilməsi və səmərəliliyin artırılması | |
| 8.4.1.5. | Aqrar sahədə normativ hüquqi bazanın təkmilləşdirilməsi | KTN | | 2026–2027 | “Aqrar sahə haqqında” Azərbaycan Respublikasının Qanunu layihəsinin hazırlanması və qəbul edilməsi | | |
| **Fəaliyyət istiqaməti 8.4.2. Aqrar subsidiya və dəstək mexanizmlərinin təkmilləşdirilməsi** | | | | | | | |
| 8.4.2.1. | İribuynuzlu heyvandarlıqda cins tərkibinin yaxşılaşdırılması və yeni dəstək mexanizmlərinin tətbiqi | KTN | | 2026–2030 | Cins heyvanların güzəştlə satışının təşviqinin təkmilləşdirilməsi, yeni dəstək mexanizminin formalaşdırılması (heyvan və məhsul subsidiyası) | Damazlıq heyvanların güzəştlə satışının təşkili,<br>südlük və ətlik təsərrüfatların cins damazlıq heyvanlarla təminatının yaxşılaşdırılması,<br>süni mayalanmada təkmilləşdirilmiş və diferensiallaşdırılmış dəstək mexanizminin tətbiqi,<br>müasir tələblərə cavab verən yeni təsərrüfatların yaradılması | Yüksək məhsuldar cins heyvanların ümumi sürüdə payının minimum 10 faizə çatması, mal əti istehsalı həcminin 20 faiz, süd istehsalı həcminin 10 faiz artırılması |
| 8.4.2.2. | Qoyunçuluqda cins tərkibinin yaxşılaşdırılmasının, yarım intensiv təsərrüfatların formalaşdırılmasının dəstəklənməsi | KTN | | 2026–2030 | Qoyunçuluqda yarım intensiv təsərrüfatların yaradılmasının dəstəklənməsi ilə bağlı təkliflər hazırlanması | Müvafiq dəstək tədbirlərinin müəyyən edilməsi və icrasına başlanılması;<br>Təsərrüfatlar üçün artezian quyuların qazılmasının subsidiyalaşdırılması mexanizminin tətbiqi | Qoyun əti istehsalı həcminin azı 9 faiz artırılması |
| 8.4.2.3. | Quşçuluq sahəsinin inkişafının stimullaşdırılması | KTN | İN | 2026–2030 | Quşçuluq təsərrüfatları üzrə ehtiyacların qiymətləndirilməsi;<br>Sahənin xüsusiyyətləri nəzərə alınmaqla torpaqların kateqoriyasının, yaxud məqsədli təyinatının dəyişdirilməsi istiqamətində işlərin sürətləndirilməsi üçün tədbirlər görülməsi | Toyuq damlarının və kəsimxanalarının qurulması üçün dəstək mexanizminin hazırlanması,<br>yumurta istehsalı istiqamətində emal müəssisəsinin yaradılmasının dəstəklənməsi üçün mexanizmin hazırlanması,<br>damazlıq işinin təşviqinin dəstəklənməsi | Quş əti istehsalının 30 faiz, yumurta istehsalının 27 faiz artırılması |
| 8.4.2.4. | Kənd təsərrüfatı texnikası və avadanlıqlarının satışına tətbiq olunan güzəşt mexanizmlərinin effektivliyinin artırılması | KTN | İN | 2026–2030 | Texnika və avadanlıqların satışına diferensial güzəşt mexanizminin tətbiqi və güzəştli kreditləşmə ilə bağlı tədbirlər görülməsi (kombayn, traktor, lazerli malalar və s.) | | Prioritetlərə və ehtiyaclara uyğun olaraq aqrar sahənin texnika və avadanlıqlarla təminatının yaxşılaşdırılması |
| 8.4.2.5. | Aqrar istehsal və emal sahələrində vergi siyasətinin dəyər zənciri üzrə optimallaşdırılması | NK | KTN, İN, DGK | 2026–2030 | Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrində vergi siyasətinin dəyər zəncirinin növbəti mərhələləri üzrə təkmilləşdirilməsinə dair təkliflərin hazırlanması və cari ilin sonunadək təqdim edilməsi;<br>Növbəti mərhələdə sözügedən təkliflərin təkmilləşdirilməsi | | Kənd təsərrüfatı və aqrar dəyər zəncirində rəqabətqabiliyyətliliyin, investisiya fəallığının, əlavə dəyərin yaradılmasının və iqtisadi səmərəliliyin artırılması |
| 8.4.2.6. | Buğda istehsalının artırılması ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi | KTN | İN | 2026–2030 | Ərzaqlıq buğda istehsalının regionlaşması istiqamətində işlər görülməsi;<br>Buğda əkini sahələrində lazerli mala tətbiqinin subsidiyalaşdırılması | | Buğda məhsuldarlığının ixtisaslaşmış rayonlarda 50 sentner/hektara çatdırılması, buğda istehsalı həcminin ölkə üzrə 20 faiz artırılması |
| 8.4.2.7. | Pambıq istehsalının artırılması ilə bağlı stimullaşdırma tədbirlərinin həyata keçirilməsi | KTN | İN | 2026–2030 | İxtisaslaşmış rayonlar üzrə məhsul istehsalına subsidiya mexanizminin ehtiyaclara uyğun yenilənməsi və tətbiqi, toxumçuluğun inkişafının dəstəklənməsi, pambıq əkini sahələrində lazerli mala tətbiqinin subsidiyalaşdırılması | | İxtisaslaşmış rayonlar üzrə pambığın məhsuldarlığının 50 sentner/hektara çatdırılması, pambığın istehsal həcminin 17 faiz artırılması |
| 8.4.2.8. | Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadın və gənc fermerlər üçün xüsusi dəstək mexanizmlərinin və layihələrinin həyata keçirilməsi | KTN | İN, AMB | 2027–2030 | Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadın və gənc fermerlərin dəstəklənməsi üzrə mexanizmin formalaşdırılması | Qadın və gənc fermerlərə istiqamətlənmiş dəstək mexanizminin tətbiq edilməsi | Kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan qadın və gənc fermerlərin sayının artırılması |
| 8.4.2.9. | Kənd təsərrüfatında kooperasiyalaşma və assosiasiyaların inkişafının dəstəklənməsi | KTN | İN, NMRNK | 2027–2030 | Nümunəvi kooperativlərin, eləcə də assosiasiyaların yaradılması ilə bağlı beynəlxalq təcrübə nəzərə alınmaqla təkliflərin hazırlanması, azı 1 model assosiasiyanın yaradılması, aqrar istehsal kooperativlərinin və onların ittifaqlarının pilot olaraq yaradılması üçün təkliflər hazırlanması | Pilot olaraq Naxçıvan Muxtar Respublikasında 1 model kooperativin dövlət dəstəyi ilə yaradılması,<br>aqrar məhsul istehsalı (süd, ət, qoyunçuluq və s.) kooperativləri və onların ittifaqlarının (birliklərinin) dövlət dəstəyi ilə pilot olaraq yaradılması və fəaliyyətinin dəstəklənməsi | Ümumilikdə 5 funksional nümunəvi kooperativin, 3 funksional nümunəvi assosiasiyanın (ittifaqın) fəaliyyətə başlaması |
| **Fəaliyyət istiqaməti 8.4.3. Aqrar elm, təhsil sahələrinin və insan kapitalının inkişaf etdirilməsi** | | | | | | | |
| 8.4.3.1. | Aqrar sahədə ikili diplom proqramlarının genişləndirilməsi və xarici universitetlə birgə universitetin yaradılması | KTN | ETN | 2026–2030 | İkili diplom proqramlarının əhatə etdiyi ixtisaslar, tərəfdaş ölkələrin və təhsilalanların sayının artırılması, seçilmiş xarici universitetlə birgə universitetin yaradılması imkanlarının araşdırılması | İkili diplom proqramları üzrə təhsil alan tələbələrin sayının artırılması, azı 2 nüfuzlu universitetlə ikili diplom proqramlarının tətbiq edilməsi | Aqrar ixtisaslar üzrə ikili diplom proqramlarından məzun olanların ümumi sayının 500-ə çatdırılması, bir xarici universitetlə əməkdaşlıq çərçivəsində birgə universitetin yaradılması |
| 8.4.3.2. | Aqrar sahə üzrə peşə standartlarının hazırlanması və təhsilin məzmununun yenilənməsi | ƏƏSMN, KTN | ETN, DİM | 2026–2030 | Aqrar sahə üzrə əmək bazarının tələblərinə uyğun peşə və kvalifikasiya standartlarının sayının artırılması, təhsil proqramları üzrə kurikulumların yenilənməsi | Müəyyən edilmiş ehtiyaclara uyğun peşə və təhsil standartlarının hazırlanması, həmçinin yenilənməsi, kurikulumlar və təlim materiallarının yenilənməsi, istehsalat təcrübəsi və stajkeçmə üzrə layihələrin icrası, aqrar sahə üzrə təhsilverənlərin ixtisasının artırılması | Azı 30 yeni peşə və kvalifikasiya standartının hazırlanması,<br>azı 10 proqramın kurikulumunun yenilənməsi,<br>azı 100 tələbənin xaricdə istehsalat təcrübəsinin təşkili,<br>azı 50 təhsilverənin təlimlərə cəlb edilməsi |
| 8.4.3.3. | Aqrar sahədə fəaliyyət göstərən mütəxəssislərin reyestrinin yaradılması və onların təlim proqramlarına cəlb edilməsi | KTN | | 2027–2030 | Aqrar sahədə fəaliyyət göstərən mütəxəssislərin reyestrin hazırlanması üçün prosedurun müəyyən edilməsi | Aqrar sahədə fəaliyyət göstərən azı 5 istiqamət üzrə (baytarlıq, aqronomluq və s.) mütəxəssislərin reyestrinin hazırlanması və təlim proqramının tətbiqinə başlanması | Aqrar sahədə fəaliyyət göstərən bütün istiqamətlər üzrə mütəxəssislərin reyestrinin yaradılması |

*(ardı 12-ci səhifədə)*

# Azərbaycanın orta güc statusu: regional liderlik ampluası

*(əvvəli 1-ci səhifədə)*

Tam əminliklə vurğulamaq olar ki, Prezident İlham Əliyevin müşavirədə üzərində dayandığı məqamlar Azərbaycanın beynəlxalq işgüzar mühitə həm də orta güc ampluasındakı mesajıdır. Məlum olduğu kimi, siyasi və beynəlxalq münasibətlərdə "orta güc" (ingiliscə middle power) supergüc və ya böyük dövlət olmayan, amma beynəlxalq siyasətə müəyyən təsir göstərə bilən ölkələr üçün işlədilən anlayışdır. Belə dövlətlər, bir qayda olaraq, regional və ya qlobal məsələlərdə aktiv diplomatik rol oynayır, iqtisadi və ya hərbi baxımdan sabit sayılır, həmçinin beynəlxalq təşkilatlarda fəal vasitəçilik gerçəkləşdirir, əksər hallarda sülhpərvər mövqe tuturlar. Onu da bildirək ki, orta güc statusuna malik ölkələrin göstərdikləri təsir aktiv diplomatiyaya və konkret əməkdaşlıq konturlarına söykənir. Bu isə həmin ölkələrə regional liderlik statusu qazandırır.

Bəli, sadaladığımız parametrlər Azərbaycanın orta güc anlayışına uyğunluğunu göstərir. Ölkəmizi bu mənada ön plana çıxaran başlıca amil isə nüfuzdur. O nüfuz ki, Prezident İlham Əliyev şəxsiyyətindəki erudik təfəkkürdən, iti zəkadan, dərin intellektdən, hadisə və proseslərə məxsusi yanaşma tərzindən qaynaqlanır. Bu gün tam əminliklə deyə bilərik ki, Azərbaycanın orta güc olaraq regional lider statusu məhz dövlətimizin başçısının xarakterindəki prinsipiallığın və qətiyyətin, dönməz iradənin nəticəsidir. Bəs respublikamız orta güc kimi necə formalaşıb? Suala cavab verərkən, bir çox cəhətlərə diqqət yetirmək mümkündür. Amma ümumi şəkildə bir neçə məqamın üzərində dayanaq.



Müstəqillik illərində başlıca fəaliyyəti dövlət quruculuğu, enerji siyasəti, regional təhlükəsizlik və diplomatik aktivlik üzərində qurulmuş Azərbaycanda 1990-cı illərin əvvəllərində siyasi və iqtisadi böhran yaşanmasına baxmayaraq, daxili sabitliyin və dövlət institutlarının möhkəmləndirilməsinə başlanıldı. Ulu öndər Heydər Əliyevin böyük siyasi səriştəsinin nəticəsi kimi meydana çıxan bu proses güclü mərkəzi idarəetmə və təhlükəsizlik siyasətinə əsaslandı ki, bu, gələcək üçün etibarlı baza idi. Yəni, faktiki olaraq, Ulu öndər məhz həmin bazanı formalaşdırdı.

İkinci məqam kimi, bilavasitə enerji siyasətindən söz açaq. Neft və qaz ehtiyatları Azərbaycanın beynəlxalq əhəmiyyətini artırsa da, bu ehtiyatlardan səmərəli istifadə, eləcə də onların beynəlxalq bazarlara çıxarılması amili müstəsna əhəmiyyət daşıyırdı. Nəzərə alaq ki, sərvət heç də bütün xalqlara xoşbəxtlik gətirmir. Əksinə, təbii sərvətlərin bəzən xalqlar və dövlətlər üçün əsl bəlaya çevrildiyini görürük. Məsələyə mövcud prizmadan yanaşsaq, deyə bilərik ki, Azərbaycan dövlətinin orta güc statusuna yiyələnməsindəki başlıca cəhət onun həm də risklərin qarşısını alınmasındakı və idarə olunmasındakı bacarığı və məharətidir.

Mahiyyət etibarilə, Bakı–Tbilisi–Ceyhan neft kəməri, Cənub Qaz Dəhlizi, bütövlükdə, hazırda Avropanın enerji təhlükəsizliyindəki aparıcı rol ölkəmizin iqtisadi və siyasi çəkisini yüksəltdi. Ən başlıcası isə bu çəkini şərtləndirən məqamların sayı artmaqdadır. Nəzərə alaq ki, hazırda Azərbaycan yalnız enerji ixracatçısı deyil, həm də regional strateji tərəfdaş kimi tanınır ki, mövcud amil də orta güc anlayışı baxımından önə çəkilə bilər.

Əvvəldə vurğuladığımız kimi, orta güc ampluasında həm də sülhpərvərlik missiyası var. Bunun üçün isə balanslaşdırılmış xarici siyasət mütləqdir. Yəni balanslaşdırılmış siyasət o qədər ciddi səmimiyyət motivlərinə əsaslanmalıdır ki, o dərəcədə ölçülü-biçili olmalıdır ki, heç bir məqam şübhə doğurmasın. Bu baxımdan ölkəmiz dünya üçün, sözün əsl mənasında, nümunədir. Baxın, günümüzün Azərbaycanı balans siyasətini müxtəlif güc mərkəzləri arasında, özü də çox uğurlu çəkildə aparır. Belə bir siyasətdə dəyişilməz kazus isə milli maraq və mənafelərə əsaslanmaqdır. Bu əsaslanma dəqiq olmalı və son dərəcə müfəssəl izahını tapmalıdır və tapır da. Əks halda, obrazlı desək, ətraf qurdluqdan düşənləri yeməyə hazır olanlarla doludur.

Azərbaycanın orta güc statusunun möhkəmlənməsi özünü daha çox İkinci Qarabağ müharibəsindən sonra göstərdi. O müharibədə ki, ölkəmiz təkcə Ermənistana və dünya erməniliyinə deyil, onların bütün havadarlarına qarşı mübarizə apardı. Nəinki mübarizə apardı, eyni zamanda, zəfər qazandı. Zəfər isə tamamilə yeni reallıq formalaşdırdı. Elə bir reallıq ki, bu gün artıq regional düzən kimi oturuşmaqdadır. Tam əminliklə deyə bilərik ki, İkinci Qarabağ müharibəsindəki qələbəmiz Azərbaycanı Orta Dəhliz, Şərq-Qərb nəqliyyat marşrutları, Xəzər regionu tranzit layihələri üzrə regional bağlantı mərkəzi mövqeyini gücləndirdi.

Orta güc ampluasına "yumşaq güc" alətlərindən səmərəli istifadə məharəti də xasdır. Bu gün Azərbaycan dünyanın ən nüfuzlu beynəlxalq tədbirlərinə ev sahibliyini gerçəkləşdirir, Vətənimiz çoxsaylı forumların və enerji sammitlərinin düzənləndiyi məkandır, bu baxımdan bənzərsiz və təkrarsız nümunədir. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu məkanın gələcəkdə daha böyük uğurlara imza atacağı, orta güc olaraq özünü daha fərqli mövqelərdə göstərəcəyi isə şübhəsizdir. Həm də ona görə şübhəsizdir ki, Azərbaycanın keçdiyi yol gələcək üçün etibarlı bazadır. Müstəqil dövlətçilik üçün əbədi təminat bazası.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026–2030-cu illər üçün Dövlət Proqramı

*(əvvəli 11-ci səhifədə)*

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 8.4.3.4. | Aqrar sahədə qeyri-formal məşğulluğun azaldılması | KTN, ƏƏSMN | İN, DSK | 2026–2027 | Kənd təsərrüfatında qeyri-formal məşğulluq səviyyəsinin qiymətləndirilməsi | Kənd təsərrüfatında qeyri-formal məşğulluq səviyyəsinin mərhələli azaldılmasına dair zəruri təkliflərin hazırlanması, normativ hüquqi bazanın təkmilləşdirilməsi | |
| 8.4.3.5. | Elmi tədqiqat institutlarının idarəetmə sistemlərinin modernləşdirilməsi, institusional islahatlar aparılması | KTN | | 2026–2027 | Beynəlxalq təcrübə nəzərə alınmaqla elmi tədqiqat institutlarının idarəetmə sistemlərinin təkmilləşdirilməsi, eləcə də institusional islahatlarla bağlı kompleks işlər görülməsi | | |
| 8.4.3.6. | Beynəlxalq elmi tədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi | KTN | | 2027–2030 | Beynəlxalq elmi tədqiqat mərkəzləri ilə əməkdaşlığın genişləndirilməsi üçün tədbirlər planının hazırlanması və icrasının təmin edilməsi | Birgə konfransların təşkili və tədqiqat layihələrinin icrası, elmi işçilərin mübadiləsi istiqamətində tədbirlər görülməsi | Beynəlxalq tərəfdaş mərkəzlərlə birlikdə azı bir mükəmməllik və innovasiya mərkəzinin yaradılması |
| 8.4.3.7. | Aparılan elmi tədqiqatların müasir tələblərə uyğun olaraq keyfiyyətinin yüksəldilməsi və gənclər arasında elmi tədqiqatların aparılmasına marağın artırılması | KTN | | 2026–2030 | Keyfiyyətli elmi tədqiqatların aparılması, eləcə də alınan nəticələrin nüfuzlu nəşrlərdə çap edilməsi üçün müxtəlif növ maddi və qeyri-maddi stimullaşdırıcı mexanizmlərin hazırlanması, elmi tədqiqatların aparılmasında layihə əsaslı maliyyələşməyə keçidin qiymətləndirilməsi | Elmi tədqiqatlara marağın artırılması (xüsusən də gənclər arasında) mexanizminin hazırlanması və tətbiq edilməsi | Aparılan elmi tədqiqatların sayının artırılması; İndeksləşdirilmiş jurnallarda çap olunan məqalələrin sayının 2027-ci ildən başlayaraq hər il 10 faiz artması, beynəlxalq konfranslarda iştirak sayının artırılması aqrar sahədə elmi tədqiqatlarla məşğul olan gənc alimlərin sayının artırılması |
| 8.4.3.8. | Elmi tədqiqat institutlarının infrastruktur təminatının yaxşılaşdırılması | KTN | İN | 2026–2030 | Bitkiçilik, heyvandarlıq və balıqçılıq istiqamətləri üzrə elmi tədqiqat institutlarının müasir infrastruktur təminatı ehtiyaclarının qiymətləndirilməsi və bu əsasda müvafiq inkişaf təkliflərinin hazırlanması; Elmi tədqiqat institutlarının müasir infrastruktur təminatına ehtiyaclarının qiymətləndirilməsi | Ehtiyaclara uyğun olaraq infrastruktur təminatının yaxşılaşdırılması ilə bağlı təkliflər hazırlanması və bu istiqamətdə tədbirlərin həyata keçirilməsi, müasir laboratoriya və təlim-təcrübə sahələrinin yaradılması, balıq və su bioresurs ehtiyatlarının tədqiqi üçün müasir təchizata malik elmi tədqiqat gəmisinin təmin edilməsi | Elmi tədqiqat institutlarının müasir tələblərə uyğun infrastrukturla təminat səviyyəsinin artırılması |
| **Prioritet istiqamət 8.5. Balıqçılıq və akvakultura sahəsində dayanıqlı istehsal və bazar potensialının gücləndirilməsi** | | | | | | | |
| **Fəaliyyət istiqaməti 8.5.1. Balıq ehtiyatlarının qorunması, idarəetmə və nəzarət potensialının gücləndirilməsi** | | | | | | | |
| 8.5.1.1. | Balıqçılıq və akvakultura sahəsində normativ hüquqi bazanın müasir tələblərə uyğunlaşdırılması | KTN | ETSN | 2026–2027 | "Balıqçılıq haqqında" Azərbaycan Respublikası Qanununun və digər normativ aktların yenilənməsi ilə bağlı təkliflərin hazırlanması və müvafiq layihələrin təsdiq edilməsi | Akvakulturada torpaq istifadəçiliyi, marikultura (dəniz akvakulturası) və digər tənzimləmələrlə bağlı normativ hüquqi bazanın formalaşdırılması | Balıqçılıq və akvakultura sahəsində beynəlxalq standarlara uyğun normativ hüquqi bazanın yaradılması |
| 8.5.1.2. | Balıqçılıq və akvakultura sahəsində nəzarət və idarəetmə sistemlərinin modernləşdirilməsi və rəqəmsallaşdırılması | KTN | | 2026–2028 | İnzibati prosedurların sadələşdirilməsinə dair təkliflərin hazırlanması, akvakultura sahəsində sanitariya nəzarəti qaydalarının təkmilləşdirilməsi və bu istiqamətdə normativ hüquqi aktların, habelə elektron qeydiyyatın aparılması ilə bağlı təkliflər hazırlanması | Akvakultura təsərrüfatlarının yaradılması üçün uyğun ərazilərin müəyyən olunması, təsərrüfatların elektron qeydiyyatının aparılması, balıqçılıq gəmi və qayıqlarının elektron izləmə sisteminin qurulması, balıqçılıq ov alətləri, ləvazimat və avadanlıqlarının uçotunun təmini məqsədilə informasiya sisteminin qurulması | Balıqçılıq və akvakultura sahəsində sanitariya nəzarəti sisteminin beynəlxalq tələblərə uyğun təşkili, nəzarət və idarəetməni həyata keçirmək üçün informasiya sisteminin yaradılması |
| 8.5.1.3. | Balıq ovunun dayanıqlı əsaslarla təşkili, izlənməsi və bu sahədə nəzarətin gücləndirilməsi | KTN | DİN, DSX | 2026–2030 | Balıq ovu məhsullarının quruya və dənizə çıxış sahələrinin mərkəzləşdiyi vətəgələrdə nəzarət və qeydiyyat sisteminin təşkil edilməsi | Balıq ovu nəzarətinin təşkili üçün Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan hissəsində və daxili sularda vətəgə sahələrində müvafiq infrastrukturun qurulmasının təmin edilməsi, balıq mühafizə tədbirləri üçün gəmi (qayıq) və texniki təminatın yaxşılaşdırılması | Balıq ehtiyatlarının qorunması və ekoloji balansın saxlanılması üçün balıq ovunun ekosistemə daha uyğun prinsiplər əsasında aparılması və balıq ovuna nəzarətin təşkil edilməsi |
| 8.5.1.4. | Balıqartırma fəaliyyətinin gücləndirilməsi | KTN | İN | 2026–2030 | Balıq ehtiyatlarının elmi qiymətləndirilməsi və balıq buraxılışı ehtiyacının müəyyən olunması; Göygöl rayonunun Çaykənd balıqartırma təsərrüfatının yenidən qurulmasının layihələndirilməsi | Göygöl rayonunun Çaykənd balıqartırma təsərrüfatının və Ağdərə rayonunda yeni balıqartırma təsərrüfatının qurulması, digər balıqartırma təsərrüfatlarının müasirləşdirilməsi | Balıqartırma təsərrüfatının fəaliyyətinin təmin edilməsi |
| **Fəaliyyət istiqaməti 8.5.2. Balıqçılıq məhsulları üzrə istehsal və ixrac imkanlarının genişləndirilməsi** | | | | | | | |
| 8.5.2.1. | Balıqçılıq sahəsində inkişaf zonalarının müəyyən edilməsi | KTN | | 2026–2030 | Balıq və digər su bioresurslarının istehsalına, artırılmasına, mühafizəsinə, bərpasına və istifadəsinə dair mövcud vəziyyətin araşdırılması və potensialın qiymətləndirilməsi | Regional səviyyədə inkişaf zonalarının müəyyən edilməsi və sektoral klasterlərin yaradılması ilə bağlı araşdırmalar aparılması və təkliflər hazırlanması | Akvakultura sahəsində 1 aqroparkın yaradılması, zonaların müəyyən edilməsi |
| 8.5.2.2. | Balıqçılıq sahəsində damazlıq işinin gücləndirilməsi | KTN | | 2026–2030 | Mövcud vəziyyətin qiymətləndirilməsi və hesabatın hazırlanması, balıqçılıq sahəsində damazlıq planının hazırlanması, damazlıq işinin elektron izləmə sisteminin qurulması və dəstək tədbirlərinin icrası | | Damazlıq balıqçılıq təsərrüfatının formalaşdırılması |
| 8.5.2.3. | Balıqçılıq və akvakultura sahəsində dəstək mexanizminin formalaşdırılması | KTN | İN | 2026–2030 | Balıqçılıq və akvakultura məhsulları istehsalı və emalı sahəsində subsidiyaların və güzəştlərin verilməsi ilə bağlı təkliflər hazırlanması | Subsidiya və güzəştlərin balıqçılıq və akvakultura sahəsində tətbiq edilməsi | Akvakultura subyektlərinin məhsul buraxılışının 7700 tona çatdırılması |

**9. Akronimlər**

ADSEA – Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi
AİBNDA – Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi
AMB – Azərbaycan Respublikasının Mərkəzi Bankı
AQTA – Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi
ASF – Aqrar Sığorta Fondu
"Azərişıq" ASC – "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti
DGK – Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi
DİM – Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi
DİN – Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi
DSK – Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
DSX – Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti
EN – Azərbaycan Respublikasının Energetika Nazirliyi
ETN – Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi
ETSN – Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi
ƏƏSMN – Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi
İN – Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi
KTN – Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi
MdN – Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi
NK – Azərbaycan Respublikasının Nazirlər Kabineti
NMRNK – Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti
RİNN – Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
YİHO – Yerli İcra Hakimiyyəti Orqanları

# "Könüllü Liderlərin İnkişaf Konsepsiyası"

**Mayın 25-də könüllülük fəaliyyətinin inkişafına və gənc liderlərin formalaşdırılmasına töhfə vermək məqsədilə Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Azərbaycan Könüllü Təşkilatları İttifaqı tərəfindən hazırlanmış "Könüllü liderlərin inkişaf konsepsiyası" Proqramının açılış mərasimi keçirilib.**



AKTİ-nin sədri Vüqar Əliyev proqramın əsas məqsədləri, könüllülük fəaliyyətinin cəmiyyət üçün əhəmiyyəti və könüllü gənclərin liderlik bacarıqlarının inkişafındakı rolu barədə danışıb.

Gənclər Fondunun Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Nail Şükürov və Milli Məclisin deputatı Vüqar İskəndərov proqramın könüllü gənclərin şəxsi və peşəkar inkişafında oynadığı mühüm roldan bəhs edərək, bu kimi təşəbbüslərin könüllülərin liderlik bacarıqlarının formalaşdırılması, ictimai fəallığının artırılması və gələcək fəaliyyətlərində uğurlu karyera istiqamətlərinin müəy-



yənləşdirilməsi baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıblar.

Daha sonra "KLİK iştirakçılarının proqramla bağlı təəssüratları" adlı videoçarx təqdim olunub.

Proqram iştirakçıları Təranə Şahbazova və Elşən Soltanzadə layihənin müsahibə və seçim mərhələsində qazandıqları təcrübə, eləcə də proqramın onlar üçün yaratdığı inkişaf imkanları barədə fikirlərini bölüşüblər.

***XQ***

# Dünya qlobal məskunlaşma axtarışında İlham Əliyevin uzaqgörənliyinin şahidi oldu

## *WUF13-də 27 lider, 176 ölkə təmsilçiləri bu gerçəyi alqışladılar*

**Tarix dəfələrlə sübuta yetirib ki, onun konkret dövrü, əhəmiyyət kəsb edən mərhələsi ayrı-ayrı liderlərin fəaliyyəti və taleyi ilə bağlı olub. Bu gün Azərbaycan və dünya belə bir mərhələnin formalaşmasına, onun gündəliyini müəyyənləşdirən şəxsiyyətin çağdaş tarixin təkərinə yön verməsinə şahidlik edir. Mərhələnin xarakteri insanyönümlü qlobal çağırışlar və həmin çağırışları Yer sakinlərinin birgə səyləri ilə reallaşdırmaq yollarını dünyaya bəyan etməkdirsə, onu göstərən liderin adı İlham Əliyevdir.**




Şərq və Qərb, Şimal və Cənub arasında uzlaşma nöqtələrini dəqiq müəyyənləşdirən, beynəlxalq əməkdaşlığın çeşidli seqmentlərini strateq-diplomat fəhmi və səriştəsi ilə ortaya qoyan İlham Əliyev Bakıda 6 gün davam edən WUF13-ün yekununda bütün istiqamətlərdə, o cümlədən şəhərsalma sahəsində də uzaqgörən liderliyini sübuta yetirmiş oldu. Dövlətimizin başçısı 2026-cı ili "Şəhərsalma və Memarlıq İli" elan edərkən Azərbaycanın bu platformada da özünəməxsus yeni təqdimat formaları, əvvəlcədən düşünülmüş strategiyası ilə uğur qazanacağına tam əmin idi.

*

İlham Əliyevin qloballaşan dünyanın çağırışlarının nüvəsində bəşər övladının rahat və sağlam yaşayışının, "hər şey insan üçün" fəlsəfəsinin dayandığını dərindən duyan və bunu beynəlxalq arenaya yansıdan bənzərsiz diplomat, siyasi qrossmeysterlik missiyasının BMT üzvü olan 176 ölkənin nümayəndəsi, 27 dövlət və hökumət başçısı tərəfindən qəbul və təqdir edilməsi onların gözündə Azərbaycanın güvənilən tərəfdaş kimi nüfuzunun və imicinin daha da möhkəmlənməsi deməkdir.

Bakı - WUF13 forumunda iştirakçılara təqdim olunan innovativ yanaşmalar, rəsmi qurumlarla yanaşı, dünyanın aparıcı beyin mərkəzlərinin ekspertləri, vətəndaş cəmiyyəti, gənclər və idman sahələrinin təmsilçiləri üçün yeni məzmunlu debat və müzakirələrin təşkili Azərbaycanın qlobal çağırışların həll yollarına konseptual baxışının təcəssümü sayılmalıdır. Forumun proqramına ilk dəfə daxil edilmiş Liderlərin Bəyanatları Sessiyası isə yüksək səviyyəli qonaqların gələcəyin şəhərsalma tendensiyalarına dair təklif və ideyalarını irəli sürdükləri tribuna rolunu oynadı. Forumun devizindən irəli gələn və yekun sənədlərdə öz əksini tapan ideyalar: təmiz hava, sağlam həyat tərzi və gələcəyə yönəlik şəhər inkişafı istiqamətləri ilə yanaşı, mədəni irsin qorunması və kiçik ada dövlətlərin ehtiyaclarının qarşılanması kimi çağırışların qlobal şəhərsalma gündəliyini daha da zənginləşdirəcəyinə və düzgün istiqamət verəcəyinə əminik. Liderlərin Bəyanatları Sessiyası tribunasından səslənən fikirlərdə Azərbaycan ilə BMT-Habitatın Ümumdünya Şəhərsalma Forumunun növbəti sessiyaların təşkili üçün əməliyyat təlimatlarına dair əməkdaşlıq niyyəti alqışlandı və Bakı WUF forumun bundan sonrakı ev sahiblərinə nümunə olaraq göstərildi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə Ümumdünya Şəhərsalma Forumu tarixində ilk dəfə olaraq məhz Bakı Forumunda reallaşdırılan Liderlərin Bəyanatları Sessiyasında kifayət qədər maraqlı, yaddaqalan çıxışlar, bu çıxışlarda ölkəmizin və onun liderinin ünvanına səslənin təqdiredici notlar eşitdik. 27 dövlət və hökumət başçısının, yüksək səviyyəli qonaqların və nüfuzlu beynəlxalq təşkilatların rəhbərlərinin qatıldığı bu seqmentdə, eyni zamanda, Azərbaycana yüksək qonaqpərvərliyə, səmərəli beynəlxalq dialoq üçün yaradılmış mükəmməl şəraitə və WUF13-ün uğurlu təşkilinə görə minnətdarlıq ifadə edildi.

*

Altı gün ərzində dünya mediasının gündəmindən düşməyən Bakı Forumunda Liderlərin Bəyanatları Sessiyasının təşkili Azərbaycanın bütün ölkələrlə strateji dialoq, qarşılıqlı əməkdaşlıq və qlobal təşəbbüslərin təşviqi üçün mühüm beynəlxalq platforma kimi güclənən rolunu bir daha nümayiş etdirmiş oldu. Bütün bunlar, öz növbəsində, WUF13-ün siyasi əhəmiyyətini daha da artırdı.

Oxuculara xatırladaq ki, Bakı Forumunda aparılan dərinməzmunlu və hərtərəfli müzakirələrin sonunda iki vacib yekun sənəd – "Sədrin Xülasəsi" və "Bakı Fəaliyyətə Çağırış" qəbul olundu. 13-cü Sessiya, eyni zamanda, Azərbaycanın qlobal əhəmiyyət kəsb edən məsələlər ətrafında beynəlxalq ictimaiyyəti bir araya gətirmək və yeni dialoq platformaları formalaşdırmaq qabiliyyətini də təsdiqlədi. Bu faktı İlham Əliyev sosial media hesabında WUF13-lə bağlı paylaşımında xüsusi olaraq qeyd edib: "Təxminən 60 min iştirakçının rekord sayı ilə WUF13 tarixə ən böyük Ümumdünya Şəhərsalma Forumu kimi düşdü. Azərbaycanın təşəbbüsü ilə ilk dəfə təşkil olunan Liderlər Seqmenti qlobal şəhərsalma gündəliyinə daha böyük siyasi impuls vermiş oldu".

Azərbaycanın COP29-dan sonra ölkədə keçirilən ikinci ən böyük beynəlxalq tədbirə – BMT-Habitatın WUF13 kimi qlobal platformasına ev sahibliyi etmək şərəfinə nail olduğunu yazan dövlətimizin başçısı daha sonra paylaşımında bütün iştirakçıları, tərəfdaşları və BMT ailəsini, xüsusilə də UN-Habitatı uğurlu və nəticəyönümlü WUF13 münasibətilə təbrik etməyi də unutmayıb.

İlham Əliyevin sosial media platformasındakı paylaşımında urbisid, kultursid və ekosidin qurbanı olmuş Azərbaycan barədə də qeydlər var: "Azərbaycan hazırda Qarabağ və Şərqi Zəngəzurda 9 şəhəri və yüzlərlə kəndi sıfırdan yenidən qurur. Buna görə də beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın münaqişədənsonrakı bərpa səylərinin yüksək qiymətləndirilməsindən qürur duyuruq; bu səylər dünyanın digər postmünaqişə bölgələri üçün dəyərli nümunə kimi vurğulanır".

*

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası qlobal qeyri-müəyyənliyin, qarşıdurma və kataklizmlərin artdığı bir dövrdə Azərbaycanın çoxtərəfliliyə, daha rahat və sağlam gələcək naminə kollektiv fəaliyyətə verdiyi daha bir töhfəsi ilə yadda qalacaq. Bunu birmənalı şəkildə yaza bilərik ki, bu gün İlham Əliyev Böyük Atatürkün "Yurdda sülh, cahanda sülh", Ulu öndərin "Bir millət – iki dövlət" kimi milli və bəşəri konsepsiyalarının XXI əsrdə daha da irəli aparılması missiyasının icraçısı rolundadır. 23 il bundan əvvəl Azərbaycanın 4-cü Prezidenti seçilərkən ona bağlanan ümidləri doğruldacağına söz verəndə, bəlkə də bir çoxları buna əmin deyildi. Amma tarix və zaman bir daha göstərdi ki, sovet ideologiyasının cəmiyyətə təlqin etdiyi narrativin əksinə olaraq, şəxsiyyətin tarixi hadisələrin gedişatına təsiri və rolu danılmazdır. Bəli, tarix kütlə deyil, onun qarşısında gedən lider-şəxsiyyətlər, bizim timsalımızda ata vəsiyyətinə əməl edən layiqli varis tərəfindən yaradılır. Alimlərin gəldiyi qənaətdir: ən ədalətli imperiyalar yaradan Türk hökmdarları, sərkərdələri əsrlər boyu tarix yaratmaqla məşğul olsalar da, özlərinin xidmətlərini yazıya köçürüb sənədləşdirməyiblər. Artıq iyirmi birinci yüzillikdə bu yanlışlıq Azərbaycan xalqının lideri, Türk coğrafiyasının qürur duyduğu, üçrəngli Zəfər bayrağını heç vaxt enməyəcək əbədi zirvəyə qaldıran İlham Əliyev tərəfindən aradan qaldırılır.

BMT – Habitatın 13-cü Bakı Forumunda dünyanın 176 ölkəsinin təmsilçisinin, o cümlədən 27 dövlət və hökumət başçısının Azərbaycan Prezidenti İlham Əliyevin liderliyini ayaqüstə alqışlaması bu həqiqətin aşkar təsdiqi oldu.

***İmran BƏDİRXANLI***
***XQ***

# Azərbaycan diplomatiyasının Afrikaya uzanan qolları

## *Yeni dünya nizamında Afrika qlobal siyasətin yeni geostrateji mərkəzlərindən birinə çevrilir*



**Bu gün dünya dövlətləri Afrikaya gələcəyin iqtisadiyyatı, enerji təhlükəsizliyi, siyasi təsir zonası və beynəlxalq legitimlik məkanı kimi yanaşırlar. Məhz bu mərhələdə Azərbaycanın Afrikaya açılan diplomatik xətti xüsusi diqqət çəkir. Xarici işlər nazirinin müavini Yalçın Rəfiyevin Bakıda keçirilən "Afrika Günü" beynəlxalq konfransında səsləndirdiyi fikirlər də göstərir ki, Bakı artıq Afrikanı uzaq coğrafiya deyil, yeni strateji tərəfdaşlıq məkanı kimi qiymətləndirir.**

### Afrika dünyanın diqqət mərkəzində

Əslində, Afrika uzun illər beynəlxalq siyasətdə daha çox humanitar böhranlar, yoxsulluq, vətəndaş müharibələri və qeyri-sabitlik kontekstində təqdim olunurdu. Qlobal media və böyük güclərin siyasi ritorikası qitəni əsasən "problemlər məkanı" kimi təsvir edirdi. Lakin XXI əsrin ikinci onilliyindən etibarən bu yanaşma tədricən dəyişməyə başladı. Çünki dünya siyasətinin iqtisadi və geostrateji ağırlıq mərkəzi dəyişdikcə, Afrikanın da beynəlxalq sistemdə rolu tamamilə yeni məna qazanmağa başladı.

Bu gün Afrikanın yüksəlişi qlobal geosiyasi transformasiyanın mühüm tərkib hissəsidir. Əgər XX əsrdə böyük güclər Yaxın Şərq enerji resursları uğrunda rəqabət aparırdısa, XXI əsrdə rəqabətin əsas istiqamətlərindən biri məhz Afrika üzərində formalaşır. Çünki gələcəyin iqtisadiyyatında artıq texnologiya, rəqəmsal sənaye, "yaşıl enerji" və kritik mineral resurslar yeni geosiyasi mübarizənin əsas elementlərinə çevrilir. Afrika isə məhz bu yeni iqtisadi modelin mərkəzində dayanır. Dünyanın ən gənc əhalisinə malik olan qitə yaxın onilliklərdə həm böyük əmək bazarı, həm də nəhəng istehlak məkanı kimi çıxış edəcək. BMT proqnozlarına görə əsrin ortalarına qədər dünya əhalisinin əhəmiyyətli hissəsi Afrikada yaşayacaq. Bu isə o deməkdir ki, qlobal şirkətlər, texnologiya nəhəngləri və siyasi güclər gələcəyin bazarlarını indidən formalaşdırmağa çalışırlar. "Yaşıl enerji" keçidi Afrikanın strateji əhəmiyyətini daha da artırıb. Elektromobillərdən tutmuş süni intellekt texnologiyalarına qədər yeni sənaye inqilabının əsasını təşkil edən litium, kobalt və nadir torpaq elementlərinin böyük hissəsi Afrika ölkələrində cəmləşir. Xüsusilə Konqo Demokratik Respublikası, Zambiya və digərləri artıq qlobal enerji transformasiyasının ayrılmaz hissəsinə çevriliblər. Başqa sözlə, gələcəyin texnoloji üstünlüyü, müəyyən mənada Afrikanın resurs xəritəsindən keçir.

Məhz buna görə bu gün Afrikada ciddi geosiyasi rəqabət müşahidə olunur. Çin uzun illərdir "Bir kəmər, bir yol" təşəbbüsü vasitəsilə qitədə infrastruktur və maliyyə təsirini artırır. ABŞ isə son dövrlər Afrikaya dönüş strategiyasını gücləndirərək Pekinin təsir balansını məhdudlaşdırmağa çalışır. Rusiya təhlükəsizlik və hərbi əməkdaşlıq üzərindən öz mövqelərini genişləndirir, Türkiyə humanitar diplomatiya və müdafiə sənayesi vasitəsilə təsir dairəsini böyüdür. Körfəz ölkələri isə logistika, limanlar və kənd təsərrüfatı sahələrinə böyük investisiyalar yatırırlar. Deməli, Afrika artıq yeni dünya nizamının əsas geosiyasi düyün nöqtələrindən birinə çevrilir. Ən diqqətçəkən məqamlardan biri isə budur ki, bu prosesə artıq Azərbaycan da qoşulur. Bakı Afrikada həm Qlobal Cənub diplomatiyasını genişləndirmək, həm beynəlxalq təşkilatlarda siyasi tərəfdaşlıq şəbəkəsi qurmaq, həm də yeni çoxtərəfli geosiyasi identiklik formalaşdırmaq istiqamətində hərəkət edir.

### Azərbaycanın Afrika diplomatiyası

Azərbaycan Afrika istiqamətində daha dərin və uzunmüddətli geosiyasi strategiya formalaşdırır. Son illər beynəlxalq münasibətlər sistemində "Qlobal Cənub" anlayışı Qərbmərkəzli beynəlxalq düzənə alternativ siyasi platforma və yeni diplomatik identiklik modeli kimi çıxış edir. Azərbaycan xüsusilə Qoşulmama Hərəkatına sədrliyi dövründə bu xətt üzərində ciddi siyasi kapital formalaşdırmağa çalışdı. Məhz həmin dövrdə Bakı Afrika ölkələri ilə münasibətləri daha intensiv mərhələyə keçirdi. Pandemiya dövründə inkişaf etməkdə olan dövlətlərə yardım təşəbbüsləri, vaksin diplomatiyası, çoxtərəfli platformalarda əməkdaşlıq və siyasi dialoq Azərbaycanın Afrikada görünürlüyünü artırdı.

Əslində, Azərbaycanın Afrika siyasətində ən mühüm məqamlardan biri legitimlik diplomatiyasıdır. Beynəlxalq təşkilatlarda formalaşan siyasi dəstək şəbəkələri dövlətlərin qlobal mövqeyini müəyyən edən əsas amillərdən birinə çevrilib. Afrika isə bu baxımdan son dərəcə vacib siyasi məkan hesab olunur. BMT-də 54 Afrika dövlətinin mövcudluğu qitəni beynəlxalq səs balansında ciddi geosiyasi aktora çevirir. Azərbaycan üçün bu dəstək xüsusilə ərazi bütövlüyü, suverenlik və postmünaqişə dövründə beynəlxalq legitimlik məsələləri baxımından böyük əhəmiyyət daşıyır. Qarabağ müharibəsindən sonra Bakı yeni regional reallıqları beynəlxalq platformalarda qəbul etdirmək və öz siyasi narrativlərini daha geniş auditoriyaya çatdırmaq istiqamətində fəal siyasət aparır. Afrika ölkələri ilə yaxınlaşma da bu strategiyanın mühüm hissəsinə çevrilir.

### Yeni siyasi balansa doğru

Uzun illər beynəlxalq idarəetmə sistemi əsasən II Dünya müharibəsindən sonra formalaşmış siyasi arxitektura üzərində qurulmuşdu. BMT Təhlükəsizlik Şurası, Bretton Vuds institutları və böyük iqtisadi platformalar əsasən Qərb və böyük güclərin maraq balansını əks etdirirdi. Lakin XXI əsrdə qlobal iqtisadiyyatın və siyasi dinamikanın dəyişməsi bu modelin legitimliyini sual altına almağa başlayıb. İnkişaf etməkdə olan ölkələr artıq beynəlxalq sistemdə qərarvermə prosesinin iştirakçısı kimi çıxış etmək istəyirlər.



Afrika İttifaqının G20-yə daxil edilməsi göstərir ki, Qlobal Cənub artıq beynəlxalq siyasi və iqtisadi arxitekturada daha çox söz sahibi olmaq iddiasındadır. Afrika isə burada yeni siyasi balansın əsas sütunlarından biri kimi çıxış edir. Əslində qlobal sistemdə baş verən dəyişikliklərin ən mühüm istiqamətlərindən biri də məhz beynəlxalq legitimliyin Qərbdən kənar mərkəzlərə doğru genişlənməsidir.

Azərbaycanın Afrika İttifaqının BMT Təhlükəsizlik Şurasında iki daimi yer əldə etməsi təşəbbüsünü açıq şəkildə dəstəkləməsi Bakının dəyişən beynəlxalq sistemdə özünü hansı siyasi xəttə yaxın gördüyünü nümayiş etdirir. Azərbaycan burada beynəlxalq sistemin daha inklüziv və çoxtərəfli modelə keçidini dəstəkləyən dövlət obrazı formalaşdırmağa çalışır.

### İnkişaf etməkdə olan ölkələrlə tərəfdaşlıq xətti

Azərbaycanın Afrika istiqamətində formalaşdırdığı yeni xarici siyasət xəttində iqlim diplomatiyası xüsusi yer tutur. Xüsusilə Qlobal Cənub ölkələri ilə münasibətlər baxımından COP29 Bakıya beynəlxalq siyasi kommunikasiya üçün unikal imkan yaratdı. Bu gün iqlim böhranı təhlükəsizlik, miqrasiya, ərzaq təminatı, enerji siyasəti və qlobal iqtisadi bərabərsizlik məsələləri ilə birbaşa əlaqələndirilir. Bu böhranın ən ağır nəticələrini yaşayan regionlardan biri məhz Afrikadır. Su qıtlığı, səhralaşmanın genişlənməsi, kənd təsərrüfatının zəifləməsi, enerji çatışmazlığı və iqlim miqrasiyası qitənin bir çox ölkəsində artıq daxili sabitlik məsələsinə çevrilib.

Məhz buna görə Afrika dövlətləri beynəlxalq iqlim gündəliyində daha çox maliyyə, texnologiya transferi və siyasi dəstək tələb edirlər. Xüsusilə diqqətçəkən məqam odur ki, Azərbaycan paralel şəkildə "yaşıl enerji" keçidi tərəfdarı, enerji təhlükəsizliyi ilə iqlim siyasəti arasında balans yaratmağa çalışan ölkə və inkişaf etməkdə olan dövlətlərin tərəfdaşı obrazını formalaşdırmağa çalışır. Qarabağ və Şərqi Zəngəzurda "yaşıl enerji zonası" konsepsiyasının ön plana çıxarılması da bu beynəlxalq kommunikasiya strategiyasının tərkib hissəsidir.

Bəs Bakı Afrikada nə qazanmaq istəyir? Əslində Azərbaycanın Afrikaya yönəlməsi çoxqatlı və uzunmüddətli xarici siyasət strategiyasının tərkib hissəsidir. Bir tərəfdən Bakı beynəlxalq təşkilatlarda siyasi dəstək bazasını genişləndirməyə çalışır. Çünki müasir diplomatiyada say üstünlüyü və siyasi koalisiyalar xüsusilə BMT kimi platformalarda ciddi əhəmiyyət daşıyır. Afrika həm də iqtisadi baxımdan yeni imkanlar məkanıdır. Sürətlə böyüyən bazarlar, infrastruktur layihələri, enerji əməkdaşlığı və logistika imkanları Azərbaycanın iqtisadi diplomatiyası üçün yeni istiqamətlər açır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Haqq nazilər, amma üzülməz...

## *Avroparlamentin bir qrup deputatı təşkilatın Azərbaycana qərəzli yanaşmasına etirazını bildirib*



**Rəsmi Bakı bunu gözləyir və inanırdı ki, gec-tez Avropa Parlamentində haqqı-ədaləti müdafiə edənlər, Azərbaycanın bölgədə yaratdığı yeni və fərqli reallığı praqmatik qiymətləndirənlər səslərini qaldıracaq, yalanın deyil, həqiqətin tərəfində duracaqlar. Strasburqdan aldığımız məlumat bu gözləntinin həyata keçməsinin təsdiqidir.**

Avroparlamentin plenar iclasında Azərbaycan Milli Məclisinin Avropa Parlamenti ilə əməkdaşlığı dayandırmaq və "Euronest"i tərk etmək barədə qərarı müzakirə olunub. Avropa Parlamentinin "Euronest"dəki nümayəndə heyətinin rəhbəri Sergey Laqodinski Bakının bu qərarını yenidən nəzərdən keçirməyə çağırıb. S.Laqodinski deyib ki, Azərbaycan "Şərq tərəfdaşlığı" çərçivəsində regional dialoqun önəmli aktorudur və onun Qara dəniz strategiyası, logistika, energetika, rəqəmsal infrastruktur və bölgədə qarşılıqlı əməkdaşlıq layihələrə dair məsləhətləşmələrdə iştirakı vacibdir.

Digər deputatlar çıxışlarında qeyd ediblər ki, Avropa İttifaqının (Aİ) və Avropa Parlamentinin davranışı Bakı ilə münasibətlərin korlanmasının səbəblərindən biridir. Avropa Mühafizəkarları və İslahatçılar qrupundan olan deputat Kristian Terheşin bəyanatı kəskinliyi ilə seçilib. O bəyan edib ki, Azərbaycan parlamentinin qərarı Brüssel üçün həyəcan siqnalı olmalıdır. K.Terheş Avropa Parlamentini aprel ayında Ermənistanla bağlı qəbul etdiyi qətnaməsindən Bakıya təzyiq aləti kimi istifadə etməkdə suçlayıb: "Parlament Ermənistanın demokratik inkişafı hissəsində hamımızın dəstəklədiyi 2026-cı il aprel qətnaməsini Azərbaycana hücum alətinə çevirdi ki, bu da tamamilə gərəksiz, ağılsız və əks-effektli oldu". K.Terheş diqqəti xüsusi olaraq ona yönəldib ki, hazırda Ermənistan və Azərbaycan sülh sazişinin bağlanmasına yaxınlaşmağa çalışır: "Onilliklər boyu uzanan münaqişədən sonra onlar, nəhayət, barışıq və sülh müqaviləsinin imzalanması üçün konkret səylər göstərirlər". Bu fonda Avroparlamentin hərəkətlərinin siyasi cəhətdən uzaqgörən olmadığını nəzərə çatdıran deputat, ümumiyyətlə, Avropa siyasətinin üslubunu tənqid edib: "Daimi əxlaq "mühazirələri", ideoloji qınama ilə yersiz hay-küy. Bu heç də xarici siyasət deyil, siyasi səbatsızlıq və geosiyasi intihardır". K.Terheş xəbərdarlıq edib ki, belə praktika artıq tərəfdaşların uzaqlaşmasına gətirib çıxarır: "Gürcüstan və digər dövlətlərlə bağlı da eyni dinamikanı müşahidə edirik. Onlar ikili standartlar və təkəbbürlü yanaşma səbəbindən Avropa İttifaqından getdikcə uzaqlaşırlar. Aİ məhz Cənubi Qafqaz və Mərkəzi Asiyanın strateji önəm kəsb etdiyi bir vaxtda mövqeyini itirmək riski ilə üzləşir. Azərbaycan, sadəcə, Aİ-nin sıravi tərəfdaşı deyil, Avropanın enerji təhlükəsizliyi və nəqliyyat əlaqəsi üçün vacib ölkədir". Deputat onu da vurğulayıb ki, Azərbaycan Avropaya Rusiya qazından asılılığı azaltmağa kömək edib, yanacaq tədarük edir və Ukraynaya humanitar yardım göstərir: "Azərbaycan kimi ölkələrin təşkilatdan uzaqlaşdırılması, sadəcə, məsuliyyətsizlik deyil, geosiyasi cəhətdən özünəqəsddir".

*

Növbəti çıxışçı – "Patriots for Europe" qrupunun deputatı Anjelin Füre Bakı ilə münasibətlərin pozulmasını Avropa strategiyasının iflası kimi xarakterizə edib: "Azərbaycan parlamentinin "Euronest"dən çıxmaq qərarını, sadəcə, prosedur addımı hesab etmək olmaz. Bu, Avropanın strateji cəzasıdır". A.Füre bu cəzanı birbaşa Aİ-nin hərəkətləri ilə əlaqələndirib: "Biz sizin müdaxiləniz və Ermənistana münasibətdə yanaşmamızın bədəlini ödəyirik". Onun sözlərinə görə, Aİ yanlış olaraq eyni vaxtda Bakı ilə enerji əməkdaşlığını saxlamağa və siyasi təzyiqi gücləndirməyə çalışırdı: "Siz düşünürdünüz ki, qaz idxalını təmin edəcək, eyni zamanda, bu qətnamələri qəbul edirdiniz". A.Füre əlavə edib ki, Avropa nə humanitar məqsədlərə nail olub, nə də Azərbaycanla münasibətləri yaxşılaşdırıb. Daha sonra o, geosiyasətə toxunaraq bəyan edib ki, Aİ bəyannamələrlə məşğul olarkən region Avropasız yenidən qurulmağa başlayıb: "Ağ Ev administrasiyası Azərbaycan və Ermənistanın maraqlarını uzlaşdıraraq tranzit dəhliz yarada bilib". A. Füre diqqəti yeni marşrutun (TRIPP - red.) artıq iqtisadi nüfuz qazanmasına yönəldib: "Yeni strateji yol meydana çıxdı. Bu, faktiki olaraq, ABŞ kapitalı tərəfindən idarə olunan sülh yoludur". Çıxışında "Mərkəzi Asiyanın yeni siması Aİ-siz formalaşır" – deyən Avropanı gözləri qarşısında dünyanın yenidən qurulmasını seyr etməyi dayandırmağa çağırıb. Bu çağırış Avropa institutlarına ünvanlanıb: "Dünyaya dərs verməyi və mühazirə oxumağı dayandırın. Müstəqil ölkələrə öz işləri ilə məşğul olmağa imkan verin və real siyasətə keçin".

Deputat Tyerri Mariani öz növbəsində bildirib ki, Cənubi Qafqaz unikal nöqtədədir və uzunmüddətli münaqişədən sonra Bakı və İrəvan sülhə yaxınlaşıb: "Bu gün çoxlarının qeyri-mümkün hesab etdiyi proses – sülh prosesi başlayıb". Onun fikrincə, Avropa Parlamenti isə əks-istiqamətdə hərəkət edir, "odun üstünə yanacaq tökən" qətnamələr qəbul edir. T.Mariani qeyd edib ki, Azərbaycan Avropa Parlamenti ilə konstruktiv münasibətlər qurmaq istəyirdi, amma haqlı narahatlıqları səbəbindən qapını bağlayıb: "Qafqazda sülhə Avropa Parlamentinin müdaxiləsi ilə deyil, regiondaxili danışıqlar yolu ilə nail olunacaq".

Avroparlamentari Tomas Frölih Azərbaycan ətrafındakı böhranı Aİ-nin xarici siyasətinin daha geniş problemləri ilə bağlayıb: "ABŞ və Çinlə neqativ münasibətlər yaranıb, Rusiya ilə isə ümumiyyətlə, əlaqə yoxdur. Bu mənzərə Aİ-nin tədricən dünya siyasətinin kənarında qaldığı təəssüratını yaradır". T.Frölih xəbərdarlıq edib ki, Bakı ilə davam edən münaqişə Avropanın energetikasına zərbə vura bilər: "Əgər biz Azərbaycanla bu cür ünsiyyət qurmağa davam etsək, bu, Avropanın enerji təhlükəsizliyinə son zərbə ola bilər".

Bəli, müdriklərimiz məhz belə məqamları nəzərə alaraq deyiblər: haqq nazilər, amma üzülməz. Nəhayət, Avropa Parlamenti anladı ki, onun ikili standartlara söykənən selektiv siyasəti – ermənipərəst qətnamələr, bəyanatlarla siyasi təzyiqin dövriyyəyə buraxılması Cənubi Qafqazın sülh, sabitlik və əməkdaşlıq mərhələsinə daxil olduğu indiki məqamda Aİ-nin bu strateji regionda nüfuzunu tamamilə itirməsinə gətirib çıxaracaq. Avroparlamentin plenar iclasında Azərbaycan Milli Məclisinin bu qurumla əməkdaşlığı dayandırmaq və "Euronest"i tərk etmək barədə qərarına ayıq və sağlam yanaşmanın sərgilənməsi Azərbaycan diplomatiyasının növbəti uğurlarından biri kimi qəbul olunmalıdır.

***İ.HƏSƏNQALA***
***XQ***

# "7 iyun" üçün "27 oktyabr" təhlükəsi

## *Yaxud Ermənistanda siyasi terror ehtimalı barədə*




**"Biz seçki məntəqələrinə getməli və 16 nömrəyə səs verərək sülhün tərəfdarı olmalıyıq. Bu səs məcburiyyət və ya rüşvət yolu ilə alınmamalı və alına bilməz". Bu fikirləri Ermənistanın Baş naziri Nikol Paşinyan paytaxt İrəvanın Avan rayonunda seçicilərlə görüş zamanı bildirib.**

Nikol çıxışında başqa məqamlara da toxunub. Məsələn, o, xalqın xidmətçisi olduğunu, xalq ona "get" deyəcəyi təqdirdə, hakimiyyətdən uzaqlaşacağını deyib: "Xalq mənim getməli olduğuma qərar verdiyi anda, heç bir müzakirə olmadan gedəcəyəm. Əgər 700 min insan, seçicilərin 50+1 faizi desə ki, "Nikol, qal" Nikol qalacaq. Əgər desə ki, "Nikol, get"… onda Nikol kimdir ki, getməsin? Nikol qulluqçudur. Məgər qulluqçu deyə bilər ki, yox, mən getməyəcəyəm?".

Məlum olduğu kimi, Ermənistanda xalqın "get" demədiyi hallarda da liderlərin siyasi səhnədən uzaqlaşdırılması təcrübəsi var. Əlbəttə, buna təcrübə demək bir o qədər yerinə düşmür. Çünki söhbət 1999-cu il oktyabrın 27-də ölkə parlamentindəki terrordan gedir. Onun nəticəsində baş nazir və parlament sədri də daxil olmaqla, ümumilikdə, 8 yüksək ranqlı şəxs öldürüldü. Qətlə yetirilənlər arasında Ermənistan Milli Assambleyasının sədrinin iki müavini və nazirlər də var idi.

1999-cu ilin "parlament terroru"nu gerçəkləşdirən Nairi Hunanyandan, qardaşı Karendən, əmisi Vramdan və digər iki şəxsdən ibarət qrup üzləri dövlət çevrilişi etdiklərini bildirmişdilər. Onlar öz hərəkətlərini vətənpərvərlik və millətin öz hisslərini yenidən qazanması baxımından əsaslandırmış və demişdilər ki, "hakimiyyəti millətə etdikləri işlərə görə cəzalandırmaq" istəyirlər.

Qeyd edək ki, 1988-ci ildə Ermənistanda baş qaldırmış mənfur "Qarabağ hərəkatı"nın aparıcı şəxslərindən sayılan və "27 oktyabr"ın qurbanına çevrilmiş baş nazir V.Sarkisyan Birinci Qarabağ müharibəsində iştirak etmiş, ölkənin ilk prezidenti Levon Ter-Petrosyanın dövründə müdafiə naziri postunu tutmuşdu. O, hətta Levonun istefasını doğurmuş kampaniyanın da fəallarından biri kimi ad çıxarmışdı.

Lakin V.Sarkisyanın 1998-ci ildə hakimiyyətə yiyələnmiş Robert Koçaryanın təmsil olunduğu "Qarabağ klanı" ilə münasibətləri rəvan deyildi. Koçaryandan və sözügedən klandan fərqli olaraq, Sarkisyan parlament sədri Karen Dəmirçyanla birlikdə Azərbaycana güzəşt ritorikasının təbliğinə girişmişdi. Bu siyasi xətt isə "Qarabağ klanı"nı xaricdən idarə edənlər üçün sərfəli deyildi. Ona görə sərfəli deyildi ki, öz təmsilçiləri olan Koçaryan prezident olmasına rəğmən, Ermənistanın ozamankı idarəçilik quruluşuna görə, faktiki olaraq, heç kəs idi. Parlament terroru, ilk növbədə, məhz bu durumu aradan qaldırdı və Robertin mövqeləri gücləndi. Mütləq hakimə çevrilən Koçaryan həmin vaxtadək aparılmış Qarabağ danışıqlarındakı müsbət ahəngi pozdu.

Baş nazir V.Sarkisyanın öldürülməzdən əvvəl terrorçu N.Hunanyan demişdi ki, "hər şey sizin və uşaqlarınızın gələcəyi üçün edilir". Paşinyan isə İrəvanın Avan rayonunda seçicilərlə görüşündə bildirib ki, "Biz səs veririk, çünki dövlətin, sülhün və Ermənistanın gələcəyinin müdafiəsinə qalxmalıyıq". Çünki o, ölkəsində 1999-cu ildə doğulmuş uşaqların 2020-ci ildə İkinci Qarabağ müharibəsində həyatlarını itirdiklərini, böyük ölçüdə, gələcək görmədən öldüklərini bilir.

Ermənistanı gələcəyi olmayan yola salmaq istəyənlər özlərinin revanşist və şovinist baxışlarını sadə ermənilərə sırımağa, ölkənin barış yolunu əngəlləməyə çalışırlar. Beləlri hər cür azğınlığa baş vurular. Ermənistanda siyasi gərginliyin durmadan yüksəldiyi hazırkı şəraitdə yalnız "ikinci Hunanyan"ın olmadığını söyləyə bilərik. Hərçənd, 27 il əvvəl yaşananların mahiyyətinə nəzər salsaq, yeni terrorçunun ortaya atılmasının mümkünlüyü barədə ehtimal yürütmək olar. Yəni Baş nazir Paşinyana və ətrafına qarşı sui-qəsd cəhdi yaşana bilər.

Bəli, 1999-cu ilin parlament terroru Ermənistanı Azərbaycana güzəşt yolundan döndərmək məqsədi daşımışdı. Əslində, söhbət heç də güzəştdən getmirdi. Məsələ durumu düzgün qiymətləndirməkdə idi. Onun fərqli olduğunu hamıdan əvvəl prezident L.Ter-Petrosyan hiss etmişdi. Levon Qarabağ üzrə danışıqlar prosesində dünyanın Ermənistanı dəstəkləmədiyinin, Qarabağı bu ölkənin ərazisi olaraq tanımadığının fərqinə varmışdı. Sonradan Sarkisyan və K.Dəmirçyan ikilisi də eyni məqamı düşündüklərindən öldürüldülər.

Sarkisyan-Dəmirçyan tandeminin, eləcə də parlament terroru nəticəsində digər şəxslərin aradan götürülmələri reallığını doğurmuş cinayətin üstü bu gün də açılmayıb. Yəni 27 oktyabr hadisəsi Ermənistan cəmiyyətində açılmamış siyasi sirr və travma kimi qəbul olunur. İkinci belə bir travmanın yaşanması ehtimalı isə ölkədə parlament seçkiləri ilə bağlı gərginliyin getdikcə artmasından qaynaqlanır. Başqa sözlə desək, Paşinyan xalqın ona "get" deməyəcəyi təqdirdə də hakimiyyətdən uzaqlaşa, kimlərinsə "Nikol kimdir ki, getməsin" deyərək, onu fiziki cəhətdən neytrallaşdırmaları mümkündür.

Sonda ümumiləşdirmə apararaq deyək ki, Paşinyana və ətrafına qarşı terror aktı onların idarə etdikləri bugünkü Ermənistanın "Qarabağ hərəkatı" məntiqindən, ümumən, avantüradan uzaq durduğu üçün gerçəkləşdirilə bilər. Axı bu "hərəkatı" xaricdən ölkəyə sırımaqyönümlü baxışların səsləndiyini gördük. O baxışlar ki, onu ortaya atanların bu yolla Cənubi Qafqazdan möhkəm yapışmaq, köhnə təsir alətlərini bərpa etmək niyyətlərindən yaxşı xəbərdarıq.

Yeri gəlmişkən, 27 il əvvəlki terror dövlətçiliyə qəsd kimi qiymətləndirilmişdi. Əslində, belə idi, amma bir qədər fərqli. N.Hunanyanı və dəstəsini ortaya atanlar qəsdi gerçəkləşdirməklə, ölkədə dövlətçilik anlayışından uzaq quldur təfəkkürlü idarəçilik rejimini möhkəmləndirdilər. Ona görə hesab edirik ki, dövlətçiliyə əsl qəsd 27 il əvvəl yaşananların indi təkrarlanması olar. Qəsdin ölkəmizə qarşı təcavüzkar siyasət məntiqi olduğunu düşünsək, tarixi təkrarlamaq istəyənlərə sözümüz var: hazırkı Azərbaycan 27 il əvvəlki Azərbaycan deyil.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Marko Rubionun Ermənistana səfəri: ABŞ üçün prioritetlər

## *Əsas məsələ regional sülhdür, hərçənd...*

**ABŞ Dövlət katibi Marko Rubio bu gün İrəvanda səfərdə olacaq. Məlumatı Ermənistan Xarici İşlər Nazirliyi yayıb. Bildirilib ki, M.Rubio İrəvanda erməni həmkarı Ararat Mirzoyanla görüş keçiriləcək, görüşdən sonra tərəflər mətbuata bəyanatlarla çıxış edəcəklər. Məlumatda, həmçinin ABŞ-Ermənistan ikitərəfli sənədlərinin imzalanacağı və media təmsilçiləri üçün mətbuat konfransının keçiriləcəyi vurğulanıb.**

Qeyd edək ki, M.Rubionun İrəvana gəlişi bir neçə baxımdan diqqət çəkir. Əlbəttə, ilk məqam səfərin regiondakı geosiyasi proseslərlə əlaqələndirilməsidir. Nəzərə alaq ki, Ermənistanda gələn ayın 7-də parlament seçkiləri keçiriləcək. Bəzi siyasi ekspertlər ABŞ rəsmisinin İrəvanda görünməsini Birləşmiş Ştatların seçkidə Baş nazir Nikol Paşinyan hakimiyyətinə mənəvi dəstək göstərmək əzmi ilə əsaslandırırlar. Ancaq A.Mirzoyan bu kimi deyimlərlə gerçək mahiyyət arasında hansısa bağlılığın mövcudluğunu qəti şəkildə inkar edib və etməlidir də. Hərçənd, ABŞ-ın yüksək çinli rəsmisinin kifayət qədər böyük taleyüklü proses öncəsi Ermənistana gəlişi adi sayıla bilməz və istər-istəməz düşünməyə vadar edir.

Əlqərəz, M.Rubionun Ermənistana səfəri Vaşinqton–İrəvan münasibətlərinin son illər sürətlə intensivləşməsinin davamı kimi də qiymətləndirilməlidir. Ermənistan XİN-in səfər çərçivəsində sənədlərin imzalanmasının planlaşdırıldığı açıqlaması da fikrimizin təsdiqidir. Amma digər məqamlar da var.

Məlum olduğu kimi, Birləşmiş Ştatların Vitse-prezidenti Ceyms Devid Vens bu ilin fevralında İrəvanda səfərdə olarkən bildirmişdi: "Prezident Tramp çox yaxşı bilir ki, sülhün baş tutması üçün ən yaxşı yol əsl çəkindirmə vasitələrini yaratmaqdan keçir. Ən yaxşı çəkindirmə yaratmağın yolu isə dünyanın ən yaxşı texnologiyalarından keçir. Birləşmiş Ştatlar buna malikdir. İlk dəfə biz böyük hərbi texnologiya, 11 milyon dollarlıq müşahidə-dron texnologiyasının Ermənistana və dostumuz baş nazirə (Nikol Paşinyan nəzərdə tutulur – red.) satışını elan edirik. O, bunu ölkəsinin təhlükəsizliyi və qurduğumuz sülhün baş tutması üçün istifadə edəcək".

Güman edirik, əlavə şərhə ehtiyac yoxdur. Yalnız onu ehtimal edək ki, M.Rubionun səfəri ABŞ-ın Ermənistan üçün silah-sursat tədarükçüsü obrazını daha da gücləndirəcək. Bundan başqa, Vensin səfəri zamanı "ABŞ ilə Ermənistan Respublikası arasında Dinc Nüvə Əməkdaşlığı üzrə Sazişlə bağlı danışıqların başa çatdırılması haqqında Birgə Bəyanat" da imzalandı ki, dövlət katibinin İrəvanda olması bu sənədin icra vəziyyətinə dair müzakirənin aparılması baxımından mühüm əhəmiyyət daşıya bilər.



Əlbəttə, ən mühüm məqam Azərbaycan–Ermənistan sülh prosesidir. Daha doğrusu, prosesin Birləşmiş Ştatların egidası altında gerçəkləşməsi. Bu fikri söyləyərkən, ya da ötən il avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin Vaşinqtonda Birləşmiş Ştatlar Prezidenti Donald Trampın şahidliyi ilə imzaladıqları Birgə Bəyannamə, eləcə də Azərbaycan və Ermənistan XİN rəhbərlərinin sülh sazişini paraflamaları düşür. Əlbəttə, Birgə Bəyannamənin ən mühüm hissəsi "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu", yaxud qısaca TRIPP-dir. Qeyd edək ki, bu ilin yanvarında Vaşinqtonda M.Rubio ilə A.Mirzoyanın görüşündə mövcud istiqamətdə birgə çərçivə sənədi elan olundu. Beləliklə, ABŞ-ın regionda nəqliyyat-kommunikasiya layihələrinə daha fəal qoşulmaq istəyini əməli iş müstəvisinə gətirdiyini söyləmək mümkündür. Deməli, Rubionun İrəvana hazırkı səfəri gedişində Cənubi Qafqazda tranzit marşrutları ətrafındakı müzakirələrin genişləndiriləcəyini söyləyə bilərik.

Vaşinqtonun Ermənistan–Azərbaycan normallaşma prosesində rolunu artırmaq istəməsinə ayrıca yanaşmaq lazımdır. ABŞ rəsmiləri son aylarda bir neçə dəfə sülh sazişinin imzalanmasının vacibliyini vurğulayıblar. Yeri gəlmişkən, Rubio ilə Ermənistan rəhbərliyi arasında əvvəlki təmaslarda da regional sabitlik və sülh gündəmi önə çıxarılmışdı. Ehtimal edək ki, Dövlət katibinin hazırkı səfəri zamanı bu prioritet bir daha vurğulanacaq.

Ümumən, Rubionun Ermənistana səfəri Azərbaycanın diqqət mərkəzində olacaq. Çünki Ağ Evin Cənubi Qafqaz siyasətində balansın necə qorunacağı, kommunikasiya layihələrinə hansı yanaşmanın seçiləcəyi və Vaşinqtonun Bakı–İrəvan münasibətlərində bundan sonra hansı rolu oynayacağı əsas suallardandır.

Digər tərəfdən, Rubionun səfəri ABŞ–Rusiya rəqabəti kontekstində də şərh oluna bilər. Nəzərə alaq ki, Ermənistanın təhlükəsizlik və xarici siyasətdə ənənəvi rusperəst xətlə məsafələnməsi fonunda, Vaşinqton İrəvanla strateji tərəfdaşlığı genişləndirməyə çalışır. Habelə, ABŞ tərəfi son dövrdə Ermənistanla enerji, infrastruktur, logistika və kritik minerallar sahəsində əməkdaşlıq mövzularını da qabardır.

***Ə.RÜSTƏMOV***
***XQ***

# WUF13: şəhərsalma və memarlıq ənənəsi kontekstində




### I MƏQALƏ

#### Şəhərləşmə proses kimi

İnsan övladı yalnız kollektiv formada mövcud ola və yaşaya bilir. Bu aksioma indi kimsə şübhə etmir. Lakin bəşəriyyətin qədim tarixindən başlayaraq birgəyaşam formasının daha uyğun ziddiyyətsiz axtarışı da dayanmamışdır. Buna insanların birgəyaşam nəticəsində yaratdıqları və "toplum" (və ya "cəmiyyət") adlanan mövcudatlıq forması təhrik etməkdədir.

Çünki insanların kollektiv olaraq birgə yaşamaq formaları genişləndikcə, miqyası artıqca və sosial həyatda funksionallığı yeni səviyyəyə yüksəldikcə, rifahla yanaşı, müxtəlif xarakterli problemlər də meydana gəlir. Əsrlərdir ki, həmin problemlərin qarşılıqlı təsirləri müstəvisində meydana gələn sosial, siyasi, demoqrafik, iqtisadi, ekoloji, iqlim və birgəyaşam kültürünün inkişafı ciddi müzakirələrə yol açmaqdadır.

XXI əsrin gəlişi ilə bu məsələ, sözün həqiqi mənasında, bəşəriyyəti ekzistensial seçim qarşısında qoyub. Bununla bağlı ayrıca beynəlxalq qurumlar da yaradılmaqdadır. Hazırda problemin fundamental səviyyədə dünya dövlətləri tərəfindən çözülməsi üçün böyük ehtiyac yaranıb. Burada başlıca məsələlər şəhərsalma, urbanizasiya, şəhərlə kənd arasındakı ziddiyyətlərin həlli, demoqrafik dinamika ilə ekoloji mühitin qarşılıqlı əlaqəsi və digər amillərlə bağlıdır.

Dünya miqyasında şəhərləşmə və şəhərlə kənd həyat tərzi arasında ziddiyyətlərin tarixi qədimə gedib çıxır. Tarixçilər hesab edirlər ki, 4000 il öncədən bu tendensiya mövcuddur. 1800-cü ilə qədər şəhər ərazilərində dünya əhalisinin 2,5%-i yaşayırdı. 200 il bundan əvvəl Avropa və Şimali Amerikada əsl urbanizasiya prosesi başlayıb. Artıq 1900-cü ilə dünya əhalisinin 10%-i şəhərlərdə yaşayırdı. 1960-cı ildə bu rəqəm 34% olub. 1990-cı ilə əhalinin sayı 10 milyon nəfərdən çox olan şəhərlərin sayı 10 idi. 2017-ci ildə isə onların sayı artıq 34-ü keçmişdi ki, bu da dünya əhalisinin 12%-i deməkdir. Deməli, insanların şəhərlərdə təmərküzləşməsi prosesi yüksək səviyyəyə çatıb.

Bu qısa tarixi ekskurs göstərir ki, dünya üzrə şəhərləşmə çoxaspektli proses olaraq hər bir cəmiyyətin həyatına, onun təşkilinə və aqibətinə ciddi təsir edən amilə çevrilib. Bu prosesin adekvat elmi dərki arxivacib məsələdir. Şəhərləşmə, sadəcə, çox sayda insanın birgə yaşadığı məkanı ifadə etmir – o, bütövlükdə insanın fərdi və kollektiv yaşam tərzini dəyişir, ona yeni məzmun verir, avtomatik olaraq kənddən fərqli kültür mühitinin yaranmasını ifadə və idarəetmədə ciddi dəyişikliklər tələb edir.

Bütövlükdə götürdükdə şəhərləşmə elə bir davamlı və təbii prosesdir ki, insanların birgəyaşam üsullarının daim təkamüldə olduğunu və bu prosesin dayanmayacağını göstərir. "Onun səbəbləri hansılardır?" sualı artıq ritorik deyil və insanın mövcudolma fəlsəfəsi ilə sıx bağlıdır. Yəni "insanlar kollektivləşmə olmadan, inteqrasiya etmədən, ortaq yaşam forması olan cəmiyyəti yaratmadan mövcud ola bilməzlərmi?" sualına cavab ayrıca bir elmi fəaliyyət tələb edir.

İndi real olanı dünya əhalisinin əksəriyyətinin şəhərlərdə yaşamasıdır. Bu faktı qəbul edib, meydana çıxan problemləri necə həll etmək üzərində düşünməkdən başqa yol yoxdur. Məhz buna görədir ki, Bakıda keçirilən WUF13 tədbiri bütün dünya üçün aktualdır və ona maraq son dərəcə böyük oldu. Burada aktuallığı ilə seçilən bir anlayış da vardır. Biz "urbanizasiya"nı nəzərdə tuturuq.

#### Urbanizasiya

"Urbanizasiya" latınca "urbanus"-dan olub, "şəhərə aid olan" deməkdir. O, konkret olaraq şəhərlərin rolunun artmasını, şəhər mədəniyyətinin inkişafını, cəmiyyətin inkişafında "şəhər münasibətlərinin" təkamül prosesini, kənd əhalisinə nisbətən şəhər əhalisinin sayının artmasını və şəhərlərdə formalaşmış yüksək mədəniyyət nümunələrinin kənara transformasiyasını ifadə edir. Deməli, urbanizasiya şəhərləşmənin sosial, mədəni, demoqrafik, idarəetmə, sağlamlıq və digər aspektlərdə özəlliklərini tədqiq etmək üçün çox gərəkli bir anlayışdır və onun semantikası ilə funksionallığının vəhdətdə götürülməsi zərurətdir.

Eyni zamanda, urbanizasiya müasir mərhələdə şəhərsalmada müxtəlif aspektləri nəzərə alan elmi tədqiqatların təşkili və aparılması ilə yanaşı, onların praktiki-tətbiqi imkanlarını da yaxşı ifadə edən termindir.

Bu qısa terminoloji izahların fonunda WUF abreviaturasına baxaq.

#### 13-cü görüş yeri: Bakı

BMT 1994-cü ilin yayından dünya üzrə səhralaşma ilə mübarizəyə təşkilati səviyyədə başlayıb. Bu məqsədlə həmin il UNCCD (Birləşmiş Millətlər Təşkilatının Səhralaşmaya Qarşı Mübarizə Konvensiyası) qəbul edildi. Bu, müasir mərhələdə ətraf mühit və davamlı inkişafı, torpaq və onların idarəçiliyi ilə əlaqələndirən yeganə hüquqi cəhətdən məcburi beynəlxalq müqavilədir. Bu sənəd quraqlığı azaltmaq və dünya miqyasında torpaqların deqradasiyasını dayandırmaq üçün 197 üzvü birləşdirir. Bunun fonunda BMT-nin başqa bir prosesi - sürətli şəhərləşməni və onun icmalara, şəhərlərə, iqtisadiyyatlara, iqlim dəyişikliyinə və siyasətlərə təsirini araşdırmağa başlaması reallığa uyğun addım idi. Nəticədə 2001-ci ildə WUF (Şəhərlərin Ümumdünya Forumu) yaradıldı, ilk sessiyası 2002-ci ildə Keniyada keçirildi.

WUF-un 13-cü sessiyasının 2026-cı ildə Bakıda keçirilməsi qərarı Azərbaycanı urbanizasiya və şəhərlərin dayanıqlı inkişafı üzrə BMT-nin qlobal konfransının fəal iştirakçılarından birinə çevirdi. Bu hadisənin geosiyasi anlamı çox dərindir və olduqca aktual məqamlarla bağlıdır.

#### Sülh yaradıcılığı: COP və WUF konteksti

Azərbaycanın xarici siyasətində XXI əsrin başlanğıcından sülhyaradıcılığı ilə təhlükəsizlik və müxtəlif platformalarda əməkdaşlıq aparıcı yer tutmaqdadır. Prezident İlham Əliyev 2024-2031-ci illəri əhatə edən dövr üçün ölkənin xarici siyasətinin prioritet istiqamətləri sırasına iki sferanı da daxil edib.

4-cü prioritet istiqamət belədir: "Azərbaycanın beynəlxalq mövqelərinin daha da möhkəmləndirilməsində, beynəlxalq təhlükəsizlik arxitekturasının formalaşdırılmasında və qlobal problemlərin həllində rolunun artırılması". 13-cü prioritet istiqamət isə bu cür formalaşdırılıb: "Beynəlxalq təşkilatlarda fəal iştirakın təmin edilməsi". Bu iki istiqamətin semantik anlamlarını vahid məntiqi sahədə birləşdirsək, alarıq ki, Azərbaycanın dövlət başçısı xarici siyasətin əsas istiqamətlərindən biri kimi ölkənin qlobal problemlərin həllində rolunun artırılması üçün onun beynəlxalq təşkilatlarda fəallığını yeni səviyyəyə yüksəltməyi qarşıya vəzifə kimi qoyub. Təbii ki, bunun üçün konkret proqramlar üzrə fəallığı artırmaq zəruridir. COP və WUF məsələlərinə bu kontekstdə baxmaq faydalı olardı. COP və WUF dünya miqyasında bəşəriyyətin mövcudluğu, dayanıqlılığı, ekoloji təmizliyi və inkişafı üçün zəruri olan məsələlərin kollektiv müzakirəsi və həlli istiqamətlərinin müəyyən edilməsinin nüfuzlu beynəlxalq platformalarıdırlar.

Cəmi 1 il 6 ay fasilə ilə Azərbaycanda bu iki platformanın yüksək səviyyədə təşkil edilərək keçirilməsi ölkəmizin qlobal sülh və əməkdaşlığa verdiyi yüksək töhfədir. Bizcə, yalnız postsovet məkanında deyil, bütövlükdə, Avrasiyada ikinci belə fəallıq göstərən müstəqil dövlət yoxdur. Azərbaycan Prezidenti, faktiki olaraq, çox geniş çeşidli qlobal məsələlərin həllində Bakını dünyanın əsas müzakirə platforma-məkanlarından birinə çevirib.

Bu tərəqqini bir sıra dairələr çox yaxşı görürlər. Onun təsdiqi son zamanlar Azərbaycan Prezidentinə və bütövlükdə cəmiyyətimizə qarşı müşahidə edilən "posthibrid" xarakterli informasiya təxribatlarında özünü tapmaqdadır. Bu zaman mənfur dairələr müasir informasiya texnologiyalarının geniş texniki tərəfi ilə süni intellektin "obrazlaşdırma imkanlarını" sintez edirlər.

Amma bir şeyi unudurlar: Azərbaycan Prezidentinin zəkasını, liderlik məharətini, xalqımızın öz dövlət başçısına olan sonsuz inamını və cəmiyyətin tam düzgün yol seçildiyinə yüksək əminliyini! Hətta Azərbaycan daxilində bir sıra kəsimlər nə qədər spekulyasiyalar etsə də, fraqmentar hallarda daxildə müəyyən problemləri şişirtməyə çalışsalar da, cəmiyyəti, dövləti və onun liderini yolundan saptıra bilməzlər! Biz dövlətçiliyin tarixi təkamül özəlliklərini görürük və dünya üçün aktual olan şəhərsalma, urbanizasiya və digər məsələlərin müzakirəsi üçün nəyə görə Azərbaycanın məkan olaraq seçildiyini anlayırıq.

#### Seçim anı: niyə məhz Azərbaycan?

Şəhərsalma və memarlıq mədəniyyəti ilə bağlı nüfuzlu beynəlxalq tədbirin keçirilməsi məkanlarından biri kimi Azərbaycanın seçilməsi təsadüfi deyil. Bunun bir neçə səbəbi mövcuddur. Əsas olaraq Azərbaycanın dövlət kimi həyata keçirdiyi siyasətdə sülh, əməkdaşlıq, davamlı inkişaf və qarşılıqlı yardımlaşma istiqamətlərinin xüsusi yer tutması diqqətə alınıb. Prezident İlham Əliyevin reallaşdırdığı regional sülh, barış və əməkdaşlıq kursu praktiki nəticələrini verməkdədir. Dövlətin bu humanitar identikliyinin əsaslığını COP29 bir daha sübut etdi. Ona görə də WUF13-ün Bakıda keçirilməsi məntiqi və gözlənilən haldır.

Bununla yanaşı, Azərbaycan bir ölkə kimi mədəniyyət sisteminə və onun ənənəsinə sahib cəmiyyət olaraq qədimdən şəhərləşmə prosesində olan məkandır. Azərbaycan müxtəlif sivilizasiyalar, mədəniyyətlər və dinlərin ortaq mövcud olduğu unikal coğrafiyadır. Onun tarixi-mədəni ənənəsi bütövlükdə dünya üçün əhəmiyyətlidir. Buna görə də şəhərsalma və memarlıq kültür ənənəsinə bir də Azərbaycandan baxmaq dünya üçün vacibdir. Bunu COP29 təcrübəsi də təsdiqlədi.

Azərbaycanda şəhərləşmə prosesinin bir sıra mühüm məqamlarını təhlil etməklə vurğuladığımız özəlliklərin mənasını aydınlaşdıra bilərik. Bu, WUF13-ü adekvat dərk etmək üçün vacibdir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# WUF13 Bakını beynəlxalq şəhərsalma diplomatiyasının mərkəzinə çevirdi

## *Azərbaycanın təşəbbüsü ilə Bakı Şəhərsalma Mükafatının təsis olunması ölkəmizin qlobal məskunlaşma axtarışlarına töhfəsidir*

**Azərbaycan Respublikasının son illər həyata keçirdiyi xarici siyasət strategiyası ölkənin qlobal miqyasda beynəlxalq normaların və fəaliyyət standartlarının formalaşdırılmasında aparıcı tərəfdaş qismində çıxış etdiyini göstərir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Birləşmiş Millətlər Təşkilatının Məskunlaşma Proqramı arasında imzalanan Niyyət Məktubu həmin strateji xəttin mühüm göstəricisidir. Sənəd Ümumdünya Şəhərsalma Forumunun gələcəkdə keçiriləcək sessiyalarına ev sahibliyi üzrə "WUF13 Bakı standartları" əsasında əməliyyat təlimatının müştərək hazırlanmasını nəzərdə tutur.**

Müasir beynəlxalq münasibətlər sistemində qlobal əhəmiyyətli forumlara ev sahibliyi etmək dövlətlərin yumşaq güc potensialını nümayiş etdirən həlledici elementlərdən hesab olunur. Azərbaycanın COP29-dan sonra WUF13 kimi nəhəng platformaya yüksək səviyyədə ev sahibliyi etməsi ölkə rəhbərliyinin çoxtərəfli diplomatiyaya verdiyi önəmin əyani təzahürüdür. Bakıda reallaşan forumun gedişində dövlət qurumlarının sərgilədiyi yüksək peşəkarlıq beynəlxalq səviyyədə yeni standartın, yəni "Bakı standartları"nın yaranmasına yol açdı. Niyyət Məktubunun imzalanması tərəfdaşlığın institusional səviyyədə möhkəmlənməsinə xidmət edir və gələcəkdə digər paytaxtlarda keçiriləcək sessiyaların məhz Azərbaycanın təcrübəsi əsasında idarə olunmasını təmin edəcək.

Sessiyanın bağlanış mərasimində rəsmi estafetin və forum bayrağının növbəti sessiyaya ev sahibliyi edəcək Meksika nümayəndələrinə təqdim olunması beynəlxalq əməkdaşlığın davamlılığını təmin edən mühüm addımdır. Bakıda qəbul edilən qərarlar və formalaşdırılan standartlar gələcək ev sahibləri üçün rəsmi əməliyyat təlimatı rolunu oynayır. "Bakı standartları" növbəti sessiyalarda tətbiq ediləcək təşkilati keyfiyyətin təməlini qoyur.

WUF13 müzakirələrinin mərkəzində dayanan digər əhəmiyyətli mövzu isə Bakı şəhərinin 2040-cı ilə qədər olan dövrü əhatə edən Baş Planının təqdimatı və müzakirəsi oldu. Baş Planda əksini tapan ekoloji dayanıqlılıq, innovativ həllər və hökumətlərin yaradıcı həllərini stimullaşdırmağa xidmət edir.




WUF13 çərçivəsində tətbiq edilən innovasiyalar, eyni zamanda, siyasi xarakterli yenilikləri əhatə edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə forumun tarixində ilk dəfə olaraq Liderlər Sammitinin təşkil edilməsi qlobal şəhərsalma gündəliyinə dövlət başçıları səviyyəsində siyasi dəstəyin verilməsini təmin etdi. 27 dövlət və hökumət başçısının, habelə beynəlxalq təşkilat rəhbərlərinin qatıldığı Liderlər Sammiti qərar qəbuletmə prosesində yüksəksəviyyəli iradənin vacibliyini nümayiş etdirdi. Beləliklə, Bakı tədbiri qlobal şəhərsalma tarixində yeni səhifə açdı.

Digər mühüm struktur yeniliyi kimi forumun gedişində ilk dəfə Qeyri-Hökumət Təşkilatları Forumunun və müvafiq qrant proqramlarının həyata keçirilməsini vurğulamaq lazımdır. Vətəndaş cəmiyyəti institutlarının qərarvermə mexanizmlərinə fəal şəkildə cəlb olunması, proseslərin inklüzivliyini və demokratikliyini artıran mühüm amildir. Qlobal səviyyədə qəbul edilən qərarların yerli icmaların maraqlarına cavab verməsi naminə belə platformaların təşkil edilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan tərəfinin nümayiş etdirdiyi idarəçilik fəlsəfəsi fərdi sosial qrupların rəylərinin nəzərə alınmasına əsaslanır.

Bakı Fəaliyyətə Çağırış yekun sənədində dəstəklənən "Təhlükəsiz qayıdış üçün ağıllı və dayanıqlı məskunlaşma həlləri paketi" təşəbbüsü Azərbaycanın postmünaqişə dövründə formalaşdırdığı bərpa modelinin qlobal səviyyədə qəbul edilməsini sürətləndirir. İşğaldan azad edilən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən genişmiqyaslı yenidənqurma fəaliyyəti təkcə yerli infrastrukturun qurulması ilə məhdudlaşmır, eyni zamanda, beynəlxalq səviyyədə tətbiq oluna biləcək yeni şəhərsalma yanaşmalarının əsasını qoyur. Məcburi köçkünlərin təhlükəsiz şəraitdə yurdlarına qayıtması məqsədilə hazırlanan proqram özündə iqlim dəyişmələri, humanitar həssaslıq və təhlükəsiz məskunlaşma amillərini ehtiva edir.

Azərbaycan Hökumətinin təşəbbüsü ilə təsis edilən qlobal Bakı Şəhərsalma Mükafatı forumun mühüm qalıcı irsi kimi tarixə düşdü. Mükafat dayanıqlı şəhər inkişafı və əlçatan mənzil sahəsində uğurlu layihələrin beynəlxalq səviyyədə təşviqinə yönələn fəaliyyət prosesidir. BMT-nin Məskunlaşma Proqramı ilə tərəfdaşlıq çərçivəsində təsis edilən mükafat dünya miqyasında mütəxəssislərin, tədqiqatçıların və yerli insan mərkəzli yanaşmalar qlobal hədəflərlə tam üst-üstə düşür. Azərbaycan paytaxtında həyata keçirilən yenidənqurma işləri, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları müasir idarəçiliyin mütərəqqi nümunələridir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin rəhbərliyi ilə hazırlanan layihələr ölkə daxilində tətbiq edilən standartların qlobal miqyasda nümunə kimi təqdim edilməsinə imkan yaradır.

Forum çərçivəsində Türk dövlətlərinin aidiyyəti nazirləri arasında əməkdaşlıq memorandumunun imzalanması regional inteqrasiyanın möhkəmlənməsinə xidmət edən mühüm hadisə kimi yadda qaldı. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin şəhərsalma sahəsində tərəfdaşlığının dərinləşməsi qardaş dövlətlərin geosiyasi mövqelərini gücləndirir. Azərbaycanın qeyd olunan əməkdaşlıq formatlarının mərkəzində yer alması ölkənin regiondakı liderlik statusunu təsdiqləyir. Eyni zamanda, Keniya ilə imzalanmış əməkdaşlıq sənədi fərqli qitələr arasında etibarlı əlaqələrin qurulmasına nümunədir.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudia Rossbaxın çıxışında Bakı sessiyası "dialoqdan icraya keçid platforması" adlandırması forumun praktiki səmərəliliyinə verilən yüksək qiymətdir. Beynəlxalq təşkilatlar adətən konseptual bəyanatlarla kifayətlənsələr də, Bakı sessiyası real fəaliyyət planlarının qəbul olunduğu məkana çevrildi. Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin fəaliyyətindəki operativlik və resursların səmərəli idarə edilməsi BMT rəsmilərinin etibarını qazanmaqda mühüm rol oynadı. Niyyət Məktubunun imzalanması gələcəkdə müştərək layihələrin həyata keçirilməsinin rəsmi zəmin yaradır.

Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyasının təşkili və əldə olunan nəticələr Azərbaycanın qlobal idarəçilikdəki mövqeyini nümayiş etdirən həlledici diplomatik mərhələdir. Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə BMT-nin Məskunlaşma Proqramı arasında imzalanan Niyyət Məktubu Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlərin təşkili sahəsində qabaqcıl təcrübə formalaşdıran ölkə olduğunu sübut etdi. "Bakı standartları" gələcək sessiyaların təşkilində əsas rol oynayaraq ölkəmizin adını qlobal şəhərsalma tarixinə yazdı.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Avrasiyada yeni geosiyasi mərkəz yaranır

## *Bu, Azərbaycan – Gürcüstan strateji körpüsüdür*



**Son illər baş verən dərin geosiyasi dəyişikliklər və beynəlxalq ticarət yollarında artan risklər Avropa ilə Asiya arasında alternativ marşrutların strateji əhəmiyyətini artırıb. Qlobal iqtisadi sistemdə formalaşan yeni güc balansı göstərir ki, qitələrarası ticarət təkcə iqtisadi maraqlar üzərində deyil, həm də milli təhlükəsizlik, təchizat dayanıqlılığı və geosiyasi sabitlik üzərində qurulur.**

Məhz dəyişən reallıqlar fonunda Orta Dəhliz getdikcə daha çox diqqət mərkəzinə çıxır. Əvvəllər yalnız alternativ logistika xətti kimi qiymətləndirilən bu multimodal marşrut artıq Avrasiya üzrə yük axınlarının əsas dayaqlarından birinə çevrilib. Bu çərçivədə Aşqabadda Gürcüstan və Türkmənistan rəsmiləri arasında keçirilən yüksək səviyyəli görüşlər sırf diplomatik xarakter daşımır, geniş mənada, Avrasiyanın yeni geosiyasi arxitekturasının formalaşdığı strateji platforma kimi çıxış edir. Görüşlərdə ticarət dövriyyəsinin artırılması, logistika infrastrukturunun genişləndirilməsi, enerji əməkdaşlığı, investisiya axınlarının stimullaşdırılması və regional turizm potensialının inkişafı kimi istiqamətlər ətraflı müzakirə olunub.

Xüsusilə Orta Dəhlizin səmərəliliyinin artırılması məsələsi müzakirələrin mərkəzində dayanıb. Tərəflər etiraf ediblər ki, marşrutun modernləşdirilməsi və rəqəmsallaşdırılması yalnız iqtisadi inkişaf üçün deyil, həm də regionda uzunmüddətli sabitlik və strateji dayanıqlılıq üçün önəmlidir.

Bu böyük tranzit sistemində Gürcüstan xüsusi strateji mövqeyə malikdir. Qara dənizə çıxışı olan ölkə Avropa bazarlarına açılan əsas qapı funksiyasını daşıyır və Mərkəzi Asiyadan gələn yüklərin Qərbə inteqrasiyasında həlledici keçid rolunu oynayır. Batumi və Poti limanları təkcə milli infrastruktur obyektləri deyil, regionun logistika sistemini hərəkətə gətirən əsas mərkəzlərdir.

Son illər Gürcüstanın həyata keçirdiyi islahatlar onun tranzit rolunu gücləndirib. Rəqəmsal gömrük idarəçiliyi, "vahid pəncərə" sistemi, liman əməliyyatlarının avtomatlaşdırılması və logistika proseslərinin rəqəmsallaşdırılması yükdaşımaların sürətini artırmaqla yanaşı, tranzit xərclərini azaldıb və Orta Dəhlizin rəqabət qabiliyyətini yüksəldib. Eyni zamanda, ölkənin Qara dəniz üzərindən inkişaf etdirdiyi layihələr yalnız ticarət və nəqliyyatla məhdudlaşmır. Sualtı kabel infrastrukturu, enerji şəbəkələrinin genişləndirilməsi və rəqəmsal bağlantı layihələri Gürcüstanı həm də informasiya və enerji axınlarının kəsişmə nöqtəsinə çevirir. Bu isə ölkənin strateji rolunu çoxşaxəli səviyyəyə qaldırır.

*

Aşqabaddakı müzakirələrdə Türkmənistanın Gürcüstan limanlarına yaxın ərazilərdə logistika və anbar infrastrukturunun yaradılması təşəbbüsü də xüsusi qeyd olunub. Bu addım Xəzər–Qara dəniz istiqamətində yük axınlarının daha səmərəli idarə olunmasına xidmət edir və regionda yeni əməkdaşlıq modelinin formalaşdığını göstərir.



Bunlarla bağlı **Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivishvili** çıxışlarında vurğulayıb ki, dayanıqlı inkişaf, enerji təhlükəsizliyi və regional sabitlik, sülh yalnız güclü əməkdaşlıq, praktiki tərəfdaşlıq və uzunmüddətli strateji baxışla mümkün ola bilər. Onun sözlərinə görə, Gürcüstanın Çin, Türkiyə və Avropa İttifaqı ilə azad ticarət sazişlərinə malik olması ölkənin tranzit əhəmiyyətini daha da artırır və bu üstünlükdən maksimum istifadə etmək üçün nəqliyyat infrastrukturu geniş miqyasda yenilənir.

Nazir həmçinin bildirib ki, Gürcüstanın hədəfi yalnız tranzit ölkə olmaq deyil, qlobal logistika mərkəzinə çevrilməkdir. Bu məqsədlə 2032-ci ilə qədər ölkənin nəqliyyat infrastrukturuna 7,5 milyard laridən çox investisiya qoyulması planlaşdırılır. Bu investisiyalar avtomobil yollarının genişləndirilməsi, dəmir yolunun modernləşdirilməsi, Tbilisidə yeni beynəlxalq hava limanının tikintisi və strateji Anaklia dərin su limanı layihəsini əhatə edir. Dərin su infrastrukturu sayəsində bu liman iritonnajlı gəmilərin birbaşa qəbulunu təmin edərək Qara dənizdə yeni logistika standartı formalaşdıracaq. Bu isə Orta Dəhlizin ümumi səmərəliliyini artıran əsas amillərdən biri kimi çıxış edəcək.

Görüşlərdə Azərbaycanın rolu qeyd edilib. Azərbaycan artıq təkcə tranzit ölkə deyil, Orta Dəhlizin işlək mexanizminin mərkəzi koordinasiya və dayaq nöqtələrindən biridir. Xəzər dənizi üzərindən həyata keçirilən yük daşımalarının təşkili, Mərkəzi Asiya ilə Qafqaz arasında logistika axınlarının idarə olunması və Avropa istiqamətində inteqrasiyanın təmin edilməsi ölkənin geoiqtisadi rolunu daha da gücləndirir.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı bu sistemin əsas strateji qovşaqlarından biri kimi çıxış edir. Ələt ərazisində yerləşən bu liman Xəzər regionunun ən böyük multimodal logistika mərkəzlərindən birinə çevrilib. Limanın genişlənən ötürmə gücü Azərbaycanın beynəlxalq ticarət şəbəkələrində mövqeyini daha da gücləndirir.

Bakı limanı yalnız yük qəbul edən infrastruktur deyil, eyni zamanda, regionun iqtisadi ritmini müəyyən edən strateji mərkəzdir. Burada idarə olunan logistika axınları bütün Orta Dəhlizin effektivliyinə birbaşa təsir göstərir və Azərbaycanın "idarəedici mərkəz" rolunu daha da möhkəmləndirir.



Mövzu ilə bağlı gürcüstanlı **ekspert Mahmud Kamaloğlu** qeyd etdi ki, Orta Dəhliz artıq sadəcə nəqliyyat xətti deyil, ticarət, enerji, logistika və rəqəmsal inteqrasiyanı birləşdirən çoxşaxəli geoiqtisadi sistemdir. Onun fikrincə, bu sistemin dayanıqlılığı birbaşa ölkələrarası əməkdaşlıq və koordinasiyadan asılıdır: "Gürcüstan–Türkmənistan hökumətlərarası komissiyasının Aşqabadda keçirilən iclası bu əməkdaşlığın institusional mərhələyə keçdiyini göstərir. Tərəflər iqtisadi əlaqələrin genişləndirilməsi və tranzit imkanlarının artırılması barədə razılığa gəliblər. Bütün bu proseslər göstərir ki, Orta Dəhliz artıq gələcəyin layihəsi deyil, bu günün real işlək iqtisadi sistemidir. Onun davamlı inkişafı isə xüsusilə Azərbaycan və Gürcüstanın koordinasiyalı fəaliyyətindən asılıdır".

Beləliklə, Avrasiya ticarət xəritəsi yenidən formalaşır. Bu xəritədə Azərbaycan mərkəzi geosiyasi dayaq, Gürcüstan isə Avropaya açılan strateji qapı kimi çıxış edir. Orta Dəhliz isə bu iki ölkənin üzərindən keçərək qitələri birləşdirən yeni siyasi-iqtisadi nəfəs xətti rolunu oynayır.

***P.ƏFƏNDİYEV***
***XQ***

# Şəhərlər yönünü təbiətə çevirməlidir

## *Bakı mühüm beynəlxalq məsələlərin müzakirəsi, qlobal həmrəyliyin təşviqi məkanıdır*




**Müasir dünya sürətlə şəhərləşir. Birləşmiş Millətlər Təşkilatının proqnozlarına görə, yaxın onilliklərdə dünya əhalisinin böyük hissəsi şəhərlərdə yaşayacaq. Şəhərlər indi həm də insan sağlamlığının, ekoloji təhlükəsizliyin və sosial rifahın müəyyən olunduğu əsas məkanlara çevrilib. Bu səbəbdən XXI əsrin urbanizasiya modeli əvvəlki dövrlərdən fərqli olaraq "böyüyən şəhər" ideyasından əlavə, "yaşanıla bilən şəhər" anlayışına əsaslanmalıdır. Çünki betonlaşma, sənaye emissiyaları, avtomobil sıxlığı və plansız urbanizasiya milyonlarla insanın nəfəs aldığı havanı görünməz təhlükəyə çevirib.**

Məhz bu cür qlobal çağırışlar fonunda Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumu çərçivəsində təşkil olunan yüksəksəviyyəli tədbir beynəlxalq müzakirələrin istiqamətini dəyişən mühüm platformalardan biri kimi diqqət çəkdi. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə baş tutan "Yeni şəhər gündəliyində həyat nəfəsi: Davamlı şəhərlər üçün hava keyfiyyəti və yaşıl infrastrukturun inteqrasiyası" adlı forum urbanizasiya ilə ekologiya arasında tarazlığın necə qurulmalı olduğu barədə yeni yanaşmaları gündəmə gətirdi. Tədbirin sonunda qəbul edilən "Nəfəs alan şəhərlər naminə Bakı Çağırışı" adlı kommünike isə gələcək şəhər siyasətinin istiqamətlərini müəyyənləşdirməyə çalışan beynəlxalq çağırış kimi qiymətləndirildi. Leyla Əliyevanın bu humanitar təşəbbüsünü Bakıdan dünyaya ünvanlanan ekoloji urbanizasiya mesajı kimi də dəyərləndirmək olar.

Əslində müasir şəhərlərin əsas paradoksu məhz inkişaf ilə nəfəs almaq arasında yaranan ziddiyyətdə özünü göstərir. Müşahidə edirik və görürük ki, son onilliklər ərzində dünyanın bir çox meqapolislərində iqtisadi artım sürətlənsə də, bununla paralel olaraq ətraf mühitin çirklənməsi, istilik adası effekti, yaşıllıq sahələrinin azalması və iqlim həssaslığı da dərinləşib. Ümumdünya Səhiyyə Təşkilatının acı statistikası da təsdiqləyir ki, hər il planetimizdə milyonlarla insan hava çirklənməsi ilə əlaqəli xəstəliklər səbəbindən həyatını itirir. Təəssüflər olsun ki, problem artıq səhiyyə, sosial bərabərlik və iqtisadi dayanıqlılıq probleminə çevrilib. Çünki keyfiyyətli hava əsasən imkanlı məhəllələrdə qalır, çirkli hava isə daha çox sosial cəhətdən həssas qrupların yaşadığı ərazilərdə cəmlənir. Beləliklə, paradoksal səslənsə də, nəfəs almaq hüququ qlobal bərabərsizliklərin bir hissəsinə çevrilir.

Bakıda keçirilən forumun diqqətçəkən cəhəti məhz bu məsələyə humanist yanaşma sərgiləməsi idi. Tədbirdə şəhərlərin insan sağlamlığı və ekoloji rifah üzərindən dəyərləndirilməsinin vacibliyi vurğulandı. Çünki şəhərin inkişaf səviyyəsi bəzən onun siluetindən daha çox, sakinlərinin rahat nəfəs ala bilməsində ölçülür. Ona görə də yaşıl infrastruktur anlayışı şəhərin həyati sistemi kimi təqdim olunur.

Yeri gəlmişkən, yaşıl infrastruktur son illərdə qlobal şəhərsalma siyasətində strateji istiqamətə çevrilib. Buraya parklar, şəhər meşələri, yaşıl damlar, ekoloji dəhlizlər, su hövzələri və biomüxtəlifliyi qoruyan urbanistik həllər daxildir. Sözügedən yanaşmanın əsas məqsədi təbiəti şəhərdən kənarda saxlanılan element kimi yox, daxilində yaşayan orqanizm kimi qəbul etməkdir. Çünki ağaclar havanı təmizləyir, temperaturu aşağı salır, karbon emissiyalarını azaldır və insan psixologiyasına müsbət təsir göstərir. Son araşdırmalar göstərir ki, yaşıllıq zonalarının çox olduğu şəhərlərdə həm stres səviyyəsi, həm də ürək-damar xəstəlikləri daha aşağı olur.

Bakıda qəbul edilən "Nəfəs alan şəhərlər naminə Bakı Çağırışı"nın mühüm tərəfi ondan ibarətdir ki, sənəd hava keyfiyyəti məsələsinin Ümumdünya Şəhərsalma Forumunun gələcək sessiyalarının gündəliyində daimi mövzu kimi təsbit olunmasına çağırış edir. Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın bu nəcib təşəbbüsü, əslində, urbanizasiya siyasətində yeni prioritet formalaşdırmaq istəyindən irəli gəlir. Çünki uzun illər şəhərsalma müzakirələrində əsas diqqət nəqliyyat, yaşayış, iqtisadiyyat və infrastruktur üzərində cəmləşsə də, hava keyfiyyəti ayrıca strateji istiqamət kimi kifayət qədər ön plana çıxarılmırdı. Çağırışın Bakıda səslənməsi də xüsusi simvolik məna daşıyır. Son illər Azərbaycan beynəlxalq platformalarda iqlim diplomatiyası və yaşıl gündəlik istiqamətində daha fəal mövqe nümayiş etdirir. Xüsusilə ekoloji təhlükəsizlik, biomüxtəlifliyin qorunması və dayanıqlı inkişaf məsələlərinin dövlət siyasətində ön plana çıxması ölkənin beynəlxalq ekoloji platformalarda iştirakını gücləndirib. Bu kontekstdə Bakının qlobal urbanizasiya və ekologiya dialoqunun mərkəzlərindən birinə çevrilməsi təsadüfi görünmür.

Bəli, sonda bu qənaətə gəlmək olar ki, müasir urbanizasiya prosesində texnologiyanın rolu artsa da, insan faktoru yenə əsas olaraq qalır. Süni intellektlə idarə olunan şəhərlər, rəqəmsal nəqliyyat sistemləri və ağıllı infrastrukturlar yalnız insan sağlamlığını və ətraf mühiti qorumağa xidmət etdiyi zaman uğurlu hesab edilə bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

**Cənubi Qafqazda postmünaqişə dövründə yaranmış yeni reallıqlar regionun nəqliyyat və geosiyasi arxitekturasını köklü şəkildə dəyişdirmişdir. Bu kontekstdə Zəngəzur dəhlizi layihəsi ilkin mərhələdə Azərbaycan ilə Naxçıvan arasında quru əlaqənin bərpası kimi nəzərdə tutulsa da, qısa müddətdə daha geniş – Avrasiya miqyaslı logistika və geosiyasi layihə kimi aktuallıq qazanmışdır.**

# Zəngəzur dəhlizi yeni dünya düzənində




Layihənin əhəmiyyəti yalnız onun fiziki infrastrukturu ilə deyil, həm də qlobal ticarət marşrutlarının transformasiyası, enerji təhlükəsizliyi məsələləri və böyük güclər arasında rəqabətin artması ilə şərtlənir. Bu səbəbdən Zəngəzur dəhlizi artıq regional təşəbbüs deyil, çoxsəviyyəli geosiyasi fenomen kimi təhlil edilməlidir.

Zəngəzur dəhlizinin geosiyasi əhəmiyyəti onun məkan üzərində nəzarət və əlaqələndirmə funksiyası ilə bağlıdır. Layihə Cənubi Qafqazda uzun müddət mövcud olan kommunikasiya disfunksiyasını aradan qaldıraraq regionu vahid iqtisadi və nəqliyyat məkanına çevirmə potensialına malikdir. Burada əsas məsələ yalnız yolun açılması deyil, onun hüquqi və institusional rejimidir, dəhlizin kim tərəfindən, hansı rejimlə və hansı təhlükəsizlik mexanizmləri ilə idarə olunacağıdır. Əgər dəhliz klassik tranzit modeli əsasında fəaliyyət göstərərsə, bu, regional əməkdaşlığı gücləndirə bilər. Əks halda, əlavə nəzarət mexanizmlərinin tətbiqi onu geosiyasi təsir alətinə çevirə bilər. Bu baxımdan layihə "infrastruktur"dan daha çox "strateji nəzarət aləti" kimi çıxış edir.

İqtisadi və logistika potensialı barədə danışarkən, qeyd olunmalıdır ki, Zəngəzur dəhlizi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun (Orta Dəhliz) funksional tamlığını təmin edən əsas elementlərdən biridir. Qlobal ticarət sistemində son illərdə baş verən dəyişikliklər (Ukrayna müharibəsi, sanksiyalar, dəniz yollarında risklər) alternativ marşrutlara tələbatı artırmışdır. Mövcud qlobal ticarət strukturunda Çin–Avropa yükdaşımalarının böyük hissəsi dəniz yolu ilə həyata keçirilsə də, geosiyasi risklərin artması alternativ marşrutlara tələbatı artırmışdır.

Bu kontekstdə dəhlizin potensialı aşağıdakı istiqamətlərdə özünü göstərir: Çindən Avropaya daşınma müddətinin əhəmiyyətli dərəcədə – təxminən 12-18 günə qədər azalması; marşrutların şaxələndirilməsi və risklərin minimallaşdırılması; Cənubi Qafqaz regionunun "kənar keçid zonası"ndan "əsas tranzit mərkəzinə" çevrilməsi.

Proqnozlara görə, layihənin tam reallaşması halında illik yük dövriyyəsi orta müddətdə 15–20 milyon ton səviyyəsinə çata bilər ki, bu da bölgə ölkələrinin iqtisadiyyatında tranzit və logistika sektorunun rolunu əhəmiyyətli dərəcədə artıracaqdır.

Azərbaycana gəldikdə isə dəhlizin işə düşməsi ölkənin iqtisadi modelində struktur dəyişikliklərə gətirib çıxara bilər; ölkə fəal enerji ixracatçısı olmaqla yanaşı, logistika və xidmət iqtisadiyyatını da əhəmiyyətli dərəcədə inkişaf etdirə bilər.

Zəngəzur dəhlizinin sülh prosesinə təsiri onun iqtisadi funksiyası ilə sıx bağlıdır. Klassik liberal yanaşmaya görə, iqtisadi qarşılıqlı asılılıq münaqişə risklərini azaldır. Lakin bu model yalnız tərəflər arasında etimad və təhlükəsizlik təmin olunduğu halda effektiv olur.

Ermənistan kontekstində bu məsələ xüsusi həssaslıq tələb edir. Bir tərəfdən, kommunikasiya xətlərinin açılması iqtisadi imkanlar yaradır, digər tərəfdən isə suverenlik və təhlükəsizliklə bağlı narahatlıqlar siyasi müqavimət doğurur. Bu səbəbdən dəhlizin sülhə təsiri onun hüquqi və institusional dizaynından birbaşa asılıdır.

Birmənalı qəbul ediləcək fakdır ki, Zəngəzur dəhlizi potensial beynəlxalq nəqliyyat habı qismində müxtəlif regional və qlobal aktorların maraqlarının kəsişdiyi mürəkkəb geosiyasi məkan kimi çıxış edir. Belə ki:

İran layihəni tranzit gəlirləri və regional təsir imkanları baxımından potensial risk kimi qiymətləndirir. Onun əsas narahatlığı Şimal-Cənub dəhlizinin rolunun zəifləməsi və Ermənistanla strateji əlaqənin transformasiyasıdır.

Rusiya layihəyə prinsipial olaraq qarşı olmasa da, onun üzərində təsir mexanizmlərini qorumağa çalışır. Bu yanaşma Moskvanın regionda geosiyasi mövqeyini saxlamaq strategiyası ilə bağlıdır.

Türkiyə dəhlizi strateji imkan kimi qiymətləndirir və onu Avrasiya inteqrasiyasının mühüm elementi hesab edir. Layihə Türkiyənin Mərkəzi Asiya ilə əlaqələrini gücləndirir.

Avropa İttifaqı layihəyə əsasən iqtisadi və enerji təhlükəsizliyi prizmasından yanaşır. Alternativ marşrutların inkişafı Aİ üçün strateji əhəmiyyət kəsb edir.

Çin isə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində layihəyə potensial logistika marşrutu kimi baxır, lakin siyasi risklər səbəbindən ehtiyatlı mövqe tutur.

Mövqelərin fərqli palitrası müəyyən risk və mübahisələr doğurur ki, bu da struktur ziddiyyətlərin analizini zəruri edir.

Zəngəzur dəhlizi ətrafında mövcud mübahisələr 4 əsas istiqamətdə cəmlənir:

1. Hüquqi status problemi – tranzit rejimi ilə xüsusi dəhliz rejimi arasında ziddiyyət
2. Təhlükəsizlik dilemması – tərəflərin qarşılıqlı şübhələri
3. Geosiyasi rəqabət – böyük güclərin maraqlarının toqquşması
4. Daxili siyasi faktorlar – xüsusilə Ermənistanda layihənin siyasiləşdirilməsi.

Bu risklər layihənin reallaşmasını ləngidə və ya məhdudlaşdıra bilər. İstənilən halda, Zəngəzur dəhlizi regional nəqliyyat zənciri statusundan çıxaraq geosiyasi sistem elementi funksiyası qazanmışdır. Əgər əvvəlki mərhələdə layihə Azərbaycan üçün daxili-coğrafi parçalanmanı aradan qaldıran kommunikasiya xətti idisə, bu gün o, Avrasiya ticarətinin alternativ arxitekturasının tərkib hissəsi kimi çıxış edir. Məhz bu səbəbdən layihə ətrafında müzakirələr yalnız Bakı və İrəvan arasında deyil, Moskva, Tehran, Ankara, Brüssel və Pekində də aparılır. Və bu transformasiyanın səbəbi təkcə 2020-ci ildən sonra yaranmış regional reallıqlar deyil, həm də qlobal logistika zəncirlərinin yenidən qurulması prosesidir.

Beləliklə, Zəngəzur dəhlizi müasir beynəlxalq münasibətlər sistemində çoxsəviyyəli fenomen kimi çıxış edir. O, eyni zamanda, geosiyasi balansın dəyişməsi aləti, iqtisadi inteqrasiya mexanizmi və sülh prosesinin potensial katalizatorudur. Layihənin uğuru onun texniki imkanlarından daha çox siyasi razılaşmaların səviyyəsindən asılıdır. Əgər balanslı hüquqi model formalaşdırılarsa, dəhliz regionu qlobal logistika sisteminə inteqrasiya edən mühüm elementə çevrilə bilər. Əks halda isə o, yeni geosiyasi gərginlik xətti kimi qalmaqda davam edəcəkdir.

***Nərmin QƏHRƏMANLI,***
***Bakı Dövlət Universiteti beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsi***

# Bakı Enerji Həftəsi qlobal güc platformasıdır

## *Builki beynəlxalq toplantıda 44 ölkədən 274 şirkət iştirak edəcək*

**İyunun 1-dən 3-dək Bakıda regionun mühüm sənaye toplantısı olan və hər il qlobal enerji liderlərini bir araya gətirən Bakı Enerji Həftəsi keçiriləcək. Həftə çərçivəsində 31-ci "Xəzər neft və qaz" sərgisi, 14-cü "Xəzər beynəlxalq təmiz enerji sərgisi, 31-ci Bakı Enerji Forumu, eləcə də 23-cü Xəzər beynəlxalq nəqliyyat, tranzit və logistika sərgisi keçiriləcək. Bu və digər məsələlər barədə Bakı Enerji Həftəsinə həsr olunmuş mətbuat konfransında ətraflı məlumat verildi.**




"Caspian Event Organisers" şirkətinin icraçı direktoru Bəhruz Hidayətzadə bildirdi ki, illər keçdikcə Bakı Enerji Həftəsi həm regional, həm də beynəlxalq səviyyədə etibarlı enerji platforması kimi özünü təsdiqləyərək qlobal tədbirlər təqvimində ən əhəmiyyətli və çoxdan gözlənilən tədbirlərdən birinə çevrilib. Onun sözlərinə görə, Xəzər regionunun ən nüfuzlu enerji tədbiri olan Bakı Enerji Həftəsi qlobal enerji liderlərini, dünyanın aparıcı enerji şirkətlərini, dövlət qurumlarını, investorları və sənaye mütəxəssislərini növbəti mühüm müzakirələr və enerji sektorundakı ən son inkişafların təqdimatı üçün bir araya gətirəcək.

Qeyd olundu ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı Enerji Həftəsinin açılış mərasimində iştirakı tədbirin yüksək statusunu və əhəmiyyətini vurğulayır. Dövlətimizin başçısı sərgiləri ziyarət edir, iştirakçılarla və ekspozisiyalarla tanış olur. Prezident İlham Əliyev 2025-ci il Bakı Enerji Həftəsinin iştirakçılarına ünvanladığı salamlama məktubunda tədbirin artıq yeni yanaşmaların və beynəlxalq enerji dialoqunun formalaşdığı nüfuzlu bir forum kimi tanındığını qeyd edib.

Diqqətə çatdırıldı ki, ABŞ və Türkiyə prezidentləri, eləcə də Böyük Britaniya Baş naziri daxil olmaqla dünya liderlərinin iştirakçılara ünvanladığı salamlama məktubları da bu tədbirin beynəlxalq ictimaiyyət üçün əhəmiyyətini bir daha təsdiqləyir. Hər il olduğu kimi, bu dəfə də Bakı Enerji Həftəsində müvafiq dövlət qurumlarının nümayəndələrinin, enerji sektorunda fəaliyyət göstərən şirkətlərin, eləcə də Azərbaycanda akkreditə olunmuş diplomatik nümayəndəliklərin rəhbərlərinin iştirakı gözlənilir.

Energetika Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təhlükəsizliyi şöbəsinin müdiri Amil Həsənov qeyd etdi ki, Bakı Enerji Həftəsinin əsası 30 ildən artıqdır keçirilən ilk beynəlxalq ixtisaslaşmış "Xəzər neft və qaz" sərgisindən başlayır. Onun sözlərinə görə, builki tədbirlərdə müxtəlif ölkələrin nümayəndələri, o cümlədən dövlət rəsmiləri, beynəlxalq təşkilatlar və aparıcı beynəlxalq şirkətlər iştirak edəcəklər.

Bakı Enerji Həftəsinin təkcə enerji məsələlərinin deyil, həmçinin "yaşıl enerji", enerji təhlükəsizliyi, innovativ texnologiyalar və dayanıqlı inkişafla bağlı mövzuların müzakirəsi üçün platformaya çevrildiyini diqqətə çatdıran nazirlik nümayəndəsi bildirdi ki, işgüzar proqram çərçivəsində bir sıra tematik sessiyalar planlaşdırılıb. Bunlara dayanıqlı və şaxələndirilmiş enerji gələcəyi naminə beynəlxalq əməkdaşlığa dair nazirlərin plenar sessiyası, təbii qaz bazarları, enerji keçidi, "yaşıl enerji", regional inteqrasiya, eləcə də data mərkəzləri, hidrogen və kiçik modul reaktorları da daxil olmaqla enerji sektorunun gələcəyi ilə bağlı müzakirələr daxildir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR) mətbuat katibi Emin Sevdimalıyev bildirdi ki, təmsil etdiyi qurum Bakı Enerji Həftəsi çərçivəsində "Etibarlı tərəfdaş, güvənli enerji" konsepsiyasını təqdim edəcək. Onun sözlərinə görə, 31-ci Beynəlxalq Xəzər neft və qaz sərgisində təqdim olunacaq SOCAR stendinin dizayn konsepsiyası məhz bu ideya əsasında hazırlanıb. Qeyd olundu ki, stenddə şirkətin tarixi, mövcud fəaliyyəti və gələcək inkişaf strategiyası barədə geniş məlumat təqdim ediləcək. Eyni zamanda, SOCAR-ın enerji sektorunda strateji mövqeyi, beynəlxalq tərəfdaşlıqları və enerji təhlükəsizliyinə verdiyi töhfələr nümayiş etdiriləcək. Stend xüsusilə media nümayəndələri və tədbir iştirakçıları üçün maraqlı məkanlardan biri olacaq.

Bakı Enerji Həftəsinin layihə rəhbəri Nailə Əliyeva isə bu mötəbər enerji toplantısı çərçivəsində keçiriləcək toplantılar barədə media nümayəndələrinə ətraflı məlumat verdi. Qeyd olundu ki, Bakı Enerji Həftəsi çərçivəsi Azərbaycan Respublikası Energetika Nazirliyi tərəfindən dəstəklənir, Azərbaycan Respublikası Dövlət Neft Şirkəti isə baş tərəfdaş kimi çıxış edir. Onun sözlərinə görə, bu il 44 ölkədən 274 şirkət Bakı Enerji Həftəsində iştirakını təsdiqləyib.

Sərgi iştirakçılarının 35 faizinin yeni şirkətlərdən ibarət olduğunu diqqətə çatdıran layihə rəhbəri son illər Azərbaycanın neft, qaz və enerji sektorlarına beynəlxalq marağın artmaqda davam etdiyini bildirdi. Belə ki, bu il sərgi iştirakçılarının, təxminən, 60 faizi xarici şirkətlər, 40 faizi isə yerli müəssisələrdir. Bu da bir daha həm beynəlxalq əməkdaşlığın yüksək səviyyəsini, həm də yerli müəssisələrin fəal iştirakını nümayiş etdirir.

Bakı Enerji Həftəsi çərçivəsində enerji dialoqu üçün aparıcı və strateji platforma 1-2 iyun tarixlərində Bakı Konqres Mərkəzində keçiriləcək Bakı Enerji Forumudur. Diqqətə çatdırıldı ki, Bakı Konqres Mərkəzində təşkil olunan forumda, təxminən, 600 nümayəndənin iştirakı gözlənilir. İştirakçılar siyahısına Azərbaycanla yanaşı, Çin, Estoniya, Fransa, Almaniya, Macarıstan, İtaliya, Yaponiya, Hollandiya, Norveç, Rumıniya, Rusiya, Səudiyyə Ərəbistanı, İsveçrə, Türkiyə, Birləşmiş Ərəb Əmirlikləri, Birləşmiş Krallıq və ABŞ-dan şirkətlər daxildir.

Sonda media nümayəndələrinin suallarını cavablandırıldı.

***Mirbağır YAQUBZADƏ,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

# Düzgün qiymətləndirmə "ağıllı yatırım"ın özülüdür

**İqtisadi münasibətlərin şəffaflığı, investisiya mühitinin etibarlılığı və mülkiyyət hüquqlarının qorunması baxımından düzgün qiymətləndirmə meyarları dövlətin strateji sütunlarını möhkəmləndirir. Azərbaycan Qiymətləndiricilər Palatası qısa müddətdə bu sektorun inkişafına önəmli addımlar atıb. Mühüm dəyişikliklərin fonunda qurumun qarşısında duran vəzifələr, gələcək hədəflər və peşənin inkişaf perspektivləri barədə Azərbaycan Qiymətləndiricilər Palatasının (AQP) sədr müavini Ayan Qəmbərova ilə həmsöhbət olduq.**




***– "Qiymətləndirmə fəaliyyəti haqqında" yeni qanunun qəbulundan sonra Azərbaycanda qiymətləndirmə sektorunda hansı əsas dəyişikliklər baş verib?***

– Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə, o cümlədən iqtisadi sahədə sürətli inkişaf gedir. Azərbaycan regionun lider dövləti olmaqla yanaşı, dünyanın nüfuzlu ölkələrindən birinə çevrilir və çox böyük beynəlxalq layihələrə töhfələr verir. Təbii ki, bu inkişaf strategiyası iqtisadi sistemin əsas istiqamətlərindən biri kimi ekosistemin ayrılmaz tərkib hissəsi olan qiymətləndirmə sahəsini də prosesdən kənarda qoymur.

Yeni qanunun qəbulunu qiymətləndirmə fəaliyyətinin inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirmək olar. Uzun illər ərzində ölkədə qiymətləndirmə fəaliyyəti həyata keçirilsə də, sahənin daha müasir hüquqi bazaya, vahid peşə standartlarına və beynəlxalq təcrübəyə uyğun institusional idarəetmə mexanizmlərinə, bir az da sadə ifadə edəsi olsaq tənzimləməyə ehtiyacı var idi. Yeni qanun bu istiqamətdə mühüm boşluqları aradan qaldırdı.

Ən mühüm üstünlüklərdən biri isə qiymətləndirmə fəaliyyətinə ictimai etimadın artırılmasıdır. Çünki qiymətləndirmə hesabatları bank kreditlərindən investisiya layihələrinə, məhkəmə mübahisələrindən özəlləşdirmə proseslərinə qədər bir çox sahədə qərarların əsasını təşkil edir.

***– Azərbaycan Qiymətləndiricilər Palatası qısa müddətdə sektorun əsas oyunçusuna çevrilib. Hazırda Palatanın fəaliyyətində hansı istiqamətlər aparıcı hesab olunur?***

– Palatanın əsas missiyası qiymətləndirmə peşəsinin davamlı inkişafını təmin etmək, xidmət keyfiyyətini yüksəltmək, beynəlxalq əlaqələri inkişaf etdirərək təcrübə mübadiləsini inkişaf etdirərək beynəlxalq standartlara uyğun peşəkar mühit formalaşdırmaqdır.

Bu məqsədlə fəaliyyətimizin əsas istiqamətlərindən biri peşə standartlarının tətbiqi və metodoloji bazanın təkmilləşdirilməsidir. Qiymətləndirmə hesabatlarının keyfiyyətinin yüksəldilməsi, vahid yanaşmaların formalaşdırılması və beynəlxalq metodologiyaların tətbiqi prioritetlərimiz sırasındadır.

Digər mühüm istiqamət insan resurslarından düzgün istifadəni təmin etməklə peşəkarlığın təmin olunması, insan kapitalının inkişafıdır. Bununla yanaşı, dövlət qurumları, maliyyə institutları, investorlar, bir çox bazar iştirakçıları və vətəndaşlar arasında qiymətləndirmə xidmətlərinə etimadın möhkəmləndirilməsi də əsas məqsədlərimizdən biridir.

***– Hazırda qiymətləndirmə bazarının qarşısında duran əsas problemlər hansılardır?***

– İnkişaf edən hər bir peşə sahəsində olduğu kimi, qiymətləndirmə sektorunun da müəyyən çağırışları mövcuddur. İlk növbədə, metodoloji yanaşmaların daha da təkmilləşdirilməsi və bazar iştirakçıları arasında vahid praktikanın tam formalaşdırılması vacib məsələlərdəndir.

Hesab edirik ki, hüquqi bazanın təkmilləşdirilməsi, peşəkar inkişaf proqramlarının genişləndirilməsi və müasir texnologiyaların tətbiqi mövcud çağırışların mərhələli şəkildə həllinə imkan verəcək.

***– Son illərdə rəqəmsallaşma iqtisadiyyatın bütün sahələrinə təsir göstərir. Bu proses qiymətləndirmə fəaliyyətində hansı dəyişikliklər yaradır?***

– Rəqəmsallaşma qiymətləndirmə fəaliyyətinin daha operativ, dəqiq və şəffaf həyata keçirilməsi üçün yeni imkanlar yaradır. Elektron məlumat bazalarının genişlənməsi, coğrafi informasiya sistemlərinin tətbiqi, böyük məlumatların emalı və süni intellekt texnologiyalarının inkişafı qiymətləndirmə proseslərinin səmərəliliyini artırmağa xidmət edəcək. Palata yeni formalaşmış bir strukturdur, mövcud maliyyə imkanlarımız hələ ki, bu istiqamətdə operativ addımlar atmağa imkan vermir, amma biz bu sahənin də ümumi prioritetlərimiz daxilində inkişafında maraqlıyıq.

Bununla belə, texnologiyalar tam olaraq peşəkar qiymətləndiricinin rolunu əvəz etmir. Qiymətləndirmə yalnız məlumatların emalı deyil, bazar tendensiyalarının təhlili, risklərin qiymətləndirilməsi və peşəkar mühakimənin tətbiqini tələb edən fəaliyyətdir.

***– Qiymətləndirmə fəaliyyəti investisiya mühitinin formalaşmasında hansı rol oynayır?***

– Qiymətləndirmə investisiya qərarlarının qəbulunda əsas informasiya mənbələrindən biridir. Hər bir investor aktivin real bazar dəyərini, potensial gəlirliliyini və risklərini düzgün müəyyən etməyə çalışır. Obyektiv qiymətləndirmə olmadan sağlam investisiya qərarlarının qəbul edilməsi çətinləşir.



Məhz buna görə inkişaf etmiş ölkələrdə qiymətləndirmə institutu maliyyə sisteminin əsas elementlərindən biri hesab edilir. Kreditləşmə, investisiya layihələri, korporativ birləşmələr, satınalmalar və özəlləşdirmə prosesləri zamanı qiymətləndirmə hesabatları mühüm rol oynayır.

Azərbaycanda sahibkarlığın inkişafı, qeyri-neft sektorunun genişlənməsi və xarici investisiyaların təşviqi qiymətləndirmə xidmətlərinə tələbatın daha da artmasına səbəb olur.

***– Qiymətləndiricilik fəaliyyətinin gələcəyini necə görürsünüz?***

– Qiymətləndirici peşəsinin gələcək perspektivlərini kifayət qədər müsbət qiymətləndiririk. İqtisadi münasibətlərin mürəkkəbləşməsi və yeni aktiv növlərinin meydana çıxması peşəkar qiymətləndirməyə tələbatı artırır.

Bu gün qiymətləndirmə yalnız daşınmaz əmlakla məhdudlaşmır. Bizneslərin, sənaye müəssisələrinin, maliyyə alətlərinin, intellektual mülkiyyət obyektlərinin və digər aktivlərin qiymətləndirilməsi üzrə yeni istiqamətlər formalaşır.

Palata olaraq universitetlərlə əməkdaşlığa, maarifləndirmə tədbirlərinə və təcrübə proqramlarına xüsusi diqqət yetiririk. Məqsədimiz yüksək peşə hazırlığına malik, beynəlxalq səviyyədə rəqabətqabiliyyətli yeni qiymətləndiricilər nəslinin formalaşdırılmasına töhfə verməkdir.

***– Yaxın və ortamüddətli hədəfləriniz barədə nə deyə bilərsiniz?***

– Sektorun gələcəyinə nikbin baxırıq. Son illərdə yaradılmış hüquqi və institusional baza davamlı inkişaf üçün möhkəm zəmin formalaşdırıb. Yaxın dövr üçün əsas hədəflərimiz beynəlxalq standartların tətbiqinin genişləndirilməsi, peşəkar hazırlığın gücləndirilməsi, rəqəmsal həllərin inkişafı və bazarda keyfiyyət göstəricilərinin yüksəldilməsidir.

İnanırıq ki, həyata keçirilən islahatlar nəticəsində Azərbaycan qiymətləndirmə sektoru regionun qabaqcıl peşəkar ekosistemlərindən birinə çevriləcək və bu proses ölkənin investisiya mühitinin yaxşılaşmasına, iqtisadi inkişafın sürətlənməsinə və mülkiyyət münasibətlərində şəffaflığın güclənməsinə mühüm töhfə verəcək.

***Söhbəti yazdı:***
***Musa BAĞIRLI***
***XQ***

# Dünyaşöhrətli Xəzər yatağının yeni həyatı

## *Müasir texnologiya AÇG quyularının neftvermə əmsalını yüksəldəcək*




**bp şirkəti "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunda multilüləli quyu texnologiyasını uğurla tətbiq edib. Bu, Xəzər dənizinin ən uzun müddət istismarda olan yataqlarından birindən neftvermə əmsalının maksimuma çatdırılması və hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi istiqamətində mühüm bir addımdır.**

Yeni texnologiyanın tətbiqi AÇG yatağının mürəkkəb geoloji strukturlarında qazma işlərinin texniki çətinliklərini aradan qaldırmaqla yanaşı, platformalarda mövcud quyu şaxtalarının məhdudluğu probleminin həllinə də dəstək verir. Multilüləli quyu texnologiyası bir quyu lüləsindən lay-kollektora bir neçə yerdən daxil olmağa imkan verməklə lay-kollektora çıxışı genişləndirmək, drenaj səmərəliliyini artırmaq və mövcud infrastrukturdan maksimum faydalanmaq üçün şərait yaradır.

bp-nin Azərbaycan, Gürcüstan və Türkiyə üzrə regional prezidenti Cio Kristofoli deyib: "Yeni texnoloji yanaşma bp-nin AÇG yatağından hasilatın azalma tempinin idarə olunmasına yönəlmiş geniş miqyaslı strategiyasının əsasını təşkil edir. Bu yanaşma həm kapital səmərəliliyini optimallaşdırmağa, həm də hasilatın uzunmüddətli davamlılığını təmin etməyə kömək edir. AÇG-nin daha mürəkkəb və yetkin bir işlənmə mərhələsinə keçdiyi bir vaxtda, multilüləli quyu texnologiyası əlavə ehtiyatların aşkara çıxarılmasında və yatağın iqtisadi səmərəlilik müddətinin uzadılmasında mühüm rol oynayacaq".

Belə bir quyu konstruksiyasının AÇG yatağında ilk dəfə tətbiq olunduğunu bildirən regional prezidentin sözlərinə görə, bu addım bp-nin mövcud yataqlardan neftvermə əmsalının maksimuma çatdırılması üçün ən uyğun texnoloji həllərdən istifadə etmək öhdəliyinin göstəricisidir. O, həmçinin deyib ki, perspektivdə hasilatın uzunmüddətli davamlılığını təmin etmək və əlavə dəyər yaratmaq baxımından bu cür innovativ həllər mühüm rol oynayacaq. Belə ki, multilüləli quyu texnologiyası lay-kollektorla təması artırır, qazma qurğusunun məhsuldarlığını və əməliyyat səmərəliliyini yüksəldir, eləcə də mövcud infrastrukturdan ən effektiv şəkildə istifadə etməklə quyu şaxtalarının optimal istifadəsini təmin edir. "Bu baxımdan, bu texnologiyanın tətbiqi AÇG yatağında quyuların qazılması və tamamlanması prosesində keyfiyyətcə yeni bir mərhələdir. Hesab edirik ki, sözügedən texnologiya, bu dünya miqyaslı yatağın istismar müddətini uzatmaqla yanaşı, enerji hasilatının təhlükəsiz, səmərəli və məsuliyyətli şəkildə davam etməsi üçün ən effektiv yollardan biridir",– deyə şirkət rəsmisi bildirib.

Qeyd edək ki, ilk multilüləli quyusu olan C44 quyusu Qərbi Azəri platformasından qazılıb və artıq uğurla təhvil verilib. Bu, Xəzərdə indiyədək qazılmış ilk çoxlüləli quyu olmaqla AÇG layihəsi üçün əlamətdar bir nailiyyətdir. Bu uğur multilüləli quyusu texnologiyasının AÇG yatağının mürəkkəb lay-kollektor şəraitində həm texniki cəhətdən tətbiqinin mümkünlüyünü, həm də yüksək iqtisadi səmərəsini aydın şəkildə göstərir.

Yeri gəlmişkən, AÇG yatağında texnologiyaların strateji tətbiqi çərçivəsində, bp bütün yataq miqyasında çoxlüləli quyuların qazılması məqsədilə geniş bir kampaniya həyata keçirməyi planlaşdırır. Bu kampaniyaya cari ilin ilk yarısında istismara verilməsi planlaşdırılan C44 və D41 quyuları da daxil olmaqla 2026-cı il ərzində üç multilüləli quyusu ilə start veriləcək. Uzunmüddətli perspektivdə isə 2027-2028-ci illər ərzində daha çox sayda çoxlüləli quyuların qazılması nəzərdə tutulur ki, bu da həmin texnologiyanın yatağın gələcək hasilatında mühüm rol oynayacağını bir daha təsdiqləyir.

Bununla belə, AÇG-nin mürəkkəb lay-kollektorunu xarakterizə edən müxtəlif növ çətinlikləri yalnız multilüləli texnologiyası ilə həll etmək mümkün olmadığından yatağın işlənmə strategiyası hər bir konkret lay hədəfi üçün ən optimal texnoloji konfiqurasiyanın tətbiqinə əsaslanır və bununla da müxtəlif geoloji mühitlərdə icra səmərəliliyinin yüksək səviyyəsi təmin olunur. Bura multilüləli texnologiyasının üfüqi qazma, qabaqcıl geonaviqasiya, eləcə də qum təzahürü ilə mübarizə və axının tənzimlənməsinə yönəlmiş ağıllı tamamlama sistemləri ilə birgə tətbiqi daxildir. Bu da bütün yataq miqyasında neftvermə əmsalını daha da artırmaq üçün geniş imkanlar yaradır.

***XQ***

# Leyla Əliyeva Masallı Cümə məscidini ziyarət edib







**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Masallı rayonuna səfər edib.**

Səfər çərçivəsində Leyla Əliyeva rayonun tarixi və dini-mədəni abidələrindən biri olan Masallı Cümə məscidini ziyarət edib, məscidin tarixi və memarlıq xüsusiyyətləri ilə yaxından tanış olub.

Bildirilib ki, Masallı şəhərinin mərkəzində yerləşən Cümə məscidi 1846-cı ildə şəhər sakinləri və yerli xeyriyyəçilərin maliyyə dəstəyi ilə inşa olunub. Müstəqillik illərində məscid bərpa edilərək yenidən ibadətgah kimi fəaliyyətə başlayıb. Sonrakı illərdə dövlət tərəfindən əsaslı təmir olunan məscid 2001-ci ildə yerli əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Sonda Leyla Əliyevaya "Qurani-Kərim" hədiyyə olunub.

# Leyla və Alona Əliyevalar Sosial Reabilitasiya Mərkəzində







**Leyla Əliyeva və Alona Əliyeva "Tut Əlimdən" Uşaqlar üçün Sosial Reabilitasiya Mərkəzini ziyarət ediblər.**

Qonaqlar mərkəzdə təşkil olunan sosial və yaradıcı fəaliyyətlərlə yaxından tanış olub, uşaqlarla birgə müxtəlif tədbirlərdə iştirak ediblər.

Mərkəzə gələn Leyla Əliyeva və Alona Əliyeva əvvəlcə uşaqlarla birlikdə həyətyanı sahədə dekorativ və meyvə ağacları əkiblər.

Daha sonra azyaşlılar öz əl işlərini, çəkdikləri rəsmləri və rəngarəng yunlardan hazırladıqları oyuncaqları təqdim ediblər. Uşaqların yaradıcılıq nümunələri qonaqlar tərəfindən maraqla qarşılanıb.

Birgə fəaliyyət zamanı müxtəlif dekorativ əşyalar hazırlanıb, uşaqların bacarıq və yaradıcılıq imkanlarını əks etdirən işlərə baxış keçirilib.

Tədbirin bədii hissəsində azyaşlılar şeirlər səsləndirib, musiqi və rəqs nömrələri ilə çıxış ediblər. Uşaqların nümayiş etdirdiyi çıxışlar iştirakçılar tərəfindən böyük maraq və alqışlarla qarşılanıb.

# Leyla Əliyevanın həsirçi qadınlarla görüşü

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva Masallı rayonuna səfəri çərçivəsində Musaküçə kəndində həsirçiliklə məşğul olan qadınlarla görüşüb.**





Görüş zamanı Leyla Əliyeva ölkəmizdə ənənəvi həsir toxuculuğu sənətini qoruyub yaşadan son icmalardan biri olan "Rooted Hands" layihəsinin iştirakçıları ilə söhbət edib, onların əl işləri və yaradıcılıq fəaliyyəti ilə tanış olub.

Qeyd edək ki, Masallı rayonunun Musaküçə kəndindən olan qadınlar təbii qamış bitkilərini toplayır, qurudur və nəsildən-nəslə ötürülən ənənəvi üsullarla əl ilə həsir nümunələri toxuyurlar. Bu sənət həm bölgənin mədəni irsinin qorunması, həm də qadınların məşğulluğunun və iqtisadi dayanıqlılığının dəstəklənməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Səmimi görüş zamanı qadınlar həsir toxuma prosesini nümayiş etdiriblər. Leyla Əliyeva da onlarla birlikdə həsir toxuyub, bu qədim sənətin incəlikləri ilə yaxından maraqlanıb. Daha sonra həsirçilik sənətinə və "Rooted Hands" layihəsinə həsr olunmuş qısa film nümayiş olunub.

Leyla Əliyevanın dəstəyi ilə qadınlar üçün yenilənmiş məkan yaradılıb. Bu məkan onların işləməsi, təlim və ustad dərsləri təşkil etməsi, eləcə də əl işlərini nümayiş etdirərək satışını həyata keçirməsi üçün nəzərdə tutulub. Təşəbbüs Masallıda yeni mədəni və turistik məkanın formalaşmasına, eyni zamanda, yerli qadınların maliyyə imkanlarının genişləndirilməsinə və ənənəvi həsirçilik sənətinin yaşadılmasına töhfə verəcək.



"Rooted Hands" layihəsi artıq beynəlxalq səviyyədə də təbliğ edilməyə başlanılıb. Layihə 2025-ci ildə Milan Moda Həftəsində dayanıqlı moda işləri çərçivəsində təqdim olunaraq Azərbaycanın bataqlıq ərazilərindən toplanan təbii materialların, qadın sənətkarların əl əməyinin, müasir dizaynın və ənənəvi sənətkarlığın uğurlu vəhdətini nümayiş etdirib.

Layihə haqqında ətraflı məlumat veb-səhifəsində və sosial media hesabında təqdim olunur.

# Müstəqillik Günü münasibətilə şənlik

*Leyla və Alona Əliyevalar mərasimdə iştirak ediblər*





**SƏNƏT Uşaq Musiqi və İncəsənət Mərkəzində 28 May – Müstəqillik Gününə həsr olunmuş konsert proqramı təşkil edilib.**



Konserti Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Alona Əliyeva izləyiblər.

Mərkəzin tələbələri müxtəlif vokal ifalar, "Cəngi", "Yallı" və digər rəqs nümunələri ilə çıxış ediblər.

Gənc istedadların təqdim etdiyi bu zəngin proqram uşaqların musiqi və rəqs sənətinə gətirdiyi yeni nəfəsin, bədii yaradıcılığa verdikləri real töhfənin göstəricisidir.

# Cavad Heyətin türklük sevdası





**Mayın 25-də Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində dünyaşöhrətli azərbaycanlı cərrah, Türk dünyasının görkəmli alimi və ictimai xadimi, professor Cavad Heyətin xatirəsinə həsr olunmuş ədəbi məclis keçirilib.**

Ədəbiyyat Muzeyinin direktoru akademik Rafael Hüseynov mərasimi giriş sözü ilə açaraq Cavad Heyətin türkologiya, tibb elmi və digər sahələrdə əvəzsiz xidmətlərindən bəhs edib. O, alimin çoxşaxəli yaradıcılığı, onun ədəbiyyatşünaslıq, ədəbi tənqid, publisistika və fəlsəfə tarixinin ən müxtəlif məsələlərinə dair tədqiqatları barədə ətraflı məlumat verib. Bildirib ki, Cavad Heyətin zəngin və səmərəli fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor, eləcə də islamşünaslığa dair tədqiqatlar mühüm yer tutur.

Akademik Rafael Hüseynov ulu öndər Heydər Əliyev və ölkə Prezidenti İlham Əliyevin dünyaşöhrətli alimlə olan görüşlərindən danışıb, Cavad Heyətin ikisi fars və beşi də türk dilində olan yeddicildlik türkologiya kitabının müəllifi olduğunu diqqətə çatdırıb.

Ədəbi məclisin fəxri qonaqları – akademik Nizami Cəfərov, tarix elmləri doktoru Eynulla Mədətli, filologiya elmləri doktoru Esmira Fuad, professor Tofiq Məlikli, filologiya elmləri doktoru, dosent Pərvanə Məmmədli, tarix üzrə fəlsəfə doktoru, dosent Səməd Bayramzadə, 1945-ci ildə Güney Azərbaycanda müstəqillik uğrunda vuruşan fədailərdə biri olmuş Firudin İbrahiminin qardaşı oğlu hüquqşünas Firudin İbrahimi, tanınmış heykəltaraş, Xalq rəssamı Natiq Əliyev, mərhum professorun ailə dostu və köməkçisi olmuş Baxşəli Zülfi Cavad Heyətin şərəfli ömür yolundan, zəngin yaradıcılığından danışıb, onunla bağlı xatirələrini bölüşüblər.

Ədəbiyyat Muzeyinin ekspozisiya şöbəsinin müdiri, Əməkdar mədəniyyət işçisi Tomiris Babanlı və muzeyin Elmi fondlar şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru Nərmin Əliyeva professor Cavad Heyətin bir neçə dəfə muzeyi ziyarət etdiyini bildirib, alimin muzeydə sərgilənən şəxsi əşyaları və arxiv materiallarından bəhs edib, "Cavad Heyət və Şəhriyar: Varlıqdan doğan mənəvi körpü" mövzusu ətrafında təhlil və araşdırmaları diqqətə çatdırıblar.

***Q.YUSİFOĞLU***
***XQ***

# Şuşakənd milli kimliyimizə qovuşub

## *Qədim türk yurdu onun simasını pozmuş yad görüntülərdən də təmizlənib*

**Şuşakəndə gedirik. Xankəndi-Şuşa yolundan ayrılıb Xocalı rayonunda yerləşən bu qədim türk obasının yaz mənzərələri o qədər əsrarəngizdir ki, valeh olmadan, sehrinə düşmədən ötüb keçmək olmur. Qarşılaşdığımız bir təbiət möcüzəsini isə sözlə ifadə etmək mümkün deyil, mütləq gəlib görmək lazımdır.**




Dərin dərədən axan Daşaltı çayının axıb getdiyi sərt yarğanın sağ yüksəkliyində Cıdır düzü və “Uçmıx” yamacı, sol tərəfində “Topxana” meşəsi, arxa fonda isə vüqarla ucalan əzəmətli Kirsin təbii ansambl yaradan nəhəng tablosu, sanki, ilahi rəssam tərəfindən çəkilib. Bəli, belə təbii gözəlliklər Ulu yaradanın şahanə əsərləridir.

### Qaranlıq keçmişdən işıqlı gələcəyə uzanan yol

Şuşakənd sözünün mənası ilə bağlı müxtəlif mülahizələr mövcuddur. Bəzi tədqiqatçılara görə, oykonim eramızın əvvəllərində Şimali Qafqaz çöllərində yaşamış türkdilli tayfaların özləri ilə gətirdikləri addır. Oykonimin yaxınlıqda yerləşən Şuşa ilə bağlılığı haqqında da ehtimallar var. Şuşakənd Xankəndinin qərbində, Şuşanın isə şərqində hər iki şəhərin arasında yerləşir. Xankəndidən Xocavəndə uzanan əsas yollardan biri də bu kənddən keçir.

Ötən əsrin 90-cı illərində Qarabağda ermənilərin Azərbaycana qarşı əsassız torpaq iddiaları baş qaldıranda Şuşakənd separatizmin yuvalarından birinə çevrilmişdi. Şuşada və ətraf kəndlərdə yaşayan dinc, mülki azərbaycanlılar buradan mütəmadi artilleriya atəşinə tutulurdu. Rəşadətli ordumuzun 44 günlük Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də antiterror əməliyyatında qazandığı şanlı qələbələr nəticəsində işğal altında olan bütün torpaqlarımız kimi, Şuşakənd də azadlığına qovuşdu, kəndin yeni dirçəliş dövrü başladı.

Keçmiş məcburi köçkünlərin Şuşakəndə ilk qayıdışı 2025-ci il sentyabrın 11-də baş tutub. Sentyabrın 14-də isə Azərbaycan Prezidenti İlham Əliyev kənddə olub, burada görülən işlərlə maraqlanıb, kənd sakini Zaur Rzayevin evinə baş çəkib.

Şuşakənddəki qismən yararlı olan 172 fərdi yaşayış evinin xeyli hissəsi bərpa edilərək sakinlərin ixtiyarına verilib, digər evlərdə isə təmir işləri aparılır. Kəndə köç proses mərhələli şəkildə davam etdirilir. Öz doğma yurdlarına qovuşmuş keçmiş məcburi köçkünlərin qayıdışı ilə Şuşakənddə həyat yenidən canlanır, hər tərəfdə inkişafın ilkin təzahürləri göz oxşayır.

### “Oxuyan” samovar, Qarabağ kətəsi, bir bənd şeir...

Girəcəyindəki üçrəngli bayrağımızın qürurla dalğalandığı Bayraq meydanını keçib Şuşakəndə çatanda ilk qarşılaşdığımız yolun kənarında, yaşıllıqlar içərisində Qarabağ kətəsi bişirən Lətafət Allahyarova oldu. Odundan qalanmış ocaqda, sacın üstündə yerli göyərti ilə bişən kətənin ətri ətrafa yayılmışdı. Yanında da samovar həzin-həzin dızıldayır, sanki azadlıq nəğməsi oxuyurdu. Ağacın altında qoyulmuş stolun ətrafına yığışan bir neçə gənc səbirsizliklə milli mətbəximizin bu dadlı təamının bişməsini gözləyirdilər. Bir sözlə, Lətafət xanımın işi başından aşırdı. Sağ olsun, yenə də bizimlə söhbətə vaxt ayıra bildi. Ancaq suallardan yağdırıb başını necə qatdıqsa, az qalmışdı kətələri yandıra...

Öyrəndik ki, uzun illər Ağdaş rayonunun Pirkəkə kəndində məskunlaşmış **Lətafət Allahyarova** ötən ilin dekabrında məcburi köçkünlüklə birdəfəlik vidalaşıb, daimi yaşamaq üçün həyat yoldaşı və oğlu ilə birlikdə doğma Vətən torpağına qayıdıb. Dedi ki, Azərbaycanın hər qarışı onun üçün müqəddəsdir, ancaq doğulub-böyüdüyü Qarabağa qovuşmaq arzusunun reallaşacağına heç zaman şübhə etməyib:

– Ağdaş camaatına ömür boyu minnətdarıq, çətin günlərimizdə bizə ev sahibliyi etdilər. Bu gün isə biz öz yurdumuzda, öz evimizdə qonaq qarşılayırıq. Qürurluyuq, alnımız açıqdır. Bu yerlərin havası, suyu bizim üçün can dərmanıdır. Qızımı gəlin köçürmüşəm, çox şükür ki, oğlumu burada evləndirmək xəyallarım gerçək olacaq, ona köhnə vaxtlarda olduğu kimi, bir gözəl Qarabağ toyu edəcəyik. Allah bizə bu günləri yaşadan şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin! Allah Müzəffər Ali Baş Komandanımızı pənahında saxlasın! Allah ordumuzu qorusun, xalqımıza bir də acı günlər yaşatmasın!

Söhbət etdikcə, Lətafət xanımın səlis danışığı, hisslərini emosinallıqla çatdırması diqqətimizi çəkdi. Təhsilini soruşduq, cavab verdi ki, orta məktəbi əlaçı bitirmişdim, ancaq qağam (atam – M.R) ali təhsil almağıma icazə vermədi. Dedi, qız uşağı nədi, oxumaq nədi? O da təhsilini davam etdirə bilməsə də, hərdən ürək sözlərini qafiyələndirib kağıza köçürməklə, şeir yazmaqla təskinlik tapıb. Məcburi köçkünlük illərində Vətən həsrətindən yaranmış şeirlərindən bizə də söylədi: Biz də aşağıdakı bəndi oxucularımızla bölüşməyə söz verdik:

***Türlü-türlü dərdlərindən halıyam,***
***Dindirməyin, dərdim var, yaralıyam!***
***Vətən dərdim, qardaş ünüm var mənim,***
***Qarabağla bir görüşüm var mənim...***

### Qayıdışın bəxş etdiyi xoşbəxtlik duyğuları





Tanrının sanki yer üzündə yaratdığı cənnəti xatırladan Şuşakənddə hamının üzündə sevinc var, çöhrələrdən xoşbəxtlik yağır. Yeni asfaltlanmış kəndarası yollardan keçdikcə, burada sanki daşın-torpağın da bəxtəvərliklə gülümsədiyini hiss edirsən. Elə bu xoş duyğuların müşayiəti ilə kənd sakini Mehdi Mehdizadənin evinə yollandıq.

Mehdi də, həyat yoldaşı Elvina Cəfərbəyli də gülərüzlə “xoşgəldiniz” etdilər, yeni evlərinə xeyir-dua verib, söhbətə başladıq. Öyrəndik ki, Mehdinin atası İbrahim kişi 1992-ci il mayın 8-də, Şuşanın işğalı günü Kirs dağı istiqamətində gedən döyüşlərdə ermənilər tərəfindən əsir götürülüb, bu günə qədər haqqında heç bir məlumat yoxdur. Cəmi yaşyarım olanda doğma yurdundan didərgin düşmüş Mehdi isə ailəsi ilə birlikdə 2025-ci il dekabrın 20-nə kimi Bərdə rayonunda məskunlaşıb. Həmin vaxtdan həyatlarında yeni mərhələ başlayıb. Dövlət tərəfindən Şuşakənddə köçürülüb, burada təzə təmirli evlə təmin olunublar. **Mehdi Mehdizadə** onlar üçün yaradılmış şəraitdən razılıqla bəhs etdi:

– Evimizdə rahat yaşamağımız üçün hər şey nəzərə alınıb. Daimi işığımız, suyumuz, qazımız, internetimiz çəkilib, evdə kombi sistemi quraşdırılıb. Bir sözlə, şəraitimizdən çox razıyıq. Elə köçən kimi, cəmi bir günün içində işlə də təmin olunmuşam. Bərdədə Şuşa rayon 19 nömrəli məktəbdə müəllim işləyirdim, yurdumuza qayıdanda dərhal sonra ixtisasım üzrə Xocalının Xanyurdundakı məktəbə təyin olundum. İnşallah, yeni tədris ilindən Şuşakənddə də məktəb fəaliyyətə başlayacaq və öz kəndimdə sevimli işimlə məşğul olacağam.

**Elvina xanım da yeni evlərində rahatlığa çıxdıqlarını dedi:**

– Təbii ki, Bərdədə yaşadığımız yataqxana ilə buranı müqayisə etmək mümkün deyil. Şəraitimiz çox gözəldir. Bunun üçün dövlətimizə, möhtərəm Prezidentimizə minnətdarıq!

Mən Mingəçevirdə anadan olmuşam, orada böyümüşəm. Elə ilk tanışlıqdan Qarabağ mənə çox doğma gəldi. Ancaq buralarda gəzdikcə çox həyəcanlanıram. Mənə elə gəlir atdığım hər addımda ayaq basdığım torpağa şəhid qanı tökülüb. Allah cəmi şəhidlərimizə rəhmət eləsin! Təskinlik tapıram ki, bu gün onların ruhları şaddır. Biz torpaqlarımızı işğaldan azad etmişik, indi də geri qayıdıb bu gözəl yerlərə həmişəlik sahib çıxırıq.

İxtisasca fortepiano müəllimi olan Elvina xanım kənddə məktəbin və uşaq bağçasının tezliklə açılacağını, həmin vaxt işlə təmin olunacağını bildirdi. Əlavə etdi ki, əsas azad Qarabağda yaşamaqdır.

...Səfərimizin sonunda Şuşakənddə daha bir ünvana baş çəkdik, Həşimovlar ailəsinin doğma yurdlarına qayıdışdan sonrakı güzəranları, hansı hislər keçirdikləri ilə maraqlandıq. Ev sahibi, yaşı 90-nı haqlamış Varaşil kişi səhhəti ilə bağlı çox danışa bilməsə də, sevincini bölüşdü. Hətta “maşallah, gümrah görünürsünüz, xeyli cavanlaşmısınız, deyəsən” zarafatımıza, gülərək “hamı elə deyir, Vətənin havasındadır” cavabını verdi.

Nə az, nə çox, 8 nəfərdən ibarət ailə Şuşakəndin gözəl mənzərəli yerində 7 otaqlı evlə təmin olunub. Birinci Qarabağ müharibəsində 2 şəhid vermiş ailənin oğlu **Vasif Həşimov** rahat evlərindən, geniş həyətlərində gördükləri işlərdən qürurla danışdı. Bildirdi ki, ordumuzun mənfur düşmən üzərində qələbələrindən sonra doğma Vətənə qayıdacaqları günü səbirsizliklə gözləyiblər. Bu arzuları reallaşıb və indi onların həyatında yeni dövr başlayıb. Vasif Şuşakəndə köçürüləndən qısa müddət sonra işlə təmin edilib. Həyətdə toyuq-cücə saxlayırlar, kartof, lobya, tərəvəz əkiblər, yaxşı da bağları var. Elə ev sahiblərinin israrlı təkidlərindən sonra həmin nemətlərdən dadmaq bizə də nəsib oldu. Hələ yeməyin üstündən də bənövşə mürəbbəsi ilə çay içəsən. Tay reportaj hazırlamaq yada düşər?

Qonaqpərvərliklərinə görə təşəkkür edib Həşimovların evindən də, Şuşakəndənddən də ayrıldıq. O əminliklə ayrıldıq ki, bu qədim yurdumuz gündən-günə daha gözəlləşəcək, əhalisi artdıqca daha çox inkişaf edəcək, hər zaman xoş soraqlarını eşidəcəyik.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

**Xocalı, Şuşakənd**

*Valeh Hacılar – 75*

**Duyğulu insanlar yaşadıqları torpağın ruhunu sözə çevirir, zamanın yaddaşında silinməz izlər buraxırlar. Zəkalı insanlar isə sözün əməl olmasına can atır, həyata yeni naxış vururlar. Valeh Hacılar da belə duyğulu və zəkalı şəxsiyyətlərdən idi. O, elm və poeziyanı qovuşduran nadir bir mənəviyyat adamı, Borçalının ruhunu sözə, düşüncəsini isə şeiriyyətə çevirən ziyalı idi.**

# Borçalı ruhunun ölməz şeiriyyəti




Onun adı çəkiləndə sazın kövrək səsi, el məclislərinin işığı və Tbilisi auditoriyalarının mənəvi ab-havası xatırlanır. Çünki o, yalnız alim və müəllim deyildi, həm də xalq yaddaşını yaşadan, sözlə keçmişlə gələcək arasında körpü quran bir ziyalı idi.

Borçalının Darvaz kəndində dünyaya gəlmişdi. Bu kənd yaddaşında təkcə doğulduğu yer kimi yox, sazın, sözün və el ruhunun birləşdiyi bir məkan kimi qalmışdı. Uşaqlıqdan eşitdiyi bayatılar, nağıllar və aşıq havaları düşüncəsində sadəcə xatirəyə yox, bütöv bir dünyagörüşünə çevrilmişdi. Ona görə də folklor onun üçün kitab səhifələrində donmuş mətn deyil, yaşayan yaddaş idi.

Orta təhsilini doğma kənddə başa vurduqdan sonra onun həyat yolunu Bakı mühiti formalaşdırdı. M.F.Axundov adına Azərbaycan Dövlət Rus Dili və Ədəbiyyatı İnstitutunda keçən tələbəlik illəri intellektual dünyasını genişləndirdi, elmi düşüncəsinə istiqamət və sistem qazandırdı. Bakı V.Hacılara böyük ədəbiyyat mühitini, elmi axtarışın məsuliyyətini tanıtdı. Lakin bu inkişaf onu heç vaxt doğma köklərindən uzaq salmadı. Əksinə, zaman keçdikcə, Borçalıya bağlılığı dərinləşdi. Harada olursa-olsun, daxilində həmişə Borçalının saz səsini, dağ nəfəsini və el yaddaşını yaşatdı. Çünki Borçalı yalnız doğulduğu məkan deyildi, o, düşüncəsinin qaynağı, yaradıcılığının ruhu və ömrünün mənəvi yaddaşı idi.

1973-cü ildən etibarən Tbilisi Dövlət Pedaqoji Universitetində başlayan pedaqoji fəaliyyət həyatında yeni bir mərhələ açdı. Bu yol sadəcə müəllim kürsüsünə aparan yol deyildi. Bu, sözün işığında xalq yaddaşını qorumağa, milli ruhu yaşatmağa aparan bir ömür missiyası idi. O, hər dəfə auditoriyanın qapısını açanda özü ilə birlikdə zamanın dərin qatlarından gələn bir mədəniyyət nəfəsi gətirirdi. Dərsləri də adi dərs deyildi. Auditoriya bəzən ədəbi məclisə, bəzən də milli yaddaşın səssiz məbədinə çevrilirdi. Tələbələr burada yalnız dilin qaydalarını və ədəbiyyatın nəzəriyyəsini öyrənmirdilər. Onlar həm də sözün mənəvi gücünü, milli kimliyin dərin qatlarını və insanın öz kökünə bağlı qalmasını dərk edirdilər. Bəli, ədəbiyyat onun təqdimatında quru mətn deyildi, o, yaşayan bir ruh idi.

Şairlərin misraları səsində yeni nəfəs alır, yazıçıların yaratdığı obrazlar tələbələrin düşüncəsində yenidən doğulurdu. O, hər əsərdə xalqın taleyini, hər misrada bir millətin duyğusunu göstərməyi bacarırdı.

Orbeliani adına Tiflis Pedaqoji Universitetinin Azərbaycan bölməsinə rəhbərlik etməklə V.Hacılar yad dillərin içində ana dilimizin varlığını qoruyur, onu yaşadır, ucaldırdı. Eyni zamanda, bir dil körpüsü idi O! Digər müəlliflərlə birlikdə “Azərbaycanca–gürcücə lüğət”, “Gürcücə–azərbaycanca danışıq kitabçası” hazırlamışdı. Bundan əlavə, bir çox şairlərin şeirlərini, yazıçıların əsərlərini ana dilimizə çevirərək sözün sərhədsizliyini sübut edirdi. Beləcə, başqa xalqların içində də öz xalqının imzasını yaşadır, onu qoruyub ucaldırdı. Bu xidmətlər həm ona, həm də mənsub olduğu xalqa böyük bir başucalığı gətirirdi. Ümumilikdə isə Valeh müəllim, bu gün çox aktual olan azərbaycançılıq ideyasının vətən hüdudlarından kənarda ən sadiq daşıyıcılarından və fəal təmsilçilərindən biri idi.

Onu da qeyd edək ki, onun sayəsində tələbələrində elm təkcə bilik deyil, həm də məsuliyyət, yaddaş və milli irsə sədaqət kimi formalaşırdı.

*

Tbilisi Dövlət Pedaqoji Universitetində başlayan pedaqoji fəaliyyəti, zaman keçdikcə, elmi və mənəvi məktəbə çevrildi. V. Hacıların elmi yaradıcılığının əsas istiqamətlərindən biri Azərbaycan–gürcü ədəbi əlaqələrinin araşdırılması idi. 1984-cü ildə müdafiə etdiyi “Azərbaycan dilində şeir qoşan gürcü aşıqları” mövzusunda namizədlik dissertasiyası bu istiqamətdə mühüm elmi hadisəyə çevrildi. Bu əsərdə sazın dili ilə qurulan dostluğun, poeziyanın yaratdığı yaxınlığın və ortaq mədəni yaddaşın dərin qatları üzə çıxarılmışdı. Bu araşdırması ilə göstərirdi ki, eyni dağların küləyini dinləyən xalqların ruhu da bir-birinə yaxın olur. Çünki sözün kökü də, nəfəsi də eyni torpağın içindən keçir.

1993-cü ildə müdafiə etdiyi doktorluq dissertasiyası isə folklora həsr olunmuşdu. “Azərbaycan folklorunun səciyyəvi xüsusiyyətləri (Gürcüstandakı türkdilli folklor örnəkləri əsasında)” adlı bu fundamental əsər yalnız akademik araşdırma deyildi; bu, zamanın dərinliklərində itib-getmək təhlükəsi ilə üz-üzə qalan bir yaddaşın yenidən dirçəldilməsi idi. Alim Borçalının sazlı-sözlü dünyasını, Qarapapaq ruhunun yaddaşını və türkdilli xalq təfəkkürünün zənginliyini elmi düşüncənin işığında yenidən canlandırmışdı.

Əslində, Gürcüstan arxivlərində keçən illər ömrünün ən zəhmətli dövrlərindən idi. Toz basmış sənədlərin arasında xalqın unudulmuş taleləri yatırdı. İllərin susqunluğu altında qalan həmin yaddaşı yenidən danışdırırdı. Saralmış səhifələrdən keçmişin nəfəsi yüksəlir, qədim adlar, unudulmuş hadisələr və xalqın mədəni izi yenidən gün işığına çıxarılırdı.

Sonda alim miflərdən bayatılara, nağıllardan dastanlara, tapmacalardan atalar sözlərinə və lətifələrə qədər toplayaraq sistemləşdirdi, onları nəşr etdirərək əbədiləşdirdi və gələcək nəsillərə qiymətli miras kimi ötürdü. Bu, yalnız elmi fəaliyyət deyildi, bu, zamanın unutdurmağa çalışdığı yaddaşı xalqın özünə qaytarmaq idi.

“Folklorumuzun üfüqləri”, “Azərbaycan folkloru örnəkləri”, “Qarapapaq Mehralı bəy tarixi həqiqətlərdə”, “Kəndim Lecbəddindi, özüm İbrahim...” kimi əsərlər həmin yorulmaz axtarışların və mənəvi bağlılığın bəhrəsi idi. Bu kitabların hər səhifəsində xalqın nəfəsi, hər sətirində Borçalının ruhu yaşayırdı. Onun qələmində folklor sadəcə tədqiqat obyekti deyil, nəfəs alan, yaşayan bir həyat idi. Ən böyük xidmətlərindən biri isə bəlkə də məhz bu həqiqətdə gizlənirdi: o, xalq yaddaşını yalnız kitablara köçürməklə kifayətlənmədi, onu insan ruhunda yaşatmağı bacardı. bölgənin qəhrəmanlarını araşdırıb ortaya çıxarmaqla həm də bu coğrafiya üçün yeni bir tarix yazdı.

Onun ən mühüm xidmətlərindən biri də “Ulu baban kim olub?” kitablar silsiləsinin hazırlanması idi. Bu silsilə Borçalı kəndlərinin tarixini, nəsil şəcərələrini və demoqrafik quruluşunu arxiv sənədləri əsasında sistemli şəkildə təqdim edərək milli yaddaşın qorunmasına böyük töhfə vermişdir. Layihə sayəsində yüzlərlə ailənin, nəslin və kəndin keçmişi yenidən gün işığına çıxarılmış, yaddaşın itmiş qatları yenidən bərpa olunmuşdur.

Valeh Hacılar yalnız alim və folklorşünas deyildi. O, Azərbaycan və Gürcüstan arasında görünməz bir mənəvi körpü yaradan, xalq yaddaşını elmi düşüncə ilə birləşdirən və Borçalının ruhunu gələcək nəsillərə daşıyan böyük bir ziyalı idi. Onun ömrü elmə, sözə və milli yaddaşa sədaqətlə yazılmış bir həyat kitabı kimi Azərbaycan mədəni düşüncə tarixində öz işıqlı yerini bu gün də qoruyur.

*

Valeh Hacıların yaradıcılıq dünyasında poeziya ayrıca bir ruh qatıdır. Şeirlərində süni bədii quruluşdan çox yaşanmış hisslərin təbii axını duyulur; söz sanki düşünülərək deyil, yaşanaraq doğulur. İnsan ağrısı, ayrılıq, yurd sevgisi və folklorun kövrək nəfəsi onun poetik düşüncəsində vahid bir ahəngə çevrilir.

Onun poeziyasında sadə görünən misraların arxasında dərin fəlsəfi qatlar və zamanın görünməz izləri dayanır. Bu sadəlik səthilik deyil, həyatın öz təbii nəfəsidir. Onun şeirlərində yaddaşın sükutu, keçmişin izi və insan ruhunun ani işıqlanması bir arada hiss olunur.

***…Hələ eşidilmir sözümüz, baba,***
***Hələ yuxudayıq özümüz, baba.***
***Elə yumulub ki, gözümüz, baba,***
***Nə illah edirik, aça bilmirik.***

Bu misralar təkcə poetik müraciət deyil, bir xalqın iç sükutunun və oyana bilməyən yaddaşının ifadəsidir. Burada fərdi duyğu kollektiv ruhla birləşir.

Onun poeziyasında Vətən sevgisi və millət duyğusu şüar kimi deyil, yaşantının içindən süzülərək, səmimi və sakit bir dillə ifadə olunur. Eyni zamanda, şairin poeziya dilinin xalq danışıq dilinə yaxınlığı, ifadə tərzindəki ritmiklik və bayağı pafosdan uzaqlıq bu şeirləri məcmu halda “səmimiyyət poeziyası” adlandırmağa tam haqq verir.

***O dağlarda çiçək zərif, qar gözəl,***
***O düzlərdə bağça dolu bir gözəl,***
***Qardaş şirin, dost vəfalı, yar gözəl,***
***Məhəbbəti dəryalardan dərindi.***

Bu şeirində isə insan ruhunun, ideyasının və təsirinin tam sönmədiyini, sözü və xatirəsinin yaşadığını göstərir.

***Nə qədər yansaq da, külə dönsək də,***
***Hardasa, kül altda közümüz qalar.***

Tərcümə fəaliyyəti də onun yaradıcılığının mühüm hissəsidir. Gürcü, rus, Ukrayna və abxaz poeziyasından etdiyi tərcümələrdə o, sözün formasını deyil, ruhunu oxucuya çatdırmağa çalışırdı. İctimai fəaliyyəti isə xüsusilə diqqətəlayiqdir. Gürcüstanda Azərbaycan Ziyalılar Birliyinin ilk sədri kimi o, diaspor mühitində milli yaddaşın qorunması və mədəni özünüdərk prosesinin gücləndirilməsi istiqamətində mühüm rol oynamışdır.

Valeh Hacılar 2010-cu ildə ruhu uçmuş cismi ata yurdu Darvazda torpağa tapşırıldı, amma onun adı borçalıların yaddaşında özünə əbədi yer etdi. Bu gün O, sözün yaddaşa, yaddaşın mədəniyyətə, mədəniyyətin isə zamana qalib gəldiyi bir dəyərə çevrilib.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Qlobal məskunlaşmanın Bakı manifesti

## *Azərbaycan paytaxtının COP29 zəfərinə WUF13 zirvəsi də əlavə olundu*

**Müasir dünyada urbanizasiya şəhərlərin böyüməsi ilə bərabər, həm də iqtisadi inkişafın, sosial rifahın, innovasiyanın, iqlim siyasətinin və təhlükəsizlik məsələlərinin gerçəkləşdiyi əsas mərkəzlərə çevrilməsi prosesi kimi xüsusi diqqət çəkir. Əhalinin sürətlə meqapolislərə axını, mənzil çatışmazlığı, ekoloji problemlər, sosial bərabərsizlik və infrastruktur yükü şəhərsalma siyasətini qlobal gündəliyin ən vacib istiqamətlərindən birinə çevirir.**



Belə bir dövrdə Azərbaycanın paytaxtının – Şərqlə Qərbin vəhdətini təcəssüm etdirən Bakı şəhərinin Ümumdünya Şəhərsalma Forumunun 13-cü Sessiyası (WUF13) kimi mötəbər məclisə evsahibliyi etməsi respublikamızın beynəlxalq nüfuzunun, şəhərsalma siyasətində əldə etdiyi uğurların və qlobal təşəbbüslərə verdiyi cavabın növbəti göstəricisi oldu. WUF13-ün yekununda qəbul edilən "Bakı Fəaliyyətə Çağırış" mətni isə tarixə yalnız bir toplantının nəticə sənədi deyil, həm də gələcək şəhərlərin necə formalaşdırılmalı olduğuna dair qlobal baxışın manifesti kimi həkk olundu. Sənəddə insan mərkəzli şəhər inkişafı, sosial ədalət, dayanıqlı mənzil siyasəti, inklüziv idarəetmə, "yaşıl" transformasiya və şəhərlərin iqlim dəyişikliklərinə davamlılığının artırılması əsas prioritetlər olaraq önə çəkilir.

### Qlobal məskunlaşmanın yolu hayanadır?

"Bakı Fəaliyyətə Çağırış" sənədinin əsas mahiyyəti ondan ibarətdir ki, şəhər təkcə iqtisadi aktivlik məkanı deyil, eyni zamanda, insan ləyaqətinin, sosial bərabərliyin və təhlükəsiz yaşayışın gerçəkləşdiyi geniş yaşayış sahəsidir. Sənəddə vurğulanır ki, mənzil problemi sosial məsələ olmaqla bərabər, həm də qlobal təhlükəsizlik və davamlı inkişaf amilidir. Dünyanın bir çox ölkəsində milyonlarla insanın təhlükəsiz və keyfiyyətli yaşayış imkanlarından məhrum olması isə urbanizasiya siyasətinə yeni yanaşmaları zəruri edir.

Bu baxımdan Bakı sənədi şəhərsalmaya klassik memarlıq və tikinti çərçivəsindən yox, sosial məsuliyyət və humanitar inkişaf prizmasından yanaşır. Burada "heç kəsin kənarda qalmaması" prinsipi xüsusi rol oynayır. Qadınların, gənclərin, yaşlıların, əlilliyi olan şəxslərin, aztəminatlı ailələrin və digər həssas qrupların şəhər həyatına tam inteqrasiyası sənədin əsas fəlsəfəsini təşkil edir. Əslində, bu yanaşma BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri ilə tam uzlaşır. Xüsusilə Dayanıqlı İnkişaf Məqsədi – 11 ("Davamlı şəhərlər və icmalar") konsepsiyası Bakı sənədində öz geniş əksini tapır. Bu isə Azərbaycanın qlobal inkişaf gündəliyinə inteqrasiya olunan siyasət yürütməsindən xəbər verir.

WUF13 çərçivəsində Azərbaycanın şəhərsalma sahəsində son illərdə həyata keçirdiyi layihələr bu gün beynəlxalq iştirakçılar tərəfindən böyük maraqla qarşılanır. Xüsusilə Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və yenidənqurma işləri müasir şəhərsalmanın yeni modeli kimi təqdim edilir. "Ağıllı" şəhər, "ağıllı" kənd, "yaşıl" enerji, rəqəmsal idarəetmə və ekoloji dayanıqlılıq prinsiplərinə əsaslanan bu layihələrlə Azərbaycan postmünaqişə dövründə dağıdılan əraziləri bərpa etməklə yanaşı, eyni zamanda, gələcəyin şəhər modelini formalaşdırır. Bu modelin əsas xüsusiyyəti isə insan amilinin prioritet seçilməsi, texnologiyanın sosial rifaha xidmət etməsi və ekoloji balansın qorunmasıdır.

Prezident İlham Əliyev forumun açılış mərasimindəki çıxışında Bakının WUF13-ə ev sahibliyinin respublikamızın beynəlxalq əməkdaşlığa və dayanıqlı inkişaf gündəliyinə sadiqliyinin göstəricisi olduğunu, bu baxımdan Azərbaycanın beynəlxalq urbanizasiya siyasətində artıq təşəbbüskar aktor kimi tanındığını vurğuladı. Dövlət başçısı daha sonra əvvəlki illərdə ölkəmizin daha çox enerji, nəqliyyat və geosiyasi layihələrlə qlobal gündəmdə yer aldığını, hazırda isə şəhərsalma və davamlı inkişaf məsələlərində mühüm platforma olaraq tanındığını bildirdi.

### "Yaşıl" və "ağıllı" şəhərlərə doğru

Sözügedən sənədin diqqətçəkən istiqamətlərindən biri də iqlim dəyişikliklərinin şəhərlərə təsiri ilə bağlıdır. Dünyada temperatur artımı, su qıtlığı, hava çirklənməsi, daşqınlar və digər təbii hadisələr urbanizasiya siyasətinə ciddi təsir göstərir. "Bakı Fəaliyyətə Çağırış" şəhərlərin iqlim narahatlıqlarına qarşı daha davamlı olması üçün "yaşıl" infrastruktura, alternativ enerjiyə, ekoloji nəqliyyata və müasir tikinti standartlarına keçidin sürətləndirilməsinin zəruriliyini diqqətə çatdırır.

Bu baxımdan Azərbaycan son illər "yaşıl" inkişaf strategiyasını sürətlə genişləndirir, eyni zamanda, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası" elan olunması, şəhərlərdə ictimai nəqliyyatın modernləşdirilməsi, ekoloji layihələrin artırılması məsələlərinə ölkənin yeni urbanizasiya siyasətinin mühüm elementləri kimi dəyərləndirir.

"Bakı Fəaliyyətə Çağırış" sənədində iqlim dəyişikliyinin mənzil təhlükəsizliyinə, məhəllələr, şəhərlər və bölgələrdə onsuz da sosial-iqtisadi və ekoloji qeyri-sabitliklə üzləşən icmalara qeyri-mütənasib şəkildə təsir göstərdiyi vurğulanır, tez-tez təkrarlanan daşqınlar, quraqlıqlar, biomüxtəlifliyin itirilməsi, çirklənmə, kəskin istilər və getdikcə pisləşən havanın ictimai sağlamlığa, ekosistemlərə, dolanışıq vasitələrinə, yaşayış üçün rahatlığa, eləcə də ümumi həyat keyfiyyətinə dağıdıcı təsir göstərdiyi bildirilir. Məhz buna görə də WUF13 şəhərsalma forumu olmaqla bərabər, həm də iqlim diplomatiyasının mühüm platforması kimi yüksək dəyərləndirilir və gələcəyin şəhərlərinin bundan sonra yalnız hündür binalarla deyil, həm də ekoloji təhlükəsizlik və sosial harmoniya ilə ölçüləcəyini diqqətə çatdırılır.

"Bakı Fəaliyyətə Çağırış" sənədində ən çox vurğulanan məsələlərdən biri də əlçatan və təhlükəsiz mənzil təminatıdır. Dünyada milyonlarla insanın qeyri-formal yaşayış məntəqələrində yaşaması, kirayə qiymətlərinin getdikcə artması və urbanizasiya nəticəsində sosial təbəqələşmənin güclənməsi qlobal problem kimi təqdim olunur. Bununla bağlı sənəddə mənzil təkcə şəxsin yaşayış yeri kimi deyil, həm də fundamental insan hüququ olması kimi vurğulanır. Bu yanaşma sosial dövlət modelinin gücləndirilməsi və urbanizasiya siyasətinin insan rifahına xidmət etməsi baxımından mühüm önəm daşıyır.

Azərbaycan üçün də bu məsələ aktuallığı ilə diqqət çəkir. Son illərdə sosial mənzil layihələrinin genişləndirilməsi, yeni yaşayış massivlərinin yaradılması, regionlarda infrastrukturun yaxşılaşdırılması ölkənin urbanizasiya siyasətində balanslı inkişaf modelinə üstünlük verdiyini göstərir.

WUF13-ün Bakıda keçirilməsi Azərbaycanın beynəlxalq diplomatik imkanlarını daha da genişləndirdi. Forumda 176 ölkədən 58 mindən çox iştirakçının təmsil olunması, dövlət və hökumət başçılarının, nazirlərin, beynəlxalq təşkilat rəhbərlərinin iştirakı Bakının qlobal dialoq platformasına çevrildiyini nümayiş etdirdi. Bu nəhəng toplantı Azərbaycanın yumşaq güc siyasəti baxımından da mühüm nəticələr doğurdu. Dünya ictimaiyyəti ölkəmizin müasir şəhər infrastrukturu, təşkilatçılıq bacarığı və beynəlxalq əməkdaşlıq imkanları ilə yaxından tanış oldu. Eyni zamanda, forum respublikamızın multikulturalizm, sosial həmrəylik və dayanıqlı inkişaf ideyalarını beynəlxalq auditoriyaya çatdırmaq üçün mühüm platforma rolunu oynadı.

"Bakı Fəaliyyətə Çağırış" sənədində yeni urbanizasiya erasının başlandığı qeyd edilir və gələcəyin şəhərlərinin iqtisadi artımla bərabər, həm də sosial ədalətin və insan təhlükəsizliyinin şərtləndirdiyi məkanlar olması bildirilir. Urbanizasiya prosesinə tikinti və infrastruktur baxımından yanaşmaq da artıq yetərli sayılmır. Çünki müasir şəhərlər insanın sosial həyat şəraitini daha da yaxşılaşdırmalı, ekoloji təhlükəsizliyi qorumalı və sosial inklüzivliyi gerçəkləşdirməlidir. Bakı forumu, bu mənada, qlobal urbanizasiya siyasətində yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir. Azərbaycan isə bu prosesdə yalnız iştirakçı deyil, eyni zamanda, təşəbbüs irəli sürən və qlobal çağırışlara həll yolları göstərən ölkə kimi çıxış edir.

Məhz buna görə də adıçəkilən sənəd təkcə urbanistlərin deyil, həm də siyasətçilərin, iqtisadçıların, ekoloqların və beynəlxalq təşkilatların diqqətlə izləyəcəyi strateji yol xəritəsinə çevrilmək potensialına malikdir. "Bakı Fəaliyyətə Çağırış"ın əsas önəmi isə gələcəyin şəhərlərinin insan üçün qurulması və bunun yalnız kollektiv əməkdaşlıq əsasında mümkün olması mesajını bütün dünyaya çatdırmaqdır.

### Azərbaycan memarlığı dünya ekranında

WUF13-ün paytaxtımızda keçirilməsi Azərbaycanın qlobal urbanizasiya liderliyini daha da möhkəmləndirdi, ölkənin investisiya potensialını bütün dünyaya nümayiş etdirdi və qlobal mənzil böhranının həlli üzrə tarixi "Bakı Fəaliyyətə Çağırış" sənədinin qəbul edilməsi ilə nəticələndi.

COP29-dan sonra WUF13 Azərbaycanın beynəlxalq nüfuzunu daha da artırdı və Bakını dünya şəhərsalma siyasətinin mərkəzinə çevirdi. Xarici investorların respublikamızın enerji, nəqliyyat, rəqəmsal texnologiyalar və "yaşıl" enerji sahələrinə olan marağını gücləndirdi, yerli şirkətlərin qlobal bazara inteqrasiyasına təkan böyük veridi.

Forum çərçivəsində BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) çərçivəsində qlobal mənzil probleminin və dayanıqlı yaşayış məskənlərinin həlli ilə bağlı mühüm qərarlar qəbul olundu. "Bakı şəhərinin Baş Planı – 2040", "ağıllı" şəhər yanaşmaları və Azərbaycanın postmünaqişə ərazilərində tətbiq etdiyi unikal bərpa və urbanizasiya modelləri dünyaya nümayiş etdirildi. Eyni zamanda, Avropa İttifaqı və digər tərəfdaşlarla enerji, infrastruktur və "yaşıl" urbanizasiya sahəsində siyasi dialoq genişləndirildi.

Ekspertlərin sözlərinə görə, WUF13-ə beynəlxalq ictimaiyyətin marağı da son dərəcə böyük idi və bunu qeydiyyatdan keçmiş iştirakçıların sayının rekord həddə olması da bunu sübut edirdi. Bu, təkcə forumun beynəlxalq miqyası ilə bağlı deyildi, eyni zamanda, Azərbaycana qlobal platforma kimi yanaşıldığını və beynəlxalq ictimaiyyətin ölkəmizə olan yüksək etimadını göstərirdi. Başqa sözlə, bu qədər geniş coğrafiyanı əhatə edən iştirakçı tərkibi Bakının artıq dünyanın mühüm siyasi, iqtisadi və humanitar dialoq mərkəzlərindən birinə çevrildiyini bir daha təsdiqləyirdi.

WUF13, təxminən, ilyarım əvvəl Bakının ev sahibliyi etdiyi COP29-dan sonra respublikamızda keçirilən növbəti ən mühüm qlobal platformadır. Bu fakt bir daha göstərir ki, Azərbaycan artıq beynəlxalq diplomatiya, qlobal inkişaf gündəliyi və strateji müzakirələrin aparıldığı etibarlı məkan kimi dünyanın diqqət mərkəzindədir. Əgər COP29 daha çox iqlim dəyişiklikləri, "yaşıl enerji" və ekoloji təhlükəsizlik məsələlərinin müzakirəsi baxımından əhəmiyyət daşıyırdısa, WUF13 urbanizasiya, dayanıqlı şəhər inkişafı, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında müasir şəhərsalma modellərinin gələcəyinə dair qlobal baxışların formalaşdırıldığı mühüm beynəlxalq platforma kimi xüsusi önəm kəsb edir.

Prezident İlham Əliyev sessiyanın açılış mərasimində işğaldan azad edilən ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, orada insanların məşğulluğu məsələsinə xüsusi toxunaraq bildirdi ki, bu gün artıq həmin coğrafiyada 85 mindən çox azərbaycanlı yaşayır. Bu uzun illər həsrətində olduqları yurda qovuşan insanların taleyi, dövlətin öz vətəndaşına verdiyi sözə sədaqəti və Böyük Qayıdış Proqramının real nəticəsidir. Eyni zamanda, Ermənistan tərəfindən 30 ilə yaxın müddətdə viran qoyulan, yerlə-yeksan edilən, tarixi və dini abidələri vandalizmə məruz qalan torpaqlarımızda bu gün yeni həyatın başlanması deməkdir. Başqa sözlə, Azərbaycan dövləti tarixi ərazilərimizdə yalnız dağıdılmış infrastrukturu bərpa etmir, eyni zamanda, tamamilə yeni inkişaf və yaşayış modelini formalaşdırır.

Müasir şəhərsalma prinsipləri, "ağıllı" şəhər və "ağıllı" kənd konsepsiyaları, "yaşıl" enerji infrastrukturu, rəqəmsal idarəetmə sistemi və sosial rifah layihələrinin əsas məqsədi bu bölgələri gələcəyin ən modern yaşayış məkanlarından birinə çevirməkdədir. İnsanların məşğulluğunun təmin olunması da hökumətin qarşısında duran əsas vəzifələrdəndir. Çünki ləyaqətli qayıdış yalnız yaşayış evlərinin tikilməsi ilə məhdudlaşmır.

Hər bir keçmiş məcburi köçkün öz doğma yurdunda işləməli, istehsal sahələri yaratmalı, iqtisadi və sosial həyata tam şəkildə inteqrasiya olunmalıdır. Bu məqsədlə yaradılan sənaye zonaları, aqrar parklar, logistika mərkəzləri və yeni iqtisadi layihələr Qarabağ və Şərqi Zəngəzurun yaxın illərdə regionun mühüm iqtisadi məkanlarından birinə çevriləcəyindən xəbər verir.

***Vaqif BAYRAMOV***
***XQ***

---

# Dövlət məşğulluğun əsas təminatçısıdır

**Müasir dövrdə əmək bazarında baş verən dəyişikliklər, iqtisadi və texnoloji yeniliklər işsizlərin sosial müdafiəsinə yönəlib. Sosial təminat sistemi işsiz vətəndaşın ehtiyaclarının qarşılanması, onun əmək bazarına qayıdışını təmin edən mühüm dövlət mexanizmi kimi çıxış edir. Son illər həyata keçirilən islahatlar çərçivəsində işsiz şəxslərin müdafiəsi istiqamətində mühüm addımlar atılıb. Bu barədə Dövlət Məşğulluq Agentliyinin sədr müavini Ramal Quluzadə XQ-yə bildirdi:**

– "2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası", "Məşğulluq haqqında" Qanun, İşsizlikdən Sığorta Fondunun fəaliyyətə başlaması məşğulluq proqramlarının əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişlənməsinə şərait yaradıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi 2018-2026-cı illərdə fəal məşğulluq tədbirlərinə 2,3 mln. nəfər cəlb edib. Onlardan 872 min nəfər işlə təmin edilib, 59 min nəfər peşə kursuna yönəldilib. Özünüməşğulluq proqramı iştirakçılarının sayı 112 min nəfəri keçib və 2026-cı ildə daha 15 min şəxs bu proqrama qoşulacaq, 1,2 milyon nəfər isə peşəyönümü məsləhət xidmətlərindən faydalanıb.



Qeyd edək ki, 2018-ci ilə nisbətən ötən il işlə təmin olunanların sayı 3,6 dəfə artaraq 51,8 mindən 189 minə, özünüməşğulluq proqramına qoşulanların sayı 2,7 dəfə artaraq 6,3 mindən 16,8 minə, peşə hazırlığına gedənlərin sayı 7,1 dəfə artaraq 2,6 mindən 18,4 minə, peşəyönümü xidmətlərə cəlb edilənlərin illik sayı 3 dəfəyə yaxın artaraq 118,1 mindən 342,7 minə çatıb. Son bir ildə 343 min nəfər əmək bazarının tələblərinə uyğun düzgün peşə seçiminə dəstək məqsədli peşəyönümü xidmətlərlə əhatə olunub.

Bununla yanaşı, keçən il paytaxt və bölgələrimizdə gənclərin peşə seçiminə dəstək olmaq, onların karyera istiqamətində doğru addım atmalarını təmin etmək məqsədilə "Peşə öyrən, gələcəyini qur!" devizi ilə keçirilmiş "PeşəFest" tədbirləri bu il də uğurla davam etdiriləcək. Həmçinin ötən il Bakı və Naxçıvan şəhərlərində ölkəmizdə ilk dəfə olmaqla Gələcəyin Peşələri Sammiti keçirilib. "Gələcəyə tərəf" devizi ilə keçirilmiş bu sammitlərdə əmək bazarında baş verən dəyişikliklər, yeni peşə və bacarıqlarla bağlı tələblər peşəkar mühitdə müzakirə edilib. Bu qəbildən olan tədbirlərimiz mütəmadi olaraq keçirilməkdədir.

Özünüməşğulluq proqramı adından da bəlli olduğu kimi, şəxsin müstəqil surətdə və yaxud dövlətin dəstəyi ilə özünüməşğulluğunun təmin edilməsini ehtiva edir. Prezident İlham Əliyevin tapşırığı ilə icra olunan özünüməşğulluq proqramı işsiz və işaxtaran şəxslərin məşğulluğunun təminatında mühüm rola malik olmaqla, onların kiçik ailə bizneslərini qurmalarına imkan yaradır. Ölkə Prezidentinin bu il yanvar ayında yerli televiziya kanallarına müsahibəsində bildirdiyi kimi, özünüməşğulluq proqramı işsizliyin böyük hissəsini, faktiki olaraq, aradan qaldırır və bu insanlara verilən vasitələrlə onlar öz ailə büdcələrini təmin edə bilərlər.

Müsahibimiz qeyd etdi ki, ötən dövrdə 113 mindən çox, o cümlədən son bir ildə 16,8 min nəfər üçün özünüməşğulluq proqramının dəstəyi ilə kiçik ailə təsərrüfatları yaradılıb. Əsas məqsəd aztəminatlı ailələrə fərdi təsərrüfatlarının təməlini qoymaq və inkişaf etdirmək üçün dəstək göstərməkdən ibarətdir. Bu da, öz növbəsində, dövlət vəsaiti hesabına ailəyə birbaşa natura şəklində mal, material və digər əmlakın verilməsi ilə (nağd vəsait olmamaq şərti ilə) həyata keçirilir. Bu cür aktiv məşğulluq tədbirlərinin genişləndirilməsi və dəstəklənməsi iqtisadiyyatın inkişafı, əlavə dəyərin yaradılması, sahibkarlıq fəaliyyətinin stimullaşdırılması, sahibkarlıq vərdişlərinin aşılanması və işsizlik səviyyəsinin azaldılmasına imkan yaradır.

Özünüməşğulluq proqramı üzrə davamlı olaraq təkmilləşdirilmə və yenilənmə işləri də aparılır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi əmək bazarını araşdırır, kiçik sahibkarlıq potensialı yüksək olan və əmək bazarında tələb olan biznes ideyaları müəyyənləşdirilir. Hazırda proqram çərçivəsində iştirakçılara kənd təsərrüfatı və istehsal-xidmətyönümlü 30-dan çox iqtisadi fəaliyyət sahəsi üzrə aktivlər verilir. Eyni zamanda, təklif edilən digər zərflərdə dəyişiklik edilərək daha da təkmilləşdirilib.



Cari ildə İşsizlikdən Sığorta Fondunun vəsaiti hesabına 8 min, Dünya Bankı layihəsi çərçivəsində 7 min nəfər olmaqla, ümumilikdə, 15 min ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutulub. Özünüməşğulluq proqramının genişlənməsində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dünya Bankının maliyyə dəstəyi ilə icra etdiyi "Məşğulluğa dəstək layihəsi" əhəmiyyətli rola malikdir. Layihə çərçivəsində 26,7 min şəxs üçün kiçik təsərrüfatlar yaradılıb. 2025-2029-cu illəri əhatə edəcək 2-ci mərhələ isə 30 min şəxsə şamil olunacaq.

Şəhid ailələri və müharibə iştirakçılarının məşğulluq məsələlərinin həlli sahəsində görülən işləri diqqətə çatdıran sədr müavini vurğuladı ki, möhtəşəm Zəfərimizlə başa çatan 44 günlük Vətən müharibəsindən sonrakı dövrdə dövlət başçısının tapşırıqları əsasında şəhid ailələri üzvləri və müharibə iştirakçıları ilə bağlı həyata keçirilən genişmiqyaslı sosial dəstək paketinin icrası uğurla davam etdirilir.

Dövlət Məşğulluq Agentliyi postmüharibə dövründə şəhid ailələri üzvləri və müharibə iştirakçıları olan 30 min şəxsin məşğulluğunu təmin edib. Onlardan 13,5 min nəfəri özünüməşğulluq proqramına, 1500 nəfərə qədəri peşə hazırlığı kurslarına cəlb olunub, 15 min nəfəri isə işlə təmin olunub. Hazırda daha 5,5 min nəfərin məşğulluq tədbirlərinə cəlb olunması istiqamətində iş aparılır. Təkcə bu il özünüməşğulluq proqramı çərçivəsində 132 nəfər müharibə veteranı və şəhid ailəsinə biznes planlarına uyğun aktivlər verilib.

Ramal Quluzadənin sözlərinə görə, məşğulluq sahəsində rəqəmsal texnologiyaların tətbiqi Dövlət Məşğulluq Agentliyinin fəaliyyətində mühüm yer tutur. Bu istiqamətdə atılan addımlar vətəndaşlara göstərilən xidmətlərin əlçatanlığını və effektivliyini artırmaqla yanaşı, məşğulluq sahəsində innovativ yanaşmaların tətbiqini dəstəkləyir.

2022-ci ildə istifadəyə verilən "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) rəqəmsal texnologiyaların məşğulluq sahəsində tətbiqinin ən uğurlu nümunələrindən biridir. ƏMAS əmək münasibətlərinin tənzimlənməsi və məşğulluğun təmin edilməsi proseslərində işəgötürənlər və işçilərin, işsiz və işaxtaranların vahid elektron platformada cəmləşməsinə, insan resursları ilə işin təşkilinə və bu sahədə şəffaflığın təmin edilməsinə zəmin yaradan elektron platformadır. Bu e-sistem işçilərlə işəgötürənlər arasında elektron əmək müqavilələrinin bağlanılmasını, rəqəmsal kadr uçotu sisteminin yaradılmasını, əməyin təşkili və mühafizəsində beynəlxalq standartların tətbiqini, işəgötürənlərin zərərli iş yerlərinin attestasiyasını, əməyin hesablanmasını və ödənilməsini təmin edir.

Ümumiyyətlə, işsizlikdən sığorta sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya edilməsinə yönəldilmiş təminat formasıdır və "İşsizlikdən sığorta haqqında" qanunla tənzimlənir. Qanuna müvafiq olaraq əmək münasibətlərinə dövlət orqanı və ya hüquqi şəxs ləğv edildikdə, fiziki şəxs olan işəgötürənin fəaliyyətinə xitam verildikdə; işçilərin və ya dövlət qulluqçularının sayı və ya ştatları ixtisar edildikdə; əmək müqaviləsinin müddəti qurtardıqda; müəssisənin mülkiyyətçisi dəyişdikdə; əvvəllər müvafiq işdə (vəzifədə) çalışan işçinin işinə (vəzifəsinə) bərpa edilməsi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi (qərarı) olduğu halda; əvvəllər həmin müəssisədə və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerində çalışan işçi müddətli həqiqi hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra öz iş yerinə (vəzifəsinə) qayıtmaq hüququndan istifadə etdiyi halda şəxs işsiz kimi qeydiyyata alınıb işsizlikdən sığorta ödənişi almaq hüququna malik olur.

Sığorta ödənişi sığorta stajından asılı olaraq, şəxslərə ya itirilmiş orta aylıq əməkhaqqının 50 faizi məbləğində, ya da minimum əməkhaqqı məbləğində hesablanır. Əmək müqaviləsinin müddətinin qurtarması əsası ilə əmək müqaviləsinə xitam verilən şəxslərə 3 ay, qeyd olunan digər əsaslarla əmək müqaviləsinə xitam verilən şəxslərə isə 6 ay müddətində işsizlikdən sığorta ödənişi təyin edilir.

Əmək müqaviləsinin müddətinin qurtarması əsası ilə əmək müqaviləsinə xitam verilən şəxslər istisna olmaqla, digər əsaslarla 6 ay müddətində işsizlikdən sığorta ödənişi təyin olunmuş şəxsin müvafiq müddət ərzində sığorta ödənişini alıb qurtardıqdan sonra həmin sığorta hadisəsi üzrə bir dəfə təkrar müraciət edərək 3 ay müddətində minimum əməkhaqqı məbləğində təkrar sığorta ödənişi almaq hüququ var.

Qeyd olunan əsaslarla əmək müqaviləsinə xitam verilən şəxslər işsizlikdən sığorta ödənişinin təyin olunması ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin regional məşğulluq filialları və ya DOST Agentliyinin DOST mərkəzlərinə müraciət edə bilərlər.

***Mustafa KAMAL***
***XQ***

# Ana dili milli kimliyimizin aynası, əbədi varlığımızdır





**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetində Elm və Təhsil Nazirliyi, AMEA və Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə "Ana dili: kimlik və gələcək" mövzusunda respublika konfransı keçirilib.**

Açılış mərasimində iştirakçıları salamlayan və məclisin işinə uğur arzulayan ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirib ki, ana dilimizin qorunması və gələcək nəsillərə ötürülməsi hər bir alim, müəllim və tədqiqatçının zəruri vətəndaşlıq borcudur. Ana dilini sevən və dərindən bilən müəllimlərin isə milli dəyərlərə bağlı, vətənpərvər vətəndaş yetişdirməkdə rolu daha böyükdür. ADPU-da tədris və tərbiyənin aparıcı yönünü bu tələbin yüksək səviyyədə cavablandırılması təşkil edir.

AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Azərbaycan dilinin saflığının qorunmasında nitq mədəniyyətinin xüsusi rolunu vurğulayıb, bütün sahələrində ədəbi dil normalarına riayət edilməsinin vacibliyini qeyd edib. O, AMEA-da müstəqillik dövrünün prinsipləri əsasında Azərbaycan dilinin qrammatikasının yeni konseptual model üzrə hazırlanması istiqamətində işlərin davam etdirildiyini söyləyib.

Elm və təhsil nazirinin müavini Firudin Qurbanov ana dilinin dövlətçilik, milli kimlik və mədəni təhlükəsizlik baxımından strateji önəmini xatırladaraq qeyd edib ki, bu, yalnız dil məsələsi deyil, həm də məfkurəvi özünüdərk, mənəvi dəyərlərin yaşadılması və cəmiyyətin gələcəyi ilə bağlı ümummilli mübarizədir.

ADPU-nun prorektoru, professor Mahirə Hüseynova isə Azərbaycan dilinin milli kimliyin formalaşmasında mühüm rolundan danışıb, dilçilik sahəsində mövcud məsələlərin həllində gənc tədqiqatçıların elmi fəaliyyətinin əhəmiyyətindən söz açıb.

Çıxışlarda Prezident İlham Əliyevin rəhbərliyi ilə ana dilinin qorunması, inkişaf etdirilməsi və beynəlxalq müstəvidə təbliği istiqamətində həyata keçirilən ardıcıl dövlət siyasətinin tələblərinə diqqət yetirilib. Qeyd olunub ki, bu istiqamətdə həyata keçirilən məqsədyönlü tədbirlər Azərbaycan dilinin saflığının qorunmasına, norma və qaydalarına riayət olunmasına, eləcə də rəqəmsal mühitdə mövqeyinin gücləndirilməsinə xidmət edir.

Konfrans panel müzakirələrində ana dilinin milli kimliyin formalaşmasındakı rolu, ümummilli ünsiyyət vasitəsinin qorunması və zənginləşdirilməsinin aktual məsələləri və rəqəmsal keçid dövründə dövlət dilinin nüfuzunun və işləkliyinin yüksəldilməsi ilə bağlı geniş fikir mübadiləsi aparılıb.

***T.RÜSTƏMLİ***
***XQ***

*Beynəlxalq həyat*




**Ukrayna son aylarda Rusiya ordusunun ən genişmiqyaslı hücumlarından birinə məruz qalıb. Rusiyanın rəsmi mənbələri bildirirlər ki, "Kiyevin Federasiyasının mülki hədəflərinə qarşı terror hücumlarına cavab olaraq, Rusiya Silahlı Qüvvələri Ukrayna hərbi komandanlığının obyektlərinə qarşı "Oreşnik", "İsgəndər", "Kinjal" və "Sirkon" raketlərindən istifadə edərək genişmiqyaslı birləşmiş hücum həyata keçirib". Rusiya Müdafiə Nazirliyinin (MN) açıqlamasına görə, hədəflər məhv edilib.**

Bəyanatda həmçinin bildirilir ki, düşmən hədəflərini məhv etmək üçün hava, dəniz və quru əsaslı qanadlı raketlərdən, eləcə də hücum PUA-larından istifadə edilib. Zərbələr Ukraynadakı hava bazalarını və müdafiə sənayesi obyektlərini hədəf alıb.

Ukrayna mənbələri isə bunun əksinə olaraq Rusiya hərbi qüvvələrinin yaşayış məntəqələrini atəşə tutduğunu, ölənlərin, onlarla yaralıların olduğunu xəbər verir. Bu kütləvi hücum nəticəsində Xarkov, Dnepr və Kiyevdə aramsız partlayışlar baş verib. Təkcə Dneprdə səkkiz nəfər həlak olub, 50-dən çox mülki şəxs yaralanıb.

Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, gecə yarıdan keçəndən sonra Rusiyanın Tu-95 strateji bombardmançı təyyarələri Ukrayna ərazisindən uzaqda, Xəzər dənizi üzərindən qanadlı raketlər atıblar. Raketlər Ukraynaya yaxınlaşan ərəfədə Rusiya tərəfi əlavə olaraq dronlar və ballistik raketlərlə hücumun ikinci dalğasına başlayıblar ki, hava hücumundan müdafiə sistemini müxtəlif növ silahların kombinasiyası ilə sıradan çıxarsınlar. Ukrayna Hərbi Hava Qüvvələrinin məlumatına görə, Rusiya bu ölkə ərazisinə ümumilikdə 610 dron və 47 raket atıb.

Ukraynanın, demək olar ki, hər bölgəsində hava hücumu xəbərdarlıqları siqnalları eşidilib. Prezident Volodimir Zelenski Rusiyanın bombardmanlarının, demək olar ki, bütün gecə davam etdiyini və əsasən şəhər infrastrukturunu hədəf aldığını bildirib.

Dnepropetrovsk Regional Hərbi Administrasiyasının (OVA) rəhbəri Aleksandr Qanja bildirib ki, "hücumların əsas hədəfi ölkənin cənub-şərqindəki böyük Dnepr şəhəri olub, lakin digər bölgələrə də zərər yetirilib. Dneprdə raket düşmüş binanın dağıntıları altından beş qurbanın cəsədi çıxarılıb və sonrakı hücumlarda daha üç nəfər həlak olub".

Rusiyanın hücumlarını şərh edən xarici media mənbələri yazırlar ki, Moskvanın öz raket zərbəsini, Ukraynanın onun ərazisinə atəş açmasına cavab olaraq "qisas" kimi təqdim etdiyi bugünkü hücumu iki hissəyə bölmək olar. Birincisi, Belıy Çerkvaya "Oreşnik" ballistika raketi ilə hücumu idi. Ukrayna hərbi mənbələri bu hücumun qaraj kooperativinə endirildiyini iddia edir. Rusiyaya isə zərbənin aerodroma endirdiyini bildirir. "Əlbəttə, dəqiq hara zərbə endirilməsinin əhəmiyyəti yoxdur, çünki raketin partlayıcı yükü yox idi. Bu, həm Kiyevə, həm də Avropaya "Oreşnik" raketinin istənilən hava hücumundan müdafiə sistemini keçə biləcəyinə və nüvə başlıqları ilə silahlanarsa, böyük dağıntıya səbəb ola biləcəyinə dair ciddi siqnaldır. Ukrayna informasiya mənbələri "Oreşnik"in zərbəsini "üç qaraja saxta raketlərlə mənasız hücum" kimi təqdim etsə də, Rusiyanın davamlı təhdidləri fonunda, Avropa hakimiyyətinin bu qiymətləndirməni bölüşüb-paylaşdığı dəqiq deyil.

İkinci aspekt, Kiyevə zərbədir. Ukraynanın monitorinq ictimai qrupları hava hücumundan müdafiə sisteminin bu zərbələri uğurla dəf edə bilmədiyini və birdən çox raketin hədəfə düşdüyünü etiraf edirlər. Hətta Ukrayna Hərbi Hava Qüvvələri Komandanlığının rəsmi məlumatlarına görə, hava hücumundan müdafiə (HHM) qüvvələri heç bir "Kinjal" və ya "Sirkon" raketini vura bilməyiblər. 30 "İsgəndər" ballistik raketindən isə yalnız 11-i vurulub.

Artıq açıq müzakirə olunan səbəb, ABŞ-ın silah ehtiyatlarını tükəndirən İranla müharibə ilə daha da ağırlaşan Amerika HHM sistemləri üçün raket çatışmazlığıdır. Əvvəllər paytaxt hava hücumundan müdafiə sistemi sayəsində sıx raket zərbələrindən yaxşı qorunmuş hesab olunurdu. Rusların Kiyevə tez-tez genişmiqyaslı hücumlar etməməsinin əsas səbəblərindən biri də bu idi - raketlərin əksəriyyəti vurulduğu üçün bu, çox baha başa gəlirdi. Amma indi vəziyyət dəyişir.

Əgər HHM vasitələrinin çatışmazlığı aradan qaldırılmasa, Kremlin Ukraynanın Rusiya arxa cəbhəsinə etdiyi pilotsuz təyyarə hücumlarına görə "qisas" kimi təqdim edəcəyi paytaxta edilən bu cür hücumlar daha tez-tez təkrarlana bilər.

Mənbələr bildirirlər ki, Rusiya Prezidenti Vladimir Putinin Rusiya Müdafiə Nazirliyinə 18 nəfərin ölümünə səbəb olan Starobelskdəki kollec yataqxanasına hücuma "cavab hazırlamağı" əmr etmişdi və genişmiqyaslı hücum məhz bu hadisədən sonra həyata keçirilib. Təbii ki, Ukrayna rəsmiləri mülki şəxsləri hədəf aldıqlarını inkar edirlər. Kimin haqlı, kimin haqsız olduğunu ayırd etmək elə də asan məsələ deyil. Lakin Ukraynanın öz ərazi bütövlüyünü və suverenliyini müdafiə etməsi faktı ortada olduğu müddətdə, Kiyevin haqlı tərəf olaraq qəbul ediləcəyi şübhəsizdir.

Bu üzdən də Qərb rəsmiləri bu məsələdə Rusiyanın hücumlarına sərt reaksiya verirlər. Elə haqqında danışdığımız Rusiya hərbi qüvvələrinin son kütləvi raket zərbələrindən sonra bu səpkidə reaksiyalar media səhifələrində və sosial şəbəkələrdə geniş yer alıb. Məsələn, Almaniya hökuməti Moskvanın hücum zamanı "Oreşnik" ortamənzilli ballistik raketindən istifadə etməsindən sonra Rusiyanın Ukraynaya qarşı müharibədə "ehtiyatsızcasına eskalasiyasını" qətiyyətlə pisləyib. Almaniya kansleri Fridrix Merts bazar günü, mayın 24-də sosial mediada yazıb ki, 24 may gecəsi Rusiya "Ukraynadakı mülki hədəflərə kütləvi zərbələr endirib. "Oreşnik" raket sistemi yenidən istifadə edilib. Almaniya həmişə olduğu kimi, qətiyyətlə Ukraynanın tərəfindədir".

Almaniya xarici işlər naziri İohann Vadeful da, öz növbəsində, qeyd edib ki, "Rusiyanın raket terroru şokedicidir". Almaniya xarici işlər naziri, həmçinin Rusiyanın "Oreşnik" raket sistemindən istifadəsini "növbəti eskalasiya" adlandırıb. "Bu, NATO Xarici İşlər Nazirlərinin görüşündə irəli sürülən təklifləri ardıcıl olaraq irəli sürmək əzmimi gücləndirir. Yalnız güclü Ukrayna Putini güzəştə getməyə inandıra bilər", - deyə İohann Vadeful mövqeyini bu fikirlə yekunlaşdırıb.

Fransa prezidenti Emmanuel Makron da Moskvanın hücumunu pisləyib. Onun fikrincə, bu addım "ilk növbədə Rusiyanın təcavüzkar müharibəsində eskalasiyanı və çıxılmaz vəziyyəti göstərir". Fransa lideri həmçinin Parisin Ukraynanı dəstəkləmək öhdəliyini bir daha təsdiqləyib.

Makronun bu açıqlamasından dərhal sonra Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova bildirib ki, Fransa prezidenti Emmanuel Makron Kiyevi dəstəkləməklə terrorizmi maliyyələşdirdiyini başa düşmək üçün fransız jurnalistlərindən Starobilskdən görüntülər istəməlidir. "Qoy Makron hazırda Starobilskdə olan fransız jurnalistlərindən ona bombalanmış kollecin və iyirmi dörd ölən uşağın görüntülərini göstərmələrini xahiş etsin - bəlkə də bu, onun terrorizmi maliyyələşdirdiyinə inamını gücləndirəcək", - deyə o, TASS agentliyinə açıqlamasında bildirib.

Aİ-nin Xarici İşlər və Təhlükəsizlik Siyasəti üzrə Ali Nümayəndəsi Kaya Kallas da, öz növbəsində, Moskvanın nüvə başlıqları daşımaq üçün nəzərdə tutulmuş "Oreşnik" raketindən istifadəsini siyasi hədə-qorxu və məsuliyyətsiz nüvə şantajı adlandırıb.

Yeri gəlmişkən, bu, müharibə başlayandan bəri Rusiyanın "Oreşnik" ortamənzilli ballistik raketi ilə Ukraynaya üçüncü hücumudur. Moskva bu raketdən 2024-cü ildə və 2026-cı ilin yanvar ayında istifadə edib, lakin hər iki halda raketin nüvə başlığı, partlayıcı maddəsi olmayıb, saxta başlıqlar daşıyıb. Onu da bildirirlər ki, raket Həştərxan bölgəsindəki "Kapustin Yar" sınaq poliqonundan buraxılıb. Mövcud məlumatlara görə, "Oreşnik" hər biri fərdi sursatla təchiz olunmuş altı başlıq daşıyır, hər başlıqda da 6 ayrıca başlıq var - cəmi 36 başlıq.

Baş verənlər onu göstərir ki, Rusiya–Ukrayna müharibəsi uzandıqca, onun Avropa ölkələrinə sıçraması da ciddi narahatlıq doğurur. Hadisələr bu səmtdə davam edərsə, bunda daha çox Avropa günahkar olacaq. Politoloq Aleks Krayner bu günlərdə "YouTube"a müsahibəsində bildirib ki, Avropa İttifaqı Ukraynadakı münaqişəni uzatmağa çalışır, çünki Rusiya ilə təkbaşına yeni müharibəyə başlaya bilməyəcək. Onun sözlərinə görə, "tamamilə yeni bir müharibəyə sıfırdan başlamaq Avropa üçün daha çətin olacaq. Buna görə də avropalılar Ukraynanı mübarizədə saxlamaq üçün çox səy göstərirlər".

Amma Avropa İttifaqı uzun müddət sülh danışıqlarına ortaq olmaqdan uzaq durub, daha çox bu prosesin pozulmasında maraqlı görünsə də, indi vəziyyət dəyişməyə doğrudur.

Çünki son günlər Qərb dövlətləri də artıq müharibənin başa çatmasına aparan yolun kompromisdən keçdiyini anlamağa başlayıblar və mətbuata sızan məlumatlardan aydın görünür ki, sülh təşəbbüsünün ABŞ-dan onların nəzarətinə keçməsinə çox can atırlar. Bu tendensiya Rusiya Prezidenti Vladimir Putinin mayın 9-da jurnalistlərə açıqlamasında bildirdiyi "müharibə sona yaxınlaşır, Moskva danışıqlara hazırdır" fikrindən sonra daha ciddi qəbul olunmağa başlanıb. Çünki Putin müharibəyə son qoymaq üçün danışıqlarda Aİ-nin mümkün iştirakını da istisna etməyib.

Jurnalistlərdən biri Putinin Qərbi Avropada dialoq apara biləcəyi siyasətçilərin olub-olmadığına inanıb-inanmadığını soruşanda, Rusiya prezidenti bildirib ki, "şəxsən mənim üçün keçmiş Almaniya kansleri cənab Şröder daha üstündür". Lakin Putinlə dostluğu olan keçmiş Almaniya kansleri Gerhard Şröder Avropa İttifaqı üçün məqbul namizəd sayılmır.

Alman nəşrləri yazırlar ki, Putinin Gerhard Şröderi danışıqlar apara biləcək şəxs kimi qeyd etməsi təəccüblü deyil. 1998-ci ildən 2005-ci ilə qədər Almaniya kansleri vəzifəsində çalışan alman siyasətçi istefasından sonra dəfələrlə Rusiya ilə bağlı layihələrdə iştirak edib. Şröder "Şimal axını" layihəsinin operatorunun direktorlar şurasına, eləcə də "Rosneft"in direktorlar şurasına sədrlik edib.

Alman mediası Şröderi Putinin yaxın dostu və Rusiyanın Almaniyadakı maraqlarının lobbiçisi kimi təsvir edib və qeyd edib ki, eks-kansler, həmçinin Rusiyanın Ukraynaya qarşı müharibəsi zamanı Moskvayönlü mövqe tutub. 2026-cı ilin yanvarında "Berliner Zeitung" qəzetinə verdiyi şərhdə Rusiyanın "iblisləşdirilməsini", tənqid edən Şröder Rusiyanın "əlverişli enerji" təchizatçısı rolunun bərpa olunmasını müdafiə edib.

Amma buna baxmayaraq, Putinin bəyanatı Avropa liderlərini müharibəyə son qoymaq üçün danışıqlar masasında otura biləcək namizəd axtarışına başlamağa səfərbər edib. Belə ki, bu günlərdə "Helsingin Sanomat" qəzeti məlumat yayıb ki, Avropa İttifaqı Finlandiya Prezidenti Aleksandr Stubbu Rusiya ilə danışıqlar aparan şəxs kimi nəzərdən keçirir. Xəbərdə açıqlanır ki, "Avropa hazırda Ukrayna-Rusiya müharibəsinə son qoymaq üçün Moskva ilə yüksək səviyyəli siyasi danışıqlara başlamağa ciddi şəkildə hazırlaşır. Potensial sülh danışıqları üçün nümayəndə axtarışı ilə əlaqədar Finlandiya prezidentinin adı fəal şəkildə müzakirə olunur".

Aleksandr Stubbun bu fikrə reaksiyası özünü çox gözlətməyib. "Əgər məndən soruşulsa, bu, yəqin ki, mənfi cavablandırılması mümkün ola bilməyən bir sualdır", - deyə Finlandiya prezidenti bildirib. Stubb həmçinin vurğulayıb ki, o, bu cür danışıqları yalnız Rusiya atəşkəsə razılaşdıqdan sonra aparmağa razı olacaq.

Bir müddət əvvəl Ukrayna Prezidenti Volodimir Zelenski də Avropanın Rusiya ilə sülh danışıqlarında öz nümayəndəsinin olmasının vacibliyini bildirmişdi. Mənbələr yazırlar ki, proses ilkin mərhələdədir və hələlik yekun qərar qəbul edilməyib. "Financial Times" nəşri isə Aİ xarici işlər nazirlərinin Kiprdə keçiriləcək görüşündə Rusiya ilə mümkün danışıqlar üçün namizədləri müzakirə etmək niyyətində olduqlarını bildirmişdi. Nəşr hələ mayın 20-də öz mənbələrinə istinadən xəbər vermişdi ki, AB keçmiş Avropa Mərkəzi Bankının Prezidenti Mario Draqinin və ya keçmiş Almaniya kansleri Angela Merkelin Rusiya Prezidenti Vladimir Putinlə mümkün danışıqlarda onları təmsil edib-etməməsi məsələsini müzakirə edir.

Bütün bunlara baxmayaraq, toplar nə qədər ki, susmayıb, nə qədər ki, hər iki tərəfdən günahsız insanlar həlak olur, siyasi demoqoqiyaya heç cürə haqq qazandırmaq mümkün deyil. Diplomatiyanın vaxtı çoxdan çatıb.

***İlqar RÜSTƏMOV,***
***XQ-nin siyasi analitiki***

# Rustavidə müstəqillik günləri şənliyi



**Mayın 24-də Rustavi Təhsil və Mədəniyyət Mərkəzində Gürcüstanın və Azərbaycanın Müstəqillik günlərinə həsr olunmuş tədbir keçirilib. Toplantıda mərkəzin müəllim və şagird heyəti, valideynlər, Rustavidə və yaxın ətrafda yaşayan ziyalılar iştirak ediblər. Hər iki ölkənin Dövlət himnləri səsləndirilib.**

Tədbiri giriş sözü ilə mərkəzin direktoru Raidə Dərziyeva açıb. "26 may və 28 may tarixləri gürcü və Azərbaycan xalqları üçün çox önəmli tarixlərdən biridir. Təntənəli şəkildə bayram kimi qeyd etdiyimiz bu iki gündə iki dost və qardaş xalq ilk dəfə tam müstəqil olaraq demokratik və azad respublika qurmuşlar. İnanırıq ki, 108 il öncə böyük itkilər və gərgin mübarizələr nəticəsində əldə olunmuş azadlığımız və müstəqilliyimiz dünya durduqca əbədi olacaqdır", - deyə Raidə Dərziyeva bildirib.

Tədbirdə çıxış edən şair-publisist Rafiq Hümmət, Borçalıda yaşayan ziyalılardan Bəhram İsayev, Savalan Osmanlı, Mədinə Həsənova, Ülviyyə Veysəlova, Vüsalə Rəhimova, Alidə Kazımova, Svetlana İsayeva, Nurlana Məmmədova və başqaları çıxışlarında 26 may – Gürcüstanın, 28 may - Azərbaycan Respublikasının Müstəqillik günləri ilə bağlı ürək sözlərini söyləyib, təbriklərini çatdırıb.



Daha sonra mərkəzin şagirdləri tərəfindən musiqili-ədəbi kompozisiya təqdim olunub, gürcü və Azərbaycan dillərində şeirlər səsləndirilib, mahnılar ifa olunub. Şagirdlərin ifa etdikləri Azərbaycan və gürcü milli rəqsləri də iştirakçılar tərəfindən alqışlarla qarşılanıb.

Toplantı çay süfrəsi arxasında davam edib.

***Paşa ƏMİRCANOV***
***XQ***

*Göygöl xəbərləri*

# Türkiyə heyəti ilə görüş



**Göygöl Rayon İcra Hakimiyyətində rayonda səfərdə olan Türkiyə Cümhuriyyətinin Sakarya Vilayəti Gənclər və İdman İdarəsinin müdir müavini Ercan Gündoğrunun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Söhbət zamanı Azərbaycan ilə Türkiyə arasında mövcud olan qardaşlıq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb. Görüşdə gənclər və idman sahəsində əməkdaşlığın daha da genişləndirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin təşkili, ortaq layihələrin həyata keçirilməsi və birgə fəaliyyət istiqamətləri ətrafında fikir mübadiləsi aparılıb.

Qonaqlara Göygöl rayonu barədə ətraflı məlumat verilib, qarşılıqlı əməkdaşlığın gələcəkdə də uğurla davam etdiriləcəyinə əminlik ifadə olunub.

# Rumıniya səfirinin səfəri



**Rumıniyanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Vasile Soarenin rəhbərlik etdiyi nümayəndə heyəti Göygöl rayonunda səfərdə olub.**

Rayon icra hakimiyyətində keçirilən görüşdə icra başçısı Vüqar Novruzov Azərbaycan ilə Rumıniya arasında dostluq və əməkdaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulayıb, rayonun tarixi və xarici əməkdaşlıq imkanları barədə məlumat verib.

Görüşdə qeyd olunub ki, belə səfərlər xalqlar arasında dostluq münasibətlərinin daha da möhkəmlənməsinə və qarşılıqlı anlaşmanın inkişafına töhfə verir. Söhbət zamanı humanitar əlaqələr qurulması ətrafında fikir mübadiləsi aparılıb.

Səfər zamanı qonaqlar Göygöl şəhərində yerləşən qəbiristanlıqda İkinci Dünya müharibəsi dövründə burada dəfn edilmiş rumın hərbi əsirlərinin məzarları ziyarət edilib.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

## "Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi əmlakların müsabiqə yolu ilə satışının keçirilməsi barədə

# ELAN

**Müsabiqəyə çıxarılan əmlaklar barədə məlumat**

1. Gəncə şəhəri, Nizami rayonu, Heydər Əliyev prospekti, ev 391 ünvanında yerləşən 2000 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 2.040.000,00 (iki milyon qırx min) manat.
2. Abşeron rayonu, Xırdalan şəhəri, H.Əliyev prospekti 167 ünvanında yerləşən 1625.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 1.530.000,0 (bir milyon beş yüz otuz min) manat.
3. Şəki rayonu, Daşüz kəndində yerləşən, kənd təsərrüfat təyinatlı 500 ha torpaq sahəsi (örüş yeri) üzərində icarə hüququ. Əmlak yüklü deyil.
Start qiymət – 346.000,0 (üç yüz qırx altı min) manat.
4. Şəki şəhəri, Salman Mumtaz küçəsində 7,3 ha sahəsi (yaşayış məntəqələrinin torpaqları). Əmlak yüklü deyil.
Start qiymət – 795.000,0 (yeddi yüz doxsan beş min) manat.
5. Şəki şəhəri, Salman Mumtaz küçəsində 7,1 ha sahəsi (yaşayış məntəqələrinin torpaqları). Əmlak yüklü deyil.
Start qiymət – 770.000,0 (yeddi yüz yetmiş min) manat.
6. Şəki şəhəri, Salman Mumtaz küçəsində 29,8 ha sahəsi (yaşayış məntəqələrinin torpaqları). Əmlak yüklü deyil.
Start qiymət – 3.235.000,0 (üç milyon iki yüz otuz beş min) manat.
7. Abşeron rayonu, Qobu qəsəbəsində yerləşən 3,8666 ha torpaq sahəsi (kənd təsərrüfatı təyinatlı torpaqlar). Əmlak yüklü deyil.
Start qiymət – 657.050,00 (altı yüz əlli yeddi min əlli) manat.
8. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 201C ünvanında yerləşən 242.3 kv.m sahədən ibarət qeyri yaşayış-sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 390.103,00 (üç yüz doxsan min bir yüz üç) manat.
9. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 195X ünvanında yerləşən 60.9 kv.m sahədən ibarət qeyri yaşayış-sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 102.312,00 (bir yüz iki min üç yüz on iki) manat.
10. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 197B ünvanında yerləşən 214.8 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 345.828,00 (üç yüz qırx beş min səkkiz yüz iyirmi səkkiz) manat.
11. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 199B ünvanında yerləşən 61.7 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 103.656 (bir yüz üç min altı yüz əlli altı) manat.
12. Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, giriş 199D ünvanında yerləşən 68.6 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlak yüklü deyil.
Start qiymət – 115.248,00 (bir yüz on beş min iki yüz qırx səkkiz) manat.
13. Bakı şəhəri Nərimanov rayonu, Əliyar Əliyev küçəsi 65, bina 3 ünvanında yerləşən 418.1 kv.m və 244.1 kv.m sahədən ibarət 2 qeyri-yaşayış sahəsi bir lot üzrə. Əmlaklar yüklü deyil.
Start qiymət müvafiq olaraq - 750.000,0 (yeddi yüz əlli min) manat və 384.458,00 (üç yüz səksən dörd min dörd yüz əlli səkkiz) manat.
14. Bakı şəhəri Nəsimi rayonu, Bəşir Səfəroğlu küçəsi,174 ünvanında yerləşən 493.9 kv.m sahədən ibarət qeyri-yaşayış sahəsi. Əmlaklar yüklü deyil.
Start qiymət – 1.880.000,00 (bir milyon səkkiz yüz səksən min) manat
15. Bakı şəhəri Nərimanov rayonu, Sabit Rəhman küçəsi, ev 68c ünvanında yerləşən, 176.1 kv.m sahədən ibarət fərdi yaşayış evi. Əmlaklar yüklü deyil.
Start qiymət – 380.000,00 (üç yüz səksən min) manat

Ərizələrin qəbulunun başlanma və bitmə tarixi: 26.05.2026-cı il, saat 10:00 – 19.06.2026-cı il, saat 16:00-dək
Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı: 24.06.2026-cı il, saat 11:00
Müsabiqənin keçirildiyi ünvan: Azərbaycan Respublikası Maliyyə Nazirliyi, AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135
Əmlaka, onun növü və parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti: 26.05.2026-cı il tarixdən 19.06.2026-cı il tarixədək, həftənin 3 və 5-ci günləri, "Aqrarkredit" QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 ünvanında baxılmalıdır.
Əlaqələndirici şəxs: Şahin Seyidov 050-235-99-90
Əhəd Vəhədzadə 050-374-27-27

**İddiaçılar qarşısında irəli sürülən şərtlər**

1. İddiaçı tərəfindən əmlakın elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən əmlakı almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır;
2. İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə əmlak üçün təklif olunan məbləğ aydın şəkildə rəqəm və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə "Aqrarkredit" QSC-yə təqdim edilməlidir;
3. Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər;
4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılır;
5. Müsabiqə zamanı əmlakın start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar əmlak üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edir. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir;
6. Müsabiqənin qalibi əmlakın dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

**Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər**

1. İddiaçının ərizəsi (Ərizə forması "Aqrarkredit" QSC tərəfindən veriləcək);
2. İddiaçının şəxsiyyətini təsdiq edən sənəd;
3. Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə);
4. İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz;
5. Etibarnamə (nümayəndə iştirak etdikdə);
Qeyd: İddiaçı hüquqi şəxs olduqda-(Dövlət qeydiyyatı haqqında şəhadətnamə, Nizamnamə, Qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti);
Beh ödənilməsi üçün bank rekvizitləri
Kodu: 501587
VÖEN: 1300025711
SWIFT BIC: ACJTAZ22
Ünvan: Bakı şəhəri, AZ 1006 Qədirli küçəsi 125
M/H Mərkəzi Bankda: AZ45NABZ 01350 1000 000 000 35944
H/H: AZ67ACJT45019192794010094401



## "İmişli Avtonəqliyyat" ASC-nin 2024-cü il dekabrın 31-nə maliyyə hesabatı

| Bölümün | | Qeydlərə | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|---|---|
| | **AKTİVLƏR** | | | |
| 1 | **Uzunmüddətli aktivlər** | | | |
| 10 | Qeyri maddi aktivlər | | - | - |
| 11 | Torpaq, tikili və avadanlıqlar | | 96.984,00 | 96.984,00 |
| 12 | Daşınmaz əmlaka investisiyalar | | - | - |
| 13 | Bioloji aktivlər | | - | - |
| 14 | Təbii sərvətlər | | - | - |
| 15 | İştirak payı metodu ilə uçota alınmış | | - | - |
| 16 | Təxirə salınmış vergi aktivləri | | - | - |
| 17 | Uzunmüddətli debitor borcları | | - | - |
| 18 | Sair uzunmüddətli maliyyə aktivləri | | - | - |
| 19 | Sair uzunmüddətli aktivlər | | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | ***96.984,00*** | ***96.984,00*** |
| | | | | |
| 2 | **Qısamüddətli aktivlər** | | | |
| 20 | Ehtiyatlar | | - | - |
| 21 | Qısamüddətli debitor borcları | | 49.691,00 | 49.691,00 |
| 22 | Pul vəsaitləri və onların ekvivalentləri | | 1,00 | 2,00 |
| 23 | Sair qısamüddətli maliyyə aktivləri | | - | - |
| 24 | Sair qısamüddətli aktivlər | | - | - |
| | **CƏMİ QISAMÜDDƏTLİ AKTİVLƏR** | | ***49.692,00*** | ***49.693,00*** |
| | **CƏMİ AKTİVLƏR** | | **146.676,00** | **146.677,00** |
| | | | | |
| | **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| 3 | **KAPITAL** | | | |
| 30 | Ödənilmiş nominal (Nizamnamə) kapital | | 142.899,00 | 142.899,00 |
| 31 | Emissiya gəliri | | - | - |
| 32 | Geri alınmış kapital (səhmlər) | | - | - |
| 33 | Kapital ehtiyatları | | 1.905,00 | 1.965,00 |
| 34 | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş | | | |
| | **CƏMİ KAPİTAL** | | **144.804,00** | **144.864,00** |
| | | | | |
| | **ÖHDƏLİKLƏR** | | | |
| 4 | **Uzunmüdətli öhdəliklər** | | | |
| 40 | Uzunmüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| 41 | Uzunmüdətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| 42 | Təxirə salınmış vergi öhdəlikləri | | - | - |
| 43 | Uzunmüddətli kreditor borcları | | - | - |
| 44 | Sair uzunmüddətli öhdəliklər - məqsədli | | - | - |
| | **CƏMİ UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | - | - |
| | | | | |
| 5 | **Qısamüddətli öhdəliklər** | | | |
| 50 | Qısamüdətli faiz xərcləri yaradan öhdəliklər | | - | - |
| 51 | Qısamüdətli qiymətləndirilmiş öhdəliklər | | - | - |
| 52 | Vergi və sair məcburi ödənişlər üzrə | | 1.212,00 | 1.077,00 |
| 53 | Qısamüddətli kreditor borcları | | 660,00 | 736,00 |
| 54 | Sair qısamüddətli öhdəliklər | | - | - |
| | **CƏMİ QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | ***1.872,00*** | ***1.813,00*** |
| | **CƏMİ ÖHDƏLİKLƏR** | | **1.872,00** | **1.813,00** |
| | **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | **146.676,00** | **146.677,00** |
| | | | - | - |

**MÜSTƏQİL AUDİTORUN HESABATI**
**"İmişli Avtonəqliyyat" ASC-nin Sədri cənab Z.İsmayılova**
**Rəy**

Mən "İmişli Avtonəqliyyat" ASC-nin (bundan sonra Cəmiyyət) 01 yanvar 2024-cü il tarixdən 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti, mənfəət və ya zərərlər və digər məcmu gəlir, kapitalda dəyişikliklər və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatlarından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə həsabatlarna edilən izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini apamışam.

Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 01 yanvar 2024-cü il tarixdən 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatlarına (MHBS) uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə düzgün əks etdirir.

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblərin Etika Məcəlləsinin tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (MHBS) uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyətdən ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativi olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin İdarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər, Cəmiyyətin maliyyə hesabatlarının təqdimetmə prosesinə nəzarətə görə məsuliyyə daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim təqdim edilmiş maliyyə hesabatlarında, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-a uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**"RM Audit" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru-Audit Partnyoru Miriyev Rasət Abasət oğlu.**
**Bakı, Azərbaycan Respublikası, 06 may 2025-ci il**



## Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

*fəlsəfə doktoru hazırlığı ilə əlaqədar aşağıdakı ixtisaslar üzrə doktotanturaya (büdcə hesabına)*

# QƏBUL ELAN EDİR

2426.01 - "Ekologiya (elm sahələri üzrə)" - 1 yer
3305.03 - "İnşaat konstruksiyaları, bina və qurğular" - 1 yer
6405.01 - "Şəhərsalma, yaşayış məntəqələrinin planlaşdırılması və landşaft memarlığı" - 1 yer

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul üçün instituta aşağıdakı sənədlər təqdim edilməlidir:
- elmi müəssisənin rəhbərinin adına ərizə;
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- iş yerindən xasiyyətnamə;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun notarial qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması ilə bağlı şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti;
- xarici dil bilikləri üzrə beynəlxalq sertifikatın surəti (IELTS, TOEFL, Test-Daf, DELF, DALF, STANAG, Cambridge English Qualifications – olduğu halda).

Ali təhsil pilləsinin doktorantura səviyyəsinə sənəd qəbulu prosesi elektron qaydada portal.edu.az vasitəsilə 19 may 2026-cı il saat 11.00-dan 9 iyun saat 18.00-dək həyata keçiriləcəkdir.

Müsabiqədə iştirak etmək istəyənlər əlavə məlumatı institutun "Elmi-texniki informasiyalar və doktorantura" şöbəsindən ala bilərlər.
Əlaqə telefonu: 012-496-37-60 (215).
İnstitutun ünvanı: Bakı şəhəri, Füzuli küçəsi 65.


# Lerik Bələdiyyəsi ölkədə 3-cü olub



**Lerik şəhərinin girəcəyindən əsrarəngiz, möhtəşəm bir panoram açılır. Dərin dərələr, sıldırım qayalar, uca dağlar dörd tərəfdən şəhəri əhatəyə alıb. Yaraşıqlı fərdi evlər və hündür binalar mişar dişından tikildiyindən, dağların qoynuna sığındığından Lerik "dağların ağ şəhəri" adlanır.**

Rayon mərkəzinə aparan yolun solunda əkilmiş akasiya və bəzək ağacları, yeni salınmış yaşıllıqlar, səliqə-sahman göz oxşayır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin əzəmətli abidəsi ucaldılmış mərkəzi meydan müasir üslubu, milli koloriti, möhtəşəmliyi ilə seçilir. Son illər uca dağlar qoynuna sığınan qədim Lerik şəhəri dövlətimizin diqqət və qayğısı, yerli icra strukturlarının onlara tapşırılan vəzifələrə məsuliyyətlə yanaşmaları, eləcə də şəhər sakinlərinin fədakarlığı sayəsində xeyli gözəlləşib.

Lerikin abadlaşması, müasirləşməsində şəhər bələdiyyəsinin də əməyi az deyil. **Lerik Bələdiyyəsinin sədri Ceyhun Zahidov** gəncdir, cəmi 32 yaşı var, amma çox bacarıqlı və işgüzardır. Bələdiyyə sədri ilə abadlıq işləri zamanı görüşürük. "Lerik son illər gözəlləşib", - deyirəm. Cavab belə olur:

– Gördüyünüz bütün quruculuq işlərinin, yeniliklərin müəllifi dövlət başçısıdır. Prezident İlham Əliyevin regionların inkişafı ilə bağlı uğurla həyata keçirdiyi siyasət nəticəsində ölkəmizin hər yerində sürətli inkişaf və tərəqqinin şahidi oluruq.

O ki qaldı bizim Lerikə, bura, həqiqətən, insan əllərinin qüdrəti ilə abadlaşır, müasir şəhərə çevrilir. Şəhərin gözəlləşməsinə, sakinləri narahat edən sosial problemlərin həllinə rayonun icra strukturları ilə yanaşı, Lerik bələdiyyəsi də öz töhfəsini verməyə çalışır.

Ceyhun Zahidov gördüyü işlərdən danışmağı o qədər də sevmir. "Borcumuzdur, seçicilər böyük etimad göstəriblər, biz də bu etimadı doğrultmalıyıq", - deyir. Əsas məsələ odur ki, Lerik sakinləri yeni bələdiyyə sədrinin fəaliyyətindən razıdırlar. **Lerik Dövlət Rəsm Qalereyasının direktoru Mükafat Yaqubov** bildirdi:

– Ceyhun cavan olsa da, fəal və təşəbbüskardır. Onu günün hər vaxtında şəhərdə, sakinlərin arasında görmək olur. Şəhid, imkansız ailələri, qaziləri heç vaxt unutmur. Həmişə yanımızdadır. Şəhidlərin ad və anım günlərində, bayramlarda bələdiyyə üzvləri ilə birlikdə şəhid ailələrinə baş çəkir, dərdlərinə şərik olur, qayğısını əsirgəmir. Şəhid zabit Əliqismət Yaqubovun atası kimi, bütün bunların canlı şahidiyəm.

Bildiyiniz kimi, bu il Lerikdə qış çox sərt keçdi. Bəzi yerlərdə qarın hündürlüyü 1 metrdən çox idi. Lerik Bələdiyyəsi gücləndirilmiş iş rejimində 4 texnika ilə Lerik şəhərinin küçələrini, Cəngəmiran, Pirzəküçə və Hıramo kəndlərinin yollarını qardan təmizlədi. Kəskin hava şəraiti, intensiv yağıntılar zamanı da bələdiyyə operativ tədbirlər gördü.

Lerik Bələdiyyəsi yeni infrastruktur sahələrin yaradılması, rayonun landşaftının qorunması, turizm imkanlarının genişləndirilməsi istiqamətində layihələri dəstəkləyir.

Öyrəndik ki, bələdiyyə diqqətdən kənarda qalmış xeyli sayda əmlakı uçota alıb, vergi ödəyicilərinin sayı da artıb. "SMS" xəbərdarlıq xidməti vasitəsilə ödəyicilər operativ şəkildə məlumatlandırılır, ödənişlər portal vasitəsilə həyata keçirilir. Aparılan fərdi və kütləvi izahat işləri, maarifləndirmə tədbirləri nəticəsində ödəniş intizamı yüksəlib. Yerli vergilərin yığılmasında ciddi irəliləyişə nail olunub. 2024-cü illə müqayisədə ötən il vergi yığımı 7 dəfə artıb. Ölkə üzrə artım nisbətinə görə Lerik Bələdiyyəsi ilk üçlükdə yer alıb.

Cari ilin birinci rübündə də əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 6 dəfə çoxalıb. Yerli büdcənin formalaşması üçün qüvvələr səfərbər edilib.

Bələdiyyənin daxili imkanları hesabına Lerik şəhərinin İ.Yaqubov küçəsindəki 48 mənzilli yaşayış binasının həyətində müasir işıqlandırma sistemi qurulub. Cəngəmiran və Pirzəküçə kəndlərində suötürücü borular yenilənib, Pirzəküçə kəndində məhəlləDaxili yollarda təmir-bərpa işləri görülüb.

Bələdiyyənin ərazisində bayramların, adət-ənənələrin, dini ayinlərin icrası üçün lazımi şərait yaradılıb.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# “Bərdə Broyler” ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

(manatla)

| AKTİVLƏR | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Torpaq, tikili və avadanlıqlar | 630.866,79 | 657,152.91 |
| | **630.866,79** | **657,152.91** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Qısamüddətli debitor borcları | 27,709.03 | 27,709.03 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 44,877,36 | 25,003.23 |
| Dövlət büdcəsindən vergilər üzrə | 1,897,35 | 0.00 |
| | **74.483,80** | **52,712.27** |
| **CƏMİ AKTİVLƏR** | **705.350,59** | **709,865.17** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 247,456.00 | 247,456.00 |
| Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | **198.713,84** | 152,711.04 |
| **CƏMİ KAPİTAL** | **446.169,84** | **400,167.04** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| Uzunmüddətli borclar | 258.475,47 | 308,475.47 |
| | **258.475,47** | **308,475.47** |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Qısamüddətli kreditor borcları | 247,47 | 705.20 |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 457,81 | 517.45 |
| Digər öhdəliklər | - | - |
| | **705,28** | **1,222.65** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **259.180,75** | **309,698.12** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **705.350,59** | **709,865.17** |

**Mənfəət və ya zərər haqqında hesabat**

| | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| **GƏLİRLƏR** | **111.833,96** | **102,508.56** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 14.971,15 | 13,576.94 |
| DSMF | 2.824,52 | 2,608.54 |
| İcarə haqqı | 12.800,00 | 12,800.00 |
| Amortizasiya | 26.286,12 | 27,381.37 |
| Audit xərcləri | 1,000.00 | 1,000.00 |
| Bank xidmətləri üzrə xərclər | 332,57 | 335.18 |
| Torpaq vergisi | 6,200.00 | 6,200.00 |
| Sığorta xərcləri | 330,53 | 298.91 |
| Rabitə xərci | 0.00 | 0.00 |
| Poçt xidməti | 0.00 | 0.00 |
| Notarius xərci | 0.00 | 8.00 |
| Sair cərimə və rüsumlar | - | - |
| Sair xərclər | 740,72 | 838.46 |
| | **65.485,61** | **65,047.40** |
| **MƏNFƏƏT** | **46.348,36** | **37,461.16** |
| Gəlirdən çıxılmayan xərclər | 0.00 | 8.00 |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | **46.348,36** | **37,469.16** |
| Mənfəət vergisi | 2.317,42 | 1,873.46 |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **44.030,94** | **35,595.70** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) |
|---|---|---|
| **01.01.2025 tarixinə qalıq** | **247,456.00** | **152.711,04** |
| Xalis mənfəət / (zərər) | | 46.002,80 |
| **31.12.2025 tarixinə qalıq** | **247,456.00** | **198.713,84** |
| **01.01.2024 tarixinə qalıq** | **247,456.00** | **115,614.20** |
| Xalis mənfəət / (zərər) | | 37,096.84 |
| **31.12.2024 tarixinə qalıq** | **247,456.00** | **152,711.04** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| Digər gəlirlərdən daxilolmalar | 131.964,02 | 120,960.00 |
| Mallar və xidmətlərə görə xaricolmalar | (43.714,72) | (42,334.54) |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (18.375,17) | (16,724.83) |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | | |
| Digər ödənişlərə görə xaricolmalar | | |
| | **69.874,13** | **61,900.63** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üzrə pul vəsaitlərinin xaricolmaları | | |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | (50,000.00) | (80,000.00) |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | **(50,000.00)** | **(80,000.00)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **19.874,13** | **(18,099.37)** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **25.003,23** | **43,102.60** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **44.877,36** | **25,003.23** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**
**“BƏRDƏ BROYLER” ASC VÖEN 4000536821**

**Biz, “BƏRDƏ BROYLER” ASC-nin** 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar ilə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun olaraq aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda əhəmiyyətli hesab edilir.

**“Audit Consulting 17” MMC-nin direktoru**
**AT/140 06.09.2017**
**Nazim Suxənvər oğlu Cəfərov**
**Bakı, 25 may 2026-cı il**

# “Aqrarkredit” Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının balansındakı bəzi aktivlər üzrə borcların tələb hüquqlarının müsabiqə yolu ilə satışının keçirilməsi barədə

# ELAN

Müsabiqəyə çıxarılan aktivlər üzrə borcların tələb hüquqları barədə məlumat

1. “United Textiles” FZE-nin borcu üzrə tələb hüququ.

Tələb hüququn ilkin satış dəyəri 23 109 412,64 (iyirmi üç milyon bir yüz doqquz min dörd yüz on iki ABŞ dolları 64 sent) ABŞ dolları.

2. "Solid Consulting LTD" Məhdud Məsuliyyətli Cəmiyyətinin borcu üzrə tələb hüququ.

Tələb hüququn ikinci müsabiqə üzrə satış dəyəri 23.000.000,00 (iyirmi üç milyon) manat.

3. “Kavkasis Betoni 2007” Məhdud Məsuliyyətli Cəmiyyətinin borcu üzrə tələb hüququ

Tələb hüququn ikinci müsabiqə üzrə satış dəyəri 14.000.000,00 (on dörd milyon) manat.

Ərizələrin qəbulunun başlanma və bitmə tarixi: 26.05.2026-cı il, saat 10:00 – 19.06.2026-cı il, saat 16:00-dək

Müsabiqə qalibinin müəyyən edilməsi tarixi və saatı: 24.06.2026-cı il, saat 11:00

Müsabiqənin keçirildiyi ünvan: Azərbaycan Respublikası Maliyyə Nazirliyi, AZ-1022 Bakı şəhəri, Nəsimi rayonu, S.Vurğun küçəsi 135

Aktivin parametrləri ilə bağlı sənədlərlə tanış olmaq qaydası və müddəti: 26.05.2026-cı il tarixdən 19.06.2026-cı il tarixədək, həftənin 3 və 5-ci günləri, “Aqrarkredit” QSC-nin baş ofisində, Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125 ünvanında baxılmalıdır.

Əlaqələndirici şəxs: Şahin Seyidov 050-235-99-90
Əhəd Vəhədzadə 050-374-27-27

İddiaçılar qarşısında irəli sürülən şərtlər

1. İddiaçı tərəfindən aktivin elan olunan ilkin satış dəyərinin 0,5% faizi həcmində beh məbləği ödənilməlidir. Müsabiqənin qalibi hər hansı səbəbdən aktivi almaqdan imtina etdiyi halda onun tərəfindən ödənilmiş beh məbləği geri qaytarılmır;

2. İddiaçılar tərəfindən təqdim edilmiş təklifdə aktiv üçün təklif olunan məbləğ aydın şəkildə rəqəm və Azərbaycan dilində sözlə yazılmalı, iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndələri tərəfindən imzalanmalıdır. Sözlə rəqəm arasında fərq aşkar edildikdə, sözlə ifadə olunmuş yazı əsas götürülür. Təklif müsabiqənin keçirilməsi haqqında məlumatda göstərilən müddət ərzində imzalanmış (hüquqi şəxsdirsə möhürlənmiş) qapalı zərfdə “Aqrarkredit” QSC-yə təqdim edilməlidir;

3. Bir iddiaçı müsabiqədə iştirak etmək üçün yalnız bir ərizə verə bilər. İddiaçı Müsabiqə Komissiyasına yazılı bildiriş verməklə ərizələrin qəbulu müddəti bitənədək ərizəsini geri götürə bilər;

4. Müsabiqə günü iddiaçı və ya onun etibarnamə üzrə nümayəndəsi müsabiqədə iştirak etməlidir. Təqdim edilmiş zərflər iddiaçılar və ya onların etibarnamə üzrə nümayəndəsinin iştirakı ilə açılır;

5. Müsabiqə zamanı aktivin start qiymətindən ən yüksək qiymət təklif etmiş iddiaçı müsabiqənin qalibi elan olunur. İddiaçılar tərəfindən təqdim edilmiş təkliflər eyni məbləğ olduqda həmin iddiaçılar aktiv üçün təklif olunan məbləği göstərməklə yenidən təklif təqdim edir. Bu zaman da təklif məbləğləri eyni olduqda proses fərqli təklif olanadək davam etdirilir. Yenidən təklif verməkdən imtina edən iddiaçı müsabiqədə iştirak etmir;

6. Müsabiqənin qalibi aktivin dəyərinin 30 (otuz) bank günü ərzində tam ödənilməsini təmin etmək barədə yazılı zəmanət verməlidir.

Müsabiqədə iştirak etmək üçün tələb olunan sənədlər

1. İddiaçının ərizəsi (Ərizə forması “Aqrarkredit” QSC tərəfindən veriləcək);
2. İddiaçının şəxsiyyətini təsdiq edən sənəd;
3. Təklif olunan qiymət (bağlı zərfdə rəqəmlə və sözlə göstərilməklə);
4. İddiaçı tərəfindən ödənilmiş beh məbləğini təsdiq edən qəbz;
5. Etibarnamə (nümayəndə iştirak etdikdə);

Qeyd: İddiaçı hüquqi şəxs olduqda-(Dövlət qeydiyyatı haqqında şəhadətnamə, Nizamnamə, Qanuni təmsilçinin və ya nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd (surəti);

Beh ödənilməsi üçün bank rekvizitləri
Kodu: 501587
VÖEN: 1300025711
SWIFT BIC: ACJTAZ22
Ünvan: Bakı şəhəri, AZ 1006 Qədirli küçəsi 125
M/H Mərkəzi Bankda: AZ45NABZ 01350 1000 000 000 35944
H/H: AZ67ACJT45019192794010094401

# “AZİNTERSERVİS” ASC səhmdarlarının nəzərinə!

“AZİNTERSERVİS” ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı 1 iyul 2026-cı il saat 12.00-da Bakı şəhəri, Nizami rayonu, Məhsəti Gəncəvi küçəsi 141 nömrəli ünvanda (“Amazon” restoranının zalında) keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. Cəmiyyətin adının dəyişdirilməsi.
2. Yeni sədrin təyin edilməsi.

Yığıncaqda iştirak üçün səhmdarlar şəxsiyyət vəsiqəsinin surətini, nümayəndələr isə qanunvericiliyə uyğun rəsmiləşdirilmiş QR kodlu etibarnaməni təqdim etməlidirlər.

Qeyd olunan sənədlər təqdim edilmədikdə qeydiyyat və səsvermədə iştirak etibarsız hesab ediləcəkdir.

“AZİNTERSERVİS” ASC-nin idarə heyətinin sədri Quliyev N.T.

# “Cəlilabad Broyler” ASC-nin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatı

(manatla)

| AKTİVLƏR | 31 dekabr 2025-ci il | 31 dekabr 2024-cü il |
|---|---|---|
| ***Uzunmüddətli aktivlər*** | | |
| Tikili və avadanlıqlar | 3.865.880,45 | 2.326.574,42 |
| Qeyri-maddi aktivlər | 124.659,00 | 138.510,00 |
| Kapitallaşdırma üçün aktivlər | 146.221,59 | 3.985.173,31 |
| Digər aktivlər | 2.522.727,48 | - |
| | **6.659.488,52** | **6.450.257,73** |
| ***Qısamüddətli aktivlər*** | | |
| Qısamüddətli debitor borcları | 47.112,24 | 56.315,45 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 197.380,33 | 427.226,13 |
| Dövlət büdcəsindən vergilər üzrə | 127.901,26 | 123.392,33 |
| Ehtiyatlar | - | - |
| | **372.393,83** | **606.933,91** |
| **CƏMİ AKTİVLƏR** | | |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | |
| **KAPİTAL** | | |
| Ödənilmiş nizamnamə kapitalı | 849,238.00 | 849,238.00 |
| Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | - | - |
| Kapital ehtiyatları | 3.734.219,44 | 4.053.941,10 |
| **CƏMİ KAPİTAL** | **4.583.457,44** | **4.903.179,10** |
| **ÖHDƏLİKLƏR** | | |
| ***Uzunmüddətli öhdəliklər*** | | |
| Uzunmüddətli borclar | 2.170.913,62 | 1.920.913,62 |
| Bank kreditləri | - | - |
| Gələcək dövrün gəlirləri | - | - |
| | **2.170.913,62** | **1.920.913,62** |
| ***Qısamüddətli öhdəliklər*** | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | 20.269,03 | 49.641,74 |
| Sair qısamüddətli kreditor borcları | 257.242,26 | 183.457,17 |
| Digər öhdəliklər | - | - |
| | **277.511,29** | **233.098,91** |
| **CƏMİ ÖHDƏLİKLƏR** | **2.448.424,91** | **2.154.012,53** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **7.031.882,35** | **7.057.191,63** |

**Mənfəət və ya zərər haqqında hesabat**

| | 31.12.2025 | 31.12.2024 |
|---|---|---|
| **GƏLİRLƏR** | **129.353,22** | **177.488,38** |
| **XƏRCLƏR** | | |
| Əmək haqqı | 17.954,94 | 16.564,07 |
| DSMF | 3.398,42 | 3.200,57 |
| İcarə haqqı | - | - |
| Amortizasiya | 366.936,87 | 272.838,77 |
| Audit xərcləri | 1.000,00 | 1.000,00 |
| Bank xidmətləri üzrə xərclər | 772,90 | 1.830,42 |
| Torpaq vergisi | 5.592,52 | 5.592,52 |
| Əmlak vergisi | 28.793,67 | 21.878,82 |
| Sığorta xərcləri | 398,70 | 352,83 |
| Təqdim edilmiş əsas vəsaitlərin dəyəri | 10.513,75 | 7.457,95 |
| Sair xərclər | 1.301,67 | 6.200,81 |
| | **436.663,44** | **336.916,77** |
| **ZƏRƏR/MƏNFƏƏT** | **(307.310,23)** | **(159.428,38)** |
| Gəlirdən çıxılmayan xərclər | - | - |
| **VERGİYƏ CƏLB OLUNAN MƏNFƏƏT** | - | - |
| Mənfəət vergisi | - | - |
| **XALİS MƏNFƏƏT / (ZƏRƏR)** | **(307.310,23)** | **(159.428,38)** |

**Kapitalda dəyişikliklər haqqında hesabat**

| | Ödənilmiş nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət / (ödənilməmiş zərər) | Kapital ehtiyatları |
|---|---|---|---|
| **01.01.2025 tarixinə qalıq** | **849,238.00** | - | **4.053.941,10** |
| Xalis mənfəət / (zərər) | | - | **(319.721,66)** |
| **31.12.2025 tarixinə qalıq** | **849,238.00** | - | **3.734.219,44** |
| **01.01.2024 tarixinə qalıq** | **849,238.00** | - | **4.287.930,66** |
| Xalis mənfəət / (zərər) | | - | **(233.989,56)** |
| **31.12.2024 tarixinə qalıq** | **849,238.00** | - | **4.053.941,10** |

**Pul vəsaitlərinin hərəkəti haqqında hesabat**

| **ƏMƏLİYYAT FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ** | **31.12.2025** | **31.12.2024** |
|---|---|---|
| Digər gəlirlərdən daxilolmalar | 161.840,00 | 175.080,85 |
| Mallar və xidmətlərə görə xaricolmalar | (1.731,97) | (22.173,81) |
| İşçilərin mükafatlandırılması üzrə ödənişlər | (21.866,10) | (20.951,80) |
| Vergilərə və sair məcburi ödəmələrə görə xaricolmalar | - | (88.460,48) |
| Digər ödənişlərə görə xaricolmalar | | |
| | **138.241,93** | **43.494,76** |
| ***İNVESTİSİYA FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Torpaq, tikili və avadanlıqların, qeyri-maddi aktivlərin və digər uzunmüddətli aktivlərin əldə edilməsi üzrə pul vəsaitlərinin xaricolmaları | (618.087,73) | (1.539.291,87) |
| | **(618.087,73)** | **(1.539.291,87)** |
| ***MALİYYƏ FƏALİYYƏTİNDƏN PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ*** | | |
| Borc şəklində alınmış vəsaitlər | 250.000,00 | 1.920.913,62 |
| Borc şəklində alınmış vəsaitlərin geri ödənilməsi | - | - |
| | **250.000,00** | **1.920.913,62** |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin artması (azalması)** | **(229.845,80)** | **425.116,51** |
| **Dövrün əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **427.226,13** | **2.109,62** |
| **Dövrün sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **197.380,33** | **427.226,13** |

**MÜSTƏQİL AUDİTORUN RƏYİ**
**“CƏLİLABAD BROYLER” ASC VÖEN 8300060391**

**Biz, “CƏLİLABAD BROYLER” ASC-nin** 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyəti haqqında hesabatdan, məcmu gəlirlər haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatdan və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına edilən qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Bizcə, əlavə edilmiş maliyyə hesabatları cəmiyyətin 2025-ci il dekabrın 31-nə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üzrə pul vəsaitlərinin hərəkətini Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli əks etdirir.

**Rəy üçün əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS-lara) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın “Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti” bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalarla Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının “Etika məcəlləsinin” (IESBA məcəlləsi) tələblərinə uyğun olaraq cəmiyyətdən asılı deyilik və biz digər etik öhdəliklərimizi bu və ya IESBA məcəlləsinin tələblərinə uyğun yerinə yetirmişik. Bizcə, əldə etdiyimiz audit sübutları rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Əsas audit məsələləri**

Əsas audit məsələləri bizim peşəkar mühakiməmizə görə hesabat dövrünün maliyyə hesabatlarının auditində ən əhəmiyyətli məsələlərdir. Bu məsələlər maliyyə hesabatlarının auditi baxımından və maliyyə hesabatlarına dair rəyimizin formalaşdırılmasında bütövlükdə nəzərə alınmış və biz bu məsələlərə dair ayrılıqda rəy vermirik.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Kommersiya Təşkilatları Üçün Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq hazırlanmasına, düzgün təqdim edilməsinə, rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ yaranmadığı halda, rəhbərlik cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər cəmiyyətin maliyyə hesabatlarının verilmə prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kafi əminlik, əminliyin yüksək səviyyəsidir, lakin o zəmanət vermir ki, əhəmiyyətli təhrif mövcud olduqda, BAS-lara uyğun aparılmış audit onu həmişə aşkarlasın. Təhriflər, dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda, yaxud məcmu olaraq, istifadəçilərin təqdim edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmək ehtimalı yarandığı halda, əhəmiyyətli hesab edilir.

**“Audit Consulting 17” MMC-nin direktoru, Nazim Suxənvər oğlu Cəfərov**
**AT/140 06.09.2017, Bakı, 23 may 2025-ci il**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 92 (31061) 26 may 2026-cı il, çərşənbə axşamı

## İDMAN

### Voleybol məşqçiləri üçün beynəlxalq seminar



**Bakıda Beynəlxalq Voleybol Federasiyasının (FIVB) dəstəyi və Azərbaycan Voleybol Federasiyasının (AVF) təşkilatçılığı ilə voleybol məşqçiləri üçün beynəlxalq seminar keçirilir. GİN-in Voleybol Mərkəzində təşkil olunan FIVB Level-2 kursuna dünən start verilib.**

İyunun 5-dək davam edəcək təlim proqramında 65 nəfər iştirak edir və kurs iki qrup şəklində təşkil olunub. Birinci qrup üzrə məşğələlər 25-29 may, ikinci qrup üzrə isə 1-5 iyun tarixlərində keçiriləcək. Təlimlərdə Azərbaycanla yanaşı, Türkiyə, Avstraliya, Kipr, İran, Hindistan, Ukrayna, İsrail və Belarusdan olan məşqçi və mütəxəssislər də iştirak edirlər. Seminarın rəhbəri FIVB məşqçi-instruktoru, professor Cengiz Akarçeşme, onun köməkçisi isə AVF-nin nümayəndəsi Nərgiz İsmayılovadır.

Kurs nəzəri və praktiki hissələrdən ibarətdir. Seminar çərçivəsində iştirakçılara müasir məşq metodikaları, oyun sistemləri, texniki-taktiki hazırlıq və məşq prosesinin düzgün təşkili kimi mövzular tədris olunacaq. Sonda təşkil olunacaq imtahandan uğurla keçən mütəxəssislərə müvafiq sertifikatlar veriləcək.

### U15 güləşçilərimiz Avropa bürüncü qazandılar




**Bolqarıstanın Samokov şəhərində keçirilən U15 Avropa çempionatına yekun vurulub.**

Böyük məşqçi Namiq Quliyev, məşqçilər Elşad Allahverdiyev, Xəqan Süleymanov və Emin Əzizovun rəhbərliyi altında qitə birinciliyində mübarizə aparan sərbəst güləş üzrə millimiz uğurlu çıxışla yadda qalıb.

2 qızıl, 2 gümüş və 2 bürünc medal qazanan yığmamız 122 xal toplayaraq komanda hesabında Rusiya (167) və Gürcüstandan (165) sonra 3-cü yeri tutub. Millimiz medalların əyarına görə isə yalnız Rusiyadan geri qalıb.

Xatırladaq ki, komandamızın tərkibində Yusif Abdullayevlə (38 kq) Elvin Necəfzadə (85 kq) qızıl, Elman İsmayılovla (41 kq) Adəm Quliyev (52 kq) gümüş, Məhəmməd Kərimov (44 kq) və Yusif Hüseynov (62 kq) isə bürünc medal qazanıb.

### Qılıncoynadanlarımız Dünya Kubokunda 6-cı olub




**Qılıncoynatma üzrə Azərbaycan millisi Perunun paytaxtı Limada keçirilmiş Dünya Kubokunda iştirak edib. Anna Başta, Səbinə Kərimova, Palina Kaspiaroviç və Zərifə Hüseynovadan ibarət yığma komanda 24 ölkə arasında 6-cı olub.**

İlk görüşdə Kolumbiya yığmasına 45:27 hesabı ilə qalib gələn sablyaçılar ən güclü "8-liy"ə yüksəlmək uğrunda keçirilən qarşılaşmada turnirin reytinq favoritlərindən sayılan Yaponiya kollektivini 45:39 hesabı ilə məğlub edib.

Bürünc medalın bir addımlığında olan milli yarımfinal uğrunda qarşılaşmada Polşa sablyaçıları ilə üz-üzə gəlib. Görüş rəqibin 45:44 hesablı qələbəsi ilə başa çatıb.

Komanda 5-8-ci yerlər uğrunda keçirilən görüşlərdə Koreya yığmasını 45:41 hesabı ilə məğlub edib, İtaliya kollektivinə 42:45 hesabı ilə uduzub.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Milli memarlıq irsimiz

# Qala – dünənimizi yaşadan daş salnamə

## *Qoruq qəsəbə orta əsr şəhərsalma tariximizin canlı bələdçisidir*

**Bakının Xəzər rayonunda yerləşən Qala qəsəbəsi təkcə coğrafi mövqeyi ilə deyil, həm də zəngin tarixi, mədəni irsi və bənzərsiz ekoloji mühiti ilə seçilən nadir yaşayış məntəqələrindən biridir. Qədim qala divarları, daş memarlığı, insanlarının həyat tərzi bu ərazini tədqiqatçılar, turistlər, yerli sakinlər üçün unikal və cazibədar edir.**



Qala qəsəbəsinin adı ilk dəfə yazılı mənbələrdə orta əsrlərə aid edilir. Lakin arxeoloji qazıntılar bu ərazidə insan məskənlərinin tarixinin daha qədim dövrlərə–hətta eramızdan əvvəl III minilliyə qədər getdiyini göstərir. Qəsəbənin adı onun ərazisindəki müdafiə qalalarına istinadən yaranıb. Tarixçilərin fikrincə, Qala ərazisindəki daş qala və bürclər, həm müdafiə məqsədilə, həm də su yollarını nəzarətdə saxlamaq üçün tikilib. Qalanın özünəməxsus ruhu və əzəməti onu unikal edən əsas xüsusiyyətlərdəndir.



Həmsöhbətim **tarix elmləri doktoru Vəfa Quliyeva** bildirir ki, Qalada arxeoloji qazıntılar zamanı aşkarlanan ən qədim abidə eramızdan əvvəl III minilliyə aid olan qədim yaşayış yeridir. Qeyd etmək lazımdır ki, burada yerləşən abidələrin tarixi eramızdan əvvəl III minillikdən XX əsrə kimi geniş xronologiyanı əhatə edir. Qala qoruğu ərazisində aparılan arxeoloji tədqiqatlar və aşkar olunan maddi-mədəniyyət nümunələri Qalanın tarixini Tunc dövrünə aparır. Burada yerləşən Qalanın cənubunda arxeoloji qazıntılar zamanı aşkarlanmış maddi-mədəniyyət nümunələri burada tunc dövründə qədim yaşayış məskəninin mövcud olduğu haqqında məlumat verir. Bu tapıntılar Abşeron kəndlərinin, o cümlədən Qalanın daha qədim yaşayış məskəni olduğu fikrini deməyə əsas verir. XIII-XIV əsr mədəni təbəqəsindən aşkarlanan şirli və şirsiz qabların qalıqları, Qalanın bu tarixi dönəmdə mədəni-iqtisadi çiçəklənmə dövrü yaşadığını sübuta yetirir. Tarixi, arxeoloji materiallar həm də qədim ticarət mərkəzlərindən biri olduğunu təsdiqləyir.

Abşeronun qoynunda, açıq səma altında bir muzey kimi fəaliyyət göstərən Qala Dövlət Tarix-Etnoqrafiya Qoruğu qədim və orta əsrlər dövrünə aid zəngin mədəni irsi yüzilliklərdir ki, qoruyub saxlayır. Qoruq 81,5 hektar ərazidə yerləşir. Burada 227 memarlıq və arxeoloji abidə var. Bunlardan 11-i ölkə əhəmiyyətli memarlıq abidəsi, 6-sı ölkə əhəmiyyətli arxeoloji, 210-u yerli əhəmiyyətli memarlıq abidəsidir. Qoruqda 5 məscid, 3 hamam, 4 ovdan, yeraltı kəhrizlər, yaşayış evləri, kənd təsərrüfatı təyinatlı binalar, zəngin abidələrə malik qəbiristanlıq, qəsrin qalıqları qorunub saxlanılmaqdadır. Bu abidələrin hər biri zəngin tarixi məlumat daşıyıcılarıdır və Qalanın tarixi, mədəniyyəti, həyat tərzi haqqında ətraflı məlumat verən dəyərli mədəni irsdir. Qalanın özəlliyi ondan ibarətdir ki, orta əsr şəhərsalma nümunəsi kimi bu günə qədər o xüsusiyyətlərini özündə qoruyub saxlayır.

V.Quliyeva qeyd edir ki, 2008-ci ildən açıq səma altında Qala Arxeoloji Etnoqrafik Muzey Kompleksi yaradılıb. Kompleksin ərazisində Abşeron yarımadasında aşkar edilən arxeoloji, memarlıq abidələri toplanılıb və bərpa olunub. Ərazisi 1,2 hektar olan muzey kompleksində Azərbaycanın tarixi incilərini seyr etmək və daha yaxşı anlamaq üçün əlverişli şərait var. Qədimdə bu kənddə bir sıra sənət sahələri inkişaf edib. Onlardan biri dulusçuluq olub. Azərbaycanda dulusçuluq ənənələrində iki növ dulusçu çarxı vardı–əl çarxı və ayaq çarxı. Dulusçunun əsas aləti daraq, dulusçu bıçağı, sim, bel və s. idi. Həmin emalatxananın biri məhz kompleksdə yaradılıb. Eləcə də ağacdan asılmış nehrə, nalbəndin "iş otağı", qədim hanalar, xalça toxunuşu zamanı istifadə olunan alətlər–həvə, kirgit, qayçı, qarmaqlı bıçaq diqqət çəkir. Burada aşkarlanmış qədim evlərin hamısının yanında at-dəvə bağlamağa halqalı daş var. Eləcə də Şor gölün ətrafında tapılmış müxtəlif ölçülü dəyirman daşları da kompleksin dəyərli eksponatlarındandır.

Maraq doğuran qədim abidələrdən biri də qavaldaşıdır. Quru yüngül bir daşla qaya üzərinə toxunan kimi maraqlı səslər, qəribə bir zümzümə ətrafa yayılır. Maraqlıdır ki, Qobustan qayalıqlarında eradan əvvəlki dövrə təsadüf edilən qayaüstü təsvirlər, yeni daş Tunc dövrünə aid mağaralar Abşeronun şərqində Qala kəndi yaxınlığında Ağdaş düzü, Xaşaxuna və Dübəndi ərazisindəki arxeoloji qazıntılar zamanı da üzə çıxıb. Ən qədim yaşayış formalarından biri də "samanlıq" lar idi. Onlardan 2500-3000 il bundan əvvəl qədim yaşayış məskəni kimi istifadə edilib. Abşeronda meşə olmadığından bu cür yaşayış məskənləri əhəng daşından tikilib. Sonradan cəmiyyət inkişaf etdikcə samanlıqlardan tövlə, bəzən də taxıl anbarı kimi istifadə olunmağa başlayıb.

Kompleksin darvazalarından tutmuş ən son nöqtəsinə, eləcə də hasarına qədər hər bir elementdə, eksponatda diqqətçəkən əşyalarda bir qədimlik əks olunur. Müxtəlif mis qablar, dəridən hazırlanmış məişət əşyaları, evlərin döşəməsi, pilləkənlərin forması, eyvanlar, faytonlar, küplər, saxsı qablar, keramik əşyalar, araba, araba təkərləri, su quyuları, bir sözlə, burada nə varsa, hamısı qədim dünyanın bəxşişləridir. Muzeyi gəzərkən diqqəti həm də qayaüstü təsvirlərdə nöqtəli, həndəsi, xonça görünüşlü nişanlar çəkir. Bundan əlavə, eramızdan əvvəl III minilliyin II yarısı – II minilliyin I yarısına qədərki dövrü əhatə edən qədim kurqanlar, qəbir daşları, yaşayış məskənləri, ibadət yerləri və bir sıra digər maddi-mədəniyyət nümunələrini görmək olar.

Müsahibim vurğulayır ki, Abşeron yarımadasında tapılmış, eramızdan əvvəl III-II minilliklərdən başlayaraq eramızın orta əsrlərinə qədərki tarixi əhatə edən qayaüstü rəsmlər öz mövzu və süjetlərinə görə çox rəngarəngdir. Yarımadanın şərq hissəsinə aid olan ibadət mərkəzlərindən biri olmuş Bəndüstü abidəsində müqəddəs nigah əfsanəsi, heyvanların qurban verilməsi təsvirləri vardır. Abşeron ərazisində eramızdan əvvəl III-II minilliyə aid bir sıra kurqanlar da vardır. Kompleksin ərazisində nümayiş olunan kurqanlardan biri "Dübəndi kurqanı" adlanır.



Qalanın su təchizatı sistemi də mükəmməl olub. Kənd əhalisinin su tələbatı ovdanlar, içməli su quyuları və kəhriz sistemi vasitəsilə ödənilirdi. Qala kəhriz sisteminə 17 içməli su quyusu daxil idi. Onlar biri-birindən 50 metrlik məsafədə qazılıb və su yeraltı saxsı borular vasitəsilə su anbarlarına toplanıb istifadə olunurmuş.

Qalada qədim nağıllar, dastanlar, bayatılar və mərasim folkloru nəsildən-nəslə ötürülür. Xüsusilə Novruz, toy və yas mərasimlərində yaşadılan adət-ənənələr öz orijinallığını qorumaqdadır.

*Müşfiq MİRZƏ*
*XQ*

## HAVA

# Aranda yağış və dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı proqnozlaşdırılır. Gündüz bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi axşam cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 16-18, gündüz 22-27 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 55-65 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi, şimşək çaxacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 14-18, gündüz 23-28, dağlarda gecə 4-9, gündüz 12-17, bəzi yerlərdə 20-23 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

# İnsan nə qədər yatmalıdır?



**500 mindən çox insanın iştirak etdiyi genişmiqyaslı araşdırma göstərib ki, insan üçün optimal yuxu müddəti sutkada 6–8 saatdır. Bu müddət erkən ölüm və müxtəlif xəstəliklərin yaranma ehtimalını azaldır.**

Neyrobioloq Tsyunhao Venin rəhbərliyi ilə aparılan analiz Britaniya Biobankının iştirakçıları üzərində həyata keçirilib. Buna görə də onun nəticələri digər əhali qrupları üçün tam keçərli olmaya bilər. Bundan əlavə, səbəb–nəticə əlaqələrini dəqiq müəyyən etmək mümkün deyil: yuxunun müddəti iştirakçıların qocalmasına və sağlamlığına birbaşa təsir edib, yoxsa qocalma və sağlamlıq problemləri onların yuxu rejimini pozub?

Ümumilikdə, əldə olunan məlumatlar yuxunun təkcə beyinə deyil, həm də bütün orqanizmə necə təsir etdiyi barədə aydın təsəvvür yaradır.

*S.ELAY*
*XQ*

*✓ Azərbaycan Respublikası Milli Məclisinin İşlər İdarəsi tərəfindən Boçarov Ruslan Roman oğluna verilmiş IX-123/ii nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.*

*✓ Xaçmaz rayonunun Qımıl qışlaq kənd sakini Şərifov Nurlan Tofiq oğlunun adına verilmiş 0730736 nömrəli hərbi bilet itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3214
SİFARİŞ 683
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV
Çapa imzalanmışdır 00:00